# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 274 (9729) 12 dekabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

## Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar

### Prezident İlham Əliyev Amerika İsrail İctimai Əlaqələr Komitəsinin prezidentini və yeni seçilmiş prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırladılar. Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür etdilər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Maykl Tuçin və Bernard Kaminetski həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.

Dövlətimizin başçısı da öz növbəsində qeyd etdi ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik ab-hava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar eyni zamanda Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.

Dövlətimizin başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İstiqlalın bayraqdarı



**Anım günündə görkəmli dövlət və siyasi xadim, Ulu Öndər Heydər Əliyevin fəaliyyətinə bir daha nəzər yetirmək praktik siyasət, tarixi, elmi-nəzəri baxımdan əhəmiyyətlidir.**

Yaşadığı dövrdən uzaqlaşdıqca ucalığı daha aydın görünən, Azərbaycanın müstəqil dövlət kimi inkişafına, güclü ölkə, xalqının isə yüksək rifahına çalışan Heydər Əliyevin fəaliyyətinə dair dərin elmi-tədqiqat işlərinin aparılmasına və əsərlərin yazılmasına daim ehtiyac duyulur. Azərbaycan milləti və dövləti var olduqca dövlət müstəqilliyimizin əsaslarının formalaşdırılması və qorunub saxlanılmasında Heydər Əliyevin böyük fəaliyyətinin araşdırılması həmişə aktual olacaqdır.

Konkret məkan və zaman daxilində fəaliyyət göstərdiyindən tarixi şəxsiyyətlərə özündən sonra gələnlərlə deyil, əvvəlkilərlə müqayisədə qiymət verilir. Ancaq yaşadığı zamandan uca olanlar, millətinin inkişaf yolunu əvvəlcədən bir neçə on illər və bəzən də yüz illər sonra üçün müəyyənləşdirənlər, ömrünü xalqın tərəqqisi üçün başlıca şərt olan dövlətinin qüdrətlənməsi işinə həsr edənlər dahilər olurlar. Sonrakı bütün dövrlərdə hakimiyyətə gələn şəxslər xalqını və dövlətini daha da güclü etmək üçün onların dövlətçilik irsinə və təcrübəsinə müraciət edirlər, şəraitə uyğun olaraq ondan yararlanırlar.

Heydər Əliyevin dövlətçilik irsinə diqqət yetirmək tariximizi, keçilən yolu doğru bilmək, düzgün qiymətləndirmək və nəticələr çıxarmaq baxımından əhəmiyyətlidir. Çətin şəraitdə Heydər Əliyevin gördüyü nəhəng işlərin mahiyyətini bilməkdən ötrü ilk növbədə XX əsr Azərbaycan dövlətçiliyi tarixinə qısa nəzər yetirməkdə və müqayisələr aparmaqda fayda vardır.

### Müstəqilliyin kökləri

Qədim və zəngin keçmişi olan Azərbaycan xalqının dövlətçilik tarixinin parlaq səhifələrindən biri 1918-ci ilin may ayında müsəlman dünyasında bir ilkə imza ataraq respublika idarə üsulunda yaratdığı Azərbaycan Xalq Cümhuriyyətidir. O dövrün çətin və mürəkkəb şəraitinə baxmayaraq, qısa müddətdə dövlət və hökumət qurumları təşkil edildi. Cümhuriyyət coğrafi baxımdan Azərbaycan ərazilərinin yalnız bir hissəsində elan edilsə də, təsiri və mahiyyəti nöqteyi-nəzərdən daha dərin və geniş idi. Azərbaycan xalqı respublika məfkurəsini, idarə üsulunu ilk dəfə Müsəlman Şərqinə gətirdi. Müstəmləkə zülmü altında inləyən müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərdi, onlara nümunə oldu. Böyük dövlətlər tərəfindən dövlət müstəqilliyinin de-fakto tanınması Azərbaycan xalqının iradəsinə, müstəqillik arzularının gerçəkləşməsinə hörmətin ifadəsi idi. Cümhuriyyət Azərbaycan tarixinin ilk respublikası oldu.

Ancaq Cümhuriyyət uzun müddət yaşaya bilmədi. Müstəqil dövləti qorumaq üçün beynəlxalq şərait əlverişli deyildi. Azərbaycan bolşeviklərin işğalına məruz qaldı. İşğal nəticəsində milli dövlət süquta uğradı. Onun yerində Azərbaycan Sovet Sosialist Respublikası quruldu. Bu, formal müstəqillik olsa da Azərbaycanda qurulan ikinci respublika idi. Mərkəzi sovet hakimiyyətinin hökmü ilə hərəkət edən hökumət müstəqil dövlətçiliyin atributlarını sürətlə sıradan çıxarmağa başladı. Azərbaycan SSR-in 1922-ci ildə qurulan SSRİ-nin tərkibinə daxil edilməsi ilə nisbi müstəqilliyə də son qoyuldu.

Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında intriqalar, mərkəzə şikayət dolu məktubların göndərilməsi, Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclaslarında "Bakı işi" adı altında müzakirə edilən məsələlər respublikamıza olan mənfi münasibəti daha da artırırdı.

Azərbaycan 1920, 30, 40-cı illərdə və 50-ci illərin əvvəllərinədək həyata keçirilən sərt sovet idarəçiliyindən, inzibati amirlikdən çox əziyyət çəkdi. Sovet dövlət quruculuğu adı altında müstəqil dövlətin atributları ləğv edildi. Vahid sovet iqtisadiyyatı yaratmaq üçün Azərbaycanın təbii sərvətləri amansızlıqla talan edilərək ittifaq mərkəzinə daşındı. Sovet mədəniyyəti yaratmaq adı altında milli ədəbiyyat, milli ruhlu ziyalıların, demək olar ki, hamısı məhv edildi və ya təqiblərə, repressiyalara məruz qaldılar. Azərbaycan xalqı ağır itkilər verdi.

→ 3

## Xalqının qəlbində yaşayan şəxsiyyət

Heydər Əliyevin həyata keçirdiyi heyrətamiz quruculuq işləri, onun yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt ittifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə işlədiyi müddətdə ittifaqda mövcud olan ən problemli sahələrin həlli məsələləri ilə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi.

→ 4

## Heydər Əliyevin milli yaddaş siyasəti

Prezident İlham Əliyev türk dünyasının inkişaf perspektivlərindən danışarkən Azərbaycan reallığını, daha dəqiq desək, Azərbaycanda bu gün baş verən hadisələri əsas, həlledici və taleyüklü faktor kimi önə sürür. Dövlətimizin başçısının yanaşmasının gücü, inandırıcılığı ondadır ki, o, hər hansı bir fakta Ulu Öndər Heydər Əliyev məktəbinin təcrübəsindən irəli gəlməklə, məhz tarixin gözü ilə baxır. Bu cəhətdən, cənab Prezident ermənilərin Azərbaycan torpaqlarına olan təcavüzünə, işğalçılıq fəaliyyətinə geniş tarixi-diaxron proseslər səviyyəsində yanaşaraq, bütün bu məsələlərin heç də lokal problem, başqa sözlə, yalnız Cənubi Qafqaz arealı ilə məhdudlaşan konflikt olmadığını, bu konfliktin onu yaradanların etnopsixoloji düşüncəsi ilə bağlı olması səbəbindən bütün türk dünyasına aid olduğunu hər zaman vurğulamaqdadır.

→ 5

# "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma"nın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. 2024-cü il avqustun 1-də Bakı şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (AÇG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Ekvinor Abşeron AS, Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., MOL Azərbaycan, Ltd., ONGC Videş Limited, Türkiye Petrolleri A.O. arasında imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma" (bundan sonra - İkinci Qoşma) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. İkinci Qoşmanın əsas mətninə edilmiş iki (2) Əlavə Bölmə (bundan sonra - Əlavələr) qəbul və təsdiq edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Bu Qanun qüvvəyə mindikdən sonra İkinci Qoşma və Əlavələr Qanun olurlar. İkinci Qoşmada konkret surətdə başqa hallar göstərilməyibsə, İkinci Qoşma və Əlavələr İkinci Qoşmanın qüvvədə olduğu müddət ərzində İkinci Qoşmaya və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

4. Bu Qanun qüvvəyə mindiyi tarixdən İkinci Qoşma və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Podratçı tərəflərə İkinci Qoşmada və Əlavələrdə nəzərdə tutulan sərbəst təbii qaz kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquq varislərinin) İkinci Qoşma və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

6. İkinci Qoşmadan irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Podratçı tərəflərə bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

7. İkinci Qoşmaya və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər və dəyişikliklər yalnız bu Qanunun 1-ci maddəsində qeyd olunmuş Sazişin tərəflərinin yazılı razılığı ilə edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# Baş nazir Əli Əsədov Moskvada işgüzar səfərdədir



Dekabrın 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası hökumətinin sədri Mixail Mişustinin dəvəti ilə MDB-nin Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün işgüzar səfərlə Moskva şəhərinə gedib.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

# Azərbaycanın və Türkiyənin XİN rəhbərləri regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər

**Dekabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, postmünaqişə dövründə bölgədə, Yaxın Şərqdə, xüsusilə Suriyada mövcud vəziyyət, habelə digər regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Tərəflər ATƏT-in Nazirlər Şurasının Maltada keçirilən 31-ci iclası çərçivəsində aparılan danışıqlar və müzakirələr ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov təcrübəli türk diplomatı olan Feridun Sinirlioğlunun ATƏT Nazirlər Şurasının 31-ci iclası çərçivəsində təşkilatın Baş katibi kimi yüksək vəzifəyə təyinatı münasibətilə Türkiyə tərəfini təbrik edib, bu nailiyyətin tərəfimizdən böyük sevinclə qarşılandığını diqqətə çatdırıb. ATƏT-in Baş katibi F.Sinirlioğluna məsuliyyətli fəaliyyətində uğurlar arzulanıb.

Eyni zamanda Azərbaycanın Suriyanın ərazi bütövlüyünə və suverenliyinə dəstəyi, habelə yaranmış böhranlı vəziyyətin tezliklə Suriya xalqının maraq və iradəsinə əsaslanan həllini tapmasına dair ümidvarlıq ifadə olunub.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla TÜRKSOY arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli dekabrın 11-də ölkəmizdə səfərdə olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibi Sultan Raev ilə görüşüb.**



Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə A.Kərimli Azərbaycan-TÜRKSOY əməkdaşlığının ildən-ilə inkişaf etdiyini, ölkəmizin bu qurumla əlaqələrə böyük əhəmiyyət verdiyini bildirib.

Söhbət zamanı təşkilatın cari ildəki fəaliyyətinə nəzər salınıb, həyata keçirilən çoxsaylı birgə uğurlu layihələrdən məmnunluq ifadə olunub.

Görüşdə 2025-ci ildə nəzərdə tutulan layihələr barədə fikir mübadiləsi aparılıb. Gələn il II Türk Dünyası Mədəniyyət Forumunun keçirilməsinin əhəmiyyəti qeyd edilib. 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirən Şuşa şəhərində keçirilən ilk forum (13-14 oktyabr) qardaş xalqlar arasında mədəni əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından diqqətəlayiq layihə kimi dəyərləndirilib.

Bundan əlavə, kinematoqrafiya sahəsində əməkdaşlığın genişləndirilməsi, xüsusilə müştərək animasiya filmlərinin çəkilməsinin önəmi vurğulanıb. Monqolustan Respublikasının TÜRKSOY-a müşahidəçi üzv kimi qəbul olunması məsələsi ətrafında da fikir mübadiləsi aparılıb.

# Bakı Təşəbbüs Qrupu Papa Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb

**Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Roma Papası Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir:**




*"Zati-müqəddəsləri, Sülh, ədalət və bütün xalqların ləyaqətinə daim göstərdiyiniz sarsılmaz dəstəyinizi yüksək qiymətləndirərək, dərin minnətdarlıq hissi ilə bu məktubu Sizə ünvanlamaqdan qürur duyuram.*

*Mən 2023-cü ilin iyul ayında Bakıda keçirilmiş Qoşulmama Hərəkatının (QH) Koordinasiya Bürosunun nazirlər toplantısı çərçivəsində təsis edilmiş beynəlxalq qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru kimi sizə bu məktubu yazmaq şərəfinə nail olmuşam. Qeyd etmək istərdim ki, təşkilatın əsas məqsədi dekolonizasiya proseslərini dəstəkləmək, müstəmləkəçilik və müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaqdır.*

*Qoşulmama Hərəkatının nizamnaməsində təsisçilər tərəfindən qeyd edilir: "Xalqların xarici əsarətə, hökmranlığa və istismara məruz qalması əsas insan hüquqlarının pozulmasıdır, BMT Nizamnaməsinə ziddir və tez bir zamanda aradan qaldırılmalı olan bir şərdir".*

*BTQ hələ də müstəmləkəçilikdən əziyyət çəkən ölkə və ərazilərdən olan müstəqillik tərəfdarlarının siyasi partiya və hərəkatlarından nümayəndələri bir araya gətirən beynəlxalq platformadır. Lakin bəşər tarixinə damğasını vurmuş saysız-hesabsız fəlakətlər arasında müstəmləkəçiliyin XXI əsrdə də dini, etnik, coğrafi və mədəni sərhədləri aşaraq davam etdiyini müşahidə etmək dərin məyusluq doğurur.*

*BTQ-nin Qoşulmama Hərəkatı çərçivəsində yaradılması təsadüfi hadisə deyil. Əksinə, bu, 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə və hazırda Qoşulmama Hərəkatı "Troyka"sının üzvü olaraq Azərbaycanın fəal iştirak və töhfəsinin məntiqi davamıdır.*

*Beynəlxalq hüquqa əsaslanan fəaliyyəti nəticəsində BTQ BMT qərargahları daxil olmaqla, dünyanın müxtəlif ölkələrində təxminən 20-yə yaxın beynəlxalq konfrans təşkil edib.*

*Noyabrın 11-dən 22-dək Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BTQ öz fəallığı ilə xüsusi seçilmişdir. Müasir dünyada müstəmləkəçilik və neomüstəmləkəçilik təcrübələrini qınayan təxminən 10 tədbir təşkil edilmişdir. Tədbirlərdə Korsika, Kanaki (Yeni Kaledoniya), Martinika, Fransız Qvianası, Qvadelupa, Boneyr, Sent-Martin və Mayotdan olan nümayəndələrin iştirakı böyük töhfə vermişdir.*

*Sizin dekolonizasiya prosesinə göstərdiyiniz diqqət beynəlxalq ictimaiyyətə məlumdur. Martın 30-31-də Vatikan şəhərində keçirilmiş "Müstəmləkəçilik, dekolonizasiya və yeni müstəmləkəçilik: Sosial ədalət və ümumi rifah perspektivi" adlı forumda söylədiyiniz sözlər çox təsirli idi: "Xalqların güc vasitəsilə və ya mədəni və siyasi nüfuzla əsarət altına alınması və istismarı cinayətdir".*

*Zati-müqəddəsləri, dekabrın 15-də Korsikaya planlaşdırdığınız səfəriniz barədə bu yaxınlarda xəbər tutdum. Kardinal Fransua-Xavier Bustillonun dediyi kimi, "Korsika katolik dini ənənəsini qoruyub saxlamış bir torpaqdır", bu xalq müasir idarəetmə dinamikaları qarşısında öz unikal kimliyini, mədəniyyətini və dəyərlərini qorumaq üçün uzun müddətdir mübarizə aparmaqda davam edir.*

*Korsikanın tarixi onun dilində, adət-ənənələrində və fərqli irsində təcəssüm olunan mədəni zənginliklərlə doludur. Lakin xarici hökmranlıq çox vaxt xalqın öz milli kimliyini və suverenliyini qoruyub saxlamaq səylərinə maneə törədir. Bu yaxınlarda Korsika xalqı hətta Korsika Assambleyasına adanın müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil olunmasını tələb edən müraciət də təqdim etmişdir. Bundan başqa, noyabrın 19-da Marsel İnzibati Apellyasiya Məhkəməsinin qadağa qərarından sonra Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum olunmuşdur.*

*Dekolonizasiya təkcə siyasi proses deyil, bu, bütün xalqlar üçün Allahın bəxş etdiyi ədalətin bərpasına doğru əxlaqi və mənəvi bir yoldur.*

*Adaya səfəriniz zamanı Korsikadakı vəziyyəti nəzərə almanızı xahiş edirəm. İnanıram ki, Sizin varlığınız təkcə Korsika xalqına deyil, həm də müstəmləkəçilikdən əziyyət çəkən bütün xalqlara ümid işığı olacaqdır.*

*Kilsəyə rəhbərlik etdiyiniz bu çətin dövrlərdə Allahın hikməti və lütfü sizinlə olsun".*

# Aqrar sektor: növbəti illər məhsul istehsalının dinamik artımı proqnozlaşdırılır

**Bəşəriyyət zaman-zaman müxtəlif problemlərlə qarşılaşır, insanlar isə onu həll etmək üçün yollar axtarır. XXI əsrdə qarşılaşdığımız bu cür problemlərdən biri də ərzaq çatışmazlığıdır. Belə hal hər bir dövlət üçün milli təhdid sayılır. Elə dünyada ərzaq təhlükəsizliyi anlayışının meydana gəlməsinin səbəbi də budur.**



BMT-nin hesablamalarına görə, hazırda dünyada 270 milyon insan tam aclıq içində yaşayır. Ancaq, belə demək olarsa, yarıac şəraitdə yaşayanlar, yəni gündə bir və ya iki dəfə doymayacaq qədər qidalananların sayı qat-qat çoxdur. Dəhşətdir, deyilmi?

Bəs elm və texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə belə bir problemin yaranmasının səbəbi nədir? Təbii ki, bunun kökündə bir çox obyektiv və subyektiv səbəblər dayanır. Dünyanın nüfuzlu mütəxəssislərinin gəldiyi qənaətə görə, Yer kürəsində əhalinin sürətlə artması, əkin sahələrinin əsrlərlə düzgün istifadə edilməməsi üzündən məhsuldarlığının aşağı düşməsi və iqlim dəyişikliyinin aqrar sektora vurduğu ziyan həmin dəhşətin əsas səbəbləridir. Amma bir reallığı da unutmayaq ki, dünyada Niderland amili var. Kiçik, iqlim şəraitinin əkinçilik üçün əlverişsiz olan bu Şimali Avropa ölkəsi ABŞ-dən sonra dünya bazarlarına ən çox kənd təsərrüfatı məhsulları ixrac edir. Bəs Niderland "möcüzə"si nədir? Sadəcə, bu ölkədə üç amildən səmərəli istifadə olunur - elm, texnologiya və fermerlərin bilik və bacarığından. Məsələn, Niderlandda məşğul olduğu sahə üzrə xüsusi təhsili olmayan fermerə kredit verilmir və güzəştlər edilmir. Yəni hər bir fermerin mükəmməl biliyə sahib olması əsas şərtdir. Ona görə ki, sahə üzrə təhsili olmayan fermer uğur qazana bilməz. Bu fikir orada hamı tərəfindən birmənalı olaraq qəbul edilir və nəticəsi də ortadadır - Nidereland "möcüzə"si.

Azərbaycanda da dövlət aqrar sektorun inkişafında maraqlıdır. Ölkədə həyata keçirilən aqrar islahatlar çərçivəsində fermerlərə geniş güzəştlər olunur. Nəticələri də var. Hazırda bir çox kənd təsərrüfatı məhsullarına olan daxili tələbat yerli istehsal hesabına ödənilir. Son dövrlər xarici ticarətdə kənd təsərrüfatı məhsullarının çəkisi və çeşidi də artıb. Ancaq bunlar kifayət deyil. Biz hələ də bir çox strateji kənd təsərrüfatı məhsullarını, o cümlədən taxılın müəyyən hissəsini idxal edirik.

İndi isə aqrar sektor barədə son məlumatlar: dövlət Statistika Komitəsinin açıqlamasına görə, cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə ümumi dəyəri 11 milyard 407,1 milyon manat olmuşdur. Onun 5 milyard 540,2 milyon manatlığı heyvandarlıq, 5 milyard 866,9 milyon manatlığı bitkiçilik məhsullarının payına düşmüşdür. Ötən ilin eyni dövrü ilə müqayisədə ümumilikdə kənd təsərrüfatı məhsullarının istehsalı 1, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,5, bitkiçilik məhsulları üzrə 0,5 faiz artmışdır.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara görə, aqrar sektorda növbəti il 3,4, 2026-2028-ci illər isə 3,8 faiz artım gözlənilir. Nazirlik bunun hansı tədbirlər sayəsində mümkün olacağını da açıqlayıb. Hesablamalara görə, bu, növbəti illərdə sahənin resurs və xidmətlərlə təminatının, eləcə də potensialının gücləndirilməsi, innovasiyaların tətbiqinin genişləndirilməsi, aqrar sahə üzrə dövlət tənzimlənməsi sisteminin dəyər zənciri üzrə təkmilləşdirilməsi kimi strateji məqsədlər üzrə müəyyən edilən prioritet istiqamətlərin reallaşdırılması (məhsuldarlığın artırılması) hesabına mümkün olacaq. Nazirliyin növbəti il üçün təqdim etdiyi hesabatdan həmçinin görünür ki, aqrar sektorun idarə edilməsinin təkmilləşdirilməsinə, innovativ texnologiyaların tətbiqinə, emal sənayesinin inkişafına və işğaldan azad edilmiş ərazilərdəki kənd təsərrüfatına yararlı torpaqlardan istifadəyə üstünlük veriləcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycanın özü qədər əbədi

# İstiqlalın bayraqdarı



*Əvvəli 1-ci səh.*

Sovet rəhbəri Stalinin ölümündən sonra ölkədə nisbi yumşalma baş versə də, ondan milli məsələlərin həllindən ötrü uğurla istifadə olunmadı. Mərkəz Azərbaycanı cəzalandırmaq yolunu tutdu. Yenə də Siyasi Büro iclaslarında Azərbaycana dair məsələlər müzakirə edildi. Milli ruhlu insanlar sıxışdırıldı, vəzifələrindən uzaqlaşdırıldı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra şərait tədricən dəyişməyə başladı. Sosial-iqtisadi, mədəni və digər sahələrdə geniş işlər həyata keçirildi. Yeni fabrik və zavodların tikilməsi və işə salınması nəticəsində rayonlardan gənclərin gəlməsi ilə çarizm və sovet dövrlərində yadellilərin yerləşdirilməsinə görə milli simasını itirmiş Bakı şəhərinə milli ruh qayıtdı. Ana dilindən geniş istifadə olunmağa başlandı. Azərbaycan xalqının özünə inamı artdı. Xarici ölkələrin tarixçilərinin yazdığı kimi, azərbaycanlılar XX əsrdə iki dəfə Bakıda başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə 1918-ci ilin sentyabr ayında şəhər azad edildikdən sonra; ikinci dəfə isə Heydər Əliyevin hakimiyyətdə olduğu 1970-ci illərdə.

Kommunist ideologiyasının və sovet sisteminin mövcud olmasına baxmayaraq, bu illərdə dövlət müstəqilliyinin maddi təməlləri olan ərazinin qorunmasına, demoqrafik inkişafa, hakimiyyətin güclü olmasına xüsusi diqqət yetirildi. Müstəqillikdən ötrü lazım olan zəruri maddi təməllər sovet sistemi daxilində formalaşdırıldı. Azərbaycan ərazisindən qonşu respublikalara pay verilmədi. Əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması respublikada demoqrafik inkişafa ciddi təsir etdi.

Sovet sistemi şəraitində Azərbaycanı daim didib-parçalayan, xalq haqqında mərkəzdə mənfi rəy yaradan intriqalara Heydər Əliyev son qoydu. Hakimiyyətin qanadları arasında yekdillik yaradıldı. Xalq ilə hakimiyyət arasında birlik quruldu. Güclü hakimiyyət formalaşdırıldı. Bütün ittifaqda rus və digər slavyan xalqlarının nümayəndələri respublikalarda vəzifələrə daha çox gətirildiyi bir zamanda Heydər Əliyev yerli kadrları hazırlamağa və ətrafına toplamağa başladı. Milli kadrların yerləşdirilməsinə üstünlük verdi. Xarici ölkələrin tədqiqatçıları yazırlar ki, Heydər Əliyevin uğurlarından biri yerli kadrları hazırlaması və onlara arxalanması idi.

Dövlət müstəqilliyindən ötrü tələb olunan zəruri mənəvi amillərin formalaşması üçün addımlar atıldı. Azərbaycanın istiqlal fikri azərbaycanlı maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmışdı. Müstəqillik məfkurəsini əsər və düşüncələrində gəzdirdikləri üçün əvvəlki illərdə təqib olunmuş alim, şair, yazıçı və jurnalistlər azad nəfəs almağa başladılar. Milli ruhlu ziyalıları ittifaq mərkəzindən qoruyan Heydər Əliyev bəzən onları ustalıqla yüngülcə tənqid etsə də, az sonra yüksək fəxri adlar və vəzifələr verərək toxunulmaz edirdi. Xarici ölkələrin tədqiqatçıları yazırlar ki, şair və yazıçıların əsərlərində Azərbaycan xalqını düşündürən problemlərin əks olunması ideyası, Cənubi Azərbaycan məsələsi Azərbaycan KP Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin kabinetinin açılmış pəncərələrindən yayılır, ictimai müzakirələrə səbəb olurdu.

Heydər Əliyev xalqın varlığının və müstəqilliyinin vacib amillərindən biri olan Azərbaycan dilinə dair tədqiqatların aparılmasını təşviq edirdi. Azərbaycan tarixində ilk dəfə olaraq həmin sahənin görkəmli alimlərinə dövlət mükafatlarını verirdi. Heydər Əliyev Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin xatirəsini əziz tutur və əbədiləşdirirdi. Sovet dövründə hamının ümumi vətəni hesab edilən SSRİ-nin bir yerindən - uzaq Sibirdən böyük mütəfəkkir, türkçü, turançı Hüseyn Cavidin məzarının Bakıya deyil, doğulduğu Naxçıvana köçürülməsi bir daha göstərdi ki, Heydər Əliyev Azərbaycanın hər bir güşəsini ümumi, kosmopolit vətəndən üstün tutur. Hüseyn Cavidin məzarının köçürülməsi təkcə tarixi ədəbi irsə göstərilən qayğı deyil, şair və yazıçılara qorxmamağa bir işarə idi. Azərbaycan tarixini olduğu kimi yazmağı tarixçilərə tövsiyə edən Heydər Əliyev onlara dövlət mükafatını verirdi. Bütün bu və digər amillər dövlət müstəqilliyi üçün ilkin zəruri şərtlər idi. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonrakı illərdə etdiyi çıxışlarının birində Heydər Əliyev deyirdi: "Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".

### Nə üçün Moskvaya?

1982-ci ilin sonlarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həyat və fəaliyyətinin Moskva dövrü başladı. Türk, müsəlman olan Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə irəli çəkilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olmasının səbəbləri var idi. Bu, bir tərəfdən, onun dövlət idarəçilik bacarığı, yüksək intellektual səviyyəsi, Əfqanıstana SSRİ-nin 100 minlik qoşunla hərbi müdaxilədən sonra müsəlman dünyasında itirilmiş nüfuzunu bərpa etmək niyyətlərindən irəli gəlirdisə, digər tərəfdən, xarici ölkələrdə nəşr edilmiş kitablarda yazıldığı kimi, Azərbaycandan uzaqlaşdırılması, mərkəzdə daha yaxın nəzarət altında saxlanılması ilə əlaqədar idi. Mərkəzdə belə hesab edirdilər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan müstəqilliyə tam hazırlanıb, yalnız onun formal elan edilməsi qalıb. Heydər Əliyevin vəzifədən çıxarılması milli məsələdə ağır nəticələrə gətirə bilərdi. Belə vəziyyətdən Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaqla deyil, Moskvada daha çox nəzarət altında saxlamaqla çıxmaq olardı.

Kommunist ideologiyasının və sovet sisteminin mövcudluğuna baxmayaraq, Heydər Əliyevin Moskvaya işləməyə aparılması Azərbaycan xalqı üçün böyük və qürurverici hadisə idi. O, xarici ölkələrə səfərə gedərkən Azərbaycan mədəniyyətinə dair kitabları aparıb hədiyyə edirdi.

### Vəzifədən çıxmağın Azərbaycan üçün nəticələri

SSRİ rəhbəri seçilən Mixail Qorbaçov türk, müsəlman respublikalarının Leonid Brejnevin hakimiyyəti illərində xeyli irəli getdikləri, dövlət müstəqilliklərini elan etməyə hazır olduqları qənaətinə gəldiyindən onlara etibar etmirdi. Buna görə də sovet rəhbərliyində olan türk dövlət xadimlərinə etinasızlıq göstərərək bir-birinin ardınca vəzifələrindən uzalqlaşdırdı, xalqlarını isə cəzalandırmaq yolunu tutdu. Heydər Əliyev də vəzifələrindən çıxdı. Bundan sonra Azərbaycan ağır günlərə düşdü. Ermənistan əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə kobud şəkildə qarışmağa, SSRİ dağıldıqdan sonra isə açıq hərbi müdaxiləyə başladı. Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar vəhşicəsinə qovularaq, bütün mal və mülklərini itirərək qaçqına çevrildilər. Azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri, qəbiristanlıqlar dağıdıldı. Respublikamızın həmin dövrdəki bacarıqsız rəhbərləri bunların qarşısını ala bilmədi. Azərbaycan böhrana düşdü. Rəhbərlər bir-birinin ardınca dəyişsə də, vəziyyət düzəlmədi.

### Dar gündə xalqının yanında

Ermənistanı dayandırmaq əvəzinə Azərbaycanı cəzalandırmaq yolunu tutan M.Qorbaçovun göstərişi ilə sovet qoşun hissələri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı kütləvi qırğın törətdi. Moskvada təhlükəsizliyinin təmin edilməməsinə və ağır şərtlər altında yaşamasına baxmayaraq, Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycan xalqına qarşı qəddar repressiya aktı olan bu hadisədən dərhal sonra Azərbaycanın daimi nümayəndəliyinə gələrək bəyanat verib 20 Yanvar qətliamını törədənləri ittiham etdi, ən ağır günlərdə xalqının yanında oldu. Azərbaycan rəhbərlərinin və qeyri-formalların qaçıb gizləndikləri bir vaxtda Heydər Əliyevin açıq, birmənalı və konkret mövqeyini ortaya qoyması gələcək siyasi və müstəqil milli dövlətçilik fəaliyyətində zirvəyə aparan yolun başlanğıcı oldu.

20 Yanvardan sonra Azərbaycan xalqı ittifaq mərkəzi ilə yolunun bir olmadığı qənaətinə gəldi. Bu, dönüş anı idi.

### Fəaliyyətin Naxçıvan mərhələsi: müstəqil Azərbaycan dövlətinin təməlinin qoyulması

Moskvada yaşamağın mümkün olmadığını görən Heydər Əliyev Azərbaycana qayıtdı. İttifaq mərkəzindən asılı olan itaətkar respublika rəhbərləri onun Bakıda yaşamasına təminat vermədiklərindən Heydər Əliyev doğulduğu Naxçıvana getdi. Muxtar respublika əhalisi onu hərarətlə qarşıladı. Bir müddət sonra Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Məclisinin deputatı və sədri seçildi. Hələ SSRİ-nin, kommunist ideologiyasının mövcud olmasına baxmayaraq, ağsaqqal deputat kimi Heydər Əliyevin sədrliyi ilə Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiya iclasında sovet dövrünün atributlarından imtina edildi. Naxçıvan MSSR-in adından "Sovet Sosialist" ifadələri çıxarıldı. Ali Sovet Ali Məclis adlandırıldı. Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə olaraq Naxçıvanda rəsmi dövlət bayrağı kimi qəbul edildi. Azərbaycan SSR-in bayrağı salondan aparıldı. Bu, sadəcə, bayraq dəyişdirilməsi məsələsi deyildi. Çünki Sovet İttifaqı və kommunist ideologiyası müstəqilliyin rəmzi olan üçrəngli bayrağın əleyhinə idi. Belə bir addımla əslində müstəqil dövlətin təməli atılırdı. Heydər Əliyev üçrəngli bayrağın qəbul edilməsi ilə kifayətlənmədi. Azərbaycan rəhbərliyinə cümhuriyyətin atributlarını qəbul etmək təklif olundu. Yalnız bundan sonra Bakıda müvafiq qərarlar qəbul edildi. Beləliklə, Naxçıvan müasir, müstəqil Azərbaycan dövlətinin atıldığı yer və onurğa sütunu oldu.

Heydər Əliyevin bəyanat verərək Sov.İKP sıralarını tərk etməsi isə bu ideologiyanın iflasında mühüm rol oynayan amillərdən biri oldu. Minlərlə insan ondan nümunə götürdü.

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sessiya iclasında etdiyi çıxışında bildirdi ki, SSRİ-nin saxlanılmasına dair referendum keçirilməməlidir, Azərbaycan müstəqil dövlət kimi yaşaya bilər. Bu referendum Naxçıvanda keçirilmədi. Azərbaycan dövlət müstəqilliyini bərpa etmək astanasında idi.

### Dövlət müstəqilliyinin bərpa edilməsi və qarşıda dayanan vəzifələr

Hələ SSRİ-nin mövcud olmasına baxmayaraq, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktının qəbul edilməsi müasir Azərbaycan tarixinin mühüm hadisələrindən biri oldu.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında aşağıdakı başlıca vəzifələrin həll edilməsi dayanırdı: ölkəmizin dövlət müstəqilliyini tanıtmaq, qorumaq və möhkəmləndirmək; Ermənistanın təcavüzünü dayandırmaq; planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçmək; ölkənin inkişafının açarını tapmaq; demokratik islahatlar aparmaq və s. Azərbaycan rəhbərləri həmin vəzifələri yerinə yetirə bilmədilər. İşğalçı Ermənistan silahlı qüvvələri Xocalıda bəşəriyyətə və sivilizasiyaya qarşı soyqırımı törətdi. Şuşa şəhəri və digər ərazilər işğal edildi.

"Ermənistanın işğalını dayandırmağın yolu Bakıda hakimiyyətə gəlməkdən keçir" kimi zərərli şüarla 1992-ci ilin may ayında silahlı çevrilişlə hakimiyyətə gələnlər ölkəni daha ağır vəziyyətə saldılar və başlıca vəzifələri yerinə yetirə bilmədilər. Hakimiyyət ilə xalq arasında uçurum dərinləşdi. Xalq rəhbərliyə etimad bəsləmədi. Hakimiyyət qanadları arasında ziddiyyətlər kəskinləşdi. Ağır sosial-iqtisadi şərait yarandı. Xalq çörək dükanları qarşısında uzun növbələrdə gözləməli oldu. Ölkədə xaos və anarxiya baş alıb gedirdi. Yürüdülən uğursuz xarici siyasət düşmənlər qazandırırdı.

Ermənistanın işğalının davam etdiyi bir şəraitdə Gəncədəki hərbi hissədə baş verən qiyamı yatıra bilməyən hakimiyyət proseslər üzərində nəzarəti tamamilə itirdi. Şimalda və cənubda xaricdən dəstəklənən separatçılıq gücləndi. Ölkə parçalanmaq, dövlət müstəqilliyi itirilmək, xalq vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. Bunlar Azərbaycan xalqının həyatında ağır günlər idi. Xalqın mənəvi-psixoloji böhranı baş verdi. Sabaha ümidsizlik, ümumi böhran yarandı. Dövlət idarəçilik bacarığına, zəruri intellektual səviyyəyə malik olmayan, xalqın dəstəyini itirmiş hakimiyyət ölkəni beynəlxalq aləmdə təcridçiliyə gətirdi. Belə şəraitdə vəzifədə oturanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular. Bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Bu, Azərbaycan dövlətçiliyi tarixində pis bir an oldu, gələcəkdə xatırlanası və müraciət ediləsi deyil, utancverici bir tarix idi. Xalq belə bir suala cavab axtarırdı: Nə etməli? Ölkəni belə ağır şəraitdən kim çıxara bilər? Həlli çətin olan bu suala cavab tapıldı.

### Xilaskar

Azərbaycan xalqı Heydər Əliyevə üz tutdu. Bu da səbəbsiz deyildi. Xalqın dərin inamına görə, yalnız Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, xalqı mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən işğalını dayandıra, ölkəni fəlakətə salmış xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Bu inam onun 1970-ci illərdə respublika, 1990-cı illərin əvvəllərində Naxçıvanda gördüyü işlərdən doğurdu.

Çarəsiz qalan respublika rəhbərliyi xalqın tələbləri qarşısında geri çəkilərək Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Bakıya gələn kimi Heydər Əliyev yeni bir liderlik keyfiyyətini ortaya qoydu. Onunla birlikdə qiyamın baş verdiyi Gəncəyə getmək istəyən deputatlara dedi ki, ya mənə qədər gedəydiniz, ya da məndən sonra gedərsiniz. Gəncəyə təkbaşına gedərək sakinlərlə görüşdü, vəziyyətlə yerindəcə tanış oldu. Şəhərdə sabitlik tədricən bərqərar olmağa başladı. Qayıtdıqdan sonra parlament sədri seçildi. Ə.Elçibəy Bakını tərk edəndən sonra isə ölkə prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

Daxili siyasət sahəsində Heydər Əliyevin qarşısında ağır vəzifələrin həll edilməsi dayanırdı: ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək, milli birliyi bərpa etmək, hakimiyyətin qanadları arasında yekdillik yaratmaq; xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq, iflic olmuş dövlət orqanlarının fəaliyyətini bərqərar etmək, dövlətin əlində olması gərəkərkən silahları ələ keçirmiş, ölkədə kriminogen şərait yaradan ayrı-ayrı dəstələri tərksilah etmək, insanların sakit və təhlükəsiz yaşayışını təmin etmək, ölkənin inkişafının açarını tapmaq, ağır sosial-iqtisadi vəziyyətdə yaşayan xalqı inkişafa aparmaq, mənəvi-psixoloji ruhunu yüksəltmək, köhnə sosializm sisteminin qalıqlarından imtina edərək geniş uğurlu islahatlar aparmaq və sairə.



Xarici siyasət sahəsində Heydər Əliyevin qarşısında dayanan başlıca vəzifələr Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq, ölkəni fəlakətə salmış savadsız, Azərbaycan xalqı və dövlətinə düşmənlər qazandıran xətdən imtina etmək, dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq və sairə idi. Bütün bunları həll etmək xeyli mürəkkəb və çətin bir iş idi.

Hakimiyyətə gələn Heydər Əliyev ölkənin problemlərinin həllində gücə deyil, xalqa arxalandı. Ölkənin şimalında və cənubunda əhali ayağa qalxaraq separatçıları qovdu. Azərbaycan xalqı dövləti müdafiə etdi.

### Nə üçün atəşkəs?

Ölkə qarşısında həlli vacib olan digər bir mühüm məsələ dayanırdı. Ermənistanın hərbi təcavüzü davam edirdi. Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal edilməsi nəticəsində məcburi köçkünlər ordusunun yaranması ölkənin inkişafına mane olan başlıca amil idi. Azərbaycan ya sonu görünməyən və nəticəsi bilinməyən müharibəni davam etdirməli, ya da hər hansı bir yol ilə atəşkəsə nail olub zaman qazanmalı, dövləti qurmalı, onu möhkəmləndirməli idi. İşğal altında olan torpaqların azad edilməsini başlıca vəzifə kimi müəyyənləşdirən Heydər Əliyev atəşkəs yolunu seçdi. Bundan əvvəl Horadiz əməliyyatında düşmənə ağır zərbə endirilmişdi, bir sıra ərazilər azad edilmişdi. Ermənistana və dünyaya göstərilmişdi ki, Azərbaycan ərazilərinin işğalı faktı ilə barışmayacaq, onu azad edəcəkdir.

Beləliklə, dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatlarını udan hərbi əməliyyatlar dayandırıldı.

Atəşkəsə gedərkən Heydər Əliyev hesab edirdi ki, dövləti qurmaqdan, vahid güclü ordunu yaratmaqdan ötrü vaxt və əlavə imkanlar qazanacaq, ölkənin inkişafının açarını tapacaq və nəhayət, torpaqlar işğalçılardan azad ediləcəkdir.

Ermənistan, xarici ölkələrdəki erməni təşkilatları, erməni lobbisi və onları müdafiə edən dövlətlər isə belə hesab edirdilər ki, atəşkəsə getməklə danışıqlar prosesini uzadacaq, Azərbaycan torpaqlarının işğal altında qalmasını oldubitdi kimi qəbul etdirə biləcəklər. Bu yanaşma 1991-ci ildən sonra Ermənistanın bütün rəhbərlərinin başlıca xətti idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində təcavüzkar Ermənistanı darmadağın edərək torpaqların bir qismini azad etməsi, 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı rejimi diz çökdürməsi, Xankəndidə dövlət bayrağımızı ucaldaraq dövlət suverenliyini 1991-ci ildən sonra ilk dəfə bütün ölkə ərazisində bərqərar etməsi Heydər Əliyev konsepsiyasının düzgünlüyünü göstərdi.

### İnkişafın açarı haradadır?

Heydər Əliyev hakimiyyətə gələrkən ölkədəki ağır sosial-iqtisadi şəraitdə inkişafın açarını təbii sərvət olan neftdə gördü. Neft həm çarizm, həm də sovet dövründə imperiyaya xidmət etmiş, Azərbaycan xalqına mazutlu gölməçələr qalmışdı. Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanıb həyata keçirilməsi ilə Allahın bəxş etdiyi təbii sərvət olan nefti milli sərvətə çevirən ilk Azərbaycan dövlət rəhbəri oldu. Ərazicə kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan dövləti özündən qat-qat böyük olan, bir-biriləri ilə didişən dövlətləri bir araya gətirdi. Bu, Heydər Əliyevin təkcə Azərbaycan xalqı üçün deyil, dünya ölkələri arasında əməkdaşlıqda örnək olan nadir xidmətlərindən biri idi.

### Hakimiyyətə gəlməyin yolu nədən keçir?

"Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında Heydər Əliyevin qətiyyəti özünü aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabr ayında dövlət çevrilişi, 1995-ci ilin martında qiyam cəhdləri Heydər Əliyevin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Azərbaycan xalqı qanuni hakimiyyəti müdafiə etdi. Dövlət əleyhinə olan fəaliyyətlərin qarşısının alınmasının Azərbaycan üçün tarixi ibrətamiz tərəfi oldu. Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri üçün sınaq meydanı deyildir, ölkədə güclü dövlət hakimiyyəti vardır, hakimiyyətə gəlməyin yolu seçkidir. Bununla da Azərbaycanda silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyuldu.

Qiyam və dövlət çevrilişi cəhdlərinin qarşısının alınması digər vacib bir məsələnin həllinə də kömək etdi. Məlum olduğu kimi, Azərbaycanda sabitlik və sabaha ümidlər olmadığından xarici ölkələr və beynəlxalq maliyyə təşkilatları Azərbaycana borc vermirdilər. Dövlət büdcəsində isə vəsait yox idi. Dövlət əleyhinə fəaliyyətlərin qarşısı alındıqdan sonra Azərbaycana investisiya axını başladı. Neft strategiyası ölkənin inkişafının, güclü dövlət qurmağın, Azərbaycan xalqının daha yaxşı yaşayışını təmin etməyin başlıca amili oldu.

Geniş islahatlara başlanıldı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə ölkə konstitusiyası qəbul edildi və birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi. Azad bazar iqtisadiyyatına keçid üçün tədbirlər görüldü. Ölkənin demokratikləşdirilməsi istiqamətində islahatlar aparıldı. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində islahatlar həyata keçirildi. Ölüm hökmü ləğv edildi. Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsası qoyuldu.

### Milli dövlət maraqları hər şeydən üstündür

Heydər Əliyev hakimiyyətə gələrkən böhran içində olan xarici siyasət xalqın və dövlətin qarşısında dayanan başlıca vəzifələri yerinə yetirə, dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin edə bilmirdi. Uğursuz xarici siyasət dövləti dalana dirəmişdi. Azərbaycan xalqı və dövlətinin maraqlarına cavab verməyən siyasətdən imtina edən Heydər Əliyev tarazlaşdırılmış xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi. Heç bir dövlətin və dövlətlər qrupunun yanında olmayan Azərbaycan yalnız özünün milli-dövlət maraqlarını etibarla qorumağa başladı.

Qonşu dövlətlərlə münasibətlərinin nizama salınması üçün addımlar atıldı. İran və Rusiya ilə mehriban qonşuluq münasibətləri tədricən bərqərar edildi. Türkiyə və Gürcüstan ilə strateji müttəfiqlik xətti seçildi. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, strateji tərəfdaşları və müttəfiqləri müəyyənləşdirildi.

Neft strategiyası reallaşdırıldı. Çoxşaxəli neft və qaz boru kəmərləri inşa edilməyə başlandı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri təkcə iqtisadi məna daşımadı, Azərbaycanın müstəqillik kəməri oldu. Hər hansı bir dövlətdən asılılığa son qoyuldu. Azərbaycanın yeni neft strategiyası Türküstanın dövlətlərinin də dünyaya çıxışına kömək etməklə müstəqilliklərini möhkəmləndirdi. Azərbaycan eyni zamanda tranzit ölkəyə çevrildi. Tarixi İpək yolu bərpa edildi. Regionun geosiyasəti dəyişdi.

Əsas ixrac neft boru kəmərinin və digər layihələrin həyata keçirilməsi Türkiyənin də gücünü artırdı, dünya siyasətində rolunu gücləndirdi, bu, sonralar qardaş ölkənin G-20 sırasında olmasını şərtləndirən amillərdən biri oldu. Bununla Heydər Əliyev həm də türk dünyasının lideri oldu.

Həyata keçirilən bütün tədbirlər Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifə torpaqlarının işğaldan azad edilməsinə hazırlıq məqsədi daşıyırdı. Lakin tale Heydər Əliyevə bu işi başa çatdırmağa imkan vermədi.

### Xalqı başlıca hədəfinə kim çatdıra bilər?

Heydər Əliyevin fəaliyyəti göstərdi ki, millətin qarşısında dayanan başlıca məqsədi qətiyyətli, dünya işlərini mükəmməl bilən dövlət xadimi yerinə yetirə bilər. Belə bir dövlət və siyasi xadim İlham Əliyev oldu. 2003-cü ildə keçirilən seçkilərdə Azərbaycan xalqı o vaxtadək dünyada geniş tanınmış, Heydər Əliyevin silahdaşı olan İlham Əliyevi ölkə rəhbəri seçdi. O, dövləti və milləti başlıca hədəfə nail olmağa hazırladı. Ötən illərin təcrübəsinə əsasən xalq əmin oldu ki, sabitlik, güclü dövlət və qətiyyətli dövlət rəhbəri Azərbaycan xalqının başlıca hədəflərinə çatmasının təməlini təşkil edir.

Başlıca məqsədə nail olmaq üçün Prezident İlham Əliyev ölkənin müasirləşdirilməsi xəttini seçdi. Tarixin təcrübəsi göstərir ki, ölkənin zəngin təbii sərvətləri, çoxlu maliyyə vəsaitləri ola bilər. Əgər ölkə həmin təbii sərvətləri milli sərvətlərə çevirmirsə, yeni texnologiyaların tətbiqini həyata keçirmirsə, insanlar əməyi yadırğayırlarsa, digərlərindən geri qalır və rəqabətə tab gətirmir. Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrildi. Azərbaycanı satış bazarına çevirmək istəyən bəzi ölkələr özləri Azərbaycan məhsulları üçün satış bazarı oldular. Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, ölkə tərəqqi etdi, tikinti-quruculuq işləri genişləndirildi. Yeni iş yerləri açıldı. Keçmiş məcburi köçkünlər yaşayış sahələri ilə təmin edildilər. Çadır şəhərcikləri ləğv edildi. İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində Qurucu Prezident adını qazandı.

Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri bir sıra ölkələrin enerji təhlükəsizliyi sistemində Azərbaycanı başlıca ölkəyə çevirdi. Bakı-Tbilisi-Qars dəmiryol xəttinin tikintisinin uğurla başa çatması ilə Azərbaycan dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrildi.

Hədəfə çatmaqdan ötrü İlham Əliyev tariximizdə bir sıra ilklərə imza atdı. BMT Baş Məclisində çıxış edən ilk baş nazirimiz oldu. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Təhlükəsizlik Şurasının iclasına sədrlik edən Prezident İlham Əliyev ən vacib dünya məsələləri barədə nitq söyləyən ilk dövlət rəhbəri oldu. "Yumşaq güc"dən uğurla istifadə edildi. "Avroviziya" mahnı yarışması zamanı tariximiz, maddi və mənəvi mədəniyyətimiz geniş təbliğ edildi. Azərbaycanın I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməsi eyni zamanda başlıca məqsədə çatmaqda vasitə oldular. Ölkəmiz mədəniyyətlərarası, sivilizasiyalararası dialoq məkanına çevrildi.

Azərbaycan kosmosa ilk peykini göndərərək Kosmos klubunun üzvü oldu. Peyklərin məlumatları sonralar Vətən müharibəsində qələbə qazanılmasında ciddi rol oynadı. Tariximizdə ilk dəfə olaraq, Prezident İlham Əliyev "dövlət canlı orqanizmdir, daim genişlənməlidir" geosiyasi nəzəriyyəsini xarici ölkələrə sərmayələr qoymaqla, geniş əməkdaşlıq yolu ilə gerçəkləşdirdi. Güclü ordu yaradıldı. Dövlət və millət başlıca məqsədə çatmaqdan ötrü hazırlandı.

Nəhayət, gözlənilən gün gəlib çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci il sentyabrın 27-də başlayan və ədalətli, azadlıq xarakteri daşıyan 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti təkbaşına, öz gücünə təcavüzkar Ermənistanı məğlubiyyətə uğradıb torpaqlarını işğaldan azad edərək əsrlərdən bəri bəzi dövlətlərin və qruplaşmaların qurduğu planları dağıtdı. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı rejim diz çökdürüldü. Dövlət bayrağımız bütün ərazilərimizdə ucaldıldı, suverenliyimiz tam bərqərar edildi. Prezident İlham Əliyev millətin arzularını gerçəkləşdirdi, üstündəki ləkəni sildi, Azərbaycanın bədənindəki çibanı kökündən kəsib ataraq problemi gələcək nəsillər üçün saxlamadı. Azərbaycan xalqının arzuları gerçəkləşdi.

Ermənistanın işğalı altında olarkən tamamilə dağıdılmış və yerlə yeksan edilmiş əraziləri heç bir dövlətin və beynəlxalq təşkilatın yardımı olmadan təkbaşına, öz vəsaiti hesabına yenidən quran Azərbaycan dövləti bu dəfə də keçmiş məcburi köçkünlərə müasir şəhər, qəsəbə və kəndlər tikərək dövlət hesabına evlər və mənzillər verir. Onlar planlı şəkildə dədə-baba torpaqlarına dönürlər. Bunlar dövlətimizin sosial-iqtisadi, maliyyə siyasətinin düzgünlüyünü, hər bir məsələnin dəqiq düşünülərək həyata keçirildiyini göstərir.

Azərbaycan insanın təhlükəsiz yaşaması üçün ən etibarlı ölkədir. Azərbaycan vətəndaşı gecələr evinin qapısını, darvazasını bağlamadan yata, sutkanın istənilən saatında ölkənin bir başından çıxıb digər başına rahat şəkildə gedə, övladını tək məktəbə yola sala bilir.

*Həlli mümkün olmayan hesab edilən məsələləri həll, mümkün edən dövlət və siyasi xadimlər tarix boyu dahilər hesab ediliblər. Müasir Azərbaycan tarixi bunu Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin fəaliyyətində gördü və görür. Ona görə də Heydər Əliyevin dövlətçilik irsi daim yaşayacaq və öyrəniləcəkdir...*

**Musa QASIMLI,**
***Milli Məclis Sədrinin müavini***

## Azərbaycanın özü qədər əbədi

# Xalqının qəlbində yaşayan şəxsiyyət



**Müstəqil və suveren Azərbaycanın qurucusu və memarı, dünyaşöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsi bütün xalqımız tərəfindən həmişə böyük ehtiram və məhəbbətlə yad edilir. Heydər Əliyevə olan bu dərin ehtiram isə hər şeydən əvvəl onun öz xalqına və dövlətinə sədaqətlə xidmət etməsi ilə bağlı olmuşdur. Heydər Əliyev hələ Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi və bu komitəyə rəhbərlik etdiyi dövrdə milli maraqları hər şeydən üstün tutmuş, Azərbaycanın müstəqil bir dövlət kimi fəaliyyət göstərməsini arzu etmişdir. Ulu Öndər 1969-cu ildə Azərbaycanda rəhbər vəzifəyə seçildikdən sonra məhz ötən əsrin 70-80-ci illərində sovet imperiyasının sərt rejiminə baxmayaraq, ölkəmizi müstəqilliyə hazırlamışdır. Bu dövrədək Azərbaycan zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ittifaq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu.**

Ölkəmiz SSRİ kimi nəhəng bir dövləti ən qiymətli təbii sərvət sayılan neftlə təmin etdiyi halda, ittifaq fondunda ədalətsiz pay bölgüsü səbəbindən həmişə dotasiya ilə yaşayan digər respublikalardan əhalinin yaşayış səviyyəsinə görə geridə qalırdı. Ümummilli Liderimizin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".



Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etdiyi 14 il ərzində apardığı hərtərəfli və əhatəli işlər, ciddi tələbkarlığı və yüksək işgüzarlığı sayəsində ölkəmizin iqtisadiyyatı möhkəmləndi, neft-maşınqayırma və kimya sənayesi və bir sıra digər sahələrdə ittifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabət qabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsası qoyuldu. Bu dövrdə respublikamızda "Bakı soyuducular", "Bakıelektroterm", "Yeni Bakı neftayırma" və digər nəhəng zavodlar və fabriklər tikilib istifadəyə verildi. Sənayenin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Regionlarda üzüm, meyvə və tərəvəz emalı zavodları, çay və tütün emalı fabrikləri, habelə ət kombinatları, süd və yun emalı zavodları, quşçuluq fabrikləri və heyvandarlıq komplekslərinin tikilib istifadəyə verilməsi kənd təsərrüfatının inkişafı ilə yanaşı, respublikamızda yüngül və yeyinti sənayesinin inkişafına da güclü təkan verdi. Üzüm istehsalı 2 milyon tonu ötərək respublikamız ittifaq miqyasında birinci yeri tutdu, ilk dəfə olaraq 1 milyon tondan çox pambıq istehsalına nail olundu. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində geridə qalmış bir respublikadan ittifaq səviyyəsində öncül yerə yüksəldi. Xüsusilə kənd təsərrüfatında məhsuldarlığın artırılması, kənd təsərrüfatı maşınqayırma sənayesinin inkişafı, heyvandarlıq və bitkiçilik məhsulları istehsalının sənayeləşmə səviyyəsinin yüksəlməsi sayəsində çox uğurlu nəticələr əldə olunaraq respublikamız geridə qalan kənd təsərrüfatı ölkəsindən aqrar-sənaye kompleksinə malik bir diyara çevrildi. Həmin dövrdə çoxlu sayda məktəb, xəstəxana tikildi, müasir infrastruktur və kommunikasiya xətləri yaradılaraq əhatə dairələri genişləndi.

Təbii ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı müstəqil dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyətli, savadı və bacarığı olan gənc kadrların yetişdirilməsi ön plana çəkildi. Bu məqsədlə hər il yüzlərlə azərbaycanlı gənclər keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində təhsil almaq imkanı qazandılar. Planlı qaydada həyata keçirilən bu möhtəşəm tədbirlər sayəsində əldə edilən nailiyyətlər sonralar respublikamızın müstəqil dövlət kimi fəaliyyət göstərməsinə möhkəm zəmin yaratdı. Heydər Əliyevin Azərbaycan Respublikasına həmin dövrdə rəhbərliyi nəticəsində qazanılan uğurlar hörmətli Prezident İlham Əliyevin "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" sərəncamında özünün əhatəli əksini tapmışdır. Sərəncamda deyilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır".

Heydər Əliyevin həyata keçirdiyi heyrətamiz quruculuq işləri, onun yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt ittifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə işlədiyi müddətdə ittifaqda mövcud olan ən problemli sahələrin həlli məsələləri ilə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir və dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı. Heydər Əliyev Azərbaycandan kənarda olsa da, həmin illərdə respublikamızda baş verən proseslərlə daim maraqlanır, problemlərin həllinə kömək göstərir və respublikamızın dinamik inkişafı üçün əlindən gələni edirdi. Onun liderlik məharəti, ittifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bu paxıllığın nəticəsi idi ki, 1987-ci ildə SSRİ rəhbərliyində, xüsusilə Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq Heydər Əliyev vəzifəsindən istefa verməyə məcbur oldu.

Bundan 15 gün sonra SSRİ rəhbərliyinin Heydər Əliyevdən çəkindikləri üçün dəstək verə bilmədikləri bir anti-Azərbaycan prosesi - ermənilərin çoxdan çalışdıqları məkrli separatizm siyasəti baş qaldırdı və Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi məsələsi gündəliyə çıxarıldı. Bununla da, Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Respublikamızda erməni separatizmi Moskvanın əli ilə genişlənməyə başladı və Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyi və xalqı naminə fəaliyyətini hakimiyyətdə olmadığı dövrlərdə də davam etdirərək ən çətin anlarda xalqının yanında oldu. Belə ki, xalqımızın böyük oğlu həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə o zaman hakimiyyətdə olan sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham edən bəyanatla Moskvada - Azərbaycan nümayəndəliyində çıxış etdi. Bu kəskin bəyanatdan sonra o, Moskvada yaşamağın mənasız olduğunu bilərək 1990-cı il iyulun 20-də Bakıya, iki gün sonra isə doğma yurdu olan Naxçıvana qayıtdı və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi.

Ümummilli Lider Heydər Əliyevin böyük və mənalı ömrünün Naxçıvanda keçən 3 ili ərzində gördüyü işlər müstəqil dövlətimizin qurulmasına yönəlmiş strategiyanın tərkib hissəsi idi. Ulu Öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması sayəsində sosial-iqtisadi inkişafa nail olunması ilə nəticələnmiş, həm də muxtar respublikanı işğal təhlükəsindən qorumuşdur. 1990-cı ilin noyabr ayında dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ Sovetlər Birliyinin mövcud olduğu bir dövrdə üçrəngli Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Heydər Əliyevin bu qətiyyəti 1991-ci ilin oktyabrında bütövlükdə Azərbaycanın öz müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə isə nəinki Azərbaycanın, həm də Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır. 1990-1993-cü illərdə Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun islahatlar aparılaraq yeni iqtisadi model formalaşdırıldı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılır, bölgənin erməni silahlı qüvvələrindən təhlükəsizliyi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilirdi. Azərbaycanda hakimiyyətdə olan və Heydər Əliyevin Naxçıvanda əldə etdiyi uğurları gözü götürməyən Xalq Cəbhəsinin rəhbərləri 1992-ci il oktyabrın 24-də Naxçıvanda silahlı çevriliş edib Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd etsə də, buna nail ola bilmədilər. Çünki Heydər Əliyev naxçıvanlılara, sözün əsl mənasında, arxa olduğundan əhali də ona arxa durmaqla yanaşı, böyük hörmət və ehtiram bəsləyərək müdafiə etdi. Məhz bunun sayəsində çevrilişə cəhddən cəmi bir ay sonra - 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı yüksək səviyyədə təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi.

Naxçıvanda yeni dövlət quruculuğu istiqamətində böyük işlərin getdiyi bir vaxtda Azərbaycana səriştəsiz rəhbərlik, getdikcə güclənən özbaşınalıq, cəbhədə yaranan gərgin vəziyyət hakimiyyətə qarşı narazılığı artırmaqla ölkədə müstəqilliyin əldən getməsinə real təhlükə yaratmışdı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə respublikamıza rəhbərliyə dəvət etdi. Xalq özünün sevimli oğluna etimad edir və inanırdı ki, yalnız Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa və Azərbaycanın müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Xalqın çağırışını qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkənin ali qanunverici orqanının sədri, oktyabrın 3-də isə Azərbaycan Prezidenti seçildi. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşməsi istiqamətində möhkəm addımlar atıldı, yeni Konstitusiya qəbul olundu. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən müəyyən qüvvələr 1994-cü və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin bu hərəkətlərin qarşısı Ulu Öndərin rəhbərliyi ilə vaxtında və yüksək peşəkarlıqla alındı və ölkədə hərtərəfli inkişafa zəmin yaradan daxili sabitlik təmin olundu. Bununla yanaşı, ölkəmizin xarici siyasətinin formalaşması istiqamətində də işlər sürətləndirildi və Azərbaycan həm Rusiya, həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu.

Azərbaycanın gələcəyini neft strategiyasının hazırlanmasında və uğurla həyata keçirilməsində görən Heydər Əliyev Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı xarici investorların cəlb edilməsini zəruri hesab etdi. Odur ki, dünyanın tanınmış neft şirkətləri ilə danışıqlara başlandı. Lakin Azərbaycanın müstəqil siyasət yeritməsini və inkişafını istəməyən bəzi dövlətlər bunun əleyhinə çıxır, hətta ölkəmizi hədələməkdən belə çəkinmirdilər. Bütün bunlara baxmayaraq, Heydər Əliyevin qətiyyəti və həyata keçirdiyi uzaqgörən siyasəti nəticəsində 1994-cü il sentyabrın 20-də 8 ölkənin 13 şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Bundan sonra Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən çox mühüm və böyük əhəmiyyət kəsb edən addımlar idi. Hazırda respublikamız müxtəlif istiqamətlər üzrə 3 neft boru kəməri və 4 qaz boru kəməri vasitəsilə dünyanın bir çox ölkəsinə neft və qaz ixrac etməklə onların enerji təhlükəsizliyinin təmin edilməsində böyük paya malikdir. Bu uğurların əldə edilməsində isə "Əsrin müqaviləsi"nin müstəsna rolu vardır.

Ulu Öndər Heydər Əliyevin həyatının 30 ildən artıq bir dövrü Azərbaycan tarixinin parlaq səhifəsini, ölkənin dirçəliş, inkişaf mərhələsini təşkil edir. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar respublikadan iqtisadiyyatı dinamik inkişaf edən qabaqcıl respublikaya çevirdi, Azərbaycanın müstəqil ölkə kimi yaşamasına möhkəm zəmin yaratdı. Görkəmli şəxsiyyət respublikamıza ikinci rəhbərliyi dövründə isə ölkəmizdə baş qaldırmış qardaş qırğınının tezliklə qarşısını aldı, Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmasını təmin etdi. Bununla da Heydər Əliyev dövlətinə və xalqına xidmət edən ölkə rəhbəri nümunəsini formalaşdırdı. Bu münasibətlə Ulu Öndər demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib. Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib".

Ümummilli Liderimiz Heydər Əliyevin bu müdrik kəlamları onun müstəqil Azərbaycan dövləti, xalqımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinin manifestidir. XX əsr dünya tarixinin parlaq simalarından olan, xalqımızın müstəqillik arzusunu konkret dövlət modelində gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu Öndər Heydər Əliyev həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət möhtəşəm bir abidənin qurucusu olmuş, özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmışdır. Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev, sözün əsl mənasında, dahi şəxsiyyətdir və məhz buna görə qədirbilən xalqımız Ulu Öndəri özünün Ümummilli Lideri elan etmişdir.

Dahilərin böyüklüyü ondadır ki, onlar xalqlarının gələcək inkişaf yollarını da görürlər. Heydər Əliyev də məhz belə dahilərdən idi. Ulu Öndər 2003-cü il oktyabrın 1-də doğma xalqına ünvanladığı müraciətində deyib: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən indiyə kimi olan müddətdə respublikamızın həyatında baş verən hadisələr onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində beş dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycanı gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində cənab İlham Əliyevin böyük səs çoxluğu ilə inamlı qələbəsi Ulu Öndərin varis seçiminin nə qədər düzgün olduğunu növbəti dəfə təsdiq etdi və hörmətli Prezidentimizin rəhbərliyi ilə son 21 il ərzində ölkəmizdə aparılan ictimai-siyasi, beynəlxalq, iqtisadi proseslərin məntiqi nəticəsi kimi qiymətləndirildi.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun lider ölkəsinə çevrilib. 21 ildə ölkəmizə 300 milyard dollardan çox sərmayə qoyulmuş, sahibkarlığın inkişafına dövlət büdcəsindən 3 milyard manata yaxın güzəştli şərtlərlə kreditlər verilmişdir. Bunun sayəsində Azərbaycanın iqtisadiyyatı və valyuta ehtiyatları, habelə orta əməkhaqqı, pensiya və müavinətlər dəfələrlə artmış, işsizliyin və yoxsulluğun səviyyəsi isə minimuma enmişdir. Bu da respublikamızın gələcəkdə uzun müddət davamlı və dayanıqlı inkişafının etibarlı təminatı deməkdir.

Bütün bu uğurlar isə cənab İlham Əliyevin ölkəyə rəhbərliyə başladığı ilk vaxtlardan elmi-texnoloji inkişafa xüsusi diqqət verməsi sayəsində əldə edilmişdir. Belə ki, ölkəmizdə iqtisadiyyatın yeni sahələrinin - müdafiə və kosmos sənayesinin formalaşması, dünyanın iri neft və qaz kəmərlərinin tikilib istifadəyə verilməsi, innovasiyaların tətbiqinə əsaslanan sənaye və aqrar parkların yaradılması və onların ən yeni texnologiyalardan istifadə etməklə daxili bazarın tələbatını ödəyən və ixrac potensialını genişləndirən müxtəlif adda və çeşiddə rəqabət qabiliyyətli məhsullar istehsalına başlaması iqtisadi inkişafın mühüm tərkib hissəsidir. Bu isə o deməkdir ki, ölkə rəhbəri dünyada baş verən qlobal proseslərə uyğun müasir çağırışları təmin edən və gələcək inkişafa imkan verən sosial-iqtisadi siyasət formalaşdırır və onun həyata keçirilməsinə yönəlmiş genişmiqyaslı tədbirlər görür.

Azərbaycan Prezidentinin formalaşdırdığı və həyata keçirdiyi iqtisadi siyasətin əsasını isə iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sektorunun da elmi-texnoloji əsaslarla innovativ inkişafı təşkil edir. Bu məqsədlə qeyri-neft sektorunun prioritet sahələri olan turizm və aqrar sahənin inkişafına daim xüsusi diqqət yetirilir və bu sahələrdə uğurlu nəticələr əldə etmək üçün möhkəm maddi-texniki baza və infrastrukturun yaradılması istiqamətində təsirli tədbirlər görülür. Bunun nəticəsidir ki, son vaxtlar ölkəmizə böyük turist axını başlamış və milyonlarla turist respublikamızın səfalı guşələrində istirahət etməyə üstünlük verirlər. Aqrar sahədə həyata keçirilən bu və digər tədbirlər nəticəsində kənd təsərrüfatı istehsalı 2 dəfədən çox artmışdır.

Bütövlükdə ötən 21 ildə ölkəmiz misli görünməmiş sürətli inkişaf yolu keçmişdir. Bu illərdə əldə etdiyimiz möhtəşəm uğurların zirvəsində Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusunu darmadağın edərək diz çökməyə məcbur etməklə qazandığı parlaq qələbə dayanır. Bu qələbə ilə Ulu Öndərin siyasi varisi İlham Əliyev ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin edən Prezident kimi qızıl hərflərlə Azərbaycan tarixində yeni bir səhifə açdı. Eyni zamanda qazandığımız bu möhtəşəm qələbə bir daha sübut etdi ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır və Azərbaycan xalqı vətənini və xalqını sevən dövlət başçısının rəhbərliyi ilə öz ərazi bütövlüyünü təmin etməyə və onu dünyanın ən gözəl diyarına çevirməyə qadirdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsində 30 ildən çox işğala son qoyulması və Heydər Əliyevin ata vəsiyyətinin şərəflə yerinə yetirilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran birnömrəli vəzifənin uğurla həyata keçirilməsini təmin etdi. Bu qələbə həm də Azərbaycan xalqının yenilməz qürurunu özünə qaytardı, xalqımızın başını ucaldaraq başqa xalqlar arasında fəxrlə dayanmasına şərait yaratdı.

2023-cü ilin sentyabr ayında isə birgünlük antiterror əməliyyatı ildırım sürəti ilə həyata keçirilərək Ermənistan ordusunun qalıqları Qarabağ ərazisindən tamamilə təmizləndi. Bununla da respublikamızın ərazi bütövlüyü və suverenliyi əbədi olaraq tam bərpa edildi.

Hazırda ölkəmizin qarşısında duran ən mühüm missiya erməni işğalından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərini gündən-günə sürətlə qloballaşan dünyanın ən müasir çağırışlarına uyğun olaraq yenidən qurmaq, bu ərazilərə Böyük qayıdışı qısa müddət ərzində təmin etməkdir. Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımız bu şərəfli vəzifənin də öhdəsindən tezliklə gələcək və Azərbaycan bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf yolunu bundan sonra da uğurla davam etdirəcəkdir.

Məmnuniyyətlə onu da qeyd etmək istəyirəm ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi kimi çox önəmli bir vəzifə heç bir kənar qüvvənin iştirakı olmadan yalnız öz gücümüzə uğurla yerinə yetirildi.

Qürurverici haldır ki, ölkəmiz sürətlə inkişaf edərək özünü beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi layiqli yer tutmuşdur. Bunun nəticəsidir ki, Azərbaycan uzun müddətdir ki, çox mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir. Belə tədbirlərdən biri də bu ilin noyabr ayının 11-dən 23-nə kimi davam edən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) oldu.

Bütün bunlar və müstəqilliyimizin son dövrlərində əldə etdiyimiz digər uğurlar onu deməyə əsas verir ki, Ümummilli Liderin xalqa "Mən Ona özüm qədər inanıram" çağırışı bugünkü reallıqda özünü yüksək dərəcədə doğruldur. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə qazanılan davamlı uğurlar Ulu Öndərin "Nə qədər ki, Azərbaycan var, mən də varam" fikrini də böyük inamla təsdiq edir.

*Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasına və onun inkişafına verdiyi misilsiz töhfələri xalqımız heç vaxt unutmayacaq, onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaq və onun bizə miras qoyduğu dövlət quruculuğu siyasəti gələcək nəsillərə örnək olmaqla daim öyrəniləcəkdir.*

**Eldar İBRAHİMOV,**
***Milli Məclisin İntizam komissiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor***

Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyevin milli yaddaş siyasəti

**Türk xalqlarının birliyinin ifadəsi olan Türk Dövlətləri Təşkilatının gələcəyə gedən yolu dünən olduğu kimi bu gün də məhz Zəngəzur dəhlizindən keçir. Bu, Azərbaycanın və türk xalqlarının qarşısında duran taleyüklü missiyadır. O dəhliz açılmayınca, işləməyincə türk xalqlarının gələcəyi üçün təhlükələr hər zaman olacaqdır. Bunu bizə ulu babalarımız vəsiyyət etmişdir. Qədim və Orta əsrlərdə türk xalqları məhz Zəngəzur yolunu açıq tutduqları və heç bir düşmənə gözünün ucu ilə də olsa, bu yola baxmağa imkan vermədikləri üçün nəhəng imperiyalar qura bilmişdilər. Azərbaycan, Naxçıvan, Zəngəzur dağları Şərqi Türk dünyası ilə Qərbi Türk dünyası arasında hər zaman körpü olmuşdur. Bu körpünü Azərbaycan igidləri - Oğuz alpları, Koroğlunun dəliləri göz bəbəyi kimi qorumuşlar.**

Bütün bunlar tarixi həqiqətlərdir və onları düşmənlərimiz daha yaxşı bildiyi halda, bizlər çox vaxt bu həqiqətlərə qarşı biganə münasibət bəsləyirik. Buna türk xalqlarının yaratdığı möhtəşəm dastanlara Qərb dünyasının göstərdiyi "qəribə həssas maraq" əyani sübutdur.



## "Kitabi-Dədə Qorqud" - milli kimliyimizin ünvanı

Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanına fövqəladə dərəcədə əhəmiyyət verir, türk xalqlarını bu möhtəşəm dastanın etnik birlik ideyaları ətrafında birləşməyə çağırırdı. Müdrik siyasətçi, tarixi dərindən bilən dahi rəhbər bu eposun Qafqazın tarixi ilə sıx şəkildə bağlı olduğunu, tariximizin ən mühüm həqiqətlərinin bu eposda əks olunduğunu çox yaxşı bildiyi üçün onu bilavasitə "milli varlığımızın mötəbər qaynağı" adlandırmışdır. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin qabarıq əks olunmasına əsaslanan Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi işində bu eposun mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulamışdır: "Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Məhz bu baxımdan "Kitabi-Dədə Qorqud" ensiklopediyası ilk növbədə gənc nəslə ünvanlanan bir kitabdır".

Ulu Öndərin sözlərində çox böyük həqiqət vardır. Çünki bu abidə Oğuz türklərinin ən qədim çağlardan tutmuş "bu günədək" davam edən tarixini, o cümlədən Qafqazın, Anadolunun tarixini bir güzgü kimi əks etdirir. Məhz bu abidə bölgədə yaşamış başqa qafqazdilli xalqların tarixini təsdiq etdiyi halda, ermənilərin Azərbaycan torpaqlarına rus imperialistləri tərəfindən forpost statusunda XIX əsrdə yerləşdirildiyini, bu nankor, xain və mənfur bioantropoloji fakturanın Qafqazın tarixinə tamamilə yad olduğunu, XIX əsrdən qabaq bu bölgədə hayların izi-tozunun belə olmadığını inkarolunmaz şəkildə təsdiq edir. Heydər Əliyev məhz buna görə də bəyan etmişdir: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir" .

Ulu Öndərə görə, bu abidənin bizim milli kimliyimizin formalaşmasında, onun ən ali dəyərlər əsasında qurulmasında müstəsna dərəcədə böyük rolu vardır: "Kitabi-Dədə Qorqud" bizim milli estetikamızın mötəbər qaynağı olaraq mənəvi və estetik dəyərlərin vəhdətini özündə əks etdirir. Gözəllik və eybəcərlik, ülvilik və alçaqlıq, komiklik və faciəlik, məhəbbət və nifrətlə bağlı olan fikirlər, bizim əcdadlarımızın estetik duyumu lakonik ədəbi formalarda eposun müxtəlif boylarında ifadə olunur. Gözəllik və hikmətin, gözəllik və qeyrətin, gözəllik və sədaqətin qırılmaz daxili harmoniyası da "Kitabi-Dədə Qorqud"a xas olan estetik və etik kateqoriyaların mahiyyətini açıqlayır" .

Əlbəttə, görkəmli dövlət xadiminin Azərbaycan xalqını "Dədə Qorqud" dastanını hələ məktəbli ikən öyrənməyə başlamasını təkidlə tövsiyə etməsinin alt məna qatları da vardır. O, bir müdrik siyasətçi idi: kimə və nə məqsədlə çağırış etdiyini çox gözəl bilirdi. Bu baxımdan Heydər Əliyev öz çağırışı ilə, əslində, Azərbaycan insanında hələ uşaqlıqdan milli kimlik hissləri, milli tarix bilgiləri formalaşdırmaq istəyirdi. O, çox gözəl bilirdi ki, məhz "Dədə Qorqud" dastanı ilə tərbiyə olunan gənc nəsil öz tarixini və milli kimliyini dərindən sevə bilər. Çünki Ulu Öndərə görə, Azərbaycan və ümumtürk tarixinin ən mühüm və taleyüklü məsələləri, o cümlədən türk xalqlarının birliyinin nicat yolu olan "Zəngəzur-Naxçıvan dəhlizi"nin da kodları, şifrələri bu dastanda öz əksini tapmışdır. Dastan elə bir mətn hadisəsidir ki, orada təsadüfi heç nə ola bilməz. Türk xalqlarında dastan bilavasitə tarix, milli kimlik sənədidir. Seyfəddin Rzasoyun "Kitabi-Dədə Qorqud" haqqında yazdığı kimi, "Oğuz dastanları bütün hallarda oğuzların etnik-siyasi kimlik sənədi, anayasası - konstitusiyasıdır. Həmin dastanlar onları öz ifasında hər dəfə yenidən yaradan ozanların mənsub olduqları Oğuz ideoloji sisteminin maraqlarına xidmət etmiş və bilavasitə həmin etnik ideologiyanı əks etdirmişdir" .

## Oğuz-türk milli yaddaşının dəyişdirilməsinə riyakar cəhd

Düşmənlər türkün milli kimlik sənədlərini dəfələrlə dəyişdirməyə cəhd göstərmişlər. Bunlardan biri də "Kitabi-Dədə Qorqud"a müdaxilədir. Bütün bunlar, əlbəttə ki, qaranlıq və müəmmalı məqamlardır. Və ən başlıcası bu qaranlıq, qapqara müəmmaların Zəngəzur-Naxçıvan dəhlizi ilə birbaşa əlaqəsi var. Dəyərli dostum Seyfəddin Rzasoyun dili ilə desək, iranlı "şeyx nəsrullahlar" Azərbaycan Respublikasında daxili qarşıdurmalar yaratmaq, Cənubi Azərbaycanın şəhərləri, elləri arasında etdikləri kimi, Şimali Azərbaycanda da müxtəlif bölgələri bir-birinə qarşı qoymaq və daha da irəli gedərək, Vahid Azərbaycan xalqının cənubu ilə şimalı arasında, guya ki, tarixi "qaynaqlarla", "sənədlərlə" təsdiq olunan təfriqə, qarşıdurma yaratmaq məqsədilə "Dədə Qorqud" ənənəsi ilə bağlı İrandan tapılmış yeni oğuznamə əlyazmasına, sözün həqiqi mənasında, "qələm çalmış", onun mətninə "gec partlayan minalar" düzmüşlər.

Qeyd edək ki, mətnin özündə "Kitabi-Türkman lisani" adlandırılmış əlyazma sayı hələ tədqiqatçılar tərəfindən dəqiqləşdirilməmiş 23-27 civarında şeir mətnindən ("soy"lamadan) və Salur Qazanın yeddibaşlı əjdahanı öldürməsindən bəhs edən kiçik bir oğuznamə mətnindən ibarətdir.

Günümüzün siyasi reallıqları, xüsusilə də Zəngəzur dəhliz məsələsi ilə bilavasitə əlaqədar olan əlyazma ilə bağlı S.Rzasoy müəyyən etmişdir ki, əlyazmanın "soy" (yəni "Dədə Qorqud"dan bildiyimiz "soylama") adlanan XV nəğməsində mətnə süni şəkildə müdaxilə edilərək, məqsədli təhriflərə yol verilmişdir. Əlyazmaya müdaxilə edən təxribatçılar burada iki məqsəd güdmüşlər. Birincisi, siyasi məqsəd: Bütöv Azərbaycanın cənub elləri ilə şimal elləri arasında funksional təyinlər səviyyəsində təhqiramiz fərqlər yaratmaqla "Vahid Azərbaycan" milli şüurunda "Şimal-Cənub" qarşıdurması yaratmaq. İkincisi, inzibati-etnopsixoloji məqsəd: Şimali Azərbaycanın öz daxilində müxtəlif bölgələr arasında funksional təyinlər səviyyəsində təhqiramiz fərqlər yaratmaqla etnopsixoloji qarşıdurma yaratmaq.

## Ulu Öndər milli yaddaşın sisteminin qorunmasına xüsusi diqqət yetirirdi

Müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasında "Kitabi-Dədə Qorqud"un təlqinedici rolunu yüksək qiymətləndirən Heydər Əliyev bu eposun öyrənilməsində folklorşünasların qarşılaşdığı çətinliklərdən bəhs etməyi də vacib sayır. 1930-cu illərin sonlarında Əmin Abid kimi qorqudşünasların repressiya qurbanı olduğunu xatırladan Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi hücumların 1940-cı illərin sonlarından etibarən yenidən kəskin şəkil almasını xüsusi olaraq qeyd edir: "Ədəbiyyata və incəsənətə qarşı yönəldilmiş məşhur "Jdanov qərarları"nın ab-havasına uyğun olaraq, "Kitabi-Dədə Qorqud"a qarşı hücumlar başladı... "Kitabi-Dədə Qorqud" eposunun ümumən xalq eposu olmadığı bildirildi və bu eposu "yayanları amansızlıqla ifşa etmək və onlara divan tutmaq" şüarları səsləndi. Görkəmli Azərbaycan alimləri Həmid Araslı və Məmmədhüseyn Təhmasib, akademik Vasili Bartoldun ruscaya çevirdiyi "Kniqa moeqo Deda Korkuda" kitabının 1950-ci ildə Bakıda Elmlər Akademiyasında çapı rejimin sərt reaksiyasına məruz qaldı".

Heydər Əliyev "Kitabi-Dədə Qorqud"a qarşı siyasi kampaniyanın yalnız Azərbaycanda yox, digər türkdilli respublikalarda da aparıldığını vurğulayaraq deyir: "Başqa türkdilli respublikalarda, xüsusən Türkmənistanda "Dədə Qorqud"un əleyhinə dəhşətli bir təbliğat geniş şəkildə həyata keçirildi. Əslində, eposa qadağa damğası vuruldu. Epos bütün tədqiqat planları, tədris proqramları və dərsliklərdən çıxarıldı".

Yalnız Azərbaycanda yox, başqa türkdilli respublikalarda da "Kitabi-Dədə Qorqud"un siyasi rejim tərəfindən yasaq edilməsinin başlıca səbəbi nə idi? "Kitabi-Dədə Qorqud"a qarşı siyasi kampaniyanın başlıca səbəblərindən biri bu eposun milli kimliyimizi doğru-dürüst nişan verməsi, türk xalqlarının mədəni birliyinə mühüm zəmin yaratması idi. Türk xalqlarının özünüdərk prosesinə mane olmaq xətti tutan siyasi rejim bu xalqların mədəni birliyinə mühüm zəmin ola biləcək "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrə "mürtəce əsər" damğası vurur, "pantürkizm" adı altında həmin abidələrin tədqiq və təbliğinin qarşısını almağa çalışırdı.

Heydər Əliyevin aşağıdakı sözləri bu acı həqiqətin əsl mahiyyətini bir daha açıb göstərir: "1950-ci ilin may ayında "Dədə Qorqud"un kobud siyasi səhv olduğu partiya yığıncağında rəsmi elan edildi. Bu rəsmi mövqe bildirildikdən sonra eposun xalqa zidd bir əsər olduğu tezisi irəli sürüldü. Həmin partiya yığıncağının hesabatında deyilirdi: "Pantürkistlər tərəfindən Azərbaycan ədəbiyyatının qədim abidəsi kimi qələmə verilən "Dədə Qorqud" eposunun Azərbaycan xalqı ilə, onun tarixi, folkloru və dili ilə heç bir əlaqəsi yoxdur. "Dədə Qorqud"da Azərbaycan xalqı üçün yabançı olan həyat tərzi, adət və ənənələr təsvir edilmişdir"..." (Türkologiya. - 2017. - №2, s. 46-54. Muxtar İmanov).

## Heydər Əliyevin "Tarixi ənənələr" məktəbi və İlham Əliyev siyasəti

Prezident İlham Əliyev türk dünyasının inkişaf perspektivlərindən danışarkən Azərbaycan reallığını, daha dəqiq desək, Azərbaycanda bu gün baş verən hadisələri əsas, həlledici və taleyüklü faktor kimi önə sürür. Dövlətimizin başçısının yanaşmasının gücü, inandırıcılığı ondadır ki, o, hər hansı bir fakta Ulu Öndər Heydər Əliyev məktəbinin təcrübəsindən irəli gəlməklə, məhz tarixin gözü ilə baxır. Bu cəhətdən, cənab Prezident ermənilərin Azərbaycan torpaqlarına olan təcavüzünə, işğalçılıq fəaliyyətinə geniş tarixi-diaxron proseslər səviyyəsində yanaşaraq, bütün bu məsələlərin heç də lokal problem, başqa sözlə, yalnız Cənubi Qafqaz arealı ilə məhdudlaşan konflikt olmadığını, bu konfliktin onu yaradanların etnopsixoloji düşüncəsi ilə bağlı olması səbəbindən bütün türk dünyasına aid olduğunu hər zaman vurğulamaqdadır.

Doğrudan da, Azərbaycan-Ermənistan savaşındakı tarixi zəfərin, xalqımızın Müzəffər Komandan İlham Əliyevin sərkərdəliyi altında qazandığı qələbənin müasir dünyadakı güc balansına kəskin şəkildə təsir etməsi onun nə qədər haqlı olduğunu göstərməkdədir. Azərbaycanı 30 il qəsdən ikili standartlar torunda "məğlub" durumunda saxlayan "demokratik" Qərb dünyası bu onilliklər ərzində "ədalətli nizamlanma" prinsipini xarab qrammofon kimi daim təkrarlasalar da, Azərbaycan xalqının sarsılmaz qələbəsi ilə dərhal maskalarını soyunub, özlərinin təcavüzkar və müstəmləkəçi simalarını göstərdilər. Və bununla da məlum oldu ki, XX əsrin başlanğıcındakı Qərb dünyasının sifəti, siması, mahiyyəti, təcavüzkar kimliyi bütöv bir yüz il ərzində müsbətə doğru nəinki dəyişməyib, əksinə, daha hiyləgər, daha qəddar mahiyyət kəsb edib: "Qoca Dünya"nın nifrəti, kini, qəzəbi daha da artıb.

Bütün bunlar Ulu Öndər Heydər Əliyevin siyasi kursunu sarsılmaz şəkildə davam etdirən Cənab Prezident İlham Əliyevin məhz "tarixi ənənələrə" söykənməkdə nə qədər haqlı olduqlarını əyani şəkildə nümayiş etdirir. Xüsusilə bu gün "Zəngəzur dəhlizi" ətrafında oynanılan oyunlar bütün mahiyyəti etibarilə məhz Heydər Əliyevin türk xalqlarının etnik-mənəvi birliyinə münasibətdə bəyan etdiyi "tarixi ənənələr" konsepti ilə bilavasitə əlaqədardır. Ulu Öndərə görə, Azərbaycan və başqa türk xalqlarının düşmənləri və dostlarının kimliyi həmin ənənələrdə dəqiq şəkildə göstərilmişdir. Ulu Öndərin tarixi ənənələrə niyə bu qədər əhəmiyyət verməsi, xüsusilə "Kitabi-Dədə Qorqud" abidəsinə fövqəladə dərəcədə böyük maraq göstərməsi, bu dastanın 1300 illik yubileyinə türk dünyası ilə bərabər "bütün dünyanı" dəvət etməsi, türk dünyasının siyasi liderləri və alimlərinin diqqətini bu abidənin milli birlik formullarına israrla cəlb etməsi təsadüfi deyildir. Eləcə də cənab Prezident İlham Əliyevin Azərbaycan və türk xalqlarının qəhrəmanlıq simvolu olan Koroğluya möhtəşəm bir heykəl qoydurması türk dünyasının birləşməsi, bir olması yolunda qurulmuş etibarlı körpülərdir.



## İlham Əliyevin milli yaddaş siyasəti: "Vətəndaş - Vətən daşı"

İlham Əliyev Orta əsrlər türk və Azərbaycan dünyasının etnomədəni kimlik enerjisini, etnoenergetik potensiyası və milli-stixial gücünü özündə təcəssüm etdirən Koroğlu obrazını "fəal vətəndaş" olmağın simvolu kimi bəyan edəndə bu xalqımız tərəfindən və bütün türk dünyasında böyük rəğbətlə qarşılandı. Lakin bu, ictimai şüur səviyyələri zamanın səthi, günlük hadisələri ilə məhdudlaşan marginal "ziyalılara" qəribə gəldi. Necə deyərlər: "Əcəba, Koroğlu hara - "vətəndaşlıq" anlayışı hara?!"

Ancaq bu təəccüb, heyrət ritorikası müasir dövrdə şəxsiyyətləri uşaqlıqdan Qərb nağıl və dastanlarını oxuyaraq, "multiklərinə" baxaraq böyümüş, sintetik milli kimlik daşıyıcısı olanların necə bir faciəvi durumda olduğunu göstərir. Öz xalqının yaratdığı ədəbi-bədii dəyərlər dünyasına dərindən bələd olan cənab İlham Əliyev Koroğluya münasibətdə "vətəndaş" sözünü işlətməklə Azərbaycan ziyalılarının və ümumən, xalqın diqqətini milli kimliyin, vətəndaş olmağın "Koroğlu" eposundakı "vətən daşı" olmaqdan keçdiyini vurğulamış və bununla da, belələrinə tarixdə yadda qalacaq "ustad dərsi" keçmişdir. Bu cəhətdən, cənab Prezidentin Koroğlu abidəsinin açılışında söylədiyi nitqdə vurğulanan "vətəndaş - vətən daşı" konseptinin məhz haradan gəldiyini açıqlamaq məqsədəuyğundur.

"Koroğlu" dastanı, bildiyimiz kimi, sadəcə bir mətnlə məhdudlaşan abidə yox, Azərbaycan milli kimliyinin etnik kökləri, zəngin tarixi, torpaqlarının etnostixial potensiyası, xalqın ictimai-siyasi görüşləri, tarixinin taleyüklü hadisələri, fəlsəfi-etik baxışları, gündəlik həyat tərzi, məişəti, vətən, vətəndaşlıq, vətənsevərlik görüşləri ilə bilavasitə bağlıdır. Bu mənada, İlham Əliyevin Azərbaycan və türk xalqlarının bu möhtəşəm abidəsinə məhz "vətəndaş - vətən daşı" konseptindən yanaşması elmi cəhətdən tamamilə məntiqidir. İlham Əliyevin bilavasitə diqqətini cəlb etmiş "Koroğlu daşı" adlı əfsanədə deyilir: "Koroğlu hara gedir-getsin Çənlibeldən özü ilə bir daş apararmış. Yatanda başının altına qoyarmış. Bu daş Koroğlunun həyanı, yoldaşı olarmış.

Koroğlu dəliləri bir yerə göndərəndə gizlənərmiş, amma harada olduğunu bu daşla bildirərmiş. Dəlilər üstündə nişan olan bu daşı yaxşı tanıyarmışlar.

Bir dəfə Koroğlu öz dəliləri ilə Zəngəzur dağlarına ova çıxır. Hərə bir tərəfə dağılır, hamı bir-birindən aralı düşür. Koroğlu dəliləri bir yerə yığmaq üçün Çənlibel daşını Zəngəzur dağının arasından keçən yola qoyur. Bunu görən dəlilər bir yerə toplaşırlar. Koroğlu daşı yerindən tərpətmir. Deyir, qoy bu daş bizdən yadigar qalsın. O vaxtdan bu daşa "Koroğlu daşı" deyirlər" . ( Azərbaycan mifoloji mətnləri. Tərtib edəni, ön sözün və şərhlərin müəllifi: Arif Acalov. Bakı: Elm, 1988, s. 49-50)

Bu əfsanəni, heç bir hissə qapılmadan, sözün həqiqi mənasında, "vətəndaşlıq" anlayışına qoyulmuş söz abidə hesab etmək olar. Burada Vətən, vətəndaş və Vətənin daşı anlayışları fövqəladə məna diskursu yaradaraq vətəndaş olmağın məhz Vətən daşı olmaqdan başlandığını bəyan edir.

Bəli, "Koroğlu" dastanı hələ Orta əsrlərdən bizlərə Zəngəzuru nişan vermiş, Vətənin taleyüklü hadisələrinin Zəngəzurla bağlandığını bəyan etmişdir. Bəlkə də, bu, kimlərəsə, sadəcə, bir təsadüf, poetik detal, adi bir epizod, yaxud bizim sərbəst bənzətməmiz təsirini bağışlaya bilər.

Sözügedən əfsanədə də vətən özünün bütün mənası, məzmunu və mündəricəsi ilə məhz daşdan başlanır. Elə bu üzdən hər bir azərbaycanlı torpağı, onun hər daşını müqəddəs bilib, göz bəbəyi kimi qoruyur. 44 günlük Vətən savaşında Azərbaycan övladları Vətənin hər qarışı, hər daşından ötrü öz şirin canlarını sanki anaları uğrunda qurban verirmişlər kimi fəda etdilər. Onların bütün dünyanı heyrətə salan cəsarətləri milli yaddaşlarındakı "Vətən - Daş" arxetipinin oyanması, coşması, hər bir igidin Vətənin daşından stixial enerji alaraq yenilməz qəhrəmana çevrilməsinin təzahürü idi. Bu cəhətdən, Azərbaycan və başqa türk xalqlarının qəhrəmanlıq ruhunun, fiziki-stixial energetikasının ümummilli simvolu, poetik təcəssümü olan Koroğlunun da Çənlibeldən götürdüyü daşdan bir an belə ayrılmamağı, onu özü hər yerə aparması, xüsusilə yatarkən başının altına qoyaraq yuxuya getməsi, sadəcə, epik-təsviri detallar olmayıb, xalqımızın eraların, epoxaların dərinliyindən çağlayaraq gələn milli ruhunun kodları, simvolları, şifrələridir.

Öz xalqının milli-mənəvi dəyərlər sisteminə, folklor dünyasına, nağıl və dastanlarına, bayatı və mahnılarına dərindən bağlı olan Ulu Öndər Heydər Əliyev eyni əqidə və xarakteri, eyni sevgi ruhunu övladı İlham Əliyevdə də yaratmış, onda öz xalqının milli-mənəvi dəyərlərinə münasibətdə coşqun məhəbbət formalaşdırmışdır. Heç təsadüfi deyildir ki, həmişə başqa xalqların öz milli qəhrəmanlarına qoyulmuş heykəllərinə baxaraq, Koroğluya heykəl qoyulmasını uzun illər ərzində arzulayan Azərbaycan xalqının bu istəyini cənab İlham Əliyev həyata keçirərək, Bakının ən görkəmli parkında ona möhtəşəm heykəl ucaltdı. Özünün sazı, qılıncı və atı ilə buludların üstü ilə çapan Koroğlu, bu mənada, türklüyün gələcəyinə gedən yolunu simvolizə edir.

## Milli yaddaşın Zəfəri

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, etibarlı əsaslarını, platformasını qurduğu siyasi-milli kurs Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilir. Türk Dövlətləri Təşkilatının qurulması, onun məqsədlərinin həyata keçirilməsi yolunda cənab Prezidentin xidmətləri əvəzsizdir. Çağdaş dünya siyasi məkanının danılmaz və inkarolunmaz simasına çevrilmiş İlham Əliyev COP-29-u respublikamızda keçirməyə nail olmaqla bütün dünyaya, xüsusilə Azərbaycanın düşmənlərinə sübut etdi ki, dünyanın meteoroloji iqlimi kimi, siyasi iqlimini də Azərbaycan və türk dünyası olmadan müəyyənləşdirmək mümkün deyildir. Türk dünyası öz hədəflərinə nail olmalı, dünya siyasi düzənindəki layiqli yerini tutmalıdır. Bu isə min illər əvvəl olduğu kimi, Zəngəzur dəhlizinin açılmasından bilavasitə asılıdır. Ona görə də Türk Dövlətləri Təşkilatının qarşısında indi bu taleyüklü vəzifə durur: Zəngəzur dəhlizini nəyin bahasına olursa-olsun açmaq!

Prezident İlham Əliyev bu vəzifənin tezislərini çox dəqiq şəkildə müəyyənləşdirmişdir:

"Ermənistanın paytaxtı İrəvan - qədim Azərbaycan şəhəridir!"

"Zəngəzur - tarixi Azərbaycan torpaqlarıdır!"

"Biz Zəngəzura, İrəvana qayıdacağıq!"

*Bu şüarlar dünən bir tarixi arzunun, kədər və qüssə dolu həsrətin ifadəsi idisə, bu gün qəti inamla süslənmiş reallığın təntənəsidir. Azərbaycan xalqı Müzəffər Komandan İlham Əliyevin sərkərdəliyi altında cəmi 44 gün ərzində mənfur, nankor, xain və kəmfürsət düşmənin 30 illik işğalına son qoydu. İndi hamı, o cümlədən bütün türk dünyası Zəngəzur dəhlizinin açılacağının reallığına qəti şəkildə inanır. Türk Dövlətləri Təşkilatı da bu dəhlizin açılması yolunda, türk dünyasının birliyi, müstəqilliyi yolunda əldə edilmiş növbəti möhtəşəm qələbədir.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

## Azərbaycanın özü qədər əbədi

# Əbədiyaşar ömür



**Xalqımız Ulu Öndər Heydər Əliyevin Azərbaycan naminə gördüyü böyük işləri illərlə, əsrlərlə unutmayacaq, bu dahi rəhbərə tarix boyu öz ehtiramını ifadə edəcək. Çünki müasir Azərbaycanın müstəqillik tarixi, inkişafı, eləcə də respublikamızın sovetlər dövründəki uğurları, xalqımızın tanıdılması, şöhrət qazanması məhz Heydər Əliyevin adı, fəaliyyəti və yüksək təşkilatçılıq bacarığı, siyasi iradəsi, müdrikliyi ilə bağlıdır.**

Heydər Əliyev hakimiyyətə gəldiyi, respublikaya rəhbərlik etdiyi hər iki çətin dövrdə geridə qalan, tanınmayan, eləcə də təlatümlər içərisində çarpışan, parçalanmaq qorxusu altında olan, qarşıdurmaların meydanına çevrilən, torpaqları işğal edilən, böhranlı bir Azərbaycanı iqtisadi göstəriciləri ilə seçilən, ittifaqda qabaqcıllar sırasına çıxan, uğurları ilə tanınan və qiymətləndirilən, müstəqillik dövründə isə tam fərqli bir formasiyaya qədəm qoyan, möhtəşəm layihələrə imza atan, dünyaya haqq səsini ucaldan - bugünkü qələbələrimizin əsasını qoyan bir Azərbaycana çevirdi, yaratdı, qurdu.

Hər iki - sovet Azərbaycanı və müstəqil Azərbaycan Ulu Öndərimiz üçün bütöv, vahid, bölünməz idi. İctimai-siyasi vəziyyət Heydər Əliyevin vətən, xalq, torpaq sevgisinə, insana qayğısına, vətəndaşlıq borcuna, andına, məsləkinə, inamına heç vaxt kölgə sala bilməmişdi və onu tutduğu yoldan - ədalətdən, həqiqətdən, vətənpərvərlikdən çəkindirməyi bacarmadı. Siyasi müdriklik, insanlara inam, möhkəm iradə və təşkilatçılıq, təmkinli, cəsarətli addımlar, tarixinə, dilinə, dininə, milli-mənəvi dəyərlərinə hörmət, azərbaycançılıq Heydər Əliyevin fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindən idi və o, bu amallara ömrünün sonuna kimi sadiq qaldı. "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır", "Tarix həmişə hər şeyi öz yerinə qoyur", "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır", "Xalq gərək daim öz kökünü xatırlasın" ifadələrinin mayasında Heydər Əliyevin ürəyinin döyüntüsü, istəyinin səsi, inamının məğlubedilməzliyi yurd salmışdır.

Ümummilli Lider dövlət vəzifələrində çalışdığı bütün dövrlərdə öz səlahiyyətlərindən, imkanlarından dövlətin və xalqın inkişafı, rifahı üçün istifadə etmiş, ən çətin anlarda öz xalqının yanında olmuşdur. 1969-1982-ci illərdə Azərbaycanı iqtisadi, mənəvi böhrandan, 1993-cü ildə qarşıdurmalardan, parçalanmadan xilas edən, müstəqilliyimizi qoruyub saxlayan, o illərdə bu günümüzün möhkəm bünövrəsini qoyan Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə göstərdiyi xidmətlər, həyata keçirdiyi mühüm tədbirlər, həyatı bahasına insanlarımızın xilası, xoşbəxtliyi uğrunda atdığı cəsarətli addımlar, siyasi gedişlər hesabagəlməzdir. Azərbaycan xalqı bu xidmətləri unutmaz və heç vaxt unutmayacaq. Çünki bu xidmətlər nəinki respublikamızın dünəninə, əslində, bu gününə, gələcəyinə hesablanmışdı. Heydər Əliyev əsrlərlə irəlini görən, Azərbaycanın müstəqilliyinə, torpaqlarımızın azadlığına, suverenliyimizin tam təmin olunacağına inanan və bunu əvvəlcədən görən bir rəhbər, qətiyyətli insan, sədaqətli vətəndaş idi. Sovetlər hakimiyyətinin hökm etdiyi bir vaxtda dövlətin rəhbəri M.Qorbaçovu Azərbaycan xalqının düşməni adlandırmaq, mənfur siyasətinə qarşı çıxıb tənqid etmək, Azərbaycanın üçrəngli bayrağını Naxçıvanda ucaltmaq, ovaxtkı respublika rəhbərini səriştəsizlikdə, dönüklükdə ittiham etmək, insanları müstəqillik uğrunda mübarizəyə səsləmək böyük cəsarət, qətiyyət, özünə inam tələb edirdi və bunu yalnız Heydər Əliyev kimi xalqına ürəkdən bağlı olan şəxsiyyət bacara bilərdi.

Ulu Öndər bu günümüz və gələcəyimiz üçün canını, həyatını qurban verdi



və xoşbəxt sabahımızı təmin etdi. İlk növbədə bu yol ictimai-siyasi sabitlikdən, iqtisadi inkişafdan, xalqın birliyindən keçirdi və dahi rəhbər dövrün reallıqlarını, hadisələrin gedişini zərgər dəqiqliyi ilə nəzərə alaraq qətiyyətli tədbirlər görürdü. Bu xüsusiyyətlər Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərinə aiddir və o, yaxşı bilirdi ki, ölkədə ictimai-siyasi sabitliyi, həmrəyliyi, birliyi təmin etmədən, iqtisadiyyatı dirçəltmədən heç bir uğura nail olmaq, xalqın rifahını tam təmin etmək mümkün deyildir. Heydər Əliyev 1993-cü ildən sonrakı fəaliyyəti bu əsasda daha xarakterik və yaddaqalandır. O, ölkədə hərc-mərcliyin, özbaşınalığın hökm sürdüyü, vətəndaş müharibəsinin yetişdiyi, torpaqlarımızın erməni təcavüzkarları tərəfindən işğal edildiyi və işğalın günbəgün genişləndirildiyi bir vaxtda ikinci dəfə hakimiyyətə gəldi. Qarşıya qoyduğu başlıca vəzifə - insanları ələ almaq, birləşdirmək, sabitlik yaratmaq, silahlı qruplaşdırmaları ləğv etmək, çətin günlərdə atəşkəsə nail olmaq oldu. Əlbəttə bu, o dövrdə ən düzgün, düşünülmüş yol və Heydər Əliyev tərəfindən ustalıqla seçilmiş istiqamət idi. Ulu Öndər bu yolu çox uğurla keçdi, qarşıya qoyduğu vəzifəni məharətlə yerinə yetirdi və sonrakı gedişdə iqtisadi məsələləri ön plana çəkdi. Bu, Heydər Əliyevin müdrikcəsinə işləyib hazırladığı neft strategiyası idi. Müstəqilliyini yenicə qazanan, işğala və xarici təsirlərə məruz qalan, böhranın hökm sürdüyü o çətin günlərdə "Əsrin müqaviləsi"nin imzalanması asan məsələ deyildi. Bu sazişin imzalanması Azərbaycanı iqtisadi böhrandan çıxarmaqda, ordunu gücləndirməkdə, iqtisadiyyatı dirçəltməkdə, xalqın güzəranını müəyyən dərəcədə yaxşılaşdırmaqda başlıca rol oynayırdı.

Heydər Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycanın yeraltı və yerüstü sərvətlərindən istifadənin səmərəli yollarını dəfələrlə araşdırmış və hansı istiqamətlərə yönəldilməsini müəyyənləşdirmişdi. "Əsrin müqaviləsi"nin imzalanması, zəngin enerji potensialına malik ölkəmizin təbii sərvətlərindən düşünülmüş, xalqın və dövlətin maraqları, mənafeyi naminə istifadə edilməsi Heydər Əliyevin arzusu yox, amalı və əməli idi. Bu müqavilənin imzalanması Azərbaycanın iqtisadi cəhətdən tam müstəqil bir dövlət olduğunu sübut etməklə bərabər, həm də Ümummilli Liderimizin dünyada böyük hörmətə və ehtirama layiq siyasətçi, rəhbər olduğunu sübut etdi.

Dahi rəhbərin şah əsəri olan neft strategiyası Azərbaycan intibahının iqtisadi, siyasi, sosial yüksəlişinin əsasını qoymaqla, dünyaya çıxış, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi üçün böyük imkanlar yaratdı. "Əsrin müqaviləsi"ndən sonra respublikamıza maraq daha da artdı və o, bir çox mühüm layihələrin həyata keçirilməsi, imzalanması üçün əsasa çevrilməklə yanaşı, dövlətimizə qarşı yönəlmiş bir çox məkrli niyyətin qarşısını aldı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərindən sonra "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə o illərdə açıqlanan proqnozlar, təşəbbüslər indi həyatda öz əksini tapır. Prezident İlham Əliyev Ulu Öndərin neft strategiyasını çox uğurla davam etdirir və yeni layihələrə imza atmaqla dövlətimizi tək neft-qaz ölkəsi kimi deyil, alternativ enerji mənbələrinə, nəqliyyat marşrutlarına malik bir ölkə kimi tanıdır. İstismar müddəti 2050-ci ilədək uzadılan Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan, eyni zamanda Türkmənistanın, Qazaxıstanın da nefti dünya bazarlarına çıxarılır.

Təhlükəsizlik, iqtisadiyyat, enerji və təminat məsələlərini əhatə edən Orta dəhliz layihəsinin əsas iştirakçılarından biri olan, bərpaolunan enerji mənbələrindən istifadə sahəsində mühüm tədbirləri reallaşdıran və zəngin təcrübə qazanan Azərbaycanın enerji diplomatiyasının uğurları, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolu dünya dövlətləri tərəfindən yüksək qiymətləndirilir, ölkəmizin beynəlxalq və regional əhəmiyyətini artırır. Haqlı olaraq qeyd edilir ki, qitə dövlətlərinin əsas enerji ixracatçısı kimi diqqəti cəlb edən Azərbaycanın "yaşıl enerji" sahəsində əldə etdiyi nailiyyətlər, bərpaolunan enerji potensialının artması, quruda külək və günəş enerjisinin həcminin 27 qiqavatdan çox olması, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisinin 157 qiqavat təşkil etməsi Ulu Öndər Heydər Əliyevin qarşıdakı onilliklər üçün müəyyənləşdirdiyi neft strategiyasının təkzibolunmaz uğurlarıdır. Bu uğurlar cənab İlham Əliyevə daha möhtəşəm layihələrə imza atmağa imkan verməklə Azərbaycanın dünyada enerji təhlükəsizlikləri ilə bağlı mövqeyini möhkəmləndirir. Ölkəmizin rəhbərinin Qarabağ və Şərqi Zəngəzur, Naxçıvan Muxtar Respublikasını xalis sıfır emissiyalı "yaşıl enerji zonası" elan etməsi mütərəqqi siyasətə dəstək verilməsinin nümunəsidir. COP29-un Liderlər Sammitinin açılış mərasimində Şimal və Cənubun, Qərb və Şərqin qovuşduğu məkanda yerləşən Azərbaycanın çoxtərəfli əməkdaşlığa, enerji təhlükəsizliyinin təmin olunmasına böyük önəm verdiyini diqqətə çatdıran Prezident İlham Əliyevin qeyd etdiyi kimi, çoxtərəfliliyin tərəfdarı olan Azərbaycan, eyni zamanda mədəniyyətlərarası dialoqa töhfə verən ölkədir.

"Heydər Əliyev siyasəti Azərbaycana böyük uğurlar gətirib" ifadələrini dəfələrlə səsləndirən və bu siyasətə öz sadiqliyini, ehtiramını əməli fəaliyyəti ilə sübut edən cənab İlham Əliyev bu gün öz əməlləri, çağırışları, bəyanatları ilə dünyaya nümunə göstərir, Azərbaycanı qurur, ucaldır və şöhrətləndirir. "Əsrin müqaviləsi" ilə başlayan, "Cənub qaz dəhlizi" ilə əlaqələri möhkəmləndirən, ölkələri birləşdirən, COP29 kimi dünya əhəmiyyətli bir tədbirə evsahibliyi edən və iqlim dəyişikliklərinin yaratdığı ciddi problemlərin aradan qaldırılmasına böyük töhfə verən, enerji siyasətinə "Yaşıl dünya naminə həmrəylik" çağırışları bəşəriyyətə bir daha elan edən Azərbaycanın siyasi gedişlərinin dəstəklənməsi və dövlətimizin uğurlarının dünya dövlətləri tərəfindən qiymətləndirilməsi Ulu Öndərimizin ölməz ideyalarının cənab İlham Əliyev tərəfindən bacarıqla, uzaqgörənliklə yerinə yetirilməsinin nəticəsidir.

Torpaqlarımızın düşməndən azad edilməsi, suverenliyimizin tam bərpa olunması, keçmiş köçkünlərin öz ata-baba yurdlarına qayıtması, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında möhtəşəm bərpa, tikinti-təmir, quruculuq işlərinin həyata keçirilməsi Heydər Əliyev vəsiyyətlərinin, arzularının həyata keçirilməsi, öz əməlləri ilə Azərbaycan xalqının, nəsillərin qəlbində əbədiləşən dahi şəxsiyyətin, rəhbərin ruhunun sevindirilməsidir. Cənab İlham Əliyev 30 il düşmən tapdağı altında inləyən torpaqlarımızı, viran edilən şəhər və kəndlərimizi, dağıdılan tarixi, dini, mədəni abidələrimizi düşməndən azad etməklə nəinki ata vəsiyyətinə əməl etdi, şəhidlərimizin ruhunu sevindirdi, nisgilli bacı-qardaşlarımızın, ata-analarımızın yaralarına məlhəm qoydu, eləcə də dünyaya iradəli, uzaqgörən, cəsarətli dövlət başçısı, mübariz, döyüşkən, bir olan xalq, güclü ordu və yenilməyən, qalib Azərbaycan təqdim etdi. Elə bir Azərbaycan ki, o, Heydər Əliyevin ideyaları ilə silahlanıb, İlham Əliyev kimi cəsarətli rəhbəri, Ali Baş Komandanı, döyüşkən xalq və ordusu vardır. Bu birlik, cəsarət və sədaqətlə Azərbaycan daha böyük uğurlara yollar açır və Ulu Öndərimizə əbədi, əsrlər boyu yaşayacaq və xatırlanacaq bir ömür bəxş edir.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Qüdrətli Azərbaycan Heydər Əliyevin arzularının təcəssümüdür

**Müasir Azərbaycan dövlətinin qurucusu, öz əməlləri ilə xalqımızın qəlbində əbədi yaşayan Ulu Öndər Heydər Əliyevin vəfatından 21 il ötür. Xatirəsini daim böyük ehtiramla andığımız, barəsində həmişə qürurla söz açdığımız bu böyük şəxsiyyətlə bağlı zaman keçdikcə daha çox danışmağa ehtiyac duyuruq.**

Çünki geridə qoyduğumuz hər il ərzində cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız saysız-hesabsız nailiyyətlər bizə Heydər Əliyevin barəsində bəhs etmək üçün yeni-yeni mövzular verir. Dövlətimizin, xalqımızın hər bir uğurunun təməlində Ulu Öndər Heydər Əliyevin yolunun davam etdirilməsi, ideyalarının yaşadılması dayanır.

Heydər Əliyev elə bir zirvədir ki, onun ucalığından Azərbaycanın dünəni, bu günü və sabahı aydın görünür. Azərbaycanın son 55 illik tarixinin böyük bir zaman kəsiyi bu dahi insanın adı, əməlləri və ideyaları ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin və siyasi fəaliyyətinin bütün dövrlərində respublikamızın taleyində böyük rol oynayan tarixi missiyalar yerinə yetirib. Ötən əsrin 70-80-ci illərində Azərbaycanı keçmiş sovetlər ittifaqının qabaqcıl dövlətləri cərgəsinə çıxaran Heydər Əliyev, daha sonra milli müstəqilliyimiz uğrunda mübarizəyə özünün layiqli töhfələrini verib. 1990-cı ildə Naxçıvana qayıtmaqla, onu işğaldan qoruyan Heydər Əliyev 1993-cü ildə müstəqilliyimizi və dövlətçiliyimizi xilas edib, əməlləri ilə xalqımızın Ümummilli Lideri adını alıb.

Heydər Əliyevin müəllifliyi ilə ölkəmizin çağdaş tarixinin qürurdoğuran səhifələri yazılıb. Onun ən çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə qətiyyətli, eyni zamanda yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcək.

Heydər Əliyev Azərbaycanı zirvələrdə görmək istəyirdi. Ulu Öndərin respublikamızın yüksəlişi ilə bağlı arzuları çox idi və o, Azərbaycanın qarşıda dayanan bütün hədəflərə çatacağına əmin idi, buna inanırdı.

Ömür vəfa etməsə də, Heydər Əliyevin arzuları həyata vəsiqə alır və cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksələn Azərbaycan öz uğurları ilə Ulu Öndərin arzularının gerçəkləşməsini təcəssüm etdirir. 2003-cü ildən bəri ölkədə çoxlu mütərəqqi dəyişiklik baş verib. Respublikamız inkişaf edib, beynəlxalq birlikdəki mövqelərini daha da gücləndirib, regionda və dünyada söz sahibinə çevrilib. Çox uzağa getmədən, elə bu günlərdə Milli Məclisin iclaslarında müzakirə olunan 2025-ci ilin dövlət büdcəsinin göstəricilərinə nəzər salmaqla respublikamızın nə qədər irəli getdiyini görə bilərik. 2003-cü ildə respublikamızda dövlət büdcəsinin gəlirləri 1 milyard 220,9 milyon manat səviyyəsində olmuşdur. Gələn ilə isə büdcəmizin gəlirləri artıq 40 milyard manata yaxın olacaq. Bu isə 33 dəfədən çox artım deməkdir. Yalnız bir makroiqtisadi göstəricinin fonunda keçdiyimiz inkişaf yolu aydın görünməkdədir.

Ulu Öndərin arzularının layiqincə reallaşdırıldığını göstərən əsas uğurlardan biri onun müəllifi olduğu enerji siyasətinin təntənəsidir. Heydər Əliyevin müəyyən etdiyi enerji siyasətinin layiqincə davam etdirilməsinin nəticəsi olaraq Azərbaycan regionun və Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edib. Ulu Öndərin 2002-ci il sentyabrın 18-də təməlini qoyduğu və Prezident İlham Əliyevin qətiyyəti ilə qısa müddətdə tikintisi başa çatdırılan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Azərbaycan qazını tarixdə ilk dəfə olaraq Avropa bazarlarına çatdıran "Cənub qaz dəhlizi" məhz Ulu Öndərin arzularının ifadəsinə çevrilən tarixi nailiyyətlərimizdir.

Heydər Əliyevin ən böyük arzusu isə, əlbəttə ki, işğal olunmuş ərazilərimizin azad edilməsi idi. Müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Ulu Öndər bu taleyüklü problemin həlli üçün var gücü ilə çalışdı. Onu da unutmamalıyıq ki, o dövrdə Azərbaycan iqtisadi baxımdan indiki qədər qüdrətli deyildi, enerji layihələrimiz hələ işə salınmamışdı. Ordumuz indiki kimi ən müasir döyüş imkanlarına malik deyildi. Buna baxmayaraq, məhz Heydər Əliyevin müdrik və qətiyyətli siyasəti ilə hələ ötən əsrin 90-cı illərindən Dağlıq Qarabağ probleminin Azərbaycanın milli maraqlarına



cavab verən hüquqi əsaslar, müəyyən edilmişdi. 1996-cı ilin dekabrında keçirilmiş ATƏT-in Lissabon Sammitində 53 Avropa dövlətinin dəstəklədiyi prinsiplərdə Dağlıq Qarabağ probleminin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli öz əksini tapmışdı. Yalnız Ermənistan bu prinsiplərə qarşı çıxmışdı.

O illərdə aparılan danışıqlarda Azərbaycanın milli maraqlarından bir addım belə geri çəkilməyən, ərazilərimizdə ikinci erməni dövlətinin yaradılması ilə bağlı Qərbin ermənipərəst siyasi dairələrinin təzyiqlərini qətiyyətlə dəf edən Heydər Əliyev torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırdı. Ulu Öndər bu inamını ayrı-ayrı vaxtlarda məcburi köçkünlərlə keçirdiyi görüşlərdə də ifadə edirdi. "Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da əzizdir. Laçın Azərbaycanın ən yüksək dağları, gözəl, səfalı meşələri, bulaqları, çayları olan bir diyarımızdır. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, məkan, bağ-bağat, gözəl yer, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu - biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik", - deyə Heydər Əliyev 1998-ci il martın 20-də Mərdəkandakı "Abşeron" sanatoriyasında məcburi köçkünlərlə görüşündə bildirmişdi.

Cənab Prezident İlham Əliyev müdrik rəhbərliyi və siyasi qətiyyəti ilə Ulu Öndərin bu arzusunu, inamını və həm də vəsiyyətini yerinə yetirdi. Azərbaycanı inkişaf yoluna çıxaran möhtərəm İlham Əliyev həm də torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi. Dövlətimizin başçısı tarixi bir missiyanı siyasi lider və sərkərdə qətiyyəti ilə yerinə yetirdi, Müzəffər Ali Baş Komandana çevrildi.

Azərbaycanın bütün bunların fonunda Heydər Əliyev siyasi yolunun ən doğru yol olması həqiqəti bir daha öz təsdiqini tapdı. Qüdrətli və qalib dövlətin vətəndaşı olmağımız hər birimiz üçün böyük fəxarətdir. Ona görə anım günündə Ulu Öndərin əziz xatirəsini həm də böyük qürurla anırıq. İşğaldan azad edilmiş ərazilərimizin bərpasının və Qərbi Azərbaycana qayıdış ideyasının fonunda respublikamızı qarşıda yeni uğurlar və yeni milli hədəflər gözləyir. Bütün bunlara gedən yolda Heydər Əliyevin ideyaları hər zaman əsas istinad mənbəyimiz olacaq.

**Nəsib MƏHƏMƏLİYEV,**
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi

# Dahiliyin HEYDƏR ƏLİYEV qüdrəti

**"Milli ideologiya, ilk növbədə dövlətçilikdən ibarətdir. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun".**



Dahi liderimiz, Ulu Öndər Heydər Əliyevin vaxtilə söylədiyi bu müdrik kəlamlar bugünkü qüdrətli Azərbaycanın yüksəlişinin təməl prinsiplərində, yol xəritəsində bir mayak rolunu oynayıb desək yanılmarıq. Məhz bu siyasi xətt Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirə bildi. Müstəqilliyini itirmək, bir dövlət kimi məhv olmaq təhlükəsindən qurtularaq inkişaf yoluna qədəm qoyan bir ölkə həmin yüksəliş strategiyasına uyğun addımlayaraq istəyinə nail oldu.

### Xalqa əvəzsiz xidmət missiyası

Əlbəttə ki, istənilən ölkədə müstəqil dövlətçilik konsepsiyasının formalaşması məhz fenomenal liderlərin adı ilə bağlıdır. Bu xalqlar içərisində azərbaycanlıların da adının çəkilməsi bizim üçün fəxarətdir.

Ulu Öndər Heydər Əliyev yaşadığı əsrin dahi siyasətçisi, iradəli, cəsarətli, bacarıqlı liderlərindən biri idi...

Liderlik keyfiyyətləri ilə diqqətləri cəlb edən dünyaşöhrətli diplomat, dünyanın ən böyük azərbaycanlısı idi...

Məhz buna görə də Azərbaycan xalqı xilaskar liderinin əziz xatirəsini hər zaman dərin ehtiramla anır.

Xoşbəxt xalqıq ki, Tanrı bizə Ümummilli Lider kimi tarix yaradan şəxsiyyət bəxş edib. Dövlətinin, xalqının ən ağır günündə üzərinə götürdüyü məsuliyyəti bacarığı, istedadı, uzaqgörənliyi ilə həll edib xilaskar liderə çevrilən Ulu Öndər tarixi proseslərə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün böyük və əvəzedilməz işlər həyata keçirib.

Bəlkə də Ulu Öndər Heydər Əliyev olmasaydı, nəinki bu gün tarixin ən qüdrətli Azərbaycanı var idi, heç bəlkə də, onun müstəqilliyindən əsər-əlamət yox idi. Parçalanmış, torpaqları tamamilə işğal edilmiş, pərən-pərən düşmüş bir xalq kimi yaşayırdıq...

Amma Ulu Öndərin xilaskarlıq missiyası sayəsində hazırda Azərbaycan dünyada sayılıb-seçilən, söz-nüfuz sahibi olan, iqtisadi müstəqilliyini təmin edən, müstəqil siyasət yürüdən ölkə kimi tanınır. Bütün bu uğurlar Heydər Əliyevin vaxtilə müəyyənləşdirdiyi inkişaf konsepsiyasının bəhrəsidir.

Müstəqil Azərbaycanı böyük dünya siyasətinə qovuşduran siyasi liderin həyatı və irsi barədə düşünərkən gözlərimiz önündə onun heyrətamiz intellekti, işıqlı ideyaları, xüsusilə dəyərli əxlaqi və siyasi siması canlanır. Hər kəs bu dahi şəxsiyyətlə bağlı hər hansı bir fikir söyləyərkən böyük şərəf və məsuliyyət hissi keçirir.

Azərbaycanın tarixdə müdrik dövlət adamları çox olub. Onların sırasında Ulu Öndər Heydər Əliyev ayrıca və misilsiz mövqe tutur. Həmin mövqe tarixin bu böyük şəxsiyyətin öhdəsinə qoyduğu missiyanın, vəzifələrin mürəkkəbliyi ilə bağlı idi. Bu missiya müstəqil Azərbaycan dövlətini yaratmaq, inkişaf etdirib dünya düzəninə çıxarmaq və dünyaya Günəş kimi doğan dövlətə çevirmək idi.

Ömrünü xalqına, dövlətinə bağışlayan dahi şəxsiyyət bunlardan ikisinə nail oldu. Azərbaycanı müstəqil dövlət kimi qurdu və dünyaya tanıtdı. Onun yarımçıq qalan işini siyasi və həyat məktəbinin ən layiqli məzunu cənab İlham Əliyev davam etdirərək tamamladı. Azərbaycanın suverenliyini tam bərpa edib tarixinin ən qüdrətli dövlətini formalaşdırdı.

Parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhvolma təhlükəsindən qoruyub saxlayan, onu yaşadan və bu dövlətin bütün atributlarını qurub-yaradan Ümummilli Liderin Vətən və xalq qarşısında xidmətləri əvəzsizdir. O, hakimiyyətdə olduğu illərdə Azərbaycanı sosial-iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən inkişaf etmiş ölkəyə çevirdi. Azərbaycanın hərtərəfli inkişafı Ulu Öndərin adı, şəxsiyyəti, dövlətçilik təfəkkürü, idarəetmə məharəti və yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Ən yüksək tribunalardan böyük iftixarla "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləyən bu böyük şəxsiyyət, ilk növbədə, dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoydu, Azərbaycanın reallıqlarını, ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratdı.

Böyük strateq hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri ilə, habelə bir neçə onilliklərdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider olmasını sübut etdi.

### 13 ilin möhtəşəm uğurları

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci və 1993-2003-cü illəri əhatə edən hər iki zaman kəsimində dövlətçiliyimizin təməllərini çox möhkəmləndi.

Azərbaycana rəhbərliyinin birinci dövründə - 1969-1982-ci illəri əhatə edən 13 illik tarixi dövrdə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi ilə respublikamızda bütün sahələrin inkişafında böyük sıçrayışa nail oldu. Parlaq siyasi zəka və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaradıb və gələcəyə aparan yolları müəyyən edib. Ulu Öndər, sözün əsl mənasında, möcüzələr yaradıb.

Onun Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmiz imperiyanın 15 respublikası arasında sosial-iqtisadi duruma görə 14-cü yerdə idi. Ölkədə dərin tənəzzül yaşanırdı. Məhz belə bir çətin dönəmdə Ümummilli Lider üzərinə böyük məsuliyyət götürdü və sovet imperiyasının bütün ideoloji-siyasi maneələrinə baxmayaraq, ən ağır vəzifənin öhdəsindən gəlməyi bacardı, Azərbaycanın inkişaf konsepsiyasını formalaşdırdı. Danılmaz həqiqətdir ki, 1960-cı illərin axırlarında Azərbaycan iqtisadi-sosial, həmçinin milli-mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş oldu. Milli ruhun inkişafı və intibahı dövrü başladı. Həmin zamanda Azərbaycan keçmiş ittifaqda sosial-iqtisadi göstəricilərinə görə geridə idi. Amma Ulu Öndər qeyri-adi idarəçilik bacarığı, polad iradəsi ilə respublikamızda bütün sahələrin inkişafında böyük sıçrayışa nail oldu, Azərbaycanı inkişaf səviyyəsinə görə ittifaqda 14-cü yerdən 4-cü yerə yüksəltdi. Düzdür, digər ölkələr də yerində saymırdı, onlarda da inkişaf gedirdi. Amma Heydər Əliyev zəkası, idarəçilikdə dinamikası elə möhtəşəm səviyyədə idi ki, Azərbaycan daha sürətlə irəliləyirdi.

Bu qısa zamanda Azərbaycanın nailiyyətləri hər kəsi heyran edirdi. Əgər diqqət etsək görərik ki, bu az zaman ərzində məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verilib. Sənaye və kənd təsərrüfatı istehsalı 2,7 dəfə artıb, tələbat mallarının istehsalı 3 dəfə yüksəlib, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 2,6 dəfə çoxalıb. Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona, pambıq istehsalı 299,4 min tondan 831,2 min tona qalxıb. Neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artıb. Sənayedə 4400 adda yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olunub. Bunlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilib.

Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərliyi dövründə - cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırılıb. 1972-ci ildə Bakıda indiki Heydər Əliyev sarayının, 1975-ci ildə Bakı Məişət Kondisionerləri Zavodunun açılışı olub. 1976-cı ildə Yuxarı Xanbulançay su anbarının tikintisi başa çatdırılıb, daha sonra Sərsəng su anbarı, Bakı Dərin Özüllər Zavodu istifadəyə verilib. 1980-ci ildə "Gülüstan" sarayı tikilib, Yeni Əhmədli, Günəşli kimi böyük yaşayış massivləri, həmçinin mikrorayonlar salınıb. 1969-1982-ci illərdə ölkəmizdə ümumilikdə 20,4 min kilometr uzunluğunda asfalt yollar çəkilib.

Ulu Öndərin ən çox diqqət yetirdiyi sahələrdən biri də təhsil sahəsi idi. Azərbaycanın gələcəyini etibarlı əllərdə görmək istəyən dahi lider gənc nəslin hərtərəfli təhsil alması üçün əlindən gələni əsirgəmirdi. 1969-1982-ci illərdə ölkədə 770-ə qədər məktəb binası istifadəyə verildi. Respublikada ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırıldı. Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin olundu. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikamızdan kənara hər il 47 nəfər ali təhsil almağa göndərilirdi. Göndərilən 47 nəfərin də az bir hissəsini azərbaycanlılar təşkil edirdi. 1975-ci ildə isə onların sayı 700 nəfərə çatdı. Həmin dövrdən başlayaraq azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ilk növbədə ziyalılarımız azad nəfəs almağa başladılar.



Azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr həm də milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilib. Məhz bu qələbələr, nailiyyətlərlə Azərbaycan müstəqillik dövrünə hazırlanıb. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz Ulu Öndərin hakimiyyətə gəlişindən sonra başlayıb.

### Naxçıvandan başlayan müstəqillik və yüksəliş yolu

Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Ulu Öndər Heydər Əliyev ona bəslənilən ümidləri layiqincə doğrulda bilib. Təsadüfi deyil ki, sovet illərində olduğu kimi, müstəqillik dövründə də məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan bütün təbəddülatlardan xilas olmağı bacarıb. Bu baxımdan tarixi həqiqətdir ki, əgər 1993-cü ilin gərgin və böhranlı iyun günlərində Ulu Öndər siyasi hakimiyyətə qayıtmasaydı, indi bəlkə də nə müstəqilliyimiz, nə də dövlətçiliyimiz var idi.

Heydər Əliyev siyasi rəhbərliyin bütün maneələrinə, hətta sui-qəsd təhlükələrinə baxmayaraq, 1990-cı ilin iyulunda əvvəl Bakıya, sonra ananın olduğu qədim Naxçıvan torpağına döndü. Bununla da Azərbaycanın qurtuluş missiyası Naxçıvandan başladı.

Qısa müddətdən sonra Ulu Öndərin Naxçıvan Ali Məclisinin sədri seçilməsi, əslində, tək Naxçıvan sakinlərinin deyil, bütün Azərbaycan vətəndaşlarının seçimi, istəyi idi. Bu vəzifədə çalışdığı iki ilə yaxın dövrdə Heydər Əliyev elə möhtəşəm işlər gördü ki, onlar əhəmiyyət və miqyasına görə neçə-neçə onilliyə örnək ola bilər. Ümummilli Lider bu qədim diyarı bədnam ermənilərin işğal etməsinə imkan vermədi, onun müdafiə qüdrətini möhkəmləndirdi, hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər həyata keçirdi. Blokada şəraitində yaşayan, Bakıdakı rəhbərliyin davamlı təzyiqlərinə və maneələrinə məruz qalan Naxçıvanda əsl müstəqillik və dövlətçilik modeli yarandı. Təsadüfi deyil ki, müstəqillik və dövlətçiliklə bağlı bütün rəsmi qərarlar Azərbaycan Ali Soveti tərəfindən yox, Naxçıvan Ali Məclisi tərəfindən qəbul olunmuşdu. Müstəqillik və dövlətçiliklə bağlı təşəbbüslərin müəllifi də Azərbaycana o zaman rəhbərlik edən prezidentlər deyil, məhz Heydər Əliyev idi.

Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdiyi halda, 1991-ci ildə hətta SSRİ dağılandan sonra belə o dövrün hakimiyyəti SSRİ-dən çıxmağa qorxurdu. Nəticədə, öncə Bakıda qaldırılmalı olan üçrəngli bayrağı, yalnız Heydər Əliyev cəsarət edib Naxçıvanda qaldırdı.

Həmin tarixi anı Ulu Öndər sonralar belə dəyərləndirmişdir: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən etdik. Hələ Kommunist Partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

34 il öncə, 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında ucaltdığı bayrağımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdə qətiyyəti ilə bu gün Qarabağda, Şərqi Zəngəzurda, bütün Azərbaycanda qürurla dalğalanır.

Ulu Öndərin Naxçıvan Ali Məclisinin sədri kimi qəbul etdiyi mühüm qərarlar, həyata keçirdiyi məqsədyönlü tədbirlər yeni müstəqillik qazanmış dövlətin aparmalı olduğu islahatların mahiyyətini təşkil edirdi və 1993-cü ildən sonra bütün Azərbaycana şamil olunacaq yeni inkişaf kursunun da əsası idi.

SSRİ rəhbərliyinin imperiya siyasətinə və ermənipərəst mövqeyinə etiraz əlaməti olaraq Azərbaycan xalqı azadlıq hərəkatına qalxdı. Xalqımızın müstəqillik əzmini qırmaq üçün 1990-cı ilin yanvarında imperiya tərəfindən Bakıya qoşun yeridildi və qanlı qırğın törədildi. Azərbaycan xalqının taleyinə biganə qala bilməyən Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi qırğınlar ilə əlaqədar bəyanat verdi.

1990-cı illərin əvvəllərində insanlar Heydər Əliyevin fəal siyasətə dönüşünə Azərbaycanın milli qurtuluşunun başlanğıcı kimi baxırdılar. Azərbaycanda yaranmış hakimiyyət böhranı, artan erməni işğalları Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişini qətiləşdirirdi. Xalqın iradəsi ilə baş tutan və tariximizə Qurtuluş Günü kimi düşən bu hadisə həm də Azərbaycanın xilası oldu.

1992-ci il noyabrın 21-də Naxçıvanda xalqın marağı ilə yaşayan 550 nəfər ziyalıdan ibarət təşəbbüs qrupunun iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda Ulu Öndər Heydər Əliyevin yekdilliklə partiyanın sədri seçilməsinin məntiqi nəticəsi olaraq YAP qısa müddət ərzində cəmiyyətin aparıcı qüvvəsinə, xalqın ən etibarlı tribunasına çevrildi.

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzül yaşayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı. Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan böyük tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Bir tərəfdən, ölkədə yaranmış xaotik vəziyyəti nizamlayan Ulu Öndər, digər tərəfdən, erməni işğalına qarşı qlobal miqyasda savaşa başladı. Məhz Heydər Əliyevin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı. Ulu Öndərin inkişaf konsepsiyasına uyğun atılan bütün addımlar hər sahədə yüksəliş şərtləndirdi. 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən heç bir il keçməmiş ordu quruldu, əks hücumla Cəbrayılın, Füzulinin kəndləri, Horadiz qəsəbəsi düşməndən azad olundu, Ermənistan o zaman bizim çox ehtiyacımız olan atəşkəsə məcbur edildi.

Sonrakı illərdə bizi inkişafa, tərəqqiyə aparan yol məhz Ulu Öndərin sayəsində başlandı. "Əsrin müqaviləsi"ni imzaladı, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu, ölüm hökmü və senzura ləğv edildi, azərbaycanlıların soyqırımı və deportasiyası haqqında tarixi fərmanlar verdi, azərbaycançılıq hakim ideologiyaya çevrildi. Ulu Öndər Qarabağ həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olanları etdi, Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına nail oldu. Heydər Əliyev yenidən hakimiyyətə gəlməklə vətəndaş müharibəsi və qardaş qırğınına son qoydu, balanslaşdırılmış xarici siyasətə nail oldu, dövlət-din münasibətlərini tənzimlədi.

### Heydər Əliyev idealları və irsini yaşadan fond

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidməti xalqın taleyini öz siyasətinin layiqli davamçısı cənab İlham Əliyevə etibar etməsi oldu.

Hazırda Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayırsa, əminliklə deyə bilərik ki, bu, Heydər Əliyevin gerçəkliyə çevrilən ideyalarının bəhrəsidir. Onu reallaşdıran, uğurla həyata keçirən isə böyük strateq Heydər Əliyevin məktəbinin ən layiqli məzunu cənab Prezident İlham Əliyevdir.

Adını Azərbaycan tarixinə Müzəffər Sərkərdə kimi yazdıran Ali Baş Komandan məhz dahi şəxsiyyətdən öyrəndiyi siyasi kursu, daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 21 ildə ölkəmiz misli görünməmiş uğurlara imza atan dövlət kimi tanındı. Azərbaycanda bu gün əldə olunan böyük nailiyyətlər, qazanılan zəfərlər Ulu Öndərin əsasını qoyduğu təməllərin nəticəsidir. Demək, Heydər Əliyev həm də bütün uğurlarımızda, inkişafımızda yaşayır. Çox əlamətdar haldır ki, Ulu Öndəri xalqın nəzərində yaşadan bir müəssisə də var - Heydər Əliyev Fondu.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond dahi şəxsiyyətin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılıb. 20 il öncə, 2004-cü ildən fəaliyyətə başlayan fond ölkəmizdə təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfəsini verir.

Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir.

Ulu Öndərin ideallarını yaşadaraq ümumbəşəri dəyərlərə mühüm töhfələr verən Mehriban xanım Əliyeva bu xoş məramı ilə beynəlxalq ictimaiyyətin böyük hörmət və rəğbətini də qazanmağı bacarıb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sərhəd tanımayan xeyirxah təşəbbüsləri ona dünyada böyük nüfuz qazandırıb.

Qarabağın və Şərqi Zəngəzurun quruculuğunda və bərpa işlərində yenə də daim bu torpaqların böyük himayədarı olmuş Ulu Öndər Heydər Əliyevin şərəfli adı, müqəddəs imzası var. Dahi şəxsiyyətin adını daşıyan fond bu prosesdə yenə də ön sıradadır. Hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə də tarixi-mədəni irsin bərpasında, sosial-humanitar infrastrukturun yaradılmasında, quruculuq və abadlıq işlərində böyük fədakarlıq göstərir.

Mehriban xanım Əliyevanın göstərişi ilə başlanılan xüsusi layihələrin icrasına yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Bərpa prosesində Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən gələn mütəxəssislər də iştirak edirlər. Bildiyimiz kimi, Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşdı və istifadəyə verildi. Həmçinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəli fondun dəstəyi ilə Şuşa şəhərində yenidən ucaldıldı.

Minlərlə qədim, tarixi tikiliyə, dini, milli abidəyə yeni həyat verən Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə dini abidələrin bərpası üçün işləri davam etdirir. Fondun layihələri çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, təhqirə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir.

Hörmətli Mehriban xanım Əliyevanın bu dəyərli fəaliyyəti Ulu Öndərin ruhuna böyük ehtiram olmaqla bərabər, həm də onun ideyalarının, amallarının əbədi yaşayacağının nümayiş etdirir. Bütün bunlar Heydər Əliyevin nə qədər dahi, əvəzedilməz şəxsiyyət olduğunu təsdiqləyən reallıqlardır.

Əminliklə deyə bilərik ki, müqəddəs Ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyev həm 30 ildən sonra Azərbaycanın suverenliyini tam təmin etməsi, həm də Ulu Öndərin arzuladığı dünyaya Günəş kimi doğan ölkə yaratması ilə dahi liderin ruhunu şad edib.

Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. İkiəsrlik münaqişəni, otuzillik müharibəni Zəfərlə bitirən, dünyanın ən islahatçı ölkələri sırasına yüksələn, bölgənin şəriksiz liderinə çevrilən ölkəmizin bütün bu nailiyyətləri Prezident İlham Əliyevin möhtəşəm fəaliyyətinin nəticələridir. Ancaq bir məqamı da unutmayaq, möhtərəm dövlət başçımız hər zaman bildirir ki, bu nailiyyətlərin əsasını Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurla həyata keçirilməsi təmin edir.

*Haqlı olaraq dünyanın ən böyük azərbaycanlısı sayılan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti dövründə formalaşdırdığı təməllər həm də uzun onilliklər boyu Azərbaycanın uğurlu inkişafını təmin edəcək düzgün yol kimi ölkəmizin yeganə alternativsiz yüksəliş yoludur.*

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı*

Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev ideyaları

## Hər zaman Azərbaycanın davamlı tərəqqisinin əsası olacaq



**Dekabrın 12-si müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin anım günüdür. Vətənini, torpağını, xalqını canından artıq sevən, Azərbaycanı daim zirvələrdə görmək istəyən və buna nail olan Ümummilli Liderin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı və bu ərazilərdə yeni həyatın başlanması idi. Artıq bu arzular reallığa çevrilib. Ulu Öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl Azərbaycanı zirvələrə ucaldaraq zəfərdən-zəfərə aparır. Özünün də qeyd etdiyi kimi: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam". Təbii ki, bu əbədiliyi şərtləndirən dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövründə Azərbaycanın bu günü, gələcəyi naminə gördüyü işlər, eyni zamanda bu siyasətin davamını təmin edən 1 oktyabr 2003-cü ildə xalqa müraciəti və bu çağırışın yüksək səviyyədə dəyərləndirilərək uğurların davamlılığının təmin edilməsidir.**

### Siyasi liderlik

Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi. Yəni Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərdi ki, güclü lider və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi.

Siyasi liderliyin mahiyyəti dövlətinin milli maraqlarına cavab verən yeganə və bənzərsiz inkişaf yolunu müəyyən etmək, xalqını yeni zəfərlərlə dolu qalibiyyətli gələcəyə aparan siyasəti təmin etməkdir. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü bu reallıqların təqdimatıdır. Ulu Öndərin zəngin idarəçilik təcrübəsi, dövlətinə, xalqına bağlılığı Onun atdığı addımlarda, irəli sürdüyü təşəbbüslərdə və qəbul etdiyi qərarlarda özünün aydın ifadəsini tapdı. Ümummilli Lider Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini öncədən müəyyən edir, qərarların qəbulu zamanı əsl vətənpərvərlik mövqeyi nümayiş etdirirdi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etdi. Azərbaycan tarixinin 1969-cu ildən başlanan yeni dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dahi şəxsiyyət Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən öncə Onun xilaskarlıq missiyası göz önünə gəlir. Çünki hakimiyyətinin hər iki dövrü dahi rəhbərin bu missiyasının təqdimatında əhəmiyyətli rol oynayır. Ümummilli Lider 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda respublikamız keçmiş sovet respublikaları arasında ən geridə qalmış bir diyar idi. Bütün sosial-iqtisadi göstəricilər keçmiş SSRİ miqyasında ən aşağı səviyyədə idi. Məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan ötən əsrin 70-ci illərinin ortalarında sovet respublikaları arasında ən qabaqcıl mövqelərə sahib oldu. Bu gün müstəqil Azərbaycan Respublikasının inkişafına xidmət edən güclü infrastruktur, yeni sənaye sahələri məhz o illərdə yaradıldı. Azərbaycan vətəndaşları yaxşı yaşamağa başladılar. Respublikamızda yeni müəssisələr, fabriklər, zavodlar yaradıldı, yeni yollar çəkildi.

Bu ilin aprelində Azərbaycan və Rusiya prezidentlərinin Baykal-Amur magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşündə Ümummilli Lider Heydər Əliyevin xidmətləri ilə bağlı səsləndirilən fikirlər titanik qabiliyyətə malik olan bu dahi şəxsiyyətin necə geniş erudisiyaya sahib olduğunu bir daha göz önünə gətirdi. Bildirildi ki, BAM-ın tarixində Ulu Öndər Heydər Əliyev müstəsna, böyük rol oynayıb. O, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Baykal-Amur magistralının tikintisinə rəhbərlik etdi və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmədi. Rusiya Prezidenti Vladimir Putin bu reallığı bir daha diqqətə çatdırdı ki, bu işdə Heydər Əliyevə böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə, çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək etdi. O, bu nəhəng problemləri həll edə bildi.

Bu kimi faktlar bir daha təsdiqləyir ki, nəinki Azərbaycanda, bütün keçmiş postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyev şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, həmin illərdə yaradılan kadr potensialı hazırda da müasir müstəqil Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsində öz sözünü deyir. Həmin illərdə Ümummilli Liderin Azərbaycanın müstəqil gələcəyini düşünərək atdığı addımlardan biri gənclərin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi idi. Bu mühüm addım, eyni zamanda ideoloji və təbliğat xarakteri daşıyırdı. Bu yolla Azərbaycanın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği də həyata keçirilirdi, Məhz milli hərbi kadrların hazırlanması xalqın müstəqil gələcəyini hələ o illərdə dahiyanə uzaqgörənliklə duyub hiss edən, görən Ulu Öndər Heydər Əliyev üçün böyük əhəmiyyətli məsələ idi. Onun gərgin səyləri nəticəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması bunun bariz nümunəsi idi.

### Azərbaycançılıq məfkurəsinin banisi

Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında tarixi xidmətlərindən bəhs edərkən Onun azərbaycançılığın əsas tərkib hissələrindən biri kimi Azərbaycan dilinin inkişafı, totalitar sovet rejimi şəraitində Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit olunması istiqamətində göstərdiyi səyləri və əldə etdiyi uğurlu nəticələri xüsusi qeyd etməliyik. 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu qazanması gələcəyin müstəqil Azərbaycanı naminə atılmış mühüm addım kimi tarixə düşdü. Həmin dövrdə Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, böyük klassiklərin yubileylərinin keçmiş ittifaq miqyasında keçirilməsi, Azərbaycan mədəniyyətinin Ümumittifaq miqyasında təbliği və sair kimi addımlar Ümummilli Liderin azərbaycançılıq ideologiyasının inkişafına yönələn xidmətləri sırasında yer alır. Keçmiş ittifaq respublikalarında və digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi orada yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına geniş imkanlar yaratdı. Dünya azərbaycanlılarının birliyi, həmrəyliyi, onların Azərbaycanın bu günü və gələcəyi naminə çalışmaları daim Ulu Öndəri düşündürən əsas məsələlər sırasında olub və bu gün həmin xətt dövlət başçısı İlham Əliyevin müasir dövrün çağırışlarını özündə ehtiva edən yeni, təkmil siyasətində özünün aydın ifadəsini tapır.



Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsi də Azərbaycanın bu gününə və gələcəyinə xidmət edən addımları ilə zəngindir. Dahi rəhbər Naxçıvanda yalnız muxtar respublika deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edildi. Ulu Öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu.

Onu da qeyd edək ki, dünya azərbaycanlılarının birliyinə, həmrəyliyinə xidmət edən addımlar da Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsində xüsusi yer tutub. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edildi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət etdi. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul etdi.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, bütün dünyaya səs salan, nəinki regionda, hətta dünyada yeni reallıqlar yaradan tarixi Zəfərimiz məhz Ümummilli Liderin uğurlu və düşünülmüş siyasəti nəticəsində yaradılan birliyimizin, həmrəyliyimizin təqdimatı oldu. 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən "dəmir yumruq" gücümüzü, həmçinin birliyimizi nümayiş etdirdi. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasının uğurla inkişaf etdirilməsi dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımıza belə bir çağırışı ünvanladı ki, Vətən birdir və hər birimiz bu Vətən üçün çalışmalıyıq.

Şübhəsiz, Ulu Öndər Heydər Əliyevin zamana və məkana sığmayan misilsiz xidmətlərini bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Bu fikir daim xüsusi qeyd edilir ki, Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Ümummilli Liderin zəkasının işığında qədəm qoydu. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir müstəqil Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin həyat amalının təntənəsidir.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin ikinci dövründən bəhs etməmişdən öncə ölkəmizin həyatında mühüm dönüş nöqtələrindən biri kimi Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasını xüsusi qeyd etməliyik. YAP-ın yaradılması çağdaş tariximizdə Ümummilli Liderin Naxçıvan fəaliyyətinin əsas tərkib hissələrindən biri kimi yer alıb. Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası ölkədə gedən ictimai-siyasi proseslərdə formalaşdı, vətənpərvər, xalqına, ölkəsinə, millətinə xidmət etmək istəyən insanların təşəbbüsü ilə həyata vəsiqə aldı.

### Yeni eranın başlanğıcı

1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Yeni Azərbaycan Partiyasının yaradılmasından təqribən 6 ay sonra Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə qayıtdı. 1993-cü ilin oktyabr ayında isə Ulu Öndər Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı.

Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik tarixində yeni eranın başlanğıcı oldu. Hər zaman qeyd edildiyi kimi, bu günümüzü düzgün dəyərləndirmək üçün keçilən yola nəzər salmağa, haradan-haraya gəlib çıxdığımıza diqqət yetirməyə böyük zərurət duyulur. Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdi. Lakın müstəqilliyimizin bərpasının ilk illəri xalqımız üçün böyük faciələrlə, təhlükələrlə yadda qaldı, tariximizə qaranlıq səhifə kimi yazıldı. Həmin dövrün iqtidarının yarıtmaz siyasəti, hakimiyyət uğrunda gedən mübarizə, şəxsi ambisiyaların dövlət maraqlarını üstələməsi Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoydu. Hakimiyyəti zor gücünə ələ keçirən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə yaşananlar xalqımızın yaddaşında tariximizin qaranlıq səhifəsi kimi yer alıb.

Tariximizin bu səhifələrini vərəqlədikcə əvvəldə də qeyd etdiyimiz kimi, lider amilinin hər bir ölkənin inkişafında, gələcəyində əsas amil olduğunu daha aydın şəkildə görürük. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, Azərbaycan adlı dövlətdən danışmaq mümkün deyildi. Bu qayıdış Azərbaycanı böyük bəlalardan xilas etdi. Dahi şəxsiyyət Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın öz dahi rəhbərinə inamı sayəsində Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqlardan, iqtisadi böhrandan xilas oldu, inkişaf, tərəqqi dövrünə qədəm qoydu, torpaqlarımızın işğalının qarşısı alındı.

1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf dövrü kimi yazıldı. Həmin illərin, eyni zamanda 2003-cü ildən başlanan Böyük Yolun əsasında Ümummilli Liderin yenə də xilaskarlıq missiyası dayanır. Onun düşünülmüş siyasəti nəticəsində Azərbaycan inkişaf yoluna çıxdı. Hər bir inkişafın əsasında sabitliyin dayandığını önə çəkən Ümummilli Liderin əsas diqqət göstərdiyi məsələ ölkədə sabitliyin yaradılması oldu. Bu çağırışı etdi ki, sabitlik olmasa heç bir sosial-iqtisadi layihənin həyata keçirilməsi mümkün deyil. Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi. Bu mühüm amil hər bir sahədə, xüsusilə ölkəmizin malik olduğu iqtisadi potensialdan səmərəli istifadə edərək iqtisadi əlaqələrin qurulmasında əhəmiyyətli rol oynadı. 1994-cü il mayın 12-də Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri nəticəsində Ermənistanla atəşkəs sazişinin imzalanması ölkəmizin bütün sahələrdə uğurlu inkişafına yol açdı. Həmin ilin 20 sentyabrında "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın iqtisadi imkanları genişləndi, siyasi mövqeyi möhkəmləndi. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin reallığa çevrilməsi ilə regional inkişafın aparıcı qüvvəsinə çevrilən Azərbaycan sonrakı illərdə əməkdaşlığın coğrafiyasını genişləndirməklə dünyanın enerji təhlükəsizliyinə davamlı töhfələr verən ölkə kimi nüfuz qazandı. Azərbaycanın müəllifi olduğu enerji layihələri dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

Uğurlarımızda Ümummilli Liderin səyləri, düşünülmüş siyasəti nəticəsində iqtisadi və siyasi islahatların vəhdətinin yaradılması əhəmiyyətli rol oynayır. Demokratik islahatlar iqtisadi tərəqqiyə geniş yol açdı. Ümummilli Liderin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atıldı. İlk növbədə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Dahi şəxsiyyət Heydər Əliyev, eyni zamanda belə bir çağırışı da səsləndirdi ki, demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün amillər ölkəmizdə bərqərar olmalıdır. Təbii ki, burada söhbət insan hüquqlarının qorunmasından, azad mətbuatın inkişafından, çoxpartiyalı sistemin yaradılmasından, ölkənin inkişafında əsas faktor olan seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsindən söhbət gedir. Azərbaycan demokratik islahatları və onların uğurlu nəticələri ilə də diqqətdədir. Bu mühüm məqam da xüsusi vurğulandı ki, demokratiya strateji kursumuzun əsasını təşkil edir. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu Azərbaycanın ilk gündən qarşıya qoyduğu əsas prioritetlərdən oldu. Hazırda demokratik inkişafı ilə dünyaya nümunə olan Azərbaycan atdığı addımları ilə təsdiqlədi ki, demokratik dəyərlərə sadiqliyi sözdə deyil, əməldədir.

Ulu Öndər Heydər Əliyevin ölçüyəgəlməz xidmətlərindən bəhs edərkən bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılması əsas hədəflər sırasında oldu. Ümummilli Liderin xarici ölkələrə elə bir səfəri olmadı ki, keçmiş Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olmasın, həqiqətlərimiz dünya ictimaiyyətinə çatdırılmasın. Diaspor quruculuğu ilə yanaşı, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin yüksək səviyyədə qurulması Azərbaycan reallıqlarının, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılmasında əhəmiyyətli rol oynadı.

Müdriklərimiz çox gözəl deyiblər: "Ordun varsa, yurdun var". Müstəqilliyimizin qarantı kimi dəyərləndirilən ordu quruculuğu sahəsində yaradılan möhkəm təməl uğurlarımıza yol açdı. Ümummilli Lider Heydər Əliyev bu çağırışı etdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır. Nizami ordu yaradıldı. Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirildi, beynəlxalq standartlara cavab verdi. Məhz yaradılan möhkəm təməlin uğuru 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizdə və birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsində özünü təsdiqlədi. Azərbaycan Ordusu dünya hərb tarixinə yeni səhifə yazdı. Bir daha sübut olundu ki, dünyanın ən güclü ordularından biri Azərbaycan Ordusudur. Düşmən Azərbaycan Ordusunun qarşısında diz çökdü. Azərbaycan tarixi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etdi. Məhz bu səbəbdən bu gün sonsuz qürur hissi və fəxrlə deyirik ki, ordumuz da var, yurdumuz da…

### Böyük yol davam edir

2003-cü ildə xalqa tarixi müraciəti Heydər Əliyev siyasətinin davamının, bugünkü və gələcək uğurların əsası oldu. Son 21 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yeni inkişaf strategiyası həyata keçirilir. Dövlət başçısı bu illər ərzində ölkəmizdə bütün sahələrin müasir tələblərə uyğun inkişafını təmin etdi. Özünün də vurğuladığı kimi, 2003-2020-ci illər, əgər indi tarixə bu prizmadan yanaşsaq, bir hazırlıq dövrü idi.

Cənab İlham Əliyevin 21 illik Prezidentlik dövrünün 17 ili qələbəyə hazırlıq dövrü kimi xarakterizə edilir. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarının təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın hansı imkanlara malik olduğunu nümayiş etdirdi. Haqqın, ədalətin bərpa olunduğu 44 gündə Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycanın gücünü, qüdrətini gördü. Azərbaycanın hərbi-siyasi qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi istiqamətində səylərini davam etdirdi, məsələnin sülh yolu ilə həllinə çalışdı. Tarixi Zəfərimizdən ötən dövrdə Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirmək barədə düşünməməsi, hərbi təxribatları davam etdirməsi ötən ilin sentyabr ayında birgünlük antiterror tədbirlərinin həyata keçirilməsinə səbəb oldu. Prezident İlham Əliyevin qətiyyəti sayəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası Azərbaycanın yeni dövrə qədəm qoymasını şərtləndirdi. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 20 Sentyabr Dövlət Suverenliyi Günü kimi təsis edildi.

Bu gün Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdışın sevincini yaşayırlar. Xalqımız daim bu əminliyi də ifadə edir ki, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində Qarabağda və Şərqi Zəngəzurda bütün quruculuq işləri uğurla başa çatacaq, Böyük qayıdış proqramı yüksək səviyyədə icra ediləcək, sahibinə qovuşmuş torpaqlarımız Azərbaycanın dayanıqlı inkişafına öz töhfələrini verəcəklər.

Bugünkü uğurlarımızda Ümummilli Liderin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun xidmətləri ölçüyəgəlməzdir. Fondun Mehriban xanım Əliyevanın rəhbərliyi ilə gördüyü işlərin miqyası olduqca böyükdür. Hazırda fondun əsas səyləri işğaldan azad edilmiş ərazilərimizin bərpasına yönəldilib. Bu baxımdan fondun erməni vəhşiliklərinə şahidlik edən tarixi və dini abidələrimizin bərpası istiqamətində fəaliyyətini xüsusi vurğulamaq gərəkdir. Bununla bərabər, dövlət başçısının tapşırığı, Heydər Əliyev Fondunun təşkilatçılığı əsasında "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri ənənələrinin bərpasını da xüsusi qeyd etməliyik. Bir sözlə, fondun hər bir layihəsi, atdığı hər bir addım qalib Azərbaycanın təqdimatına xidmət edir.

Heydər Əliyev irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti ölkədə və beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Fondun hər bir layihəsi Azərbaycanın inkişafına, beynəlxalq aləmdə təqdimatına yönəlib. Bu addımların əsasında Ümummilli Lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərinin təbliği dayanır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, Heydər Əliyevin həyatı bütövlükdə Azərbaycana, Azərbaycanın inkişafına yönəlib. Ümummilli Liderin fəaliyyəti nəticəsində bu gün müstəqil, gündən-günə güclənən, inkişaf edən, dünya birliyində layiqli yer tutan Azərbaycanda yaşayırıq. Heydər Əliyev nailiyyətləri, Heydər Əliyev qələbələri və zirvələri Azərbaycanın tarixində, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaq. Hər bir xalq hər bir tarixi dövrdə öz qəhrəmanlarının sarsılmaz ruhunu, dəmir iradəsini, cəsarət və qətiyyətini yüksək qiymətləndirmişdir. Biz - azərbaycanlılar fəxr edirik ki, xalqımızın Heydər Əliyev kimi qəhrəmanı vardır və onun unudulmaz xatirəsi önündə bu gün bir daha baş əyirik.

Heydər Əliyev yolunun uğurlu davamı Azərbaycanın bütün sahələrdə inkişafını, tərəqqisini qaçılmaz edir. Son 21 ilin uğurları, zəfərləri bunun təsdiqidir. Yeni dövrə qədəm qoyan Azərbaycan seçki ili kimi xarakterizə edilən 2024-cü ildə müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçirilən prezident və parlament seçkiləri ilə dünyanın diqqətində olmaqla yanaşı, COP29-a evsahibliyi ilə dünyanı Azərbaycana topladı. Bu tədbir Azərbaycanın keçdiyi yolun təqdimatında, xarici siyasətdə qazandığı uğurların fonunda müəyyənləşdirilən hədəflərin açıqlanmasında, birlik, həmrəylik, əməkdaşlıq çağırışlarının daha da möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Azərbaycan qəbul edilən qərarlarla söz sahibliyini nümayiş etdirdi. İnkişafın Azərbaycan modeli qlobal problemlərin həllində ortaq fikrə gəlməyə dəstək oldu. Bütün bunlar Heydər Əliyev siyasətinin təntənəsidir. Ümummilli Liderin ideyaları hələ bundan sonra da Azərbaycanın davamlı tərəqqisinin əsası olacaq. Nə qədər ki Azərbaycan dövləti, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır!

**Vüqar RƏHİMZADƏ,**
*Milli Məclisin deputatı*

## Azərbaycanın özü qədər əbədi

# Müstəqilliyimizi daimi edən Lider



**Azərbaycanın müasir tarixinin böyük bir dövrü Ulu Öndər Heydər Əliyevin möhtəşəm quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Hakimiyyətinin hər iki dövründə xalqa xidmət, vətənə sədaqət Ulu Öndərin fəaliyyətinin əsas xəttini təşkil edib.**

Heydər Əliyevin milli dəyərlərimizə, düşüncə və ideologiyamıza əsaslanan siyasi kursu Azərbaycanın dünya dövlətləri arasında öz layiqli yerini tutmasına gətirib çıxarıb. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Ümummilli Lider xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və ölkəmizin inkişafı ilə bağlı ən düzgün qərarları verəcək. Ulu Öndər qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. Dahi şəxsiyyət bütün ömrünü Azərbaycanın bu gününə və gələcəyinə həsr etmişdi: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam". Ümummilli Lider bu fikirlərinin davamı olaraq bildirib ki, onun üçün hər şeydən əziz xalqı, vətəni, torpağıdır.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ulu Öndər ölkəyə rəhbərliyi müddətində Azərbaycan cəmiyyətinin vahidliyinin, bütövlüyünün təmin olunmasını özünün strateji vəzifəsi hesab edib. Cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər - sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməyib. Siyasi liderin gücü və qüdrəti onun elan etdiyi məqsəd və vəzifələrin, ideoloji prinsiplərin cəlbediciliyi ilə deyil, ilk növbədə, qarşıya qoyduğu vəzifələri real həyatda tətbiq imkanları ilə ölçülür. Əminliklə demək olar ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin təkmil ideoloji konsepsiya halına gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı. O zaman atəşkəsin əldə olunması Ulu Öndər Heydər Əliyevin siyasi nüfuz və peşəkarlığının nəticəsi idi. Hərbi uğursuzluqlarla üzləşdiyini və daha irəliləyə bilmədiyini görən təcavüzkar Ermənistanın rəhbərliyi 1994-cü ilin mayında danışıqlar masası arxasında oturmağa, cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan Bişkek protokolunu 1994-cü il mayın 8-də imzalamağa məcbur oldu. Protokol mayın 12-də qüvvəyə mindi və cəbhə xəttində aktiv hərbi əməliyyatlar həmin gündən dayandırıldı.

Atəşkəsin əldə olunması Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi və ordu quruculuğu prosesinin uğurla aparılması baxımından mühüm bir mərhələ oldu. Azərbaycanda qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası Azərbaycanın qarşısında geniş imkanlar açdı, beynəlxalq aləmdə ölkəmizə inam artdı. Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".



Azərbaycan qısa zamanda böyük investisiyalar məkanına çevrildi, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrildi. Azərbaycan regionun aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini möhkəmləndirdi. Məhz qazanılan bu inam, etimad son 21 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında daha mühüm layihələrin icrasını, eyni zamanda "Yeni əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirdi. 2014-cü ildə çoxtərəfli əməkdaşlığın əsası olan "Cənub qaz dəhlizi"nin təməli qoyuldu və 2018-ci ildə rəsmi açılışı oldu. Həmin ilin iyununda bu layihənin əsas tərkib hissəsi olan TANAP, 2020-ci il dekabr ayının 31-də isə TAP istifadəyə verildi. Bununla da "Cənub qaz dəhlizi"nin uğurlu icrası başa çatdı. Azərbaycan bu gün də gündəmə gətirilən hər bir layihənin uğurlu sonluqla başa çatmasında maraqlıdır.

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. 2003-cü ilin oktyabrında Heydər Əliyev xalqa müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini bir daha təsdiqlədi. Vətən müharibəsində Yeni Azərbaycan Partiyasının lideri, ölkəmizin Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin möhtəşəm rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun 30 il ərzində mənfur Ermənistanın işğalında qalan ərazilərimizi azad etməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması buna sübutdur. 44 günlük Vətən müharibəsi zamanı Ulu Öndər Heydər Əliyevin "Hər şey bizim gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır" tezisinin davamı olaraq Prezident İlham Əliyevin "Gənclər milli ruhda tərbiyə olunmalı, dövlət maraqlarını qorumalıdırlar" fikirləri real həyatda təsdiqləndi.

Artıq Qarabağ və Şərqi Zəngəzurda Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində Azərbaycan xalqı 200 illik tarixinin ən şərəfli səhifələrini yazdı. Bugünkü Azərbaycan, məhz Ulu Öndərin görmək istədiyi Azərbaycandır.

Hər bir azərbaycanlı Heydər Əliyevin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Millətin məhəbbətini qazanmış Ümummilli Lider Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq.

**Kamran BAYRAMOV,**
*Milli Məclisin deputatı*

# Əbədiyyət rəmzi

**Hər bir xalqın tarixdəki yeri və rolu uzaq və yaxın keçmişdə onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər zəkası, dühası və istedadı ilə dünyada tanınırlar. Bütün ömürlərini doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr edirlər. Dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında dövlət modeli yaradırlar.**

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin təcəssümüdür. Tədqiqatçılar Ulu Öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir". Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər…"

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Ulu Öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu Öndərin 1990-cı ilin ortalarında, Naxçıvana çətin vaxtlarda qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası isə, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu və daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması dahi Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən Ulu Öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu Ulu Öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər. Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin Ulu Öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında eyni zamanda başlanmışdı. İlk dövrlərdə kortəbii, dağınıq görünən fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı Ümummilli Liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

Nəhayət, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş respublikada milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə Ulu Öndəri daha çətin, eyni zamanda şərəfli bir missiya gözləyirdi...



1993-cü il iyunun 9-da xalqın təkidi ilə Bakıya qayıdan Ulu Öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi, bununla da ölkəmiz davamlı və dönməz inkişaf yoluna qədəm qoydu.

Ölkədə xalqın iradəsi ilə baş vermiş qanuni hakimiyyət dəyişikliyi nəticəsində Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsi dövlətin müstəqilliyinin praktik müstəvidə möhkəmləndirilməsi üçün real əsaslar yaratdı. Ulu Öndər Heydər Əliyev prezident seçiləndən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi. Ulu Öndər ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmalı oldu - qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm tədbirlər həyata keçirilməyə başlandı. Dövlət çevrilişlərinin qarşısı alındı, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirdi. Məhz Ulu Öndərin gərgin səyi nəticəsində müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirildi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatı sahəsində Yeni Azərbaycan Partiyasının qarşıya qoyduğu məqsədləri özündə ehtiva edirdi. Eyni zamanda həmin gün paralel olaraq Milli Məclisə keçirilmiş seçkilər Yeni Azərbaycan Partiyasının cəmiyyətdə yüksək nüfuz və potensialını nümayiş etdirməklə, onu güclü iqtidar partiyasına çevirmiş, cəmiyyətdəki mövqelərini möhkəmləndirmişdi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır. Azərbaycan xalqı öz böyük oğlunu yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edirdi. Çünki Ulu Öndər Heydər Əliyev siyasi kursundan kənarda müstəqil Azərbaycan dövlətçiliyi yoxdur. Dahi şəxsiyyət Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən bir dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Ümummilli Liderin gərgin səyləri ölkədə sabitliyin yaradılmasına və normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və davamlı inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə yüksək dəyərləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri dahi lider Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmişlər.

Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti Corc Buş yazırdı: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Eyni zamanda onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır".

Dahi şəxsiyyət Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı və yüksək analitik təfəkkürə, yenilməz iradəyə malik siyasətçi idi. Ona görə də bir sıra hallarda Ulu Öndər Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri" kimi xarakterizə edirlər.

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Ümummilli Liderin izi olmasın. Bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz qüdrətli rəhbərin qüdrətli əlləri ilə hörülüb. Müstəqil Azərbaycan dövləti Ulu Öndərin şah əsəridir. Ümummilli Liderimiz bir azərbaycanlı, vətəndaş və rəhbər kimi yeganə amalının varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət etməkdən ibarət olduğunu söyləyirdi.

Zamanın dahisinin bizə ərməğan etdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İndiyədək əldə etdiyimiz bütün bu möhtəşəm nailiyyətlərin təməlində dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın nəinki bugünkü, hətta bir neçə əsr bundan sonrakı inkişafını da təmin etməyə qadir olan siyasi kursu, milli konsepsiyaları dayanır.

Bu gün ölkəmiz bu siyasətlə yaşayır və ondan faydalanır. Ulu Öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə bu siyasət uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşiblər.

Əbədiyaşar Liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Bəli, belə də oldu. Tarixi zaman baxımından çox qısa dövr keçdi, işğal altındakı torpaqlarımız azad olundu. Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi və müdrikliyi ilə rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. İldən-ilə güc toplayan Azərbaycan, onun güclü ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Azərbaycanın müzəffər ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi bütün dünyanın gözü qarşısında iflasa uğradı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə başlayan Vətən müharibəsi 44 gün davam etdi və qazanılan parlaq qələbə hərb tariximizin ən şərəfli səhifəsi oldu. 24 saatdan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərksilah olunaraq ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi. Beləliklə, antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində dövlət suverenliyi və Konstitusiya quruluşu bərpa edildi.

Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur.

Ötən ay Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi isə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Bəli, bu gün hər bir Azərbaycan vətəndaşı çox yaxşı bilir ki, bu uğurlara ölkə Prezidentinin vaxtilə dediyi "...Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm" fikirlərinə sadiqliyin nəticəsində nail olundu.

Ötən illərə baxdıqca bir daha əmin oluruq ki, ölkəmizdə dahi lider Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur.

**Arzu ABDULLAYEV,**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

## Azərbaycanın özü qədər əbədi




# Xalq üçün yaşamış böyük şəxsiyyət

**Danılmaz həqiqətdir ki, müasir dövlətçilik tariximizin taleyüklü məqamları və ən böyük uğurları dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində milli maraqların qorunmasına, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görüb və Azərbaycanın müstəqilliyinin daimiliyini və tərəqqisini təmin edib.**



Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqı tərəfindən hər zaman böyük ehtiramla yad edilir. Ümummilli Lider Azərbaycan naminə bütün ömrünü fəda etmiş böyük şəxsiyyətdir. Məhz dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərinə görə hər bir azərbaycanlı öz qəlbində Heydər Əliyev abidəsi ucaldıb.

SSRİ dövründə Heydər Əliyevin respublikamıza rəhbərliyi zamanı görülən işlər ölkəmizin bugünkü inkişafının əsasını qoyub. Həmin dövrdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər isə Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və siyasi yüksəliş dövrü kimi həkk olunub, bugünkü tarixi uğurlarımızın, o cümlədən möhtəşəm Zəfərimizin fundamental əsaslarını yaradıb.

Hər bir Azərbaycan vətəndaşı da yaxşı bilir ki, həm sovetlər dönəmində, həm də müstəqillik illərində Ulu Öndər Heydər Əliyev Azərbaycanın yüksəlişi naminə fədakarlıqla çalışıb. Onun rəhbərliyi dövründə respublikamız bütün sahələr üzrə inkişaf edib. Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Məhz Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ulu Öndərin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasətinin həyata keçirilməsi nəticəsində mümkün oldu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrildi.

Müasir Azərbaycanın bugünkü reallığı Ulu Öndər Heydər Əliyevin milli və bəşəri məzmunlu ideyalarının əbədiyaşarlığını aydın ifadə edir. Böyük öndərimiz cismən aramızda olmasa da, ideyaları əbədi yaşayır. İllər keçdikcə bu dahi şəxsiyyətin Azərbaycan naminə gördüyü işlərin miqyası daha aydın şəkildə dərk olunur. Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Ulu Öndər öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Ulu Öndər öz müdrikliyi, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanmışdır. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, dövlət maraqlarını, xalqın, dövlətin maraqlarını qoruyacaq və xalqın mənafeyi ilə bağlı ən düzgün qərar verəcək. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətləri Azərbaycan vətəndaşları, dünyada yaşayan bütün azərbaycanlılar heç vaxt unutmayacaq. Heydər Əliyev Azərbaycanın böyük inkişaf epoxasını yaradıb, respublikamızın hərtərəfli intibahını təmin edib. Müstəqil Azərbaycan bu möhkəm əsaslar üzərində daim zirvələrə doğru irəliləyib. Ulu Öndərimizin həyatını bütünlüklə xalqa, dövlətə, Vətənə həsr olunan ömür kimi səciyyələndirə bilərik.

Heydər Əliyevin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması idi. Şuşanı Azərbaycanın rəmzi kimi səciyyələndirən Ulu Öndər inamla bildirirdi ki, biz doğma yurd yerlərimizə mütləq qayıdacağıq. Onun bu inamı insanların qəlbində sözün əsl mənasında, ümid, çırağı yandırırdı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində Ulu Öndərimizin başladığı müqəddəs vəzifəni onun layiqli davamçısı Prezident İlham Əliyev məntiqi sonluğa çatdırdı.

Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev xalqımıza şanlı dövlətçilik tarixinin ən möhtəşəm uğurlarını qazandırır. Bu nailiyyətlərin zirvə nöqtəsi isə 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi və ölkəmizin suverenliyinin bərpasıdır. Heydər Əliyevin arzularını, vəsiyyətlərini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev şərəflə yerinə yetirdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində ordumuz misilsiz şücaətlər göstərərək ölkəmizin ərazi bütövlüyünü təmin etməyə nail oldu. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi ilə Heydər Əliyevin "Biz Şuşaya mütləq qayıdacağıq" arzusu reallığa çevrildi.

Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir, ölkəmizin qarşısında yeni perspektivlər açılır. Azərbaycanın beynəlxalq mövqeyi, o cümlədən tarixi Zəfərimizin əsasları möhkəmləndirilir, Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərinə paralel olaraq Böyük qayıdış proqramı uğurla həyata keçirilir və bütöv Azərbaycanın gücü gündən-günə artır. Bir sözlə, reallıqlar bir daha təsdiq edir ki, Heydər Əliyev yolu Azərbaycanın yüksəlişinin alternativsiz əsaslarıdır, onun zəngin dövlətçilik irsi və əbədiyaşar ideyaları gələcək uğurlarımıza yol açır.

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***

# Müasir Azərbaycanın qurucusu

**Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tarixində böyük rolu olan görkəmli dövlət xadimidir. Onun rəhbərliyi altında Azərbaycan bütün sahələrdə sürətli inkişaf dövrü yaşayıb. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini qoruyan, təmin edən şəxsiyyətdir. Onun müasir Azərbaycan dövlətinin əsasını qoyan lider olaraq tarixdəki yeri çox önəmlidir.**



Ulu Öndər 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycanın Prezidenti olaraq ölkənin siyasi, iqtisadi və sosial inkişafını təmin etmək üçün böyük islahatlar həyata keçirib. Həmin dövr dövlət quruculuğu sahəsində atılan addımlar Azərbaycanın müstəqilliyini qorumağa, gücləndirməyə və ölkənin beynəlxalq aləmdəki yerini möhkəmləndirməyə xidmət edib. Ümummilli Lider ölkənin siyasi və iqtisadi inkişafında, dövlət idarəetmə sisteminin qurulmasında, beynəlxalq münasibətlərdə möhkəm təməl yaradıb.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə ölkədəki siyasi böhran və qeyri-sabitlik aradan qaldırıldı. O, güclü dövlət idarəetmə sistemi qurmaq üçün ciddi islahatlar həyata keçirdi. Bu islahatlar arasında hüquq-mühafizə orqanlarının təkmilləşdirilməsi, dövlət strukturlarının modernləşdirilməsi və idarəetmə sahəsində peşəkar kadrların yetişdirilməsi önə çəkildi. Həmçinin iqtisadiyyatın inkişafı istiqamətində əhəmiyyətli qərarlar qəbul olundu. Dövlət idarəetmə sisteminin mərkəzləşdirilməsi, siyasi sabitliyin təmin edilməsi nəticəsində Azərbaycan müstəqil inkişaf yoluna çıxdı. Ulu Öndərin idarəetmə fəlsəfəsi yalnız ölkə daxilində deyil, həm də beynəlxalq aləmdə Azərbaycanın güclü bir mövqeyə sahib olmasına imkan yaratdı.

1993-cü ildə hakimiyyətə gəldikdən sonra Ulu Öndər vətəndaş müharibəsi və iqtisadi çətinliklər yaşayan Azərbaycanı sabit və güclü bir dövlətə çevirməyə başladığı üçün müstəqil Azərbaycan tarixində önəmli bir sima olaraq tarixə düşdü. O, Azərbaycanı parçalanmaqdan, müstəqilliyini itirmək təhlükəsindən qurtardı. Azərbaycanda milli həmrəyliyin əsaslarını da Ümummilli Lider Heydər Əliyev qoydu. Məhz Ulu Öndərin sayəsində Azərbaycanda sabitlik yarandı.

Ümummilli Lider müstəqil Azərbaycanda iqtisadi islahatların banisidir. Heydər Əliyevin dövründə Azərbaycanın təbii sərvətlərdən istifadə olunmaqla iqtisadi inkişafının əsası qoyuldu. O, xarici sərmayələri ölkəyə cəlb edərək neft sənayesini və digər sahələri inkişaf yoluna çıxardı. Onun müəllifliyi ilə "Əsrin müqaviləsi" imzalandı və Azərbaycan beynəlxalq neft bazarına daxil oldu ki, bu da ölkənin iqtisadi müstəqilliyini təmin etdi. Ölkəmiz üçün bazar iqtisadiyyatı inkişaf xəttini əsas götürdü. Valyuta ehtiyatları olmayan bir dövlətin yenidən dirçəldilməsi üçün islahatların aparılması vacib idi. Çünki sosialist sisteminin qalıqları olan sovxozlar, kolxozlar, zavodlar və fabriklərdə istehsal prosesləri pozulmuşdu və ölkə iqtisadi böhranla üzləşmişdi. Məhz Ulu Öndərin uzaqgörənliyi sayəsində ölkədə torpaq islahatı və dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramları icra olunmağa başlandı.

Bələdiyyə institutunun formalaşdırılması da Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada ilk dəfə olaraq demokratik cəmiyyətin qurulması yolunda yerli özünüidarəetmə orqanların formalaşdırılmasının hüquqi əsasları yaradıldı. 1999-cu ildən isə ölkəmizdə ilk dəfə bələdiyyə institutu formalaşdırıldı və yerli özünüidarəetmədə xalqın birbaşa iştirakı təmin olundu.

Azərbaycanda ordu quruculuğunun müəllifi də Ümummilli Lider Heydər Əliyevdir. Heydər Əliyev Azərbaycanın ordu quruculuğunda mühüm bir rol oynayaraq bu sahədə bir çox islahat həyata keçirib. Onun rəhbərliyi dövründə Azərbaycan Ordusu ölkənin müdafiəsini təmin etməyə başladı. Bu, xüsusilə 1990-cı illərin əvvəllərində - Azərbaycan müstəqillik qazandıqdan sonra mövcud olan xarici təhdidlər fonunda daha əhəmiyyətli idi.

1991-ci ildə - Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkə ciddi siyasi və iqtisadi çətinliklərlə üzləşmişdi. Həmçinin 1992-1994-cü illərdə Ermənistanla keçmiş Dağlıq Qarabağ münaqişəsi səbəbindən vəziyyət daha da gərginləşmişdi. Odur ki, Ulu Öndər 1993-cü ildə prezident seçildikdən sonra ilk növbədə ölkənin müdafiəsini möhkəmləndirməyə başladı. O, müasir dövrün tələblərinə cavab verən, yüksək döyüş qabiliyyətinə malik ordu yaratmağa qərar verdi. 1993-cü ilin dekabrında Heydər Əliyevin komandanlığı altında həyata keçirilən Horadiz əməliyyatı Füzulinin Horadiz qəsəbəsi və 21 yaşayış məntəqəsinin azad olunması ilə nəticələndi və düşmən atəşkəsə imza atmağa məcbur oldu. Atəşkəsin əldə olunması ordunun yenidən qurulması və Azərbaycanın güclənməsi üçün zaman məsələsi idi. Bu zaman kəsiyində Heydər Əliyev ordunun idarəetmə strukturunu təkmilləşdirdi, ordunun daxilində şəffaflığı təmin etmək məqsədilə bir sıra islahatlar həyata keçirdi. Hərbi xidmətə çağırış sistemini yenidən təşkil etdi, ordunun müasir döyüş şəraitinə uyğunlaşması üçün tədbirlər gördü. Bu islahatlar, həmçinin zabitlərin təhsilinə və hərbi kadrların yetişdirilməsinə xüsusi diqqət yetirilməsini təmin etdi. Azərbaycan Ordusunun beynəlxalq səviyyədə tanınması və gücləndirilməsi üçün Qərb, xüsusilə NATO ilə əməkdaşlıq münasibətlərini qurdu. Bu əməkdaşlıq həm də ordunun təlim və təchizat baxımından güclənməsinə imkan yaratdı.

Heydər Əliyevin siyasi kursunun təməlində azərbaycançılıq ideologiyası əsas yer tutur. Ulu Öndər xarici səfərləri zamanı azərbaycanlılarla görüşür və onları vətənə bağlılığa çağırırdı. Ulu Öndər xaricdə yaşayan azərbaycanlılarla görüşləri zamanı "mən vətənim üçün nə etmişəm" sualının ətrafında düşünməyi hər bir soydaşımıza tövsiyə edirdi. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və koordinasiya olunması üçün Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi. Dünya azərbaycanlılarının qurultayları keçirilməyə və qurultaylara dünya ölkələrində yaşayan, söz sahibi olan soydaşlarımız dəvət olunaraq onların qarşısında vəzifələr müəyyənləşdirilməyə başlandı. Azərbaycan dilinin dövlət dili olaraq tanınması, milli bayramların və adət-ənənələrin ön plana çıxarılması da Ulu Öndərin rəhbərliyinin əhəmiyyətli tərəflərindən biri idi. Bu, Azərbaycanın tarixi və mədəni irsini yaşatmaq və gənc nəsillərə çatdırmaq məqsədini güdürdü.

Azərbaycanın xarici siyasətini müəyyən edən Heydər Əliyev ölkənin beynəlxalq aləmdə mövqeyini gücləndirdi. Onun rəhbərliyi dövründə Azərbaycan Türkiyə, Rusiya və Qərb dövlətləri ilə möhkəm əlaqələr qurdu. Ümummilli Lider, həmçinin Azərbaycanın geosiyasi maraqlarını qoruyaraq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi diplomatik səylər göstərirdi. Ulu Öndərə qədər Azərbaycan işğala məruz qalmasına baxmayaraq, dünyada sanki bir işğalçı ölkə kimi qəbul olunurdu. Təbii ki, bu, 90-cı illərin əvvəlində hakimiyyətdə olanların beynəlxalq siyasətdən xəbərləri olmaması və Ermənistan-Azərbaycan münaqişəsini olduğu kimi tanıtdıra bilməməsindən irəli gəlirdi. Ona görə də 1992-ci ildə ABŞ Konqresində erməni lobbisinin təşəbbüsü ilə "Azadlığa dəstək aktı"na əlavə edilən və Azərbaycana ABŞ-nin birbaşa dövlət dəstəyini qadağan edən 907-ci düzəliş qəbul olunmuşdu. Bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyini asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirdi.

Heydər Əliyev hər zaman Azərbaycanın beynəlxalq aləmdə daha güclü mövqe tutmasına çalışırdı. Onun 29 sentyabr 1994-cü ildə BMT Baş Assambleyasının 49-cu sessiyasındakı çıxışı Azərbaycanın dünyaya tanıdılması və dünya münasibətlər siyasi sisteminə daxil olması yolunda əhəmiyyətli bir səhifə açdı. Azərbaycan bir çox beynəlxalq təşkilatın üzvü oldu, o cümlədən ATƏT və digər təşkilatlarla əlaqələr quruldu. Bunun nəticəsində Azərbaycan dünya miqyasında nüfuz qazandı.

Cənab İlham Əliyev Heydər Əliyevin dövlətçilik ideyalarını və siyasətini uğurla davam etdirərək, Azərbaycanı həm daxili, həm də xarici siyasətdə güclü və müstəqil bir ölkəyə çevirdi. Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatın şaxələndirilməsi, enerji sahəsində strateji mövqenin gücləndirilməsi və beynəlxalq münasibətlərdə təsirli rolun artması ilə Azərbaycan bir sıra mühüm uğurlara imza atmaqda davam etdi. Dövlət başçısı Heydər Əliyevin qurduğu dövlət idarəetmə sistemini davam etdirdi və onun müasir dövrün tələblərinə uyğun inkişafını təmin etdi. Azərbaycan iqtisadiyyatının müasir sahələrə yönəlməsi, infrastruktur layihələrinin həyata keçirilməsi və sosial sahələrin inkişafı bu yanaşmanın əsas nümunələridir. Heydər Əliyevin xarici siyasətindəki müstəqillik və balanslı yanaşma Prezident İlham Əliyevin dövründə də davam etdirildi. O, Azərbaycanın müstəqilliyini qorumaq və beynəlxalq münasibətlərdə ölkənin mövqeyini möhkəmləndirmək məqsədilə çoxsaylı diplomatik təşəbbüslər və strateji tərəfdaşlıqlar həyata keçirdi.

Azərbaycanın müstəqil xarici siyasəti regionda və dünyada ölkənin nüfuzunu artırdı. Prezident İlham Əliyev həmçinin Azərbaycan xalqının milli maraqlarını qorumaq, Ermənistanla olan keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe tutmaq və bu sahədə böyük diplomatik və hərbi uğurlar əldə etmək baxımından müstəsna addımlar atdı.

Azərbaycanın Qarabağda 2020-ci ildə əldə etdiyi qələbə Prezident İlham Əliyevin güclü rəhbərliyinin nəticəsi və Ümummilli Lider Heydər Əliyevin siyasətinin uğurlu davamı idi. Bu qələbə Azərbaycanın həm regiondakı, həm də beynəlxalq arenadakı mövqeyini daha da gücləndirdi. Bu gün Ulu Öndərin ruhu arzuları həyata keçdiyinə görə şaddır. Keçmiş məcburi köçkünlərlə görüşləri zamanı Şuşaya, Ağdama, Kəlbəcərə, Laçına, Zəngilana və digər rayonlara qayıdacağımızı kövrələrək ifadə edən Ulu Öndərin bütün arzuları bu gün reallaşır. Ulu Öndər ərazilərin suverenliyini təmin etmiş və dünya dövlətləri sırasında özünəməxsus yerə və rola malik Azərbaycan görmək istəyirdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin arzuladığı müstəqil Azərbaycan inkişaf edir, yüksəlir, bütün hədəflərinə çatır.

Heydər Əliyev Azərbaycanın müstəqil dövlət olaraq formalaşmasını və inkişafını təmin edən, tarix yaradan şəxsiyyətdir. Onun fəaliyyəti bu gün də Azərbaycanda görülən hərtərəfli inkişafın əsasını təşkil edir və xalqın yaddaşında əbədi yaşayır!

**Azər BADAMOV,**
***Milli Məclisin deputatı***

# Azərbaycanın özü qədər əbədi

## Heydər Əliyev Azərbaycanın qürur doğuran tarixini yaradıb



**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ili tamam olur. Yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız tərəfindən də bu günlərdə Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilir. Vəfatının 21-ci ilində həm də Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinə nəzər salmaqla, əbədiyaşar şəxsiyyəti yad edirik.**

Tarix sübut edir ki, məhz güclü lideri olan dövlətlər bütün sınaqlardan, ağır burulğanlardan layiqincə çıxaraq öz milli hədəflərinə çatmış, müstəqil dövlətçiliklərinə sahib ola bilmişlər. Xüsusən müstəqillik və dövlətçilik mücadilələrinin aparıldığı situasiyalarda lider amilinin böyük rol oynaması tarixin sübuta ehtiyacı olmayan aksiomları sırasında yer alır. Əsl lider həm də o kəslərdir ki, onlar tarixin axarı ilə getmirlər və öz əməlləri ilə elə tarixin özünü yaradırlar. Bu baxımdan müasir Azərbaycan tarixinin reallıqları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin timsalında lider faktorunun dövlətin və xalqın taleyindəki rolunu ən müfəssəl formada ifadə edən mükəmməl nümunədir.

Ulu Öndər Heydər Əliyev həm sovet dövrü Azərbaycanına, həm də müstəqil Azərbaycana rəhbərlik edib. Respublikaya hər bir rəhbərliyi dövründə Ulu Öndər möhtəşəm tarix yazıb və yaradıb, xalqımızın fəxarət ünvanı olan uğurlarımızın müəllifinə çevrilib. Adı dövlətçilik tariximizə əbədi həkk olunmuş bu dahi şəxsiyyətin respublikamıza rəhbərlik etdiyi hər bir dövr yüksəliş illəri olmuşdur.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi sovet dövrü tariximizin inkişaf və intibah mərhələsidir. Məhz həmin dövrdən respublikamızda başlanan siyasi kurs, həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa yol açdı. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, qısa zaman kəsiyində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə o dövrlərdə digər respublikaların rəhbərlərinin cəsarət etmədiyi addımlar atıldı. Heydər Əliyevin ölkənin inkişafı naminə təşəbbüsləri, ideyaları, novatorluğu, quruculuq əzmi o dövrün reallıqları ilə müqayisədə ölkədə cəsarətli inkişaf siyasətinin başlanması demək idi.

Heydər Əliyevin yüksək təşkilatçılığı, bacarığı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycanda iqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və ölkəmiz ittifaq büdcəsindən dotasiya almadan yaşayan respublikalardan birinə çevrildi. O dövrdə yaradılan güclü iqtisadi potensial bu gün də müstəqil ölkəmizə xidmət edir.

Ulu Öndərin sayəsində xalqımızın mənəvi dəyərlərinin qorunmasına xidmət edən genişmiqyaslı tədbirlərin həyata keçirilməsi insanlarda milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi. Bu baxımdan Ulu Öndərin sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərliyini ölkəmizdə milli-mənəvi yüksəliş mərhələsi kimi də xarakterizə etmək olar.

Xalqımızın dahi oğlu Moskvada, SSRİ rəhbərliyində fəaliyyət göstərəndə Azərbaycanla bağlı mühüm qərarların qəbuluna nail oldu, respublikamızın hərtərəfli inkişafını diqqət mərkəzində saxladı.

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi fəaliyyətinin mərkəzində Azərbaycan dövləti və xalqı dayanıb. Heydər Əliyev öz əməlləri ilə həm də xalqımızın müstəqillik amallarının gerçəkləşməsinə töhfələr verib. Məhz Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərindəki siyasi fəaliyyəti Azərbaycanda baş qaldıran müstəqillik uğrunda mübarizənin sürətlənməsinə səbəb olub. Heydər Əliyevin cəsarəti ilə 1990-cı ildə Naxçıvanda üçrəngli bayrağımızın ucaldılması, bundan bir neçə ay sonra isə SSRİ-nin saxlanılması ilə bağlı referendumun keçirilməsinin qarşısının alınması və digər bu səpkili hadisələr nəticə etibarilə milli azadlıq mübarizəsinə yeni ab-hava gətirmişdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda baş verən hadisələrin kökündə dayanan amillərdən biri ölkəyə güclü və xarizmatik liderin rəhbərlik etməməsi idi. Elə buna görə müstəqilliyimizin ilk illərində müasir tariximizin ən ağır hadisələri yaşandı, torpaqlarımızın bir hissəsi işğal olundu. Bu ağır vəziyyətə isə yalnız Heydər Əliyev kimi güclü və qətiyyətli bir lider son qoya bilərdi. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan ictimaiyyətinin Ulu Öndərə olan inamının göstəricisi idi. Bu inamın növbəti təcəssümü kimi Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə gəlməsi müstəqilliyimizin itirilməsinin, ölkəmizin parçalanmasının qarşısını aldı. Ulu Öndər Heydər Əliyev öz qətiyyətli siyasi iradəsi ilə Azərbaycanın müstəqilliyini əbədi və sarsılmaz etdi, xalqımızın ona bəslədiyi ümidləri layiqincə doğrultdu. Ulu Öndər Azərbaycanı bir dövlət kimi yenidən yaratdı, hüquqi və dünyəvi dövlət quruculuğunu həyata keçirdi, respublikamızı beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu və nüfuzlu üzvünə çevirdi.



Heydər Əliyev öz ideyaları ilə, xalqımızın və dövlətimizin inkişafına xidmət edən siyasi kursunun davam etdirilməsi ilə bütün Azərbaycan xalqının qəlbində yaşayır. Ulu Öndərin müəllifi olduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq ötən 21 ildə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirilib, respublikamız beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilib, ölkədə tarazlı və davamlı inkişaf təmin olunub.

Ümumiyyətlə, bu illər ərzində Prezident İlham Əliyev Azərbaycanın yüksəlişinə nail olmaqla, həm də Heydər Əliyevin ideyalarının həyata keçirilməsini təmin edib. Torpaqlarımızı işğaldan azad etməklə isə cənab İlham Əliyev ata vəsiyyətini, Heydər Əliyevin ən böyük arzusunu reallaşdırıb. Ulu Öndər torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırdı. Bu inam Heydər Əliyevin 2003-cü ilin oktyabr ayında xalqımıza etdiyi müraciətdə də öz ifadəsini tapmışdı. Ulu Öndər layiqli siyasi varisi Prezident İlham Əliyev bu inamı qətiyyətlə reallığa çevirdi, Ulu Öndərin arzusunu həyata keçirdi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları, dövlətə və xalqa sədaqətli xidmət yolu hər bir azərbaycanlının öyrənməli olduğu bir irsdir. Bu irs Azərbaycanın şərəfli tarixi və vətəni sevməyin nümunələri ilə zəngindir. Qarşıdakı illərdə də Heydər Əliyev irsi və İlham Əliyev siyasəti ilə Azərbaycan müasir tarixini yeni möhtəşəm uğurlarla zənginləşdirəcək.

**Müşfiq MƏMMƏDLİ,**
***Milli Məclisin deputatı***

## Müstəqillik təfəkkürünün banisi

**Azərbaycanın zəngin dövlətçilik tarixində varisliyin təmin edilməklə müasir dövlətçiliyin bərqərar olması, Azərbaycanın bir dövlət kimi xəritədən silinməsinin qarşısının alınması zəminində heç şübhəsiz ki, ilk ağlagələn sima Ulu Öndər Heydər Əliyevdir. Onun zəngin siyasi irsi, müasir dövlətçiliyin banisi kimi adı siyasətdən tamamilə kənar ən sadə azərbaycanlı üçün də önəmli və əzizdir. Bu gün milli təfəkkürə və sağlam düşüncəyə malik elə bir azərbaycanlı yoxdur ki, Heydər Əliyevi özününkü, doğması hesab etməsin, əslində, Heydər Əliyev fenomenini xalqın Öndərinə çevirən, yaddaşlarda yaşadan amil də məhz budur.**

Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 21 il ötür. Əslində, 21 il tarixin baxışında böyük zaman kəsiyi olmasa da, insan ömrü çərçivəsində kifayət qədər uzun müddətdir. Çünki 21 il ərzində nəsillər, cəmiyyətlər, ideologiyalar dəyişir, hətta 21 ilə bəzən qüdrətli dövlətlərin və quruluşların mövcudiyyət dövrü sığır. Ötən 21 ildə Azərbaycan da çox dəyişib. Dəyişməyən isə Azərbaycan xalqının Heydər Əliyev siyasətinə sədaqəti və onun yoxluğu ilə barışmamasıdır.

Heydər Əliyev adı artıq ötən əsrin 60-cı illərinin ortalarından sadə azərbaycanlı üçün önəm kəsb etməyə başlayıb. Təsadüfi deyildi ki, o, SSRİ miqyasında və milli subyektlərdə ən nüfuzlu qurum olan təhlükəsizlik sistemində, daha dəqiq desək, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində sədr vəzifəsinə yüksəlmiş ilk azərbaycanlı idi. Məhz Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan DTK yalnız SSRİ maraqlarını deyil, həm də Azərbaycanın milli maraqlarının keşikçisi və müdafiəçisinə çevrildi. Yüzlərlə ziyalı məhv edilməkdən qurtuldu, milli təfəkkürlü minlərlə məfkurə daşıyıcısı yetişdi. Milli kimlik, din, dil, mədəniyyət sahəsində tarixi dönüş məhz Heydər Əliyevin rəhbərlik etdiyi DTK-nın himayəsində təşəkkül tapmağa başladı. Bu gün bəzən həmin tarixi-siyasi prosesləri ayrı-ayrı şəxslərin adı ilə bağlamaq cəhdləri var, amma unutmaq olmaz ki, uzun illərdən sonra 1967-ci ildə Novruz bayramı respublikaya yox, birbaşa Moskvaya tabe olan Azərbaycan DTK-nın sədri, general Heydər Əliyevin razılığı olmadan ölkə səviyyəsində təntənəli şəkildə qeyd edilə bilməzdi. Bu baxımdan Ulu Öndər hələ ölkəyə rəhbərlik etməyə başlamadan artıq xalqın ümid yerinə çevrilmişdi.

1969-cu ilin 14 iyulunda Ümummilli Liderin Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyətə başlaması isə bütövlükdə Azərbaycan tarixində yeni eranın başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsi ilə respublika geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu. Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita elə sovet dövründəcə Azərbaycana müstəqil davranmaq imkanı verdi. Hətta çəkinmədən demək olar ki, Heydər Əliyevin Sovet Azərbaycanı Azərbaycan Xalq Cümhuriyyətindən heç də az müstəqil deyildi, 1991-93-cü ilin Azərbaycanından isə daha çox müstəqil idi.

Biz illər ərzində yanlış təbliğatın, yarıtmaz tarix dərsliklərinin ucbatından Sovet Azərbaycanına ancaq təqiblər dönəmi kimi baxmışıq. Amma Heydər Əliyevin əsəri olan 1978-ci il Konstitusiyasının 68-ci maddəsində Azərbaycanın suverenliyi, 69-cu maddədə SSRİ-dən azad surətdə çıxmaq hüququ, 73-cü maddədə dövlət dili kimi Azərbaycan dili təsbit edilmişdi. Heydər Əliyev "dəyişdirə bilməyəcəyi bir rejimdə xalq



üçün nə etmək olar?" sualına cavab verməyi bacaran ilk və son lider oldu.

Tarixdən bəllidir ki, sovet hakimiyyətinin ilk dövrlərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Nə qədər qəribə olsa da, SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda yenidən baş qaldırdı. Bolşeviklərin muzdurlar şurasından fərqli olmayan AXC-Müsavat cütlüyü sovetlərə bağlı nə varsa, hər şeyə nifrət aşılamağa, hətta Böyük Vətən müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi, Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, Azərbaycan xalqı Heydər Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq. Ona görə də Heydər Əliyevi SSRİ və KQB ilə assosiasiya edərək gözdən salmaq istəyirdilər. Amma xalq bilirdi ki, Heydər Əliyev şərəfli general kimi DTK sədri olanda da, Azərbaycana rəhbərlik edəndə də, SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini olanda da həmişə milli olub.

Heydər Əliyev milli özünüdərkdir, Heydər Əliyev bizim müasir müstəqillik təfəkkürümüzün banisidir. Kimin hansı mif uydurmasından asılı olmayaraq, etiraf etməliyik ki, mövcudiyyəti dövründə SSRİ-yə öz dövlətimiz kimi yanaşmış, bu dövlətə sidqi-ürəkdən inanmışıq. Bizim çox dəyərli ziyalılarımız belə əqidəli kommunist kimi sovet dövlətini özününkü hesab edib. Bu inamla yaşayan xalqın müstəqillik barədə düşünərək SSRİ kimi qüdrətli bir dövlətdən üz çevirməsi faktiki mümkünsüz idi, amma Ulu Öndərin haqsızlıqlara məruz qalıb 1987-ci ildə siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması bu xalqın sovetlərə inamının itməsi ilə nəticələndi. Azərbaycanın müasir müstəqillik yolu da məhz bu qırılma nöqtəsindən başlanır. Təsadüfi deyil ki, Heydər Əliyevin repressiyalara məruz qalmasından cəmi bir neçə ay sonra - 1988-ci ildə başlanan meydan hərəkatının ilk iştirakçılarının əllərindəki etiraz plakatları məhz Heydər Əliyevin portretlərindən ibarət idi.

Ulu Öndərin istefasından iki həftə keçməmiş ovaxtkı "Dağlıq Qarabağ Muxtar Vilayətinin" Ermənistanın tərkibinə verilməsi məsələsini qaldırdılar. Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Çünki cənab İlham Əliyevin bu il 10 mayda Şuşadan bəyan etdiyi kimi, "Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu". Məlumdur ki, Ermənistan dövləti yaranandan, yəni 1918-ci ildən onların Azərbaycana ərazi iddiaları var və 1969-cu ilə qədər bu iddialarını hissə-hissə uğurla realizə ediblər. Hətta 1960-cı illərin ortalarında sosial-məişət zəminini bəhanə edib Qarabağda qiyam da qaldırmışdılar və Qarabağın Ermənistana birləşdirilməsi hələ o zaman artıq labüd idi. Məhz Heydər Əliyevin simasında Azərbaycanda güclü və milli iradənin hakimiyyətə gəlməsi bu prosesə nöqtə qoydu. 1969-cu ildən 1987-ci ilə qədər Qarabağda bir nəfər də olsun millətçi-daşnak təfəkkürü baş qaldıra bilməmişdi. Amma Heydər Əliyevsiz 6 il Azərbaycan xalqının tarixində ən ağır faciələr dönəmi kimi tarixə düşdü, ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı, 30 ildən artıq davam edən məğlubiyyətlər seriyası, işğal və təcavüz dövrü başlandı.

Heydər Əliyev SSRİ-nin ən güclü vaxtında Konstitusiyada SSRİ-dən çıxmaq hüququmuzu təsbit etdiyi halda, 1991-ci ildə hətta SSRİ dağılmaq üzrə olanda belə o dövrün hakimiyyəti SSRİ-dən çıxmağa qorxurdu. Nəticədə, öncə Bakıda ucaldılmalı olan üçrəngli bayraq yalnız Heydər Əliyevin qətiyyəti və dönməz cəsarət ilə Naxçıvanda qaldırıldı. Ümumiyyətlə, tarix özü ən azı iki dəfə göstərib ki, Azərbaycan dövləti yalnız Heydər Əliyev yolunda yürüdükcə var olub, güclənib. 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən bir il keçməmiş artıq ordu quruldu, əks-hücumla Cəbrayılın, Füzulinin kəndləri, Horadiz qəsəbəsi düşməndən azad olundu, Ermənistan o zaman bizim çox ehtiyacımız olan atəşkəsə məcbur edildi.

Sonrakı illərdə bizi inkişafa, tərəqqiyə aparan yol məhz Ulu Öndərin sayəsində başlandı. Lakin Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidməti, heç şübhəsiz ki, xalqın taleyini öz siyasətinin layiqli davamçısı cənab İlham Əliyevə etibar etməsi oldu. Ulu Öndər Bakıya qayıtdıqdan sonra Bakıda təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə onun əsas silahdaşı məhz cənab İlham Əliyev olmuşdu. 1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin çiyinlərində oldu. Ona görə də 2003-cü ilə qədərki dövlət quruculuğu prosesində biz Ulu Öndərlə bərabər, onun əsas silahdaşı kimi məhz cənab İlham Əliyevin adını çəkməliyik.

Qarabağ məsələsi Ulu Öndərin nisgili idi, hətta 1 oktyabr 2003-cü ildə, özünün həyatını həsr etdiyi xalqına son müraciətində də dahi Lider ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Baxmayaraq ki, Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük verdi. Ulu Öndərin dediyi kimi, "Bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi" və cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə idarəçilik milli düşüncədə, doğru əldə olmalıdır.

Doğru əl və milli düşüncə kim idi, onu da Ümummilli Lider özü göstərdi. Ulu Öndərin siyasi davamçısı olaraq İlham Əliyev məhz milli düşüncəni təmsil edirdi və xalqın tükənməz dəstəyi ilə o, həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu. Heydər Əliyev siyasi kursuna sadiq qalaraq 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 il işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə, cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı.

Bu Zəfərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Ölkəni çadırlardan azad etdi. Məcburi köçkünlərin çadır şəhərciklərini ləğv edərək vətəndaşın layiqli rifahını, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığını təmin etdi, düşüncələri "palatka" təfəkküründən xilas edib 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Zəfərdən cəmi 8 gün sonra isə özünün ən sadiq silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi. Öz gücümüzə, daha doğrusu, Öz gücünə!

Azərbaycan Respublikası tarixinin ən qüdrətli dövrünə qədəm qoyub. Azərbaycan xalqının Ümummilli Lideri, türk dünyasının Ulu Öndəri Heydər Əliyevin görmək istədiyi mənzərə də məhz bu idi və şübhəsiz ki, vəfatının 21-ci ildönümündə bu reallıqlardan dahi Liderin ruhu da şaddır.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi

# Nə yaxşı ki Heydər Əliyev gəldi...



**Artıq 21 ildir ki, 12 dekabr müasir Azərbaycan tarixinin ən görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü kimi qeyd olunur. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dönəmdə də, 1982-1987-ci illərdə SSRİ-nin rəhbər şəxslərindən biri olduğu zaman kəsimində də Sovet İttifaqı kimi nəhəng ölkədə, eləcə də dünya miqyasında qəbul edilən, mövqeyi ilə hesablaşılan və xüsusi nüfuz sahibi olan siyasətçi kimi tanınırdı.**

Heydər Əliyev fitri istedadı və şəxsi nüfuzu sayəsində yeganə azərbaycanlı idi ki, belə yüksək məqama çatmış və fəaliyyəti ilə Azərbaycanın güvən yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdi.

O da bir acı reallıqdır ki, Heydər Əliyev SSRİ rəhbərliyində tutduğu vəzifələrdən kənarlaşdırılandan sonra ermənilər və Kremldəki havadarları fürsətdən istifadə edərək Azərbaycanın üzərinə səlib yürüşünə qalxdılar və Qarabağda məlum hadisələr, ardınca isə soydaşlarımızın tarixi torpaqlarımızdan sonuncu deportasiyası baş tutdu. Nəticə etibarı ilə torpaqlarımız işğal olundu, minlərlə şəhid verdik və böyük dəhşətlər yaşadıq. Amma faciələrimizin miqyası daha böyük ola bilərdi. Nə yaxşı ki Heydər Əliyevin 1993-cü ilin yayında Azərbaycan rəhbərliyinə ikinci qayıdışı oldu və gələcəkdə daha böyük itkilərin və faciələrin qarşısını aldı.

Bu, elə bir dövr idi ki, yenicə müstəqilliyini bərpa etmiş ölkə olaraq hərbi təcavüz və işğalın ağır nəticələrini önləmək, bir milyon qaçqın və məcburi köçkünün problemlərini həll etmək, birillik yarıtmaz idarəçilik səbəbi ilə yaranmış xaos və anarxiyanın qarşısını almaq, həmçinin daha ağır nəticələrə səbəb ola biləcək separatçılığa və xarici təhdidlərə qarşı mübarizə aparmaqla ölkəni iqtisadi-siyasi böhrandan çıxarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, düşmənə sinə gərmək, bütövlükdə Azərbaycan cəmiyyətini toparlamaq, xalqın inamını özünə qaytarmaq lazım idi. Bu isə əlbəttə ki, hər siyasətçinin və dövlət adamının öhdəsindən gələ biləcəyi görəv deyildi. Çox şükürlər olsun ki, bütün çətinliklərə baxmayaraq, Heydər Əliyev çətin olduğu qədər də məsuliyyətli və şərəfli olan bu vəzifənin öhdəsindən qətiyyətlə gəlməyi bacardı və Azərbaycanımızı düşdüyü ağır vəziyyətdən çıxardı.



Heydər Əliyev, həmçinin Azərbaycan Ordusunun yenidən qurulması üçün zaman qazanmağın vacibliyini bilərək 1994-cü ildə atəşkəsə nail oldu, qazanılmış vaxtdan istifadə edərək ölkə iqtisadiyyatını dirçəltmək istiqamətində əhəmiyyətli addımlar atılması üçün lazımi vaxt qazandı. Onu da xüsusi olaraq bildirək ki, Heydər Əliyev siyasi iradə nümayiş etdirərək müxtəlif beynəlxalq platformalarda Qarabağ məsələsində Azərbaycanın haqqını pozmağa imkan verə biləcək bir sənədə belə imza atmadı və bu, gələcəkdə Qarabağın işğaldan azad olunması üçün çox ciddi zəmin yaratdı. Bu mənada qürurla "Ata vəsiyyətini yerinə yetirdim" deyən Ali Baş Komandan İlham Əliyevin 44 günlük İkinci Qarabağ savaşını Zəfərlə başa çatdırmasının təməlində Heydər Əliyevin də əhəmiyyətli payı olduğu danılmazdır.

Məhz Heydər Əliyev ideyalarının və irsinin əsas davamçısı olan Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli xarici siyasət və davamlı şəkildə göstərdiyi siyasi iradə sayəsində nəinki torpaqlarımız işğaldan azad olundu, eyni zamanda suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edildi. Bu siyasətin nəticəsidir ki, hazırda regionda yeni reallıqlar formalaşmış və Azərbaycan regionun əsas söz və güc sahibinə çevrilməklə yeni hədəflərə doğru inamla addımlamaqdadır.

Bu gün hər birimiz Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında müstəsna rolu olan Heydər Əliyevin xatirəsini hörmətlə anır, ona Allahdan rəhmət diləyirik. Əminəm ki, Heydər Əliyev Azərbaycanın ən görkəmli tarixi şəxsiyyətlərindən biri kimi hər zaman tarixdə, xatirələrdə və xalqımızın qəlbində yaşayacaq.

**Arzuxan ƏLİZADƏ,**
***Milli Məclisin deputatı, Milli İstiqlal Partiyasının sədri***

# Heydər Əliyev üçün xoşbəxtlik anlayışı -
## *Azərbaycanın bütövlüyü, inkişafı və xalqın rifahı*

**"Bəzən elə əvəzedilməz xarakterlər olur ki, cəmiyyətin onların şəxsi xoşbəxtliyini xalqı xoşbəxt gələcəyə qovuşdurmaq üçün haqqı çatır". Bu yazıya Tomas Ceffersonun Corc Vaşinqtona məktubundan kiçik bir iqtibasla başlamağım təsadüfi deyil. Heydər Əliyevin xalqın çağırışına səs verəndə Azərbaycan, əraziləri yağmalanmış, yüz minlərlə qaçqın və məcburi köçkünün ağır yükü altında əzilmiş, toplum olaraq paramparça edilmiş bir vəziyyətdə, can üstə idi...**

Heydər Əliyev vaxtilə SSRİ-nin ağır ideoloji basqısı altında, saysız-hesabsız maneələrə sinə gərərək dirçəltdiyi, inkişaf etdirdiyi bir ölkənin xarabalıqları üzərindən xalqı, üfüqdə belə işartısı görünməyən xoşbəxt gələcəyə qovuşdurmaq üçün elinə, obasına, canından artıq sevdiyi Azərbaycanına sahiblənmək, onu bütün bəlalardan hifz etmək, yaralarını sarımaq üçün dəvət olunurdu... Lakin Heydər Əliyev bu dəvəti şəxsi xoşbəxtliyindən imtinaya çağırış kimi qəbul etmirdi. Çünki onun düşüncəsində, baxış bucağında və fəaliyyətində şəxsi xoşbəxtliyi ilə xalqın xoşbəxtliyi anlayışları iç-içə idi, bütöv idi, tam idi... Heydər Əliyev üçün yalnız bir mütləq xoşbəxtlik anlayışı vardı - Azərbaycan xalqının rifahı, Azərbaycanın bütövlüyü və inkişafı...

### Tarixi missiya

Azərbaycanlılar tarixdə böyük və qüdrətli dövlətlərin qurucuları kimi, hər zaman azad, müstəqil və öz bayrağının kölgəsində yaşamaq arzusunda olublar. Hətta ən çətin dövrlərdə, istila və istibdad altında, ayrı-ayrı imperiyaların tərkibində olanda azadlıq və müstəqillik məfkurəsi xalqımızın genetik yaddaşını tərk etməyib. Azərbaycan xalqının on illər, bəlkə də yüz illər irəlini görməyi bacaran düşünən beyinləri isə ən ağır şərtlər altında belə xalqımızın azad, müstəqil və firavan yaşaması üçün fədakarlıq nümayiş etdirmiş, öz ideyaları və əməlləri ilə bu günümüzə körpü salmışlar.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən o zaman SSRİ-nin tərkibində müttəfiq respublikalardan biri olan Azərbaycanın həyatında baş verən dəyişikliklərə, iqtisadiyyatdan mədəniyyətə, enerji sektorundan hərbi sahəyə qədər görülən bütün işlərə bu günün azad insanının baxış bucağından nəzər salsaq, hər şeyin xalqımızın azad və müstəqil yaşamasına xidmət etdiyini görə bilərik.

SSRİ-nin siyasi-ideoloji sisteminin nə qədər əzici və qəddar olduğunu bilən və həmin dövrün kataklizmlərindən keçən insanlar 1970-ci illərdə Azərbaycan xalqının öz tarixi köklərinə qayıtmasına xidmət edən siyasət yürüdülməsinin nə qədər çətin olduğunu yaxşı anlayırlar. Heydər Əliyevin SSRİ-dəki xalqların çoxmədəniyyətliliyi, bütövlükdə mədəniyyət çətiri altında həyata keçirdiyi milli inkişaf siyasətinin nə qədər dəqiq düşünülmüş bir strategiya olduğunu da yaxşı başa düşürlər.

SSRİ-nin süqutuna qısa bir müddət qalmış, öncə Qarabağın Azərbaycandan qopardılmasına qarşı başlayan etirazların, daha sonra isə müstəqillik hərəkatının iştirakçıları məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1970-80-ci illərdə yaranan ədəbiyyat nümunələrinin, filmlərin təsiri altında formalaşmışdılar. Bəziləri bunu dərk etmək istəməsələr də, amma göz önündə olan faktlar Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən Azərbaycan xalqını müstəqil yaşamağa hazırladığı təkzibolunmaz reallıqdır.

Bu sıraya Azərbaycan dilinin inkişafı, tariximizin öyrənilməsi, hərb sahəsi başda olmaqla, bütün sahələr üzrə milli kadrların hazırlanması istiqamətində atılan ardıcıl addımları da əlavə etsək, Heydər Əliyevin işıqlı zəkasının illərin arxasından necə boy göstərdiyini görə bilərik.

Sovet dönəmində azərbaycanlıları mümkün qədər hərb sənətindən kənarda saxlamağa çalışırdılar. Ola bilsin ki, o dövrdə mərkəz Azərbaycan türklərinin tarixdə dəfələrlə dövlətlər, imperiyalar qurduğu faktlarına istinad edərək bu addımı atırdı. O illərdə hərbi xidmətə çağırılan azərbaycanlıları inşaat dəstələrinə göndərməyə cəhdlər edilirdi. Məqsəd yenə də bizi hərb sənətindən aralı saxlamaq idi. Amma buna baxmayaraq, Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldikdən sonra hərb sənətinin sirlərinin azərbaycanlılara öyrədilməsi üçün bir neçə addım atıldı. Bunlardan biri Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması oldu. Daha sonra Hərbi Dənizçilik Məktəbi, Quru Qoşunları Ali Məktəbi yaradıldı. Həmin dövrdə azərbaycanlıların bu hərbi məktəblərdə təhsil almaları prioritet hesab edilirdi. Gizli də olsa, bu barədə konkret təlimatlar verilmişdi. Eyni zamanda bu illərdə azərbaycanlılar SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə təhsil almaq üçün göndərilməyə başlanıldı. Həmin şəxslər sonradan Azərbaycan Ordusunun qurulması prosesində iştirak etdilər.



Bütün bunlar yaxın tarixdə, bir çoxlarımızın gözünün önündə cərəyan edən proseslərdir. Biz müstəqilliyimizə doğru uzun illər boyu addım-addım irəliləmişik. Əsl müstəqillik, azadlıq iti zəka, qətiyyət, cəsarət, Vətənə təmənnasız sevgi və yüksək liderlik keyfiyyətləri tələb edir.

Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Müstəqilliyimizin geridə qalan 31 ili Heydər Əliyevin bu deyiminin nə qədər doğru olduğunu sübuta yetirdi. Biz Ulu Öndərimizin iti zəkası, polad xarakteri, onun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin liderliyi və xalqımızın birliyi nəticəsində müstəqilliyimizi qoruduq, ərazi bütövlüyümüzü bərpa etdik. Öz torpağımızda, öz bayrağımız altında qalib xalqın nümayəndələri kimi ömür sürürük. Müstəqil dövləti olan bir xalq üçün bundan böyük ucalıq yoxdur.

Bu gün Ulu Öndərin ruhu şaddır və əbədiyyətə qədər də şad olacaq!

**Elçin MİRZƏBƏYLİ,**
***Milli Məclisin deputatı, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini***

# Mənəvi dəyərlərin keşiyində

**Hər zaman öz milli-mənəvi dəyərlərinə sadiq qalan Azərbaycan xalqı onu qoruyaraq nəsildən-nəslə ötürüb. Çünki milli-mənəvi dəyərlər xalqımızın varlığının təcəssümüdür. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".**

Xalqımızı dünya xalqları arasında tanıdan məhz əsrlərin sınaqlarından keçərək yaşatdığı, təbliğ etdiyi milli xüsusiyyətlər, özünəməxsus adət-ənənələridir. Malik olduğu qədim milli-mənəvi dəyərlər sistemini Azərbaycan xalqı əsrlər boyu ən qiymətli xəzinəsi, milli şüurun, milli ruhun simvolu hesab edib. Ümummilli Lider bildirirdi ki, bizim xalqımız yüz illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.

Soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən xalqların və dövlətlərin aqibəti hər zaman acınacaqlı olur. Onlar getdikcə milli mənliklərini, özünəməxsusluqlarını itirir, tamamilə yox olmaq təhlükəsi ilə üzləşirlər. Azərbaycan xalqı isə tarixinin keşməkeşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən dəyərlərini unutmadı. Hətta ateizmi təbliğ edən, öz ideyalarını, qayda-qanunlarını sərt şəkildə həyata keçirən sovet hakimiyyəti illərində insanlarımız öz milli-mənəvi dəyərlərindən, adət-ənənələrindən, dini baxışlarından nəinki uzaqlaşdı, əksinə, onlara daha sıx bağlandılar. Həmin dövrdə bir çox qadağaya baxmayaraq, Azərbaycanda Novruz, Qurban və Ramazan bayramları qeyd edildi. Xalqımız hər zamankı kimi milli və dini əxlaqa söykənərək, xeyirxah işlər görməyi, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutmağı özünə mənəvi borc bildi.

Biz həmişə zəngin milli-mənəvi irsimizi və adət-ənənələrimizi yad təzahürlərdən qoruyub saxlayaraq nəsildən-nəslə ötürmüşük. Heydər Əliyev deyirdi: "Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir".

1990-cı illərdə Azərbaycanın tarixində yeni bir mərhələ başladı. Dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda milli və dini bayramlar geniş qeyd olundu. Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə - 1993-2003-cü illərdə xalqımızın milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin dirçəldilməsi, eləcə də islam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı təqdirəlayiq işlər görüldü, geniş tədbirlər həyata keçirildi. Qurban bayramının qeyd olunmasını rəsmiləşdirən Heydər Əliyev bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətini vurğulayaraq dedi: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Sovet rejimindən dinə qarşı mübarizənin ağır nəticələri qalmışdı. Müstəqilliyimiz bərpa olunanda respublikamızda cəmi 17 məscid var idi. Hətta tarixi abidə sayılan qədim məscidlərimiz, ibadətgahlarımız belə acınacaqlı vəziyyətə salınmışdı. "Dinimiz xalqımızın milli-mənəvi sərvətidir", deyən Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə bu istiqamətdə də böyük işlər görüldü. Yüzlərlə məscid, ibadətgah inşa və ya bərpa olundu. Bakının ən böyük məscidi olan Təzəpir, qədim tarixə malik Bibi Heybət məscidlərinin, Mir Möhsün ağanın ziyarətgahının bərpası Ulu Öndərin himayəsi altında həyata keçirildi.

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə, milli dəyərlərinə böyük ehtiram və sonsuz sevgi ilə yanaşan Ümummilli Lider milli dəyərlərimizi həm milli varlığımızın, həm də dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Vurğulayırdı ki, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Bildirirdi ki, azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan bütün azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Heydər Əliyev harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya xalqımıza xas adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi, azərbaycançılıq ideologiyasına sadiqliyi tövsiyə edirdi. O, Azərbaycanın böyük, qədim tarixə malik olduğunu vurğulayırdı: "Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi mərhumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir".

Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara: "Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır", - deyirdi. Heydər Əliyev milli dəyərlərimizə dərindən bələd idi. O, hər zaman soykökümüzə, tariximizə bağlılıq, adət-ənənələrimizə ehtiramla yanaşmaq, dəyərlərimizi qorumağı, yaşatmağı, gələcək nəsillərə ötürməyi, inkişaf etdirməyi əhəmiyyətli hesab edirdi. Odur ki, Ümummilli Lider gənclərimizin bu ruhda tərbiyə olunmasının vacibliyini önə çəkirdi. Bildirirdi ki, hər xalqın özünə, tarixi kökünə, milli-mənəvi dəyərlərinə bağlılığı vacib şərtdir: "Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Azərbaycanın özü qədər əbədi

**Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə (1969-1982; 1993-2003) Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur. 1969-cu il iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Bu şərəfli tarixdə, 1969-1982-ci illərdə bütün sahələrdə əldə edilən yüksəlişdə Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunun qərarı böyük bir proqram sənədi olmaqla mühüm əhəmiyyət kəsb etdi. Bu proqram sənədi əsasında həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başlandı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi və bu proqram sənədini irəli sürməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə dönüş mərhələsinin başlanğıcı qoyulmuşdur.**



# Milli maraqların böyük mühafizi

1969-cu ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gələrkən respublikanın qarşısında həllini gözləyən bir sıra ciddi problemlər dururdu. Həmin problemlər əvvəlki tarixi dövrlərdə, xüsusilə sovet hakimiyyəti illərində yığılıb qalmış, həllinə çox vaxt heç cəhd edilməmiş və ya edilsə də, elə bir nəticələr verməmişdi.

Azərbaycanın ən ciddi problemlərindən biri mədəni, tarixi irsi məhv olmaqdan qorumaq, inkişaf etdirmək və zənginləşdirmək idi. Həmçinin milli-mənəvi və dini dəyərlərin qorunması da çox mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan ana dilini qorumaq, inkişaf etdirmək, ona dövlət dili statusu vermək olduqca zəruri idi. Bununla yanaşı, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Qarabağa çox böyük diqqət və qayğı göstərilmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdır.

### *Heydər Əliyevin ermənilərin əsassız ərazi iddialarına qarşı mübarizəsi*

XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə anti-Azərbaycan təbliğatı geniş miqyas almağa başladı. 1965-ci il aprelin 23-də İrəvanda qondarma "erməni soyqırımı"nın 50 illiyi, terrorçu Andronikin anadan olmasının 100 illiyi təntənəli surətdə qeyd edildi. Həmin dövrdə ermənilərin təbliğatının bir hissəsi də tarixin saxtalaşdırılması, uydurma erməni tarixinin yaradılması, azərbaycanlıların vəhşi bir millət kimi təqdim edilməsi istiqamətində müxtəlif məzmunlu əsərlərin yazılması, bu yalanların reallıq kimi bilərəkdən dərsliklərə salınmasının təşkili, bununla da planlarının növbəti mərhələsinin həyata keçirmək məqsədilə erməni gəncləri arasında ifrat millətçiliyin və düşmənçiliyin təbliğ edilməsi idi.

Heç şübhəsiz, erməni iddialarına qarşı sərt mübarizə aparan azərbaycanlı ictimai-siyasi xadimlər, xüsusi xidmət orqanlarının əməkdaşları da var idi. Bu baxımdan Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində (DTK-da) müxtəlif vəzifələrdə, həmin orqanın sədr müavini və sədri işləyərkən bu məsələyə xüsusi diqqət yetirirdi. Ümummilli Lider Heydər Əliyev eyni zamanda Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini də gözəl bilirdi. Heydər Əliyev DTK sədri vəzifəsində çalışdığı illər ərzində gənc milli kadrların işə qəbul olunması zamanı onların Azərbaycan xalqının milli, dini adət-ənənələrini, Azərbaycan tarixi, mədəniyyəti və incəsənətini necə bilmələri ilə maraqlanırdı.

Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı dəfələrlə alınmış, onların fitnəkar niyyətlərinə qarşı mübarizəni daha da gücləndirmiş və bu istiqamətdə tədbirlərə şəxsən nəzarət etmişdir. Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev nitqlərinin birində etiraf edərək demişdir: "1960-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam".

Ümummilli Lider 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

1967-ci ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən, Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs məqsədyönlü şəkildə öz qohumu tərəfindən qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq, xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi Xankəndidə yay parkında şübhəli şəxs kimi həmin prosesdə dindirilən 3 azərbaycanlını (Ərşad, Ələmşah və Zöhrab Məmmədovlar) zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəmində qarşıdurma törətmək, nəticədə, azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə Heydər Əliyevin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Həmin məsələni dərindən araşdırmaq üçün Xankəndiyə getmiş, cinayətkarlar haqqında istintaq işi açılmış və onlar layiqli cəzalarını almışdılar.

Hələ 1969-cu ildən, yəni Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. 1967-ci ildə Ermənistan SSR-in millətçi dairələri Azərbaycan SSR-in daxili işlərinə qarışaraq DQMV-nin azərbaycanlı əhalinin yaşadığı məntəqələrinin inkişafı üçün ayrılan vəsaitin bölünüb təsdiq olunmasına hər vəchlə mane olmağa çalışırdılar. SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul edilmiş qərarı təsdiq etdi.

Ümummilli Lider Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu məsələni ön plana çəkdi və bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev nə qədər təhlükəli olsa da, təzyiqləri rədd edərək prinsipial mövqe göstərdi, erməni millətçilərinin qarşısını qətiyyətlə aldı. SSRİ rəhbərliyindəki bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər. Həmin illərdə bəzi erməni alimləri, nəzəriyyəçiləri, yazıçı, şair və publisistlərinin Heydər Əliyevin əleyhinə müxtəlif mərkəzi orqanlara göndərdikləri şər, böhtan dolu, heç bir əsası olmayan şikayət məktublarının və teleqramlarının ardı-arası kəsilmirdi.

Ümumiyyətlə, Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə millətçi erməni dairələrinin təhlükəli anti-Azərbaycan siyasətini dərindən bilən rəhbər kimi Azərbaycanın milli maraqlarını qoruyub qətiyyətli praktik işlər görərək ona qarşı mübarizə aparıb.

Nəticədə Ümummilli Liderin bu dövrdəki hakimiyyəti illərində Qarabağda yeni iş yerləri açılmış, Xankəndidə ali məktəbin Azərbaycan bölməsi yaradılmış, mədəni-maarif müəssisələri, məktəb binaları tikilmiş, dəmir yolu çəkilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmışdı.

### *Qarabağda milli ruhun yüksəlməsi və tarixi-mədəni irsimizin qorunması*

Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Azərbaycana rəhbər seçiləndən sonra Ümummilli Lider tərəfindən, Şuşanı abadlaşdırmaq, XX əsrin əvvəllərində erməni təcavüzü nəticəsində şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq, yenidən həyata qaytarmaq, bu bənzərsiz və qədim Azərbaycan şəhərini böyük bir muzeyə çevirmək üçün ilk mühüm addımlar atıldı.

Heydər Əliyev ilk dəfə Şuşada hələ 1967-ci ildə olmuşdur. O vaxt Ümummilli Lider Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi.

Şuşanı Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq, şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa olundu, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar inşa edildi. Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş quruculuq işləri aparılmamışdır. Şuşa şəhərinin "Qala divarları"nın və "Gəncə qapısı"nın bərpasına 1975-ci ildə 25 min manat (rubl) vəsait xərclənmişdi. XIX əsrin görkəmli ədibi, satirik şair Qasım bəy Zakirin məzarı qaydaya salındı. 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edildi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır".

Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitutun açılması və orada Azərbaycan bölməsinin yaradılması Qarabağda elmi-mədəni mühitin formalaşmasına, əhalinin ali təhsil almasına əlverişli şərait yaratmışdı. Ümummilli Lider təkcə Yuxarı Qarabağın deyil, bütövlükdə Qarabağın inkişafına hər zaman diqqət yetirmiş və bu istiqamətdə mühüm addımlar atılmışdır. Belə ki, Azərbaycan KP MK bürosunun 1974-cü il avqustun 6-da keçirilən iclasında Laçın şəhərinin 50 illiyinin qeyd edilməsi qərara alınmış və yubiley tədbiri böyük təntənə ilə keçirilmişdi. Bununla yanaşı, büronun 1979-cu il dekabrın 5-dəki iclasında Laçında tarix-diyarşünaslıq muzeyinin yaradılması barədə qərar qəbul edilmişdi.

Həmin illərdə Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış, geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə kompleksi tikilmişdir. 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Səfər zamanı Ümummilli Lider Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etmişdi.

Eyni zamanda Heydər Əliyev Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Ümummilli Lider müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Heydər Əliyevin Şuşa məscidinə getməsi isə bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən, azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə gedərək yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.



1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada görkəmli şair Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparırdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

### *XX əsrin sonunda ermənilərin ərazi iddiaları, antitürk və anti-Azərbaycan təbliğatının genişlənməsi*

1982-ci ildə Heydər Əliyev Moskvaya yüksək vəzifədə işləməyə gedərkən Azərbaycan rəhbərlərinə Qarabağa qayğı göstərməyi, qonşu Ermənistanla münasibətlərə xüsusi diqqət yetirməyi tövsiyə etmişdi. Lakin bu tövsiyələr yetərincə nəzərə alınmadı, nəticədə erməni millətçi dairələri yenidən Azərbaycan əleyhinə fəaliyyətlərini daha da genişləndirdilər. Belə ki, 1983-cü ildən etibarən ermənilər Azərbaycana qarşı yenidən əsassız ərazi iddiaları irəli sürməyə başladılar.

Heydər Əliyev Moskvada işlədiyi dövrdə də Azərbaycanın dövlət maraqlarını qətiyyətlə qorumuş və erməni iddialarının reallaşmasına imkan verməmişdi. Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işlədiyi zaman Ümummilli Liderin imzaladığı qərarlarla işdə yol verdiyi ciddi nöqsanlara görə bir sıra şəxslər, o cümlədən bəzi ermənilər vəzifələrindən azad edilmişdilər. Heç şübhəsiz, belə mühüm sənədləri imzalamazdan əvvəl Heydər Əliyev sovet rəhbərləri ilə razılaşaraq ona milli don geyindirilməsinə imkan verməmiş, Azərbaycanın maraqlarını və ümumi mənafeyini qorumuşdu.

1985-ci ilədək Heydər Əliyevin iştirakı ilə keçirilən Sov.İKP MK Siyasi Bürosunun və SSRİ Nazirlər Sovetinin iclaslarında Azərbaycan əleyhinə heç bir qərar qəbul edilməmişdir. XX əsrin 80-ci illərinin ortalarından etibarən erməni dairələri öz fəaliyyətlərini bir neçə istiqamətdə daha da genişləndirmişdilər. Həmin dövrdə Ermənistanda da Azərbaycan əleyhinə geniş təbliğat-təşviqat işləri genişlənməyə başlamışdı. Qondarma erməni tarixçiləri tərəfindən Qarabağın tarixi saxtalaşdırılaraq "erməni torpaqları" olması barədə dərsliklər və məqalələr, qədim Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi barədə Moskvaya ardı-arası kəsilməyən məktublar, müraciətlər yazılırdı. Bu proses M.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı.

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Azərbaycanın bu ayrılmaz hissəsinin Ermənistana birləşdirilməsi ideyasını əsassız olaraq irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

### *Milli maraqlara əsaslanan xarici siyasət strategiyası*

1993-cü ilin ikinci yarısından, Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin beynəlxalq aləmdə fəallığının güclənməsi və qətiyyətli addımların atılması dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi iradəsi və zəngin dövlətçilik təcrübəsi sayəsində mümkün olmuşdur. Ümummilli Lider Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətini beynəlxalq aləmə çıxararaq təcavüzkarın ifşası, ölkəmizin ərazi bütövlüyünün bərpası və regionda sülhün bərqərar olması üçün qətiyyətli addımlar atmışdır.

Eyni zamanda doğma yurdlarından didərgin salınmış, məcburən köçkün düşmüş insanların bütün qayğı və problemləri Azərbaycan dövlətinin gündəlik fəaliyyətinə çevrilmişdir. Ümummilli Lider Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident sarayında doğma yurdlarından məcburən köçkün düşmüş Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə Şuşanın Azərbaycan üçün nə dərəcədə müstəsna əhəmiyyət kəsb etdiyini qiymətləndirərək demişdir: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Bütün dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımının əsl mahiyyəti yalnız görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Ümummilli Liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli Fərmanı Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni millətçiliyinin və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

### **İkinci Qarabağ müharibəsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası**

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

İkinci Qarabağ müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməsini özü icra etdi.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət bayrağını ucaltdı.

Nəticədə İkinci Qarabağ müharibəsi son yuz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın işğaldan azad edilmiş bütün ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərmana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edildi.

Bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin çox uğurla davam və inkişaf etdirməsi, eləcə də dinamik, çoxşaxəli və milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasəti nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

**Elçin ƏHMƏDOV,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru*

## Azərbaycanın özü qədər əbədi



# Ulu Öndərin adına layiq

## Heydər Əliyev Fondunun fəaliyyəti beynəlxalq aləmdə də təqdir olunur

**Ulu Öndər Heydər Əliyev müdrik siyasəti ilə ümumdünya tarixində özünə dərin iz qoymuş dahi şəxsiyyətdir. Azərbaycanın tərəqqisi naminə yorulmaz fəaliyyət göstərməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində məqsədyönlü və uzaqgörən siyasət aparması, bu sahədə uğurlar əldə etməsi böyük dövlət adamının liderliyini səciyyələndirən ən vacib xüsusiyyətlərdir. Heydər Əliyev xalqımızın taleyində, siyasi, ictimai və mənəvi həyatında, milli dövlətçiliyimizin qurulmasında və möhkəmləndirilməsində misilsiz xidmətləri olan ən böyük azərbaycanlıdır.**

Bu il Heydər Əliyevin dünyasını dəyişməsindən 21 il ötür. Bu 21 ilin elə bir anı yoxdur ki, böyük rəhbərin nurlu irsini, nəcib əməllərini xatırlatmamış olaq. Qurub-yaratdığı Azərbaycan dövlətinin var olduğu bütün zamanlar Ümummilli Liderin də əbədiyaşarlığı deməkdir. Böyük dövlət adamının ideyaları müasir dövrümüzdə də dünyaya, insanlara böyük faydalar verməkdədir.

Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı ilə dahi şəxsiyyətin dövlətçilik irsinin öyrənilməsi, ölməz ideyalarının geniş təbliği məqsədi daşıyan əlahiddə statuslu ictimai qurum - Heydər Əliyev Fondu yaradıldı.

Heydər Əliyev irsi təkcə bütün həyatını xalqının, dövlətinin yüksəlişinə həsr etmiş Ümummilli Liderin öz ömürlüyü ilə yaratdığı tarix deyil. Bu irs həm də bu günümüz və gələcəyimizdir. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyinə təminat yaradan, önümüzdə aydın inkişaf istiqamətləri müəyyənləşdirən yol bələdçisidir. Bu irsdən daim öyrənməyə, formalaşdırdığı dəyərləri təbliğ etməyə, gələcək nəsilləri həmin dəyərlər ruhunda yetişdirib tərbiyələndirməyə həmişə ehtiyacımız var. Fond artıq 20 ildir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəcib əməllərin parlaq salnaməsini yazır.

Çox gözəl təşəbbüslər, strateji niyyətlər ola bilər ki, müəyyən müddətdən sonra ortada görünən solğun nəticələri ilə uzlaşmasın. Görülmüş iş, verilmiş vədə tən gəlməsin. Heydər Əliyev Fondu isə öz fəaliyyəti ilə nəinki Azərbaycandakı ictimai qurumlar, ümumən dünyada eyni məqsədlərlə fəaliyyət göstərən təsisatlar üçün mükəmməl bir nümunə formalaşdırdı. Qısa müddətdə cəmiyyətdə böyük rəğbət yaradan heyrətamiz nəticələr, real əməllər ortaya qoymağa başladı. Bu, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq qabiliyyətindən, təşəbbüskarlığından, gələcəyə strateji baxışından, problemləri görə bilmək və onların həlli üçün qərar verməyi bacarmaq əzmindən, məharətindən irəli gəlir. Hər bir insanın həyatda yaşam fəlsəfəsinin olduğunu deyən fondun prezidenti Mehriban xanım Əliyevanın fikrincə, heç də vacib deyil ki, kimsə bu fəlsəfəni sözlərlə izah etsin. Bu həyat fəlsəfəsi istər-istəməz onun hərəkətlərində, əməllərində özünü büruzə verəcəkdir. Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsinin əsasında isə çox sadə bir ideya, əməl durur: insanlara yaxşılıq! Azərbaycanın Birinci vitse-prezidenti haqlı olaraq hesab edir ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

### Aydın hədəflər

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu da bu ideyaların reallaşdırılmasına, onun inkişaf yolunun davam etdirilməsinə xidmət edir. Dünyada rəğbətlə qarşılanan ictimai təşkilatin fəaliyyəti, böyük dövlət adamının vətənpərvərlik, humanizm, təhsil, mədəniyyət və sosial ədalət prinsiplərinə əsaslanaraq, onun Azərbaycanın gələcəyinə dair strateji baxışlarını həyata keçirmək məramı daşıyır. Bütün istiqamətlərdə, görülən hər bir işdə Azərbaycançılıq ruhu üstün tutulur.

Heydər Əliyevin təlqin etdiyi düşüncə, yaratdığı nümunə hər birimiz üçün mükəmməl vətənpərvərlik məktəbi, vətənə sədaqət dərsidir. "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ümummilli Lider öz mənəvi irsi ilə insanın vətəninə sevgisini, həm də onun mənəviyyat göstəricisi olduğunu təlqin edir. Bildirir ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir. Onu xalq üçün fəaliyyət göstərməyə sövq edir.

Heydər Əliyevin baxışlarına görə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının birlikdə mənimsədiyi ənənə və dəyərlərin, Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquqlarının qorunması və tarixi vətənə olan münasibətlərini ehtiva edən, azərbaycanlı düşüncəsini müəyyənləşdirən böyük bir konsepsiyadır. Azərbaycançılıq milli mənsubiyyətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər bir insanın birlik mənbəyidir. Bu ideologiya dünyanın müxtəlif səmtlərində yaşayan on milyonlarla azərbaycanlını bir araya gətirən işıqdır.

Bununla yanaşı, azərbaycançılıq ideologiyası təkcə fərdləri birləşdirmir. Eyni zamanda inancların, mədəniyyətlərin, beynəlxalq-humanitar dəyərlərin vəhdətini yaradır. Şərq və Qərb mədəniyyətlərinin dialoquna, türkçülük və avropaçılıq meyillərinin sintezinə, tarixi ənənələrin müasir inkişaf prosesləri ilə qovuşmasına kömək göstərir. Bu səbəbdən də azərbaycançılıq ideologiyası müxtəlif regionlarda, sosial-siyasi sistemlərdə və mədəniyyət mühitlərində yaşayan bütün dünya azərbaycanlıları üçün dəyərlidir. Heydər Əliyev Fondu fəaliyyətində bu amilləri əsas götürür və yerinə yetirdiyi işlər böyük sevgi ilə qarşılanır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti azərbaycançılıq ideologiyasının uğurlarına mühüm töhfələr verir və hər bir soydaşımız üçün parlaq nümunələr yaradır. Fondun xəttilə həyata keçirilən layihələr bütün dünyada xalq olaraq mədəni sərvətlərimizin zənginliyini nümayiş etdirir, Azərbaycanın dostlarının sırasını daha da genişləndirir, mədəniyyət diplomatiyasının gücü ilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Həyata keçirilən qlobal təşəbbüslər sayəsində Azərbaycan bu gün bütün dünyada mədəniyyətlərin dialoqu, multikulturalizm məkanı kimi tanınır. Xalqımız min illərdən bəri mövcud olan tolerantlıq ənənələrinin inkişafı, mədəniyyətlər arasında hörmət ruhu ilə dünyaya örnək yaradır.

Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təntənəsidir.

### Fondun aparıcı fəaliyyət sahəsi: təhsil

İnkişaf dəyişiklikdir. Mütərəqqi ənənələr üzərində yeni dəyərlərin yaradılmasıdır. Həyatımızdakı ən böyük dəyişikliklər isə məhz təhsillə, məktəblə başlanır. Son illər elmimiz, təhsilimiz daha geniş inteqrasiya proseslərinə cəlb olunur. Həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın tələblərinə uyğun tərzdə formalaşdırılır. Ölkəmizin iqtisadi qüdrəti yeniyetmələrimizin, gənclərimizin yeni bilik, bacarıq, informasiya və texnologiyaları mənimsəmə qabiliyyəti ilə bilavasitə bağlıdır.

Ölkə təhsilinin inkişafında Heydər Əliyev Fondunun gördüyü işlər isə maarifçilik tariximizin xüsusi bir səhifəsini təşkil edir. Mötəbər qurumun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi mövcuddur: bu təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər, əslində, xalqımızın gələcəyini qurmağın mühüm yollarıdır. "Bu gün hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur", - deyir Mehriban xanım Əliyeva.

Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikrini rəhbər tutan fond, ilk növbədə Azərbaycanın təhsil sisteminin inkişafına mühüm töhfələr verir. Bütün ölkəboyu, eləcə də Azərbaycandan xaricdə təhsil müəssisələrinin inşası və yenidən qurulması, yüksək potensiallı tələbələrin dəstəklənməsi üçün yerli və beynəlxalq təqaüd proqramlarının həyata keçirilməsi, gənclərin vətənpərvər ruhda böyüməsi və biliklərə sahib olması üçün təşkil edilən tədbirlər və layihələr buna aiddir.

Heydər Əliyev irsində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Ulu Öndər gənclərə xüsusi qayğı göstərir, onların müstəqil Azərbaycanın gələcəyinin təmin olunmasındakı roluna diqqət çəkərək deyirdi: "Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar... məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər".

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun layihələri ilə hər zaman Azərbaycan gəncliyinin yanındadır. Bu layihələrdə gənclərimiz fəal iştirak edirlər. Onlara öz potensiallarını reallaşdırmaq, öyrəndiklərini həyatda tətbiq etmək, zəngin təcrübə, faydalı bacarıqlar qazanmaq, sosial çevrə formalaşdırmaq imkanı yaradılır. Fondun prezidenti gəncləri bu layihələrə cəlb etməklə ölkəmizdə gənc könüllülər hərəkatını formalaşdırıb. Xalqımızın tarixi keçmişindən gələn əlbir iş ənənələrinə, el-oba naminə təmənnasız xidmətlərə müasir dövrdə yeni məzmun qazandırıb. Bu, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun daha da yüksəlməsinə, onların fərdi inkişafına, öz gələcəklərini arzularındakı kimi qura bilmələrinə çox böyük dəstəkdir. Bütün bunlar, Heydər Əliyev irsinin ana xəttini təşkil edən Vətənə, xalqa təmənnasız xidmət ideyasının gənc nəslə aşılanması baxımından misilsiz əhəmiyyətə malikdir.

İşğal altındakı torpaqlarımız da məhz bu gəncliyin gücü, əzmkarlığı, vətənpərvərliyi, döyüş ruhu sayəsində azadlığa çıxdı. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bütün təhsil layihələri də məhz gənc nəslin firavan gələcəyinin təminatına yönələn böyük işlərdir. Bu layihələr həm də dünyaya yeni bir Azərbaycan təqdim edir. Ölkəmizi beynəlxalq aləmə elm, təhsil, mədəniyyət işığında tanıdır. Bizə rəğbət bəsləyənlərin, bizimlə həmrəy olanların sırasını genişləndirir.

### Dəyərlərimizə həssas münasibət

Heydər Əliyev Azərbaycanın zəngin mədəni irsinin qorunmasını və dünyada tanıdılmasını milli strategiyanın əsas istiqamətlərindən biri kimi görürdü. Fondun fəaliyyətinin mühüm bir qismi də məhz bu istiqamətdədir. Bu qurumun bərpa layihələri tarixi abidələrin, məscidlərin, ziyarətgahların və mədəniyyət mərkəzlərinin təmiri və konservasiyasını əhatə edir. Azərbaycan musiqisinin, incəsənətinin və mədəni dəyərlərinin beynəlxalq səviyyədə təbliği üçün ardıcıl işlər həyata keçirilir.

Fond milli mədəniyyət incilərimizin, muğamlarımızın qorunması, bütün dünyada təbliği istiqamətində tarixi işlər görmüşdür. Böyük şəxsiyyətlərimizə ölkəmizdə və Azərbaycandan kənarda xatirə abidələrinin ucaldılması, ev-muzeylərinin bərpası, yubileylərinin təşkili, əsərlərinin nəşrinə dəstək, müxtəlif regionlarımızda mədəniyyət mərkəzlərinin, kitabxanaların, rəsm qalereyalarının, musiqi məktəblərinin, qədim tarixi irsimizin qorunduğu məkanların yaradılması Heydər Əliyev Fondunun mədəniyyət layihələrinin yalnız bir hissəsidir.

Fondun təşəbbüsü ilə inşa edilmiş Beynəlxalq Muğam Mərkəzi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və bir sıra digər mədəniyyət obyektləri, dünyanın ayrı-ayrı ölkələrində yaradılmış Azərbaycan Mədəniyyət mərkəzləri, keçirilən musiqi festivalları, beynəlxalq humanitar tədbirlər mədəniyyətin gücü ilə insan düşüncəsinin saflığına, yaradıcı ruhun təntənəsinə, dünyamızda sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edir.

Fond Azərbaycandan kənarda da mədəniyyət layihələrini uğurla davam etdirir, ümumbəşəri dəyər daşıyan abidələrin qorunmasına, bərpasına, təbliğinə öz dəyərli töhfələrini verir. Belə layihələrlə Azərbaycan özünü bütün dünyaya mədəniyyət işığında təqdim edir, Şərqlə Qərbin qovuşuğunda, sivilizasiyaların təmas məkanında yerləşən ölkəmizin qlobal nüfuzu, beynəlxalq ictimai rəyə təsir imkanları getdikcə artır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, tarixi Zəfərimizdən dərhal sonra Qarabağda, Şərqi Zəngəzurda başlanan quruculuq-bərpa tədbirləri Heydər Əliyev Fondunun da fəaliyyətində yeni bir səhifə açmışdır. Bu gün işğaldan azad edilmiş yurdlarımızın dirçəlişi prosesində fəal iştirakı, bu torpaqlarda reallaşdırdığı tarixi layihələr fondun özünün 20 illik yubileyinə ən gözəl hədiyyəsidir.

Qısa müddət ərzində qurum işğal dövründə ermənilərin vandalcasına dağıtdıqları bir çox mədəniyyət abidəsinin bərpasını uğurla yekunlaşdırıb. Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Saatlı məscidi, İncəsənət qalereyası, Xalça muzeyi, Yuxarı Gövhər ağa məscidi, Xan qızı bulağı və digər tarixi dəyərlərin yenidən həyata qaytarılması Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun torpaqlarımızın azadlığına tarixi töhfəsidir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Beynəlxalq Kulinariya Festivalı və digər tədbirlər bu qala şəhərinin əvvəlki cəlalını daha yüksək səviyyədə özünə qaytarır.

### Heydər Əliyev Fondunun "yaşıl" təşəbbüsləri

Ümummilli Lider Heydər Əliyevin ətraf mühitə qayğı prinsiplərini əsas tutaraq, fond uzun illərdir ki, bu sahədə də effektiv "yaşıl təşəbbüs"lər həyata keçirir. Bu baxımdan, qurumun COP29 çərçivəsində gördüyü işlər çox mühüm bir örnək oldu.

Öncə xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev Fondu Azərbaycanın mədəni, ekoloji və sosial inkişafını təbliğ edən nüfuzlu bir təşkilat kimi, mötəbər tədbirdə ölkəmizi uğurla təmsil etdi, iqlim dəyişikliyi ilə mübarizə, ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinin təşviqinə dair müxtəlif təşəbbüslər irəli sürdü. Yada salaq ki, fondun bu istiqamətdə fəaliyyəti hələ ötən ilin dekabrından başlamışdı. Dubayda keçirilən COP28 zamanı Azərbaycan pavilyonunda ölkəmizin COP29-a ev-sahibliyi münasibətilə tədbir təşkil olunmuş, maraqlı bir mədəniyyət proqramı nümayiş etdirilmişdir.

COP29-un "yaşıl zona"sında isə Heydər Əliyev Fondu və Türkiyənin Sıfır Atık Fondunun birgə pavilyonu - COP29-da Həmrəylik Mərkəzi (The Solidarity Hub at COP29) təqdim edildi. Bununla da Azərbaycan və Türkiyənin iki nüfuzlu fondu davamlılıq və sosial inkişaf naminə səylərini birləşdirmiş oldular. Bu müştərək layihə hər iki fondun ətraf mühit və sosial məsuliyyət sahələrində fəaliyyətlərini önə çəkdi. Məlumdur ki, Heydər Əliyev Fondunun uzun illərdən bəri təhsil, səhiyyə, sosial və mədəniyyət layihələri ilə yanaşı, ətraf mühitin qorunması üzrə təşəbbüsləri də öz səmərəsi ilə böyük faydalar verir. COP29-dakı pavilyon çərçivəsində bu sahədəki fəaliyyət nümayiş etdirildi. Təhsil, səhiyyə və sosial sahələrdəki layihələrlə bağlı interaktiv zonada həmin layihələr haqqında ətraflı məlumatlar təqdim olundu. Sıfır Atık Fondu isə bu platformada resurs səmərəliliyi, tullantıların idarə olunması və təkrar emal sahəsindəki layihələrini, ətraf mühitin qorunması üzrə maarifləndirmə istiqamətindəki proqramlarını və innovativ həllərini təqdim etdi.

COP29-da birinci xanımların iştirakı ilə "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfransı keçirildi. Tədbirdə 2024-2030-cu illər üçün nəzərdə tutulan "Mədəni inkişafın təşviqi və uşaqların, gənclərin iqlim gündəliyinə cəlb edilməsi üzrə Beynəlxalq Strategiya"nın imzalanması mərasimi oldu. İştirakçılar tədbirdən sonra Həmrəylik Mərkəzini ziyarət edərək Heydər Əliyev Fondunun ətraf mühitin qorunması üzrə təşəbbüsləri ilə yaxından tanış oldular. Pavilyona ziyarət zamanı birinci xanımlar Şamaxı rayonunda gənclərin və könüllülərin iştirakı ilə keçirilən ağacəkmə aksiyasını da bağlantı vasitəsilə izlədilər. Aksiya zamanı ətraf mühitin qorunmasına töhfə olaraq 10 mindən çox şam ağacı əkildi. Yada salaq ki, "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans zamanı Mehriban xanım Əliyeva COP tədbirlərini ətraf mühit üçün daha da səmərəli edəcək maraqlı bir təşşəbbüs kimi irəli sürdü. Mehriban xanım təklif etdi ki, gələcəkdə konfransların onlayn formatda keçirilməsi imkanı araşdırılsın: "Bu yanaşma nəinki ciddi şəkildə vəsaitlərə qənaət edəcək, o cümlədən uçuşlar və böyük tədbirlər nəticəsində yaranan atılmaları, həmçinin ətraf mühitə təsiri azaldacaq. İşçi qruplar təfərrüatlı müzakirələr və əlaqələndirmə üçün şəxsən görüşə bilərlər. Lakin rəhbərlərin sammitləri videokonfrans formasında keçirilə bilər.

Bu, bizə resursları, səyləri və vaxtı hədəflənmiş məsələlərə yönəltmək imkanı yaradacaq və prosesi ətraf mühit baxımından daha uyğun edəcək" .

### Azərbaycan təbiətinə həsr olunmuş unikal nəşr

Heydər Əliyev Fondunun COP29 çərçivəsində reallaşdırdığı ən maraqlı layihələrdən biri də "Azərbaycan. Təbiətin sehrində" nəşrinin təqdimatı oldu. Fond bu kitabı xüsusi layihə çərçivəsində nəşr etdirib. Layihənin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri isə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərovdur.

Nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, müvafiq məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir.

Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təqdimat mərasimindəki çıxışında da qeyd etdiyi kimi, bu kitab hər kəsi təbiəti sevməyə və onu qorumağa səsləyir. Qeyd edək ki, ötən müddətdə layihə həm də sosial şəbəkədə geniş işıqlandırılıb, bu platforma üzərindən müxtəlif maarifləndirici rubrikalar, müsabiqələr təşkil olunub. Bu isə daha geniş ictimaiyyətin layihə barədə məlumatlandırılmasına imkan verib. Kitab Azərbaycan və ingilis dillərində hazırlanıb.

Ümumilikdə Heydər Əliyev Fondunun COP29-dakı əsas məqsədi, iqlim dəyişikliyi problemləri ilə mübarizədə Azərbaycanın töhfələrini və təşəbbüslərini beynəlxalq auditoriyaya çatdırmaq idi və qurum öz məqsədinə uğurla nail oldu. Bu, reallaşdırdığı digər layihələrlə yanaşı, ölkəmizdə və dünyada ekoloji tarazlığın qorunması, nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi, əhali arasında ekoloji təbliğatın gücləndirilməsinə də xüsusi diqqət yetirən qurumun missiyasının uğurlu davamıdır.

Heydər Əliyev Fondunun COP29-da fəal iştirakı, təqdim etdiyi layihələr beynəlxalq tərəfdaşlıq imkanlarını genişləndirməklə yanaşı, Azərbaycanın ekoloji gələcəyini formalaşdırmaq üçün mühüm addımlar atıldığını nümayiş etdirdi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın özü qədər əbədi

# Yüksəlişimizin dayanıqlı platforması – Ulu Öndərin enerji strategiyası

**Ümummilli Lider Heydər Əliyev Azərbaycanın neft-qaz sənayesini iki dəfə tənəzzüldən xilas etmiş, gerilikdən çıxarmışdır. Ulu Öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə bu sahədə yüksək inkişafa nail olunmuşdur. Bu da öz növbəsində ölkənin ümumi inkişafına böyük təkan vermişdir.**



1969-cu ildə Azərbaycana rəhbər seçildikdən az sonra Ümummilli Lider neft-qaz sənayesinin problemlərini sahənin aparıcı mütəxəssisləri ilə birgə müzakirə etmişdir. Görüləcək işlər müəyyənləşdirilmişdir. Nəticədə, respublikanın sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, neftin və qazın hasilatı, kəşfiyyatı, emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir.

1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı sayəsində Azərbaycana 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, sərnişin, boruçəkən, seysmik və digər gəmilər gətirildi. 2500 ton gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 metr dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğuları alındı. Xəzərin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. 1960-cı illərin sonu ilə müqayisədə neft ehtiyatları iki, qaz ehtiyatları üç dəfə artdı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 milyon ton (şərti yanacaq) təşkil etdi. 1980-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində indi Azərbaycan neftinin əsas hissəsini verən "Günəşli", "Çıraq", "Azəri" və başqa yataqlar kəşf olundu.

Bu dövrdə neft emalı sənayesində də bir çox yeniliklər baş verdi. Neft emalı üçün xüsusi proqram hazırlandı və həyata keçirilməyə başlandı. Həmin proqrama əsasən, yeni texnika və texnologiyaya malik zavodlar yaradıldı, təzə qurğular inşa olundu.

Əgər Ulu Öndərin sovet dönəmində tikdirdiyi Bakı Dərin Özüllər Zavodu olmasaydı, Azərbaycanın müstəqillik dövründə həyata keçirdiyi neft-qaz layihələrinin hər biri ən azı beş il ləngiyə bilərdi. Bu gün Ümummilli Liderin adını şərəflə daşıyan həmin müəssisənin Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu. Məhz Heydər Əliyevin möhkəm iradəsi, səyi və nüfuzu sayəsində Moskva zavodun Bakıda inşa edilməsinə və tikinti üçün 450 milyon ABŞ dollarının ayrılmasına icazə verdi.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycanın yeni neft strategiyasının əsası qoyuldu. Prezident İlham Əliyev bu barədə belə deyir: "Əsrin kontraktı"nın imzalanması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda çox ağır problemlərlə üzləşmişdi. Xüsusilə 1992-ci ildə dövlət çevrilişindən sonra hakimiyyəti qanunsuz zəbt etmiş AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarına qoyulmuşdu. İqtisadi tənəzzül, sənaye potensialının azalması, inflyasiya min faizlərlə ölçülürdü, ölkəmizdə iqtisadi perspektivlər demək olar ki, yox idi, siyasi, hərbi, iqtisadi böhran, anarxiya, xaos yaşanırdı... Bununla paralel olaraq, Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti aparırdı və bu siyasət nəticəsində torpaqlarımızın böyük hissəsi işğal altına düşmüşdür, bir milyondan çox qaçqın-köçkünümüz var idi. Bax belə bir ağır vəziyyətdə xalq yeganə düzgün seçim etdi, Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi... Əlbəttə ki, ölkəmizin inkişafı üçün xarici sərmayə lazım idi. Çünki o vaxt xəzinə boş idi, inkişaf üçün də heç bir imkan yox idi. Belə bir vəziyyətdə xarici böyük neft şirkətlərini inandırmaq, onları Azərbaycana cəlb etmək əlbəttə ki, böyük müdriklik, bacarıq, səriştə və siyasi təcrübə tələb edirdi. Heydər Əliyev bu tarixi missiyanı uğurla icra etdi. Azərbaycan o vaxt çox riskli bir yer sayılırdı və belə bir vəziyyətdə 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması, ölkəmizə böyük sərmayə qoyuluşunun cəlb edilməsi doğrudan da tarixi nailiyyətdir".

"Əsrin müqaviləsi" adını almış bu möhtəşəm saziş Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi məqsədini daşıyır. 2024-cü ilin birinci yarısının sonuna qədər layihəyə ümumi investisiya həcmi təqribən 45 milyard dollar olub. İndiyədək AÇG-dən təqribən 4,4 milyard barel neft hasil edilib.

Bir vaxtlar isə bizi gözü götürməyən kənar qüvvələr, eləcə də "sapı özümüzdən olan balta"lar deyirdilər ki, Azərbaycanda neft yoxdur və belə bir sazişin imzalanması əbəsdir. Cavabı isə zaman özü verdi. Belə ki, "Əsrin müqaviləsi" əsrlərə hesablanmış düzgün və uzaqgörən strategiya əsasında imzalanmışdı. Azərbaycanın AÇG-dəki ehtiyatları hətta ona imkan verdi ki, XX minilliyin 90-cı illərində imzalanmış kontrakt XXI əsrin ortasınadək uzadıldı. Bundan sonra tikilən ACE platformasından ("Yeni əsrin müqaviləsi" çərçivəsində) ilk neft bu il aprelin 16-da çıxarıldı.

"Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür". Bu sözləri Ulu Öndər Heydər Əliyev 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməlqoyma mərasimində demişdi. Ümummilli Lider tərəfindən gələcəyə hesablanaraq görülən qlobal işlərdən biri də elə məhz BTC-nin çəkilişi idi.

Keçən əsrin 90-cı illərinin ikinci yarısında "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatı artdıqca mövcud olan Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Bundan əvvəl "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə onun baş tutmasına mane olmaq istəyənlər yenidən baş qaldırdılar. Bu dəfə hədəfdə BTC idi. Lakin maneələr davam etsə də, BTC irəliləyirdi.

Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən "iş"ə başladılar. Yəni onlar tikintinin təməli qoyulandan sonra da rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün növbəti səbəblər uydururdular. Bu dəfə kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Bu da layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirirdi. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər. Lakin Ümummilli Lider layihənin həyata keçirilməsinin bütün mərhələlərində "BTC olacaq, olacaq, olacaqdir!" deyirdi. Bu baxımdan 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında şəxsən iştirak etməyi qərara alması da təsadüfi deyildi. Tədbirin keçirildiyi günlərdə Heydər Əliyev ABŞ-nin ovaxtkı Prezidenti Corc Buş, vitse-prezident Riçard Ceyni, ticarət naziri Donald Evants, energetika naziri Spenser Abraham ilə görüşdü. "Mübarizəmiz davam edəcək və biz istəyimizə nail olacağıq!" Bütün söhbətlərin başlıca məzmunu bu idi.

Tədbirin keçirildiyi günlərdə Azərbaycanın, Gürcüstanın və Türkiyənin səlahiyyətli nümayəndələri, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbəri Beynəlxalq Maliyyə Korporasiyasında oldular. BTC-nin maliyyələşdirilməsinə dair fikir mübadiləsi aparıldı. Sonra Ulu Öndər korporasiyanın rəhbəri Piter Voykeni qəbul etdi. Layihədə bu beynəlxalq maliyyə qurumunun imkanlarından istifadə imkanları müzakirə olundu. P.Voyke bildirdi ki, korporasiyanın məqsədi yalnız bir kəmərin layihəsinin maliyyələşməsində deyil, regionda həyata keçirilən digər layihələrdə də fəal iştirak etməkdir.

Beləliklə, Heydər Əliyevin dünyadakı hörmət və nüfuzu BTC-ni bu çətinlikdən də çıxardı.

BTC qalib gəldi! Azərbaycanın bədxahları bu dəfə də məqsədlərinə çatmadılar. Ümummilli Liderin daha bir şah əsəri tarixdə özünə yer aldı. Belə ki, 2004-cü fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi əlaqədar son sənədlər imzalandı.

Bu gün BTC təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər Azərbaycana və ərazisindən keçdiyi ölkələrə birbaşa gəlirlər gətirməklə yanaşı, marşrut boyu yerləşən yaşayış məntəqələrinin icmalarına sosial sərmayələri ilə gəlirlər gətirir.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Başqa sözlə, Ümummilli Lider Heydər Əliyev bu nəhəng qurğunun təməlini qoydu, Prezident İlham Əliyev onu möhtəşəm dəhlizlərə qovuşdurdu. Dövlətimizin başçısının dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Bu gün Heydər Əliyevin enerji strategiyasından özümüz də bəhrələnirik, qonşularımız və dostlarımız da. Bu strategiya polad platformaya çevrilərək yeni möhtəşəm layihələrin təməli olub. Üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan, Ümummilli Lider Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərindən sonra Azərbaycanı qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum kəməri inşa edilib. Ölkəmizi pan-Avropa qaz təchizatçısına çevirən 3500 kilometrlik "Cənub qaz dəhlizi" yaradılıb. İndi isə Avropaya "yaşıl enerji" dəhlizi çəkməyi də hədəfləmişik. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu strategiya Prezident İlham Əliyev tərəfindən günün tələbləri baxımından inkişaf etdirilir və Azərbaycanı yeni zirvələrə doğru aparır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



**Azərbaycan tarixinin 34 illik bir dövrü Ulu Öndərin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Bu dövrdə xalqımızın əldə etdiyi bütün nailiyyətlərdə, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı uğurlarda dahi şəxsiyyətin imzası danılmazdır.**
**Keçən əsrin 60-cı illərinin sonuna qədər aqrar-sənaye kompleksinin bütün sahələri demək olar ki, xroniki böhran vəziyyətində idi. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməsi ilə ölkədə canlanma, yeni ab-hava, işgüzar əhvali-ruhiyyə yarandı. Onun titanik əməyi sayəsində 1969-1982-ci illərdə Azərbaycanın aqrar sektorunda yarım əsrə yaxın davam edən geriliyə son qoyuldu. 1970-ci ilin iyulunda Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdi.**

# Azərbaycanın aqrar sektorda bugünkü uğurlarının təməlini Heydər Əliyev qoyub

Bu sənəd respublikada kənd təsərrüfatının sonrakı inkişafı üzrə konkret məsələləri müəyyən edən fəaliyyət proqramı oldu. Tezliklə kənd təsərrüfatının pambıqçılıq, taxılçılıq, üzümçülük, meyvəçilik, çayçılıq və heyvandarlıq kimi sahələrinin sonrakı inkişafı üzrə proqramlar işlənib hazırlandı.

Bu proqramlar vasitəsilə ayrı-ayrı regionlarda bitkiçilik və heyvandarlıq sahələri üzrə ixtisaslaşmanın əsası qoyulmuşdu. Xüsusilə də suvarılan əkinçiliyin respublikada kənd təsərrüfatının inkişafının əsasını təşkil etdiyi ön plana çəkilmişdi. Ona görə də irriqasiya-meliorasiya qurğuları tikintisinin genişləndirilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması, şoran torpaqların yuyulması üzrə işlərin sürətləndirilməsi əsas vəzifələrdən biri hesab edilirdi. İstehsal proseslərinin kompleks mexanikləşdirilməsi və əməyin təşkilinin təkmilləşdirilməsi üzrə işlər də geniş vüsət almışdı. İttifaq hökuməti yuxarıda göstərilən məsələlərin həllini təmin etmək məqsədilə respublikaya texnika əldə etməsi üçün milyonlarla maliyyə vəsaiti, ehtiyat hissələr, tikinti materialları, mineral gübrələr, bitkilərin xəstəliklərinə və zərərvericilərə qarşı mübarizə üçün kimyəvi preparatlar ayırmışdı. Bütün bunlar məhz Heydər Əliyevin şəxsi nüfuzu sayəsində əldə olunmuşdu. O zamanlar üçün bu, çox böyük uğur idi. 13 il dalbadal ümumittifaq yarışlarının qalibi olmaq isə bir ayrı xoşbəxtlikdən xəbər verirdi.

SSRİ-nin məlum süqutundan sonra Ulu Öndərin gərgin əməyi, tükənməz istedadı, zəngin təcrübəsi və təşkilatçılığı sayəsində iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar-sənaye kompleksində əldə olunmuş potensial baza dağıdıldı. İflic vəziyyətinə düşmüş iqtisadiyyatı dirçəltmək, o cümlədən kənd təsərrüfatında itirilənləri qaytarmaq yenə də Ulu Öndərin "alın yazısı" oldu. İkinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər aqrar sektoru düşdüyü ağır vəziyyətdən çıxarmağa nail oldu. Böyük təcrübə, idrak sahibi olan Heydər Əliyev yaranmış vəziyyəti öz iti ağlı, böyük zəkası ilə bütün incəliklərinə qədər təhlil edərək, dəfələrlə xalqla məsləhətləşmələr apardıqdan sonra bu sahədə islahatların həyata keçirilməsinin labüdlüyünü özünəməxsus cəsarətlə irəli sürdü.

Ulu Öndər ilk növbədə pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük və çayçılıq sahələrində işlərin vəziyyətini hərtərəfli təhlil edərək, mövcud nöqsanları və səhvləri göstərdi. Daha sonra imkanları müəyyən edib kənd təsərrüfatında məhsuldarlığın artırılmasının konkret yollarını təklif etdi. Ulu Öndər yüksək məhsuldarlıqlı, xəstəliyə davamlı yerli bitki sortları yaratmağa imkan verən aqrar elmin uğurlarına, həmçinin toxumçuluq təsərrüfatlarının inkişafına, damazlıq təsərrüfatlarının işinin yaxşılaşdırılmasına və məhsuldar heyvanlar yetişdirilməsi məsələlərinə böyük diqqət yetirirdi. Aqrar sahədə çalışan alimlərin qarşısında dənli bitkilər, pambıq, tərəvəz, meyvə və başqa məhsulların yetişdirilməsi, becərilməsi ilə əlaqədar mütərəqqi texnologiyaların işlənib hazırlanması və tətbiqi üzrə vəzifələr qoyurdu. Və bütün bunlar öz bəhrəsini verirdi. Bunlar reallıqdır, yaşamış olduğumuz yaxın keçmişimizdir.

1995-ci ildən başlayaraq ölkədə aqrar islahatları həyata keçirmək məqsədilə 40-dan artıq hüquqi-normativ sənəd hazırlanaraq qəbul olundu. Azərbaycan Konstitusiyasına uyğun olaraq yeni torpaq qanunvericiliyi ilə vahid torpaq fondu üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları müəyyən edildi. Aqrar sektorun inkişafına təkan verən qərarlara imza atıldı. Kənddə inqilabi dəyişikliklərin başlanmasına start verən bu qərarlardan birinciləri 1995-ci il fevralın 18-də qəbul edilmiş "Sovxoz və kolxozların islahatı haqqında" və "Aqrar islahatının əsasları haqqında" qanunlardır. Bir il sonra "Torpaq islahatı haqqında" qanun da qəbul olundu. Bu, postsovet məkanında ilk qətiyyətli aksiya idi və bu aksiyanın fəlsəfəsini Heydər Əliyev özü hamıdan yaxşı ifadə etmişdi: "Kənddə aqrar islahatlar aparmaq xətti götürmək, torpağı və mülkiyyəti əzəl sahiblərinə, torpaqda yaşayanlara və işləyənlərə qaytarmaq". Məhz bu islahatlar nəticəsində respublikamızda mövcud olmuş 2041 təsərrüfat, yəni kolxoz və sovxoz ləğv edilərək onların əkinə yararlı münbit torpaqları təxminən 875 min ailəyə verildi.

Aqrar sektorda aparılan iqtisadi siyasətin nəticəsində "Ərzaq təhlükəsizliyi proqramı", "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı", "2003-2005-ci illərdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə dövlət proqramı" kimi sənədlər həyata vəsiqə aldı. Heydər Əliyevin imzaladığı fərman və sərəncamlarla kəndli sahibkarlar torpaq vergisi istisna olmaqla bütün vergilərdən, həmçinin bir sıra istehsal vasitələri və toxumlar gömrük rüsumlarından azad edildi. Yanacaq yarı qiymətlə satıldı, xeyli texnika və kreditlər verildi, suvarma suyunun satışında böyük güzəştlər edildi. Ulu Öndərin rəhbərliyi ilə aparılan aqrar islahatlar nəticəsində iqtisadi potensialın formalaşmasında həlledici rol oynayan sahibkarlığın təməli qoyuldu, sərbəst və azad rəqabət mühiti yaradıldı.

Heydər Əliyevin rəhbərliyi və tapşırığı əsasında xarici ölkələrin təcrübəsi öyrənilərək ölkəmizin xüsusiyyəti və xalqımızın mentaliteti nəzərə alınır və milli maraqların qorunması əsas götürülərək təhlillər aparılırdı. Bu təhlillər nəticəsində belə fikir formalaşdı ki, ölkə iqtisadiyyatını, o cümlədən aqrar bölməni bu çətin vəziyyətdən çıxarmaq üçün heç bir səmərə verməyən inzibati-amirlik metodundan əl çəkmək və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçmək lazımdır. Bunun üçün islahatlar həyata keçirilməli, dövlətin mülkiyyətində olan əmlakın bir hissəsi özəlləşdirilərək xüsusi mülkiyyətə verilməlidir ki, ölkədə sahibkarlıq inkişaf etsin. Bununla əlaqədar hələ 1994-cü ilin martında keçirdiyi müşavirədə Ulu Öndər demişdi: "Bildiyiniz kimi, respublikamız ağır iqtisadi-sosial böhran içərisindədir. Respublikanın iqtisadiyyatının və sosial həyatının bütün sahələrini bürüyən bu böhran, təəssüf ki, ilbəil dərinləşir, ölkənin həyatına onun mənfi təsiri güclənir. Mən respublikanın bu vəziyyətdə olması barədə öz fikirlərimi dəfələrlə demişəm, təkrara ehtiyac yoxdur. Kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Gecikmək olmaz. Bu mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm. Kim müqavimət göstərmək, yaxud mühafizəkarlıq etmək istəyirsə, biz onlara yol verməyəcəyik".

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi 3 onillikdən çox bir dövrün aqrar sektorunu xarakterizə edən uğurları rəqəmlərin dili ilə sadalamaq da olar. Amma buna ehtiyac olmadığını məqsədəuyğun sayaraq, deyə bilərik ki, hər kəsə bəlli olan müsbət faktları özündə ehtiva edən kənd təsərrüfatının bugünkü inkişafı məhz Ulu Öndərin xidmətlərinə bağlıdır. Heydər Əliyevin aqrar sahəyə göstərdiyi qayğı və diqqət, həmçinin imzaladığı fərmanların tam həcmdə icrası bu gün Prezident İlham Əliyevin nəzarətindədir. Aqrar sənaye-kompleksində görülən işlər, əldə olunan müsbət nəticələr deməyə əsas verir ki, Heydər Əliyevin aqrar siyasət xətti uğurla davam etdirilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanın özü qədər əbədi



# Ulu Öndər Böyük Zəfərin həmmüəllifidir

**Ordu dövlətin dayağı, xalqın güvənc və qürur mənbəyidir. Ordu həm də müstəqilliyin etibarlı təminatçısı və müdafiəçisidir. Dövlətin nüfuzu təkcə iqtisadi, siyasi və elmi potensialı ilə deyil, həm də onun malik olduğu ordusunun qüdrəti və gücü ilə ölçülür. Yaxın tariximizdən məlumdur ki, ölkəmizdə bu vacib sahə, ordu quruculuğu çox çətin, mürəkkəb mərhələlərdən keçib. Onun qurulması və formalaşması üçün uzun zaman sərf olunub. Sonda düşmən üzərində Zəfər qazanmağa qadir olan güclü və qüdrətli bir ordu yaradılıb.**

Başqa sahələrlə yanaşı, Azərbaycanda ordu quruculuğu da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın təkidli tələbi ilə 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində uğurlara hesablanmış olduqca mühüm addımlar atıldı. Ümummilli Lider 1993-cü il noyabrın 2-də radio və televiziya ilə çıxış edərək ölkədə yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına tarixi müraciət etdi. Ürəyi Vətən eşqi ilə döyünən oğulları ordu sıralarına, yurdumuzun müdafiəsinə səslədi. Qısa müddət ərzində yüzlərlə, minlərlə vətənpərvər gənc könüllü olaraq ordu sıralarına axışdı. Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı işğal etməsinin davamına yalnız Heydər Əliyevin Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi cəbhə bölgələrinə səfərlərindən, zabit və əsgərlərlə görüşlərindən sonra son qoyuldu. Ulu Öndərin cəbhə xəttinə gəlişi, çıxışları, dəyərli və qiymətli sözləri hərbçilərin qələbə əzmini daha da artırdı, döyüş ruhunu yüksəltdi. Yenicə formalaşan Azərbaycan Ordusunun bölmələri bir sıra bölgələrdə uğurlu əməliyyatlar həyata keçirərək düşməni geri sıxışdırdılar. Erməni qəsbkarlarının tapdağında qalmış neçə-neçə yaşayış məntəqələri qəsbkarlardan azad olundu.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ordu quruculuğunda çox nuhum islahatlar aparıldı, o cümlədən ixtisaslı kadrların hazırlanması məqsədilə hərbi təhsil sahəsində uğurlu addımlar atıldı. Göstərilən səylər hədər getmədi. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı. Məhz Ulu Öndər Heydər Əliyevin Ali Baş Komandanlığı dövründə ordumuz hərb elminin prinsipləri əsasında yenidən yaradıldı, yenidən quruldu. Getdikcə formalaşan, güclənən Azərbaycan Ordusu dövlət səviyyəsində hərtərəfli qayğı və yardımla əhatə olundu. Ulu Öndər həmişə çıxışlarında fərəhlə deyirdi: "…İndi bizim hərtərəfli təlim görmüş, yüksək döyüş hazırlığına malik güclü ordumuz var". Bu gün hər birimiz fəxrlə deyə bilərik ki, sıralarında Azərbaycan oğullarının xidmət etdiyi Silahlı Qüvvələr məhz Ümummilli Liderimiz Heydər Əliyev kimi dahi bir sərkərdənin ordusudur.

Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə dəfələrlə irimiqyaslı təlimlərdə iştirak edərək ordumuzun zabit və əsgərlərinin döyüş vərdişlərinin artırılmasına xüsusi diqqət yetirirdi. Ali Baş Komandan Heydər Əliyev deyirdi: "Bizim ordumuz, Silahlı Qüvvələrimiz torpaqlarımıza hücum edənlərin qarşısını almağa hər an, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır". Məhz onun atalıq qayğısından ruhlanan hərbi hissə komandirləri, təcrübəli zabitlər şəxsi heyətin döyüş ruhunu daha da yüksəltmək üçün səylə çalışırdılar. Dərs və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə can atırdılar. Vətənin keşiyində ayıq-sayıq dayanan əsgərlər hazırlayırdılar.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlayır, Silahlı Qüvvələrimizin daha da güclənməsi üçün tədbirlər görürdü. Ümummilli Lider 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin I Forumundakı çıxışında ordu quruculuğundan bəhs edərək demişdir: "Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik... Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".

Nadir şəxsiyyət, Ulu Öndər Heydər Əliyev dövlətimizin imicini beynəlxalq aləmdə daha da yuksəltdikdən sonra Silahlı Qüvvələrimizin də dünya ölkələrinin ordularına inteqrasiya etməsinə əlverişli şərait yarandı. Həyata keçirilən uğurlu və çevik islahatlar nəticəsində Azərbaycan Ordusunun beynəlxalq əlaqələri qısa vaxt ərzində daha da genişləndi və möhkəmləndi. Ümummilli Liderin təşəbbüsü ilə Silahlı Qüvvələrimizin tərkibində formalaşan sülhməramlı taborun şəxsi heyəti zaman-zaman Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak etdi. Təbiidir ki, bütün bunlar ordumuzun beynəlxalq aləmdə artan nüfuzunun müsbət göstəricisi idi.

Məhz buna görə də inamla deyə bilərik ki, Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi bütün ömrünü xalqının xoşbəxt gələcəyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş dahi şəxsiyyət Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli Liderin zaman-zaman Vətən, ordu və Qarabağ haqqında söylədiyi fikirlər addım-addım xalqımızı, ordumuzu şanlı qələbələrə, zəfərlərə doğru aparırdı.

Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə əsası qoyulan ordu quruculuğu sahəsindəki islahatlar Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Dövlət başçısının həyata keçirdiyi ordu quruculuğu sahəsindəki islahatlar qısa müddət ərzində Silahlı Qüvvələrimizin qüdrətini daha da artıraraq regionda ən güclü orduya çevirdi. Dövlət başçısının diqqət və qayğısı sayəsində bu gün ordumuz dünyanın güclü orduları sırasındadır.

Getdikcə güclənən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrini məğlub etdi. Ulu Öndərin bünövrəsini qoyduğu Azərbaycan Ordusu 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərərək xalqımıza Zəfər sevinci yaşatdılar. Uğurlu döyüşləri ilə Azərbaycan xalqının başını zirvələrə ucaltdılar. 30 ilə yaxın davam edən həsrətə, intizara son qoyuldu. Azərbaycan Ordusu qazandığı Zəfəri ilə tariximizə yeni səhifələr yazdı. Bu səhifələri tarixə əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu Azərbaycan Ordusu yazdı. Bu qüdrətli, güclü ordu 44 günlük Vətən müharibəsində düşmən üzərində böyük Zəfər qazandı. Qazanılan uğurlara, qələbələrə əsaslanıb deyə bilərik ki, erməni işğalçıları üzərində Zəfərimizin həmmüəllifi Ümummilli Lider Heydər Əliyevdir. Çünki məhz onun sevə-sevə əsasını qoyduğu və qurduğu Azərbaycan Ordusu zaman-zaman gücünü, qüdrətini artıraraq Zəfər ordusuna çevrildi. İkinci Qarabağ müharibəsində düşmənləri məhv edərək Qələbə qazandı, Qarabağı və ətraf rayonları erməni işğalçılarından azad etdi.

Döyüşlərdən zəfərlə çıxmış Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır. Bu gün ordumuz yenə də torpaqlarımızın keşiyindədir. Xalqımız isə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin həmmüəllifi olan Ulu Öndər Heydər Əliyevi daim böyük ehtiram və hörmətlə yad edir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Baş Prokurorluqda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

**Dekabrın 11-də Baş Prokurorluqda müstəqil və müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.**

Əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ümummilli Liderin büstünü ziyarət edib, önünə gül dəstələri qoymuşdur.

Tədbirin açılışında Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Çıxış edən baş prokuror Kamran Əliyev bildirib ki, müasir Azərbaycanın qurucusu, dövlətçilik salnaməsinin banisi Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının, dövlətinin tarixində və taleyində silinməz izlər buraxıb, ölkəmizin müstəqilliyini təmin edərək xalqımıza böyük gələcək perspektivlər açıb.

Heydər Əliyev fəaliyyəti dövründə daim dərin hisslərlə bağlı olduğu vətəni Azərbaycanın, özünə dayaq bildiyi xalqının gələcəyi və rifahı naminə çalışıb. Onun siyasi fəaliyyətinin ən mühüm məqamlarından biri, Sovet İttifaqı dövründə yüksək vəzifələrdə olmasına baxmayaraq, Azərbaycan xalqının milli maraqlarını, tarixini və adət-ənənələrini qorumaq məqsədilə göstərdiyi mübarizə olub. 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində fəaliyyəti zamanı Heydər Əliyev, ölkəmizin inkişaf tarixində yeni bir dövr başlatmış və məhz onun rəhbərliyi altında, Azərbaycanın sosial-iqtisadi inkişafında müsbət dəyişikliklər baş verib, bütün bölgələrdə, o cümlədən Naxçıvanda böyük infrastruktur layihələri həyata keçirilib.

Xüsusilə qeyd edilib ki, Heydər Əliyevin qətiyyəti və gərgin əməyi sayəsində sovetlər birliyi dönəmində sosial-iqtisadi böhran keçirən Azərbaycan 1970-1980-ci illərdə ittifaqın ən qabaqcıl respublikalarından biri olub. Ümumilikdə 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində ölkəmizdə yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılıb, 250-dən çox ittifaq miqyaslı sənaye müəssisələri fəaliyyətə başlayıb.

Həmçinin vurğulanıb ki, həmin illərdə Ulu Öndərin fəaliyyəti nəticəsində xalqın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən silsilə tədbirlərin icrası sayəsində milli oyanışın, eləcə də Azərbaycanın gələcək müstəqilliyinin təmininə yönələn milli mübarizə ruhunun əsası qoyulub.




Tarixin bütün çağlarında müdrik və dahi rəhbərlərin mövcudluğuna ehtiyac duyulduğunu çıxışında qeyd edən baş prokuror dünya siyasətində aparıcı mövqeyə malik olmuş dövlət rəhbərlərinin Ulu Öndər haqqında səsləndirdikləri fikirlərdən sitat gətirib.

Daha sonra çıxışda bildirilib ki, Heydər Əliyev dahi siyasətçi olmaqla yanaşı, uzaqgörən və müdrik dövlət rəhbəri idi. Vaxtilə onun tərəfindən atılmış addımlar bəzi bədxahlar tərəfindən qəbul edilməsə də və bu tədbirlərin əsl mahiyyətinin təhrif edilməsinə cəhdlər edilsə də, zaman bütün həqiqətləri ortaya çıxarıb. Atılmış hər bir addımın, o dönəmdə verilmiş hər bir qərarın məhz Azərbaycan xalqının mənafeyinə xidmət etməsini sübut edib.

Belə ki, torpaqlarının 20 faizi işğal altında olan Azərbaycanla Ermənistan arasında atəşkəsə nail olmaq məqsədilə 1994-cü ilin mayında imzalanmış Bişkek protokolu həmin dövrdə birmənalı qarşılanmasa da, tarix sübut etdi ki, müəyyən məsələlərin həllində müsbət nəticənin əldə edilməsi üçün uzaqgörənlik və qətiyyətlə addım atılmalı və məsuliyyətə sahiblənmək lazımdır.

Ulu Öndərin simasında biz bu qətiyyətin və uzaqgörənliyin şahidi olduq. Artıq Azərbaycan dünya əhəmiyyətli tədbirlərə evsahibliyi edən, regional və dünya siyasətində aparıcı mövqeyə malik, torpaqlarını öz qüvvəsi hesabına işğaldan azad etmiş qüdrətli bir dövlətdir.

Tədbirdə Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova "Heydər Əliyev: qanunvericiliyin inkişafında tarixi missiya" mövzusunda çıxış edib, Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Müstəqil Azərbaycanın böyük uğurlarında Heydər Əliyevin rolu" sənədli filmə baxılıb.

# Ulu Öndərin anım günü ilə bağlı tədbir keçirilib

**Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Ulu Öndər Heydər Əliyevin Anım Günü ilə bağlı tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.**



Aİİ-nin elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov tədbir iştirakçılarını salamladıqdan sonra Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz və çoxşaxəli fəaliyyətindən bəhs edib. Ulu Öndərin milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, dilimizə yüksək ehtiramından söhbət açıb, bunun nəticəsi olaraq, dövlət-din münasibətlərinin genişlənməsi istiqamətində gördüyü işləri diqqətə çatdırıb.

M.Mürsəlov Ümummilli Liderin azərbaycançılıq ideologiyasını inkişaf etdirdiyini və bu sahədə gördüyü işlərin davamı olaraq, suveren ölkəmizin sütunlarını daha da möhkəmlədəcək bir dövlət miras qoyduğunu vurğulayıb. O, Ulu Öndərin siyasi, sosial, iqtisadi kursunu müvəffəqiyyətlə davam etdirən, onun layiqli varisi Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində dövlətimizin daha da inkişaf etdiyini nəzərə çatdırıb.

Aİİ prorektoru din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çəkib, dövlət-din münasibətlərinin yüksək səviyyədə intişar etməsinin məhz Ümummilli Liderin sayəsində baş verdiyini bildirib.

Daha sonra Aİİ Dinşünaslıq kafedrasının müdiri, dosent Anar Qafarov "Heydər Əliyev, dövlətçilik şüuru və azərbaycançılıq məfkurəsi" mövzusunda çıxış edib. Məruzəçi Ulu Öndərin şəxsiyyətinə Azərbaycanın dövlətçilik tarixi fonunda nəzər salıb. O, Heydər Əliyevin azərbaycançılıq ideologiyasına tamamilə yeni bir məzmun verərək, onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdığını diqqətə çatdırıb. Anar Qafarov qeyd edib ki, məhz bu ideologiya sayəsində bütövlüyümüz, həmrəyliyimiz və dövlətçiliyimiz daha da möhkəmlənmişdir. Heydər Əliyevin və onun uğurlu davamçısı Prezident İlham Əliyevin zəngin təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoymuşdur.

Tədbirdə Azərbaycan Televiziyasının "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış "Tarix yazan qalib" filmi nümayiş olunub.

*"Azərbaycan"*

# Biləsuvarda Ümummilli Liderin anım günü qeyd olunub

**Biləsuvarda Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib. İştirakçılar öncə Ulu Öndərin və Prezident İlham Əliyevin Biləsuvar rayonuna səfərlərini əks etdirən stendlə tanış olublar.**

Heydər Əliyevin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edənlər bildiriblər ki, illər keçdikcə Azərbaycan xalqının xoşbəxtliyinin, əmin-amanlığının, yüksək rifahının, ölkəmizin düzgün strateji xətlə inkişafı nəticəsində sabitliyinin və təhlükəsizliyinin mənbəyinin və təməlinin Ulu Öndərin fəaliyyəti ilə bağlı olduğu daha dərindən dərk olunur: "Bu gün biz növbəti dəfə hələ sağlığında öz quruculuq və xilaskarlıq missiyasını məharətlə yerinə yetirməklə canlı əfsanəyə çevrilən, əbədiyaşar Ümummilli Lider zirvəsinə yüksələn fenomenal şəxsiyyət, dünyamiqyaslı siyasətçi Heydər Əliyevin anım gününü qeyd edərkən Azərbaycanın çoxəsrlik tarixində öz mövqeyinə, nüfuzuna, xalqımızın taleyində, siyasi, ictimai və mənəvi həyatında, milli dövlətçiliyimizin qurulmasında və möhkəmləndirilməsində misilsiz xidmətləri olan ən böyük Azərbaycanlının müqəddəs ruhu qarşısında baş əyirik".

Azərbaycan xalqının Ümummilli Liderinin müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşdüyünü deyən natiqlər vurğulayıblar ki, Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub. Daha sonra diqqətə çatdırılıb ki, bütün həyatını Azərbaycanın inkişafına həsr edən Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti ölkəmizin tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ulu Öndərin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

Tədbirin sonunda Ulu Öndərə həsr olunmuş videofilm nümayiş olunub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 may (Bazar ertəsi günü) tarixli 172-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 4 şabanül-müəzzəm sənə 1337.
5 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacı Əbdürrəhim Səmədov bununla öz qardaşı **Məşhədi Baba Səmədovun** vəfatı münasibətilə teleqraf və məktub göndərən yaxud şəxsən təşrifiylə əzamıza iştirak edən zəvata [şəxslərə] artıq təşəkkürlər edir.

*8760*

## ELAN

1919 mayıs ayının 5-ində düşənbə [bazar ertəsi] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanı iclası olacağı elan olunur.

*T-126*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan İdarəsindən əmrnamə**

Mayısın ibtidasından [əvvəlindən] Azərbaycan Cümhuriyyəsi Məclisi-Məbusan İdarəsindəki məmurlar səhər saat 9-da idarədə işə mübaşirət edib [başlayıb] gündüz saat 2-də işdən fariğ [asudə] olacaqları elan edilir.

*İdarə müdiri: [Məhəmməd ağa] Vəkilov*
*Kargüzar: [Camal] Paşazadə*

## EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK

Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad artıq həyasızlıq dərəcəsinə varmışdır.

İngilis Baş komandanı Bakı nümayəndəsi Şattlvort cənabları Qarabağ ermənilərini Azərbaycan Hökumətinə itaətə dəvət etmək üçün rəsmi surətdə Bakıdan Qarabağın məqərri-hökuməti [hökumət mərkəzi] olan Şuşa şəhərinə getdi, erməniləri əhvaldan xəbərdar edib, Qarabağda yalnız Azərbaycan hökuməti icrayi-hökm və ifayi-vəzifə edə biləcəyini onlara bildirdi. İngilislərin də yalnız bu nöqteyi-nəzəri iltizam [qəbul] etdiklərini elan ilə Qarabağ ermənilərini itaətə dəvət etdi. Buna cavab olaraq Qarabağ erməniləri bir "syezd" [qurultay] yığıb məsələni "müzakirə" etdilər və təkrar bu qərara gəldilər ki, Azərbaycan Hökumətinə tabe olmasınlar!

Şattlvort cənabları ermənilərin bu qərarına rəğmən Qarabağın məhz Azərbaycan Hökuməti təhti-idarəsində [idarəsi altında] olduğunu elan ilə bu hökumətə tabe olmağı ümum əhaliyə tənbeh etdi.

Deməli, bundan sonra hər kəs ki, Qarabağda Azərbaycan Hökumətinə qulaq asmadı, asi və xain cümləsindən ədd [hesab] edilib layiqi olan cəzalara düçar edilməlidir.

Lakin Qarabağ erməniləri böylə cəza və tənbehlərdən qorxmayırlar, çünki öz dedikləri kimi "Yevropaya ümidvardırlar". Ümidvar olmaqlarının əsası dəxi budur ki, müharibə əsnasında Müttəfiqlərə "kömək durub" düşmən qabağında "döş gərib qılıc vurubdurlar", bunun əvəzində Müttəfiqlərdən "ənam" gözləyirlər!

.............................................................

Məsələnin bu gün bizi maraqlandıran cəhəti budur: madam ki Qarabağ erməniləri İngilis Baş Komandasının dəxi əmrindən çıxırlar və öz haqsızlıqlarında inadlıq edib dururlar, o surətdə İngilis Baş Komandanlığı öz nüfuz və heysiyyətini itirməmək üçün nə kimi müamilələrə [rəftarlara] təvəssül [müraciət] edəcəkdir?

Kiriyib duracaqdırmı?

Əlbəttə, əgər ingilislər bu cürə işlərə əvvəldən qatışmasaydılar və məsələnin həllini bizim özümüzə vagüzar etmiş [tapşırmış] olsaydılar, biz bu işi bir növ ilə bitirib, ya sazişlə və ya cəbrən [zorla] haqqımızı yeritməyə qadir olardıq. Məsələn, ingilislər, gürcü və Axıska məsələsinə qatışmadıqları kimi, Azərbaycan və Qarabağ məsələsində də bitərəf qalsaydılar, biz özümüz bu məsələni çoxdan həll etmiş olardıq. Amma madam ki, ingilislər Qarabağ məsələsinə qatışdılar, özləri də haqqın tərəfdarıdırlar, o halda gözlədiyimiz odur ki, erməni inadını sındırmaq və erməniləri boş xəyalatdan əl çəkdirmək işini yarımçıq və natamam qoymayıb, axıradək aparsınlar.

İngilis Baş Komandası bu əmri [işi] axıradək yetirməyə üç cəhətcə borcludur:

Əvvəla, iş natamam qalarsa, ermənilərin haqsızlığı müsəlmanlara xoş gəlməyib arada vuruşma və toqquşmalar əmələ gələ bilər ki, bunun məsuliyyəti ingilislər üzərinə düşər.

Və saniyən [ikincisi], ingilislər bir dəstə Qarabağ ermənilərini itaətə məcbur edə bilməsələr, öz nüfuz və heysiyyətlərini Qafqaz millətləri arasında itirə bilərlər.

Və salisən [üçüncüsü], madam ki ingilislər Qarsı və həvalisini [ətraf ərazilərini] erməni hökumətinə təslim etmək üçün oranın islam "şurasını" dağıtdı, əzalarını [üzvlərini] həbs etdi və bir neçələrini öldürdülər, o halda Qarabağ ermənilərini də itaətə məcbur [etmək] üçün insaf və ədalət naminə eyni müamiləni [rəftarı] işlətməyə mənən məcburdurlar. Vəilla [yoxsa] türk qövmünə qarşı böyük bir haqsızlıqda bulunmuş olarlar.

Qarabağda bu "hartu-vırtı" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan Hökumətinə tabe olmasalar, müsəlmanlarla əlaqələrini kəsməyə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytənəti [şeytanlığı] qurbanıdırlar.

Bu güruhi-layəfləhun [düzəlməz, adam olmazlar dəstəsi] erməni millətinin gözünü o qədər qorxudubdur ki, bir bu qədər haqsızlıq və zülümlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilərsə [qovular və uzaqlaşdırılarsa] və onların yuvaları dağılarsa, Qarabağ erməniləri asudə nəfəs çəkib həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan Hökumətinin ədaləti altında və sayeyi-mərhəmətvayəsində kamali-asudəgi ilə imrari-məişət edərlər [mərhəmət paylayan kölgəsində böyük bir asudəliklə dolanarlar].

İştə bizim və ümum [bütün] Qafqaz türklərinin ingilislərdən gözlədiyi budur ki, Qarabağ erməni üsyançılarına qarşı şiddətli tədbirlər ibraz etməklə [tədbirlər görməklə] həm ədalət göstərsinlər, həm də öz şan və heysiyyətlərini artırsınlar və bununla Qarabağ erməni məsələsi birdəfəlik həll edilib qurtarsın.

*Üzeyir Hacıbəyli*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**İran konsuluna töhfə**

Londondan teleqraf edirlər ki, Brüsselin məşhur Vətəndaşlar Komitəsi Belçikanın Almaniya tərəfindən istila edildiyi zaman İran konsulunun göstərdiyi xidmətləri əvəzində konsula bir medal və bir çox imzalarla imzalanmış albom təqdim etmişdir.

**Cəmiyyəti-Əqvam**

Parisdən Londona verilən xəbərlərə görə, Belçika Xariciyyə naziri Brüsselin Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] üçün bir üssülhərəkə [baza] təyin edilməsi təklifinə baxmaqdan ötrü Orlando, Maklin, Hauz və Smetsdən ibarət bir komissiya təşkil edilməsi haqqında bəyanatda bulunmuşdur.

**Bağdad dəmiryolu**

Havas acentəliyi xəbər verir ki, Bağdad dəmiryolunda hərəkat başlanmışdır. Tavrusa getmək mümkündür. Mosuldan 150 kilometrə məsafədə olan Nusaybinə dəmiryol hərəkatı mümkündür. Xəlici-farsa [Fars körfəzinə] qədər münasibat [rabitə] bərpa edilməsi üçün təcili surətdə işləyirlər. Müəyyən miqdar dəmiryol qatarı üçün Tikritə qədər yol açıqdır.

Kopenhaq - Ştutqartdan xəbər verilir ki, spartakların tətili-ümumisi müvəffəqiyyətsiz olmuşdur. Hökumət ümuri-ixtiyarı [idarəni, vəziyyətə nəzarəti] öz əlinə almışdır.

- Stanislavdan xəbər verildiyinə görə, Şura qoşunları Şərqi Ukraynada təslim olurlar.

Brüssel - Parisdən xəbər verilir ki, Sülh Konfransı qət eyləmişdir ki, Almaniyanın Ruanda və Urundi müstəmləkələri Belçikaya verilsin.

- Şimali Rusiyadan İngilis Komandanlığı xəbər verir ki, Murmanda Çin əmələlərinin hərəkatı yatırılmışdır. Üsyan edənlərin əksəri tövqif [həbs] edilmişdir. Cənubi Seqoda iki həmlə dəf edilmişdir. Şimali Rusiya qoşunları Qarnovolok denilən yeri işğal etmişlərdir.

Berlin - Bavaryada əhval ağırlaşmışdır. Bolşeviklər arasında ixtilaf olduğu xəbər verilir.

- İngilis Komandanlığı xəbər verir ki, Arxangelsk cəbhəsində bolşeviklər dəmiryolu ilə dəhşətli hücuma hazırlaşırlar.

**Almaniya millətinin asudəliyi**

Havas ajansının məlumatına nəzərən, Spada müahidəni imza edən Almaniya vəkilləri bəyan etmişlər ki, Almaniya millətinin asudə olması üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

Yekaterinodar - Böylə rəvayət edirlər ki, Sibirya Hökuməti Yaponiyanın əsgər və silahla müavinət [köməklik] təklifini qəbul eyləmişdir. Bunun müqabilində Yaponiya Əqsayi-Şərqdə [Uzaq Şərqdə] bir çox imtiyazat alacaqdır. Kolçak ordusuna 100 min Yaponiya əsgəri daxil olur.

Ağməscid - Bolşeviklər tərəfindən göndərilmiş və yolda tutulmuş simsiz teleqraf xəbərindən anlaşılır ki, cəbhədə bolşeviklərin halı ağırdır. Baltik dənizi boyunda Qırmızı qoşunların müvəffəqiyyətsizliyi bu hala səbəb olmuşdur. Narva altında bolşeviklər ricət etmişlərdir [geri çəkilmişlər]. Qroznı yanında Suçino yanına çəkilmişlərdir. Kobrin səmtində bolşeviklər Minsk şəhərindən çıxmışlardır.

Paris - Amerika qəzetəsinin Arxangelsk müxbiri rus və Amerika qoşunlarını bəzi nöqtələrdən çıxarmağa məcbur edən bolşeviklərin hücumunu böylə təsvir edir: Hərgah Amerika qoşunları bolşeviklərdən uzaqlaşmasaydılar, bolşeviklər tərəfindən mühasirəyə alınacaqlarmış. Bolşeviklər üç tərəfdən gələrək Şenkursk şəhəri[ni] çevirmişlərdir. Rus-Amerika qoşunları ricət edərkən [geri çəkilərkən] nəqli müşkül olan topları yaramaz hala gətirmişlərdir. Müxbir inandırır ki, bu hal xətrəli [qorxulu] deyildir. Zira Arxangelskdə külli ləvazimi-hərbiyyə [hərbi ləvazimat] və qüvvə vardır. Amerika mətbuatı bu halda ciddi surətdə müzakirəyə başlamışdır. "Vaşinqton post" qəzetəsi yazır ki, Arxangelskdə olan qoşunları iki dəhşətli düşmənlə qəhrəmanənə bir surətdə mübarizə etməlidirlər. Bunların birisi bolşeviklər, digəri isə təbiətdir. Əgər bu mübarizədə qoşunlar məğlub olarlarsa, heç şübhəsiz, son güllələri qurtarandan sonra ola bilər. Fəqət, sual olunur: Amerika saldatları nə üçün böylə ağır təcrübələrə sövq edilir? Buna ki, heç lüzum yoxdur. Əcəba cüzi bir dəstəni buzlar arasına, mükəmməl bolşevik dəstələri qarşısına göndərməkdən Müttəfiqlər nə qazanarlar? Bizim saldatların şimdi çəkdiyi zəhmətləri nahaqdır, onların göstərdiyi rəşadət və qəhrəmanlıq mənfəətsizdir. Müttəfiqlərin Rusiya siyasətini tənqid üçün bu fədakarlıq kifayət edir.

## SÜLH ƏTRAFINDA

**Zaqafqaziya cümhuriyyətləri**

Bakıda çıxan sosialist "Znamya truda" qəzetəsində böylə bir xəbər dərc edilmişdir:

*"Əcnəbi məmləkətlərdən aldığımız son məlumata görə, Versal Sülh Konfransı Zaqafqaziyada təşəkkül etmiş yeni hökumət və dövlətlər haqqında böylə qərar vermişdir:*

*Ermənistanın siyasi və iqtisadi həyatına rəhbərlik etmək üçün Amerikaya mandat verilmişdir. Eyni məqsəd və müddətlə Gürcüstan mandatı Fransa Hökumətinə, Azərbaycan və Dağıstan mandatı isə İngiltərə Hökumətinə verilmişdir."*

İdarədən: Bu xəbər hələ rəsmi olmadığından, məsuliyyətini iqtibas etdiyimiz qəzetənin öhdəsinə buraxaraq, rəsmi surətdə elanınadək ehtiyatkarlıqla davranmağı tövsiyə ediriz.

## QƏZETƏLƏRDƏN

**Krımdan**

Novorossiysk - Sevastopoldan yazılır ki, Krım Hökuməti icab etdiyi [lazım gəldiyi] təqdirdə "Kaqul" kruvazerinə [kreyserinə] alınacaqdır.

**Krımın təxliyəsi**

Kerç - Krımın təxliyəsi iki səmtdən davam edir. Bütün əcnəbi müəssisələri və ləvazimi-hərbi [hərbi ləvazimat] Sevastopol səmtinə aparılır. Bunların bir hissəsi İstanbula göndərilmişdir. Rus müəssisələri isə Kerçə göndərilir. Krım əhalisi də bolşeviklərin yürüş etdiklərinə görə Kerçə köçür. Fransız Komandanlığına bir çox gəmilər verilmişdir. Bunların əksəri Novorossiyskə əzimət etmişlərdir [yola düşmüşlər].

Bu günlərdə Krımdan Batuma gələnlərin rəvayətinə görə Sevastopol, Feodosiya və Kerçdə əhval qənaətbəxş imiş. Krım Hökuməti Sevastopoldadır. Müttəfiqlər və rus məmurları bu iskələlərin [limanların] əllərində qalması üçün lazım gələn tədbirləri ittixaz edirlər [tədbirləri görürlər]. Camaat arasında olan həyəcanı da bainhəmə [bununla belə] inkar etmək olmaz.

Sevastopol - Sevastopolda olan fransız və sairə qüvvələrin komandanı Trusson demişdir ki:

*"Fransada heç bir inqilab və heç bir sosialist hərəkatı yoxdur. Bu barədə verilən xəbərlər bolşevik simsiz teleqraflarının saxtakarlığıdır. Odessadan biz çıxdıq, bir daha oraya qayıtmayacağız, fəqət Krımda qalacağız, Rusiyada bolşevik hərəkatı davam etdikcə, Krımı əldə saxlayacağız."*

Sevastopol - Aprelin 22-də Sevastopola 4 gəmi 20 min nəfər fransız və rum qoşunları gəlmişdir. Bu qoşunlar əvvəlcə Odessada idi, sonra Odessadan İstanbula, oradan da şimdi Sevastopola gəlmişlərdir. Sevastopol şəhəri bir meydani-hərbə və yaxud mühasirə edilmiş qalaya bənzəyir. Şəhərin hər yerində yola mayınlar [minalar] qoyulmuşdur. Burada olan əmələlərin [fəhlələrin] bolşevikliyinə fransızlar inanmayırlar.

**İngilislər Varnada**

Yunan qəzetələri yazırlar ki, Varnada bir neçə dəfə nümayiş vaqe olduğundan, Varna şəhəri ingilis qoşunları tərəfindən işğal edilmişdir.

**Trablus üsyançıları**

Kirenaikadan italyanlara qarşı üsyan etmiş ərəb başçıları Neapola göndərilmişlərdir. Bunlar Sənusilər tərəfində həbs edilib İtaliya məmurlarına verilmişlərdir. Buna da Seyid İdris ilə italyanlar arasında bağlanmış əhdnamə səbəb olmuşdur.

**Batumda**

Erməni Məlumat Bürosu xəbər verir ki, İngiltərə Komandanlığı məhəlli [yerli] Oblast Şurasını buraxıb öz əsgəri nümayəndələri vasitəsi ilə oblastı idarə etməyə başlamışdır. Nümayəndələrin yanına xüsusi mütərcimlər [tərcüməçilər] təyin edilmişdir. Oblast Şurasının buraxılması məhəlli əhalinin protestosunu mövcib olmamışdır [etirazına səbəb olmamışdır], çünki Oblast Şurası indiyə qədər əhalinin etibarını qazana bilməmişdir. İngiltərə Komandanlığı Oblast Şurasının Denikin ərkani-hərbi [qərargahı] ilə xəlvət münasibatda [münasibətlərdə] bulunduğunu aşkar etmişdir.

**Axıska əhvalı**

Yenə Erməni Məlumat Bürosu xəbər verir ki, Axıska şəhəri gürcü əsgərləri tərəfindən işğal edildikdən sonra ermənilərə olan münasibət keçmişə görə yaxşılaşmışdır. Şəhər işğal edildiyi gündən idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişdir. Uyezddə sakitlik başlanmışdır. Bələdiyyə İdarəsinə, Məclisi-Müəssisana və Gürcüstanda olan Erməni Milli Şurasına seçkilər hazırlamaqdan ötrü idareyi-örfiyyeyi-əsgəriyyənin götürüləcəyi [götürülməsi] gözlənir.

## ŞİMALİ QAFQAZİYADA

Kizlyar, Tereçni, Petrovsk təriqi [yolu] ilə Georgiyevskdən varid olan [gələn] bir şəxs Kuban oblastı ilə Stavropol quberniyasındakı əhvalı böylə təsvir edir:

Hal-hazırda Könüllü ordu işğal etdiyi yerlərdə cəbrən [zorla] əsgər cəm etməkdədir. 43 yaşına qədər olanların hamısını əsgərliyə alırlar. Bundan əlavə, gecələr evlərə soxulub adamları yatacaqlarından çıxarıb zorla aparırlar. Bu da ondan ötrüdür ki, əsgərliyə dəvət olunanlar Könüllü ordu səflərinə daxil olmaqdan imtina edirlər. Stavropol quberniyasında əsgərliyə dəvət edilənlərlə Könüllü ordu dəstələri arasında müsəlləh [silahlı] və qanlı müsadimələr [toqquşmalar] olmuşdur. Bu cür çıxışlar amansız bir surətdə yatırılıb, iştirak edənlər ya güllələnir və ya süngü ilə həlakətə yetirilir [həlak edilir]. İşğal edilən yerlərdə Kuban kazakları əhalini, ələlxüsus müharibə dəhşətlərindən qaçmış və indi öz yerlərinə qayıdan qaçqınları çox incidirlər. Kazaklar bu qaçqınları öz yerlərinə qayıtmağa qoymayıb, onların evlərini və ev şeylərini satıb ciblərinə qoyurlar. Torpaqlar öz əvvəlki sahiblərinə qaytarılmaqdadır. Desyatini 50 manatdan 100 manata qədər icarəyə verilir. Əhali bunu böylə təfsir edir ki, Kuban kazakları torpaq sahibləridir, ona görə, mülkədarın tərəfini iltizam edir [tərəfini tutur]. Kəlisalarda [kilsələrdə] Ümumrusiya Müvəqqət Hökuməti yad olunur. Danosbazlıq adi bir iş olmuşdur. Arvadlar ərlərindən, bacılar qardaşlarından danos verirlər. Kəndlərə və şəhərlərə gələn xəbərlərə görə, kazakların gördükləri tədbirlərə baxmayaraq, bolşeviklər Stavropol quberniyasında Svyatoy Kresti [Budyonnovsku] işğal edib, Tsaritsın [Volqoqrad] tərəfdə Könüllü ordunu şiddətli surətdə sıxışdırmaqla bərabər, Torqovini zəbt etdikdən sonra Könüllü ordunu iki hissəyə ayırmaqdan ötrü Tixoretskiyə yaxınlaşmaqdadırlar. Kazaklar öz hallarının möhkəm olduğuna inanmayaraq, qardaş qanı tökməkdən əl çəkməyi öz aralarında danışırlar, çünki gec-tez bu qanlara cavab verməlidirlər.

**Yekaterinodarda**

Könüllü ordu Baş Komandanlığı Könüllü ordu dairəsində yaşayan ermənilərin bilafərqi-təbəə [vətəndaşlıq fərqi olmadan] hamısının əsgərliyə alınmasını təhti-qərara almışdır. Könüllü ordunun bu binagüzarlığı [sərəncamı] erməni təbəələri arasında, həmçinin qaçqın ermənilər arasında böyük həyəcan və qələyana [çaxnaşmaya] bais olmuşdur.

**Gürcüstan hüdudu haqqında "Tayms"**

"Tayms"ın Tiflisdəki müxabiri-məxsusu [xüsusi müxbiri] bildirir:

Düvəli-Mərkəziyyənin birdən-birə düçari-inhizam olmaları [çöküşə məruz qalmaları] üzərinə Cənubi Qafqazda təhəddüs edən [əmələ gələn] vəziyyət şu surətlə təlxis [xülasə] edilə bilər: Almaniya Bağdad təriqinin sədd edildiyini [yolunun bağlandığı] görməsi üzərinə Qafqazadan keçərək şərqə doğru ittisa etmək [genişlənmək] istədi. Eyni zamanda türklər Beynənnəhreyndə [Mesopotamiyada] uğradıqları zayiatı [itkiləri] Bəhri-Xəzər sahillərinə qədər uzanan müsəlman və türk hökumətini təsis surəti ilə təlafi [kompensasiya] etmək istəyirdi. Bu hal iki məmləkətin bəslədiyi imperialist qayələrin təbarüzünü mövcib oldu [meydana çıxması ilə nəticələndi]. Gürcülər, ermənilər və Azərbaycan türkləri bu münazieyi-fih [mübarizə predmeti olan] ərazinin sahibləri idilər. Şayəd ittifaq edə bilsəydilər, məmləkətlərini istiladan qurtara bilərlərdi. Lakin yek-digərini istirqab edən [bir-biri ilə rəqabət aparan] mənfəətlər ardından qoşduqları üçün birlikdə hərəkət etmələri mümkün olmadı.

Azərbaycanlılar irqi və dini məhəbbət sövqü ilə kəndi irqdaşları olan türklərə mərbut [bağlı] qalırlar. Gürcülər Düvəli-Etilafiyyə [Antanta dövlətləri] ilə hali-təmasda olmadıqları və türk istilası ilə təhdid edildikləri üçün almanların himayəsini qəbul etdilər. Almanlar gürcülərdən kəndi hesablarına istifadə etdilər və onları ermənilərin zərərinə olaraq naili-mükafat etdilər [mükafatlandırdılar]. Çünki Qafqazda təsis ediləcək olan mümaşatkar [dost kimi görünən, yaxşı keçinən] bir Gürcüstan Ukraynada olduğu kimi kəndiləri üçün qayət müsaid bir zəmin təşkil etməkdə idi. Bu surətlə mötəliflərə [Antanta ölkələrinə] tərəfdar olan Ermənistan hər dürlü müavinətdən, müzahirətdən [köməkdən] məhrum qaldı.

İştə, mütarikə [atəşkəs] imza edildiyi zaman əhval bu mərkəzdə idi. Mötəliflər səhneyi-icraata [fəaliyyət səhnəsinə] gəldilər. Türklər işğal etdikləri yerlərdən çıxarıldılar. Almanlar Gürcüstandan ayrıldılar.

Cənubi Qafqazda təvəccöhi-ümumiyyəni [heç kimin diqqətini, simpatiyasını] qazanmamış bir kimsə varsa, o da ermənidir. Hər kəsin bu sui-nəzərini mövcib olan [mənfi münasibətini meydana çıxaran] səbəbin nə olduğunu kəndisinə sorunuz. O, sizə cavabən bu halın həsəddən münbəis olduğunu [irəli gəldiyini], gürcülərin almanları və azərbaycanlıların isə türkləri istədiklərini və ermənilərin isə bu ikisinin arasında qaib olacağını söylər.

Bundan əvvəl yazdığım bir məktubda ermənilərin yeni hökumətlər üçün təklif etdikləri hüdudu təqribən təyin etmişdim. Gürcü mətalibatı mövcibincə [Gürcüstanın tələblərinə görə] isə, Gürcüstanın şimali hüdudu Qara dəniz sahilində Tuapsedən başlayıb, Qafqaz silsileyi-cibalını [dağ silsiləsini] təqib ilə Bəhri-Xəzərə 130 mil məsafədə Zaqatala vilayətində nəhayət bulur. Oradan qərbdən cənuba doğru cızı[la]n bir xətt Tiflisin cənubi-şərqisində Kür nəhrini mürur [keçər], Tiflis və Gəncə vilayətləri hüdudunu təqib edər. Bu hüdud Qarakilsə və Ərdahanı şamil olaraq ötüb, Trabzon ilə Rizə arasında bir nöqtədə Qara dəniz[d]ə müntəhi olar [qurtarar]. Gürcülər tərəfindən dərmiyan edilən mətalib [meydana atılan tələblər] pək möhtərisanədir [tamahkarcadır]. Bu mətalibat təsvib [təsdiq] ediləcək olarsa, bu həvalidə [yerlərdə] münaziat [dava-dalaş] əskik olmayacaqdır.

## AZƏRBAYCAN HAQQINDA TARİXİ, ƏDƏBİ VƏ SİYASİ MƏLUMAT

*(İbtidası 167[-ci] nömrədə)*

Müttəfiqlərin bizə olan münasibət və əlaqələri daha əvvəlinci gündən zahir olub, hörmət pərdəsi aramızda quruldu. Bu cürə əhvaldan nəticə əlbəttə o oldu ki, mədəni millətlərin nümayəndələri bizim torpağımıza gəldikdə Azərbaycanda bütün əhvali-ictimaiyyə və siyasiyyənin əhalinin rizası ilə axıb getməkdə olduğunu gözləriylə görüb, həqiqəti-halı yaxından dərk etdilər. Mən kamali-ümid və cəsarətlə deyə bilərəm ki, nə qədər böyük, mədəni millətlərlə münasibat və əlaqədə olarsaq, bir o qədər də aramızdakı əlaqeyi-dostanə möhkəmləşib bir-birimizin həqiqi əhvalından artıcaq xəbərdar olacağız.

İngilis generalı Tomsona bir az vaxt lazım idi ki, cavan Azərbaycan həyati-siyasiyyəsini diqqətlə təqib edərək, ölkədə yeganə qanuni hökumət saymaq və böyük etimad bəyan etmək üzrə Azərbaycan Hökuməti haqqında əhaliyə xitabən böylə bir elan buraxsın:

*"Fətəli xan Xoyski cənablarının sədarəti [sədrliyi] altında müştərək Azərbaycan Hökuməti təşkil olunduğundan, bununla elam edirəm [bildirirəm] ki, Müttəfiqlər Komandanlığı Azərbaycan dairəsində yeganə məşru hökuməti-məhəlliyyə [qanuni yerli hökumət] olmaq üzrə bu hökumətə tam müzahirətdə [köməklikdə] bulunacaqdır.*

*Bakı, 28 dekabr 1918.*
*Müttəfiq ordu komandası: General Tomson"*

Mən özümə borc və əhəmiyyətli bildim, paytaxtımıza, Balkan və Qafqaziya ümum İngiltərə qoşunları Baş komandanı, həmçinin əlahəzrət İngiltərə kralı nümayəndəsi olan ser Corc Milnin gəldiyi zamanda ingilislərin özgə tayfaların hüququna sataşmamağı və hörmət eyləməyi[ni] öz nitqimdə bəyan edim:

*"Cənabi-ali! Azərbaycan Hökuməti Sizi böyük ingilis milləti nümayəndəsi vəzifəsində təbrik edir. Bizim siyasi və ictimai yollarda işləyənlərimiz bilirlər ki, öz millətimiz nicat və səadəti üçün ancaq mədəni millətlərin yaxın dostluğu ilə qüvvə tapacaq. Biz etiqad ediriz ki, hürriyyətpərvər İngiltərə oğulları bizdən çox şad olarlar ki, bu gün Azərbaycan türkləri onları zəncir və kündə ilə bağlanmış qul kimi xeyr, hürriyyətə əhsən deyə təbrik edirlər. "Habeas Korpus" və "Maqna Xarta Libertatum" kimi böyük yadigarlar əsrlərdən bəri Temza çayı kənarından həyatverici nuru ilə bütün cahanı işıqlandırır. İki aydan bəri paytaxtımızda olan İngiltərə nümayəndələri və başda duran general Tomsonun siyasi qabiliyyəti və millətlərin hüququna ehtiramı bizim sədaqətlə işləyəcəyimizə yaxşı bir zamindir və Azərbaycan camaatı hüququnun Ümumi Sülh Konfransında müdafiəsinə möhkəm bir qüvvədir. Zati-alilərinizin öz vücudunuzla dostluğumuzu daha da möhkəmləşdirəcəyi ümidi ilə sözlərimi müsaidənizlə bu kəlmələrlə qurtarıram: Xoş gəlmişsiniz!"*

General səmimi ifadə ilə cavab verdi:

*"Mən buraya böyük Müttəfiq millətlər nümayəndəsi hesabında gəldim. Məqsədimiz bu məmləkətdə sülh və ədaləti paydar [bərpa] etməkdir. Müttəfiqlərin qələbəsi hüquq, ədalət və millətlərin təyini-müqəddərat ixtiyarı tämininin rəhnidir. Sülh Konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsni-istiqbaldan naşi [göstərdiyiniz xoş qarşılama üçün] təşəkkürümü bəyan edirəm. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər dürlü müzahirət [köməklik] görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət və sənaətinin [sənayesinin] tərəqqisinə var qüvvəmizlə çalışacağız. Onlarla bərabər əminəm ki, siz həmişə çalışacaqsınız qonşularınızla sülh və ədalət pozulmasın.*

*Azərbaycana mənə göstərdiyi hüsni-qəbuldan naşi bir daha təşəkkür edirəm."*

Yanvar ayının 23-də general Miln ilə Azərbaycan Heyəti-Vükəla rəisi [Baş naziri] Fətəli xan Xoyski görüşmüş, general, Fətəli xana bəyan etmişdir ki, Azərbaycan dairəsində İngiltərə Hökuməti Azərbaycan Hökuməti-Cümhuriyyəsini tanıyır və qəbul edir və bu hökumətə Müttəfiqlər Komandanlığı hər babda [hər barədə] kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə Hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh Konfransında da İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, Müttəfiqlər Komandanlığı təzə təşəkkül etmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır və Müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə [əmin-amanlığa] kömək etməkdir.

İki ingilis generalının, yəni Miln və Tomson cənablarının sözlərindən aydın və aşkar olur ki, Müttəfiqlərin heç bir vaxt cavan Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmaq xəyalları yoxdur. Onlar məhz nizam və asayişi saxlamaq üçün bir az vaxt burada qalmalıdırlar. Təşvişə düşmüş Azərbaycan əhalisinin döyünən ürəkləri şəksiz bu iki mötəbər ingilis generallarının verdikləri vədlərdən sakitləşib təbii hallarına düşdülər.

Müttəfiqlər qoşunu buraya varid olandan [gələndən] sonra Bakıya bir neçə pis fikirli şəxslər və o cümlədən məşhur Biçeraxov dəstəsi də varid olub, öz ədəbsiz və çirkin hərəkətləri ilə bütün dinc əhalinin istirahətlərini pozub, şəhərin nizam və asayişinə böyük xələl yetirdi. Azərbaycan Hökuməti bu hala davam gətirə bilməyib, bu cür pis hərəkətlərin qabağına çıxmaq üçün düşünürdü və işlər[in] getdikcə çətinləşməyini görüb düzəlməyinə çalışırdı. Azərbaycan Hökumətinin səy və çalışmağı ilə bir azdan sonra Biçeraxov öz dəstəsi ilə Azərbaycandan çıxıb getməyə məcbur oldu.

Biçeraxov gedən kimi, onun yerinə general Prjevalski gəlib Denikin üçün qoşun yığmağa başlayıb və onlara nizam verməyə şüru etdi [başladı]. Azərbaycan Hökuməti Prjevalskinin bu istiqlalımıza toxunan hərəkətinə görə genə qan tökmək məsələsini silahla həll eyləmək istəməyib səbrlə hərəkət etdi və nəhayət öz səbrinin tükəndiyini Müttəfiqlər nümayəndəsinə işarə eylədi. Bu əhvalatdan bir az sonra general Tomsonun hökmünə görə Prjevalski öz dəstəsi ilə mart ayının birində Azərbaycandan çıxmağa məcbur oldu. Və genə həmin tarixdə rus Bəhri-Xəzər hərbi və qeyri-hərbi gəmiləri Müttəfiqlər tərəfindən tərk-silah etdirilib, Müttəfiqlər ixtiyarına keçirildi.

Bu vaxtlarda xəbər gəldi ki, Denikin ordusu şimalı qoyub cənub tərəfə hərəkət etməkdədir. Əvvəlcə bu qaraqüvvə dəstə Soçi tərəfindən Gürcüstan Cümhuriyyətinə soxuldu. Lakin onların qabaqlarını Müttəfiqlər nümayəndəsi saxlayıb, irəliləməyə imkan vermədilər. Bundan sonra onlar Gürcüstan Cümhuriyyətindən məyus olub Dağıstan Hökumətinin üstünə cumulub onlara nota verdilər. Elə bir nota ki, büsbütün dağıstanlı qardaşlarımızın cümhuriyyətlərini, istiqlaliyyətlərini məhv eyləyib yoxa çıxardırdı.

Böyük rus inqilabi-kəbirindən [Böyük Rus inqilabından] sonra Şeyx Şamilin – o böyük qəhrəmanın müqəddəs vətəni yavaş-yavaş gülümsəməyə başlamışdı ki, genə axırda ağ, parlaq alnı qırışıb düyümlənməyə üz qoydu. İstibdadın ən şiddətli dövründə altmış il döşlərini gərib şir kimi vuruşan Dağıstan aslanları genə təzədən silaha sarılıb dava meydanına getməyə üz çevirdilər. Bir para qorxaq və ürəyi titrəyən kişilərdən ötrü böyük bir ibrət dərsi olmalıdır ki, dağıstanlı qardaşlarımızın arvadları, qızları da oğulları, qardaşları, kişiləri ilə birgə qara qüvvə ilə vuruşub, istiqlaliyyətini qoruyub hifz etməkdədirlər.

Zaqafqaziya cümhuriyyətləri bu barədə Müttəfiqlər nümayəndələrinə şiddətli etirazlar etdilər ki, heç bir vədə ədalətpərvər Müttəfiqlər nümayəndələri Şimali Qafqaz Cümhuriyyəti istiqlalının hüququnun qara qüvvələr ayaqlarının altında tapdanmağına izin verməyib və onları tezliklə oradan dəf və rədd etməlidirlər.

Siyasi əhvalımızın biri də Müttəfiq dövlətlər ordusunun buraya gəldikdən sonra dekabr ayının 7-də 1918-ci sənədə Azərbaycan Məclisi-Məbusanının təntənəli bir surətdə açılması olmuşdur ki, oraya bizim siyasi firqələrimizin və azlıqda qalan millətlərin nümayəndələri daxil olmuşlardır. Parlaman açıldığı zaman hər tərəfdən təbrik teleqramları göndərilmişdi və Müttəfiqlər nümayəndəsi lazım hörməti göstərmişdi.

Məclisi-Məbusanda ümum firqələrin rəislərindən mütəşəkkil Senyoren Konvent, Divani-Rəyasət vücuda gəldi. Məclisi-Məbusandakı firqələrin ən görkəmlisi bayrağında müstəqil türk qövmlərinin müsavat, təcəddüd [yenilənmə] və konfederasiya əsası ilə birləşməsini şüar qeyd etmiş olan "Müsavat" firqəsidir.

Bu firqənin böyük vahidlərindən birisi Rəsulzadə Məhəmməd Əmin cənablarıdır ki, vaqif olduğu gözəl, eyi lisanı və malik olduğu natiqlik istedadını ümumi işimiz xeyrinə böyük fəsahət və bəlağət ilə işlədərək, istiqlal müdafiəsi məsələsində bu firqə Azərbaycana böyük xidmət göstərmişdir.

Bu firqədən başqa, Parlamanda Sosialistlər firqəsidir ki, bunlar ali sosializm əsasını müdafiə etməklə bərabər, təyini-müqəddərat hüququ üzərinə Azərbaycanın istiqlaliyyətini də etiraf edirlər. Ondan sonra İttihad firqəsidir ki, bunların amal və məqsədləri cümlə islamların birləşməsidir. Sonra Əhrar firqəsidir ki, dəxi "İttihad"a yaxın hürriyyətpərvər bir firqə təşkil edirlər. Sonra bitərəflərdir ki, bunların nə firqəsi, nə də müəyyən bir proqrammaları vardır.

Parlamanın birinci iclaslarında hər bir firqə öz məramnaməsini izhar etdi. Həmçinin Heyəti-Vükəla rəisi [Baş nazir] hökumətin deklarasiyasını bəyan etdi:

*"Etiraf etməli ki, məmləkətin səadəti və rifahi-halı yalnız bütün firqələrlə bərabər hökumətin yekdil və yekcəhət çalışmalarından asılıdır. Məclisi-Məbusanın işi hökumətin işlərinə kömək etmək, ona lazımi yol göstərmək və məmləkətdə hazırda və gələcəkdə törəyə biləcək hadisələrin qabağını almaq üçün tədabirdə [tədbirlərdə] olmaqdadır. Hökumətin vəzifəsi isə ona göstərilən yol ilə getmək, ifası lüzum[lu] işlərin üstündə olmaq, məmləkətin asayişini gözləməkdir."*

Azərbaycan istiqlalı elanından, yəni 1918 sənəsi mayıs ayının 28-dən 1919 sənəsi aprelinin 14-dək Azərbaycanı Fətəli xan Xoyski hökuməti idarə edib, 1919 sənəsi aprel ayının 14-də hökumət başına Yusifbəyli Nəsib bəy cənablarının təşkil etdikləri Kabinə keçmişdir.

Cavan Cümhuriyyətimiz həyatında xatirlərdə mövqe tutmalı, böyük və unudulmaz bir gün də – bu il aprel ayının 5-ci günüdür ki, həman gün ilk dəfə cavan Cümhuriyyət ordumuzun bəzi qitəatı [hissələri] Azərbaycan paytaxtına varid [daxil] oldu və camaat tərəfindən böyük şadlıq, hümmət və təntənə ilə istiqbal edildi [qarşılandı]. O dərəcə ki, bazar-dükan bağlanmaqdan əlavə, evlərdə arvad-uşaq da qalmayıb, hamısı qoşunumuzu pişvaza çıxmışdı. İstiqbala [qarşılamağa] çıxanlar arasında bütün müsəlmanlarca məşhur camaat xadimi və xeyir işlərimizdə həmişə çalışan Hacı Zeynalabdin Tağıyev cənabları dəxi isbati-vücud [iştirak] edirdi. Camaat o qədər məsrur [sevincli] idi ki, çox kişilərin və arvadların gözlərindən şadlıq yaşı axırdı. Bu göz yaşları sübut edirdi ki, millətimiz yeni qoşunumuzu öz həyat və namusunun və Cümhuriyyətimiz istiqlalının hər növ təcavüzlərdən mühafizə və müdafiəsi istinadgahı görür. Həman gün məzkur [deyilən] ordunu yaradan Hərbiyyə nazirimiz qoca general Səməd bəy Mehmandarov camaatın həddən ziyadə hörmət, ehtiram və alqışına məzhər [nail] olub, özü və yaratdığı cavan əsgərlər hər yerdə şiddətli alqışlar, "Yaşasın" sədaları və çiçək səpməklə qarşılanırdı.

Bir mühüm hadisə də Azərbaycan Cümhuriyyəti tərəfindən Cahan Sülh Konfransına Azərbaycanın hüququnu və istiqlaliyyətini mühafizə və müdafiə etməyə bir heyət göndərmək olmuşdur. Burasını qeyd etməlidir ki, həyasızlar cümləsinə daxil edilməmək üzrə bizdə olan təbii həya və məhcubluğa [utancaqlığa] görə milli işlərimiz qeyrilərdən geridə qalmışdır. Bu cəhətdən Avropa və Amerika siyasi və ictimai dairələr və mətbuatı bizə başqa bir nəzərlə baxmaqdadırlar. Bizim bədxahlarımız Avropada və Amerikada xüsusumuzda bilmərrə [əsla] bizə yaraşmaz və o halların qətiyyən bizdə olmadığı halda bizim millətimizi hər nəhv [hər yol] ilə olursa-olsun başqalar nəzərində ləkələndirib və hazırda da bu hərəkətlərində davam edirlər. Biz isə özümüzü göstərməkdən, həqiqi halımızı və şəxsiyyətimizi qeyri millətlərə bildirməkdən aciz qalmışıq. Bu xüsusda bəzən öylə əcibəli [təəccüblü] və qəribə şeylər nümayan olur [meydana çıxır] ki, insan məəttəl qalır.

İstər istibdad zamanında və istərsə Cahan müharibəsi zamanında bütün Zaqafqaziyada mövcud müsəlmanlar, rus və erməni saldatlarının qılıncı və atəşindən keçib, mülkləri zəbt olunmuş, malları qarət və talan olmuş, axırda isə genə bu məzlumlar, bu fəlakətə düçar olanlar bizdən uzaq duran Avropa və Amerika millətlərinin nəzərində vəhşi və zalım sifətində göstərilmişdir. Oralarda, mətbuatda müsəlmanların xaçpərəst balalarını günahsızca öldürmələrini həyasızlıqla yazıb, Qafqaziya müsəlmanlarının hürriyyətə və istiqlaliyyətə layiq olmamalarını sübut edirlər.

Burada xatirimə rum [Roma] natiqi Siseronun Katilinaya onun eylədiyi fənə hərəkətinə görə dediyi sözlər düşdü. O demişdi ki: "Nə vaxta qədər, Katilina, sən bizim səbr kasamızı məşəqqət və cəfa ilə dolduracaqsan?!"

Biz də əhvalımızın həqiqətini Avropa və Amerika mədəni millətlərinə bildirmək vaxtıdır. Doğruluğu isbata əllərimizdə böyük dəlillər vardır. Azərbaycan türklərinin istiqlaliyyətlərinin elanı günündən və eyni zamanda daxilində yaşayan bütün qeyri tayfaların hüquqca müsavi, ədalət üzrə yaşamaları, onların istiqlaliyyətə müstəhəqq [haqq qazanmış] və layiq olduqları və siyasətcə qabil olmalarını isbat edir. Qeyri millətlərə qarşı azərbaycanlılar tərəfindən heç bir sıxıntı və heç bir ədalətsizlik icra edilməmişdir. Rus ruhani idarələrinə yüz minlərlə pul buraxılmışdır. Ümum Azərbaycanın istər hökuməti və istərsə qeyri-hökuməti müəssisə və idarələr[in]də qeyri millətlərin məmurları müsəlmanlardan bəhəməhal [hər halda] çox olub, hüquqca müsavidirlər.

*(Yenə var)*

*Adil xan Ziyadxan*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maarif nazirinin Bakı İkinci Realnı məktəbi müdirinə 20.000 manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyon fonddan Marif Nəzarətinə məxaricat üçün buraxılan məbləğdən İkinci Realnı məktəbin xərci üçün 20.000 manat buraxılmağa izin verməli.

- Rəsi-vükəlanın [Baş nazirin], işi olmayan adamları Bakıdan çıxarmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

1. Daxiliyyə Nəzarətinə tapşırmalı ki, müəyyən xidməti olmayan adamları Bakıdan çıxarmaq üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Zira böylə əşxas [şəxslər] Azərbaycanın rahat yaşamasına zərər verirlər. Əlavə, portlardan Bakıya gələnlər üçün xüsusi gözətçilik təyin edilməlidir.

[2.] Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə tapşırılsın ki, sərhəddən keçib Cümhuriyyətə gələnləri təhqiq etsinlər.

- Daxiliyyə nazirinin, Məclisi-Məbusan erməni fraksiyonunun adam itmə və zülüm barəsindəki müraciətlərinə dair verdiyi məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə nazirinin Bakı polismeysteri tərəfindən təhrirən [yazılı] verdiyi məlumata və istintaqa məbni [əsasən] məlum olmuşdur ki, bu bəyanat və məlumatın çoxu uydurmadır. Binaənileyh [ona görə], Daxiliyyə Nəzarətinə tapşırılsın, yalan xəbərlər nəşr edənlər əleyhinə ciddi tədabir ittixazı ilə [tədbirlər görməklə], müttəhim edilənlərə şiddətli cəza verilsin.

- Məsai [Əmək] nazirinin sabiq mülkiləşmiş Bakı dairəsi müəssisələri xidmət[çi] və fəhlələrinə avqust ayı ikinci nisfi [yarısı] avansını vermək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Məsai Nəzarətinə tapşırılsın ki, neftçilərə o pulları verməyi təklif etsin. Hərgah borc vermək lazım gələrsə, Maliyyə Nəzarəti 3.800.000 manat buraxsın. Borc, neft rəhni ilə təmin edilməlidir.

- Maarif nazirinin İkinci Realnı məktəbi üçün ev tutmaq məqsədi ilə əlavə 21.000 manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Həman məbləğin buraxılmasına izin verilsin.

2) Həman məbləği dövləti xəzinə xərcinə qəbul etməli.

- Qarabağ general-qubernatorundan Rəisi-vükəla namına böylə raport alınmışdır:

*"Bakı, Daxiliyyə nazirinə.*

*Şuşa polis agentəliyindən verilən məlumata görə, martın 22-də Cavanşir alayının birinci bölüyünə mənsub 13 nəfər əsgəri Qaryagin tərəfinə qaçdıqda Erməníkənd yolu ətrafında qətl edib Mirzəyev karvansarası qarşısında yerə basdırmışlardır. Bu vaxtadək əlavə məlumat verilməmişdir."*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 may (Bazar ertəsi günü) tarixli 172-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Zaqafqaziya, Dağıstan və Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] nahiyə Kəsbkarlar [Həmkarlar] İttifaqı Dağıstan Hökuməti nümayəndəsi Kantemir və Azərbaycan Cümhuriyyəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, dəmiryolları xidmətçilərinə əlavə verilmək üçün bir gün təyin edilsin. Böyləliklə, İttifaq, tətili bərtərəf edə [aradan qaldıra] biləcəkdir.

- Kəsibkarlar İttifaqı Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Binəqədidəki "Boesa" neft mədəni müdiri fəhlələrə veriləcək olan məbləği imtina edir.

İttifaq rica etmişdir ki, işbu həqiqət olarsa, o vaxt mədən üzərində hökumət məmuru təyin edilməklə, satılan neftdən fəhlələrin tələbatına əməl edilməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] kontrolu [müfəttişi], məhəllində [yerində] qaçqınların əhvalını təhqiq üçün Şəkiyə göndərilir. Həman Nəzarət nahiyə müfəttişliyi işlərini təftiş üçün məmurlar da oraya azim olurlar [yola düşürlər].

- Keçən sənədə İrəvan quberniyasının Yeni Bayəzid qəzasındakı hadisələrdən dolayı qaçqınlar Gəncə quberniyasında cəm olmuşlardır. Müavinəti-tibbiyyə [tibbi yardım] olmamasından dolayı, qaçqınlar miyanında [arasında] bir çox xəstəliklər baş qalxızmışdır. Zəhmət yoxluğundan dolayı qaçqınlar işdən məhrum qalmışlardır. Bu isə qaçqınlara fəna təsir edir.

Ümuri-Xeyriyyə və Nafiə naziri Vükəla Şurası nəzdində qaçqınları öz yerlərinə qaytarmaq barəsində tədabir ittixazı [tədbirlər görülməsi] üçün təşəbbüsatda bulunmuşdur.

## DAĞISTAN GÜNÜ

Qabaqca xəbər verilmiş olduğu üzrə, şənbə günü mayısın 3-də Azərbaycan Türk Tələbələri İttifaqı tərəfindən Bakıda "Dağıstan günü" elan edilərək, şimallı qardaşlar nəfinə [xeyrinə] ianə toplanırdı.

Səhər tezdən bütün tələbələr, bir çox sair zəvat [şəxslər], əzcümlə [o cümlədən] türk xanımları mərkəzə (ştab-kvartiraya) yığılaraq hər kəs öz dairəsinə yayılır.

Şəhər bir bayram halında idi. Hər yerdə, hər tərəfdə al və üç rəngli Azərbaycan bayraqları təməvvüc edir [dalğalanır], əsgəri musiqi dəstəsi, ibtida [əvvəlcə] piyada, sonra bayraqlarla bəzənmiş avtomobildə, milli nəğmə və marşlar çala-çala şəhəri gəzir.

"İttihad" mədrəsəsi mütəəlimlərinin [şagirdlərinin] musiqi dəstəsi digər bir müzəyyən [bəzənmiş] avtomobildə küçələri dolaşır, nəğmələr, marşlar çalır. Bir neçə zurna dəstəsi, başında böyük izdihamla şəhərin küçələrini bir-bir gəzir, bir tərəfdən digərinə gedir, getdikcə izdiham artır. Alqışlar, urra və yaşasın sədaları hər tərəfdən eşidilməkdədir.

Bu surətlə paytaxtımız bir bayram şəkli alaraq guya camaat Dağıstanlı qardaşlarına ağır gündə imdad əli uzatmaqdan şadlanırdı. Hamının üzündə bir sevinc müşahidə edilirdi.

Səhər saat 8-dən əli cəbəli [qutulu] cavanlar və çocuqlar bilafərqi-cins [cinsiyyət fərqi olmadan] küçələri gəzir, hər kəsin önünə gələrək "Qardaşlarımıza kömək edin" deyə cəbəni uzadırlar.

Fəqət xalq bunu gözləyirmi?

Bakıda çox ianələr toplanmışdır. Bakı camaatı çox böylə şeylər görmüş və çox ianə vermişdir. Fəqət bu dəfəki həvəsi mən əsla görməmişdim. Uzaqdan cəbəni görər-görməz dərhal əlini kisəyə uzadır, pul hazırlayırlardı, həm də son dərəcə həvəslə layiqli ianə verirlərdi. Bir misal: bir xanım keçir, bir əfəndi əlini kisəyə uzadır, xanım yanaşır, əfəndi cəbəyə 25 manat buraxır.

Xanım: "Azdır" deyə etiraz edir.

Əfəndi isə: Xanım əfəndim, əgər yalnız siz olsaydınız və bir dəfə almağa kifayət etsəydiniz, 200 manat verərdim. Artığa gücüm çatmaz. Halbuki sizin kimiləri çoxdur. Heç kəsə də yox deməyəcəyəm – deyə cavab verir.

Eşitdiyimə görə, cəbə gəzdirənlərdən öyləsi yoxdur ki, iki-üç cəbə doldurmasın.

Şübhəsiz ki, hələ hesaba baxılmamış olduğundan, nəticə məlum deyildir, fəqət yüz minlərlə yığılmış olduğu rəvayət edilməkdədir.

Bu gün calibi-diqqət [diqqəti cəlb edən] bir şey vardı: xanımlar az idilər. Paytaxtımızda açıq gəzən türk-islam xanımları o qədərdir ki, yarısı belə iştirak etsəydi, kifayət idi. Fəqət mütəəssifanə [təəssüf ki], nədənsə xanımlardan ancaq bir cüzü iştirak edirdi. Halbuki böylə işlərdə xanımların iştirakının maddi müvəffəqiyyətə çox böyük təsiri olur.

*X.*

## TİFLİS YUJNI PARK İNGİLİS ÜSƏRA [ƏSİR] QƏRARGAHINDAN

Bizə yazırlar:

Sizi qərib olduğu qədər də qeyri-mühiqq [haqsız, ədalətsiz] olan bir müamilədən [rəftardan] dolayı müsaidənizlə xəbərdar etmək istərəm. Məruzatım zamana və mühitinizə müsaid isə, cərideyi-fəridənizdə [misilsiz, seçilmiş qəzetinizdə] dərc edilməsini təmənna edirəm.

Şöylə ki, vəzifeyi-vətəniyyə və islamiyyə xidmətini bir fərizə [fərz, məcburiyyət] bilərək, türklərin Qafqazı (Cənubi-Qafqazı) işğalında Orduyi-Osmani ilə Türkiyənin müxtəlif xətlərində şömən-düfər [qatar] məmurları kamali-təhalüklə və xahişlə [təhlükədən qorxmayaraq böyük bir həvəs və istəklə] bu mühitə gələrək, öhdələrinə tərəttüb edən [düşən] vəzifəni ifadan sonra, Orduyi-Osmani ilə yenə məmləkətlərinə xidmət və övdətə [qayıtmağa] amadə [hazır] bulunduqları halda, İngiltərə və Türkiyə hökumatı [hökumətləri] komandanları arasında cərəyan edən müzakirə və etilaf [uzlaşma] nəticəsində və hər iki cəhətin göstərmiş olduqları lüzum və istirham [xahiş] üzərinə ingilis şöməndüfər məmurlarının vüruduna dəyin [gəlişinə qədər], yəni kanuni-sani [yanvar] 35 ibtidasından [əvvəlindən] bu ana qədər Sarıqamış-Arpaçayı dəmiryolunda biz türk məmurlarını iqa etmişlərdi [saxlamışdılar].

Təbii, qüsursuz və ləkəsiz, işlərimizi yapdıq. İngilis məmurları gəldi, vağzalları türk məmurlarından təslim aldılar. Bizə dedilər ki, artıq sizlərə ehtiyac və lüzumumuz qalmadı. İştə, sizə dörd-beş vaqon, Tiflis təriqi [yolu] ilə İstanbula gedə bilərsiniz.

Toplandıq, əşyalarımızı hazır etdik, hərəkətə mühəyya olunurduq [hazırlaşırdıq]. Pürsilah [başdan-ayağa silahlı] ingilis saldatları gəldi, bütün əşyamızı aradı, heç bir dövlətin zakonunda məmnu [qanununda qadağan] olmayan cib tapançalarımızı, təraş usturalarımızı [ülgüclərimizi], dırnaq makaslarımızı [qayçılarımızı] aldılar. Bu müamiləyə [rəftara] bütün Qars əhalisini tabe tutduqları üçün biz də xoş gördük, eyvallah dedik. Əqəbdə [sonra] piyanolarımızı, qaryolalarımızı [çarpayılarımızı], Dərsəadətdən [İstanbuldan] bərabərcə gətirmiş olduğumuz xalı və kilimlərdən dörd ədədinin tövqif [tutulması] və qəsb edilməsi müşkülatına təsadüf etdik. Buna da istasyon komandanının şəxsi müamiləsi, keyfi [özbaşına] hərəkətidir dedik və süküt eylədik.

Mütəvəkkilən-əlallah [Allaha təvəkkül edərək], bu surətlə Tiflisə gəldik. İkinci gün bizi vaqonlardan parka nəql edəcəkləri xəbərini eşitdik. Dedik ki, vaqonlarda rahat qalammayacağımız üçün xidmətimizə bir mükafat olaraq bizləri hoteldə və ya münasib bir xanədə bir müddəti-müvəqqətə üçün istirahət etdirəcəkləri fikrinə zahib olduq [zənninə qapıldıq]. Təklifləri vəchi ilə arxalarına düşdük. Bizi Tiflisin xaricinə çoluq-çocuq və əşyalarla bərabər ihzar etdikləri [hazırladıqları] tel örgüləri arasında qurulan dörd çadıra doldurdular və başımıza və hər tərəfə süngülü növbətçilər iqamə etdilər. Bu müamilələrinə heyran qaldıq. Əsbabını [səbəbini] sual etdik. Hənuz Türkiyə ilə İngiltərə Hökuməti arasında sülh yapıl[ma]dığı üçün əsiri-hərb olduğumuzu bəyan etdilər. Sivil [mülki şəxs] olduğumuz üçün əsiri-hərb olammayacağımızı və sivil məmurlara bu qanunun tətbiqinə məsaği-düvəl [dövlətlərin icazəsi] var isə, bizlər tərəfeyni-hökumətin [hər iki tərəf hökumətinin] lüzum və israrı üzərinə qalmış olduğumuzdan, bu müamiləyə tabe tutulmağımız doğru olmadığını bir qaç kərələr protesto etmişsək də, doqquz gündür hələ bizə qəti və həqiqi bir cavab verən yox, sual edən yox. Başımızda bir süngülü növbətçi, səfalət və təzyiq o nisbətdə, xaricdən gələnlə görüşməkliyimizə müsaidə yox...

## BAKI XƏBƏRLƏRİ

**Ticarət Nəzarətinin tələbi**

* Azərbaycan Cümhuriyyətinin Ticarət və Sənaət naziri "Kooperatsiya" Xəzər Müstəhlikin [İstehlakçılar] Cəmiyyətinə müraciətən, məzkur [adı çəkilən] cəmiyyətin, Nəzarətinə olan 4 milyon yarım miqdarlı borcunu tezliklə əda etməsini [qaytarmasını] tələb etmişdir.

* Məzkur Nəzarət Mərkəzi Ev Komitəsi idarəsinə müraciətən, məzkur idarənin Nəzarətinə olan 1.577.203 manat miqdarında öz borcunu tezliklə əda eyləməsini tələb etmişdir.

**İçki ilə mübarizə**

Mayın 4-də Vükəla Şurasında Bakı və ətrafında olan içki dükanlarının qapanması məsələsi müzakirə ediləcəyindən, Bakı qubernatoru tərəfindən dəxi bir nəfər nümayəndənin iştirak etməsi lazım olmuş və bu barədə qubernatora müraciət edilmişdir.

**Nəqliyyat İdarəsində**

İngiltərə Nəqliyyat İdarəsi Bakı qubernatoruna müraciətən rica etmişdir ki, sabiq Biçeraxov dəstəsi aparmış olduğu malların miqdarını müəyyən etmək üçün "Qafqaz və Merkuri" paroxod şirkəti nümayəndəsinə mallar saxlanmış olan anbarı təftiş etməyə icazə versin.

**Biletsiz sərnişinlər haqqında**

Bakı qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə aprel ayının 22-sindən etibarən Bakı-Sabunçu-Suraxanı arasında olan sərnişin qatarlarında sərnişinlərin biletsiz getmələrinə icazə verilməməsi qərardad edilmişdir.

**Dövlət müəssisələri xidmətçiləri haqqında**

Maliyyə-büdcə komissiyası Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, bir çox dövlət müəssisələri xidmətçiləri maaş almadıqlarından, məzkur [adı çəkilən] komissiyaya müraciətlə şikayətdə bulunmuşlardır. Bunu nəzərə alaraq komissiya bu barədə tezliklə binagüzarlıq edilməsini rica etmişdir.

**Təyin**

Bakı qubernatoru dəftərxanasının kargüzarı Məhəmməd bəy Məlikaslanov Cəbrayıl uyezd naçalnik müavinliyinə təyin edilmiş və Qarabağ general-qubernatorunun binagüzarlığı ilə srağagün Bakıdan hərəkət və əzimət etmişdir [yola düşmüşdür].

- Srağagün 50 nəfərədək lənkəranlılar İngiltərə Komandanlığı indindəki [nəzdindəki] Daxiliyyə Nəzarəti xüsusi işlər məmuru vasitəsi ilə İngiltərə Komandanlığına bir ərizə verərək onları Lənkərandakı "bolşevik" hökuməti çəngalından [caynağından] qurtarmağı rica etmişdir. Ərizədə Lənkəran qəzasında 200.000-ədək islam-türk əhalisi, fəqət 20 minədək xristian olmağını dərmiyanla [meydana qoymaqla], 50-dən ziyadə türk-islam kəndlərinin yanmasını məlum etmişlərdir.

- Mayısın 3-də Bakıya varid [daxil] olan ərzaq: buğda 9698 put, un 30 put, kartof 381 put, arpa 4555 put, odun 20 min put.

**"Müsavat"da**

Sabunçu-Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi bununla mədən dairələrində bulunan möhtərəm əzasına [üzvlərinə] elan edir: pəncşənbə [cümə axşamı] günü, ayın 8-ində, saat 2-də "Müsavat" idarəsində iclasa təşrif gətirsinlər. Müzakirə ediləcək mühüm məsələlər cümləsində yeni heyəti-idarə intixabına [seçilməsinə] şüru olunacaqdır [başlanacaqdır].

**Bəratülqövl [protokol]**

Aprel ayının 30-unda Azərbaycan dəmiryolu baş emalatxanasının müsəlman əmələlərinin yığıncağı vaqe olmuşdur [baş tutmuşdur]. Yığıncaqda 300 əmələ var idi.

İsimləri atidəki [aşağıdakı] şəxslər fəhlələr tərəfindən seçildilər:

Əli Qurbanov, Abbasqulu Hacıyev, Kərim Mahmudov.

İntixab olan əşxaslar [seçilən şəxslər] haqları vardır hər yerdə öz yoldaşlarının hüququnu müdafiə etsinlər.

**Hadisat**

Balaxana-Sabunçu qalabəyisi qubernatora bəratülqövl ilə məlum etmişdir ki, neçə gün bundan əqdəm [qabaq] Əmirhacıyan kəndi əhli Nüsrət Qılıncxan oğlunu öldürüb qoyunlarını aparmış olan qatillər Qəmbər Abutalıb oğlu, Abbasqulu Məhəmməd oğlu, Rəhmət Rəcəb oğlu 5-ci polis müdiri tərəfindən tövqif [tutulmuş] və həbs edilmişlərdir.

**Su nəqliyyat xidmətçiləri haqqında**

İngiltərə ərkani-hərb [hərbi qərargahı] idarəsi bizdən rica edir xəbər verək ki, sabiq nahiyə idarəsinin su nəqliyyat xidmətçilərinə maaş və mükafat verilməsi işbu may ayının 7-sindən etibarən qət edilir [kəsilir]. Məzkur [deyilən] günə qədər mükafat və maaş almaq üçün gəlməyənlər ondan məhrum edilir.

**Kənara getmək icazələri**

Daxiliyyə Nəzarəti Bakı qubernatoruna məlum edir ki, bundan sonra Azərbaycan Cümhuriyyəti torpağından kənara getmək üçün artıq icazənamə almaq lazım olmayacaqdır. Bununla sərhədlərdə olan Azərbaycan məmurlarına əmr olunur ki, sərnişinlərdən böylə sənədlər istənilməsin. Kim nə yerə getmək istərsə, sərbəst olaraq gedə bilər.

**Gürcüstan Cümhuriyyəti müfəttişi**

Gürcüstan Hökuməti nəzdindəki Azərbaycan Cümhuriyyəti siyasi nümayəndəsi Daxiliyyə Nəzarətinə məlum edir ki, Gürcüstan Hökuməti tərəfindən bu günlərdə Bakıya Gürcüstan Cümhuriyyətinin Bakıdakı siyasi nümayəndəliyini təftiş etmək üçün məmur Fişer göndərilir. Bina-ənileyh [ona görə], məzkura [adı çəkilənə] lazımi müavinət göstərilməsi siyasi nümayəndə tərəfindən rica və təmənna olunur.

**Məhkəməyə cəlb**

Azərbaycan İstinaf [Appellyasiya] Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə sabiq Şamaxı uyezd naçalniki [qəza rəisi] kapitan Əliyarbəyov xidmətində sui-istifadə etdiyi üçün təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

**Ramanada Kəndçilər İttifaqı şöbəsi**

Aprel ayının 29-da Ramanada kənd divanxanasında kəndçilər ictiması [yığıncağı] vaqe olub, sədirliyə Abutalıb Rəsulzadə, katibliyə Böyükağa Vəlizadə seçilib, Ramana kəndində Kəndçilər İttifaqı şöbəsi açılması barəsində sədr cənabları şəhərdən gələn məktubu oxuyaraq, İttifaqın mənfəəti barəsində bir qədər məlumat verəndən sonra hamı camaat bir ağızdan şöbənin açılmasını lazım bildilər. Bədəhu [sonra] seçkiyə şüru olunub [başlanıb], şu beş nəfərdən ibarət bir heyəti-idarə seçildi: Məşhədi Şükür Balayev, Abutalıb Rəsulov, Mirdaməd Məhəmmədov, Mirzə Şirəliyev, Qeybulla Mollazadə.

Kəndçilər İttifaqından gələn üç dənə türkcə bəratülqövllər [protokollar] yazılıb, camaat qol qoydular; biri Bakıya – Kəndçilər İttifaqına, digəri Ərzaq Nəzarətinə göndərildi. Üçüncüsü şöbədə saxlanıldı.

**Dəlləklər iclası**

Cümə günü, mayısın 2-si, saat 11 tamamda dəlləklərin ümumi iclası vüqu bulur. İclas üçüncü dəfə olduğundan, qanuni hesab olunur. İclas Ələsgər Ələkbərzadənin sədarəti altında açılır. Ələsgər tərtib edilmiş Nizamnaməni oxuyur və izahat verir. Əksəriyyəti-ara [səs çoxluğu] ilə Nizamnamə təsdiq olunur. Sonra beş nəfərdən ibarət idarə, iki nəfər namizəd, üç nəfərdən ibarət təftiş heyəti və iki nəfər namizəd seçilir.

İdarə üzvləri: Qəzənfər, İmaməli, Kərim, Hüseynqulu, Xaliq.

Namizədlər: Kərbəlayi Hüseynbala və Əsəd.

Təftiş heyətinin üzvləri: Məşhədi Muxtar (sədr), Qafar, Kərbəlayi Qəmbər.

Namizədlər: Rza və Hacıbala - 19 səslə.

**Ziyalılar İttifaqında**

Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqı idarəsinin 28 nisan [aprel] iclası.

Sədr: Əli bəy [Seyidzadə].

Katib: Camo bəy [Cəbrayılzadə].

Müzakirəyə qoyulan məsələlər:

1) Əxzi-Əsgər [əsgərliyə çağırış] İdarəsi haqqında;
2) Məmuriyyətlər haqqında;
3) Yetimlər yurdu haqqında;
4) Bez haqqında;
5) Salyan qışlaqları;
6) Ərizələr;
7) Kəndlərdə çiçək xəstəliyi xüsusunda.

Əxzi-Əsgər İdarəsinə intixab edilmiş [seçilmiş] Sadıq əfəndi [Hüseynzadə] və Camo bəy [Cəbrayılzadə] rəisi-idarə [idarə rəisi] ilə görüşmələrini və ondan məhəllə müdiriyyətlərində işləmək üçün vəsiqə aldıqlarını bəyan etdilər. Əlavə, bunlar rəisə idarədə işləmək təklifini etdikdə, rəisdən cavab almışlar ki, bu barədə vali ona əmr etməmişdir. Məhəllə müdiriyyətlərindən gəlmiş siyahılara diqqət etdikdə, bunların natamam surətdə yazılması nəzərə çarpdığını və martın 15-dən bu zamana kimi müzakirəyə qoyulmamaqlarını söylədilər. Rəisin verdiyi məlumatdan, bu siyahılar hələ də bu halda qalacağı anlaşılmışdır. Buna da səbəb odur ki, məhəllə müdiriyyətlərinin həpsindən tamamilə siyahılar gəlib yetməyibdir və Əxzi-Əsgər İdarəsinin fikri budur ki, siyahılar həpsi toplansın və ondan sonra işə şüru edilsin [başlansın]. Üzvlər "Şimdidən daxil olmuş siyahılar üzü ilə əsgər toplamaq mümkün deyilmi?" sualına cavab almışlar ki, idarənin bu xüsusda hələ müzakirəsi olmayıbdır və yaxındakı iclasların birinə təklif edilir. Üzvlər bu məlumatı verdikdən sonra, onların idarədə olmaqları həqiqətdə faydalı olduğunu nəzərdə tutub idarə qərar qoydu ki, Ağa Axundzadə yenə valinin yanına gedib bu üzvlərin Əxzi-Əsgər İdarəsinə daxil olmasını tələb etsin.

2) Məmuriyyətlər haqqında hazirun [iştirakçılar] bir çox timsallar [misallar] gətirib dəmiryollarında, dəftərxanalarda və hətta kəndxuda və yasavullardan tutmuş vali idarəsindəki məmurlara kimi cümləsi öz vəzifəsini kamalı ilə ifa etməyib, məhz rüşvətə və sui-istemallara [sui-istifadələrə] baş aparmalarını söylədilər. Sui-istemallar və qərəzlər nəinki qəzalarda, hətta paytaxtımızda getdikcə tərəqqi etməkdədir. Bu cümlədən Denikinin sağ əli olan Voskresenski və onunla bərabər Əmiraslanov həbsə alınmışlarmış, fəqət bir gün həbsdə qaldıqdan sonra yenə azad edilmişlər. Voskresenski həbsə alınan zaman onun mənzilində onunla bərabər valinin xüsusi sifarişat məmuru (çinovnik osoboqo poruçeniya) Qolovin də həbsə alınmışmış və dərhal buraxılmışdır. Paytaxtımızda açılmış qumarxana (jokey klub) əhali üçün müzirr [zərərli] sanılıb qapanmışmış və səbəb nə isə yenidən açılmışdır və bu kimi bir çox... müzakiratdan sonra bu sui-hərəkətlərin getdikcə tərəqqi etmələrini kəsmək qəsdi ilə idarə qərar qoydu ki, əvvəla ümumi iclas dəvət edib məmuriyyətlərə olan bu bidətlər [qayda-qanuna zidd işlər] xüsusunda müzakirə açsın; 3) Məmurlar tərəfindən baş vermiş sui-istemallar xüsusunda müttəsil [daimi surətdə] qəzetələrdə yazılsın və 4) açıq məktub vasitəsi ilə Bakı valisindən bu suallara cavab tələb edilsin: A) Neçə gün bundan əqdəm [qabaq] Bakıda açılmış qumarxana (jokey klub) nə səbəbə qapanmış idi və nə səbəbə yenidən açıldı? B) Voskresenski və Əmiraslanov nə səbəbə həbsdən azad edildilər? C) Bunlar həbsə alınan zaman Voskresenskinin mənzilində valinin xüsusi sifarişat məmuru Qolovin də həbsə alınmışmış, bu söz doğrudurmu?

Yetimlər yurdu haqqında Teymur bəy [Bayraməlibəyov] məlumat verdi ki, bu zamana kimi bina təmir edilməyibdir. Çocuqlar zavodlara işləməyə Yollar İdarəsi tərəfindən qəbul edilməmişlər və yetimlər yurdunun xüsusi təbibi Bron yurdun müdirinə əmr etmişdir ki, Ziyalılar İttifaqından ora bir kimsəni buraxmasınlar. İdarə qərar qoydu ki, binanın təmiri haqqında Zivər bəy çalışsın. Çocuqların adından ərizələr idarədə yazılsın və doktor Əli bəy doktor Bron ilə danışıb idarəyə məlumat versin.

Heydər bəy Şahtaxtinskinin İttifaqa üzv daxil olmaq ərizəsi Camo bəy [Cəbrayılzadə] tərəfindən oxundu. İdarə Şahtaxtinskini üzv qəbul etmək qərarı verdi.

5) Səfdər bəy Rəhimbəyov və başqaları tərəfindən Xorasan vilayətinə Azərbaycan nümayəndəsi təyin etmək və bu nümayəndə vəzifəsini Mirmurtuza Musayevə tapşırmaq xüsusunda ərizələri və Mirmurtuzanın bu barədə xüsusi ərizəsi Camo bəy tərəfindən oxundu. İdarə qərar qoydu ki, Xariciyyə nazirinə bir təzkərə [arayış] yazılsın və bu təzkərədə sorulsun ki, Xorasan vilayətində nümayəndə yeri varmı?

6) Kəndlərdə çiçək xəstəliyi əhaliyə ziyadə zərər verib çocuqlarını tələf edir. Bu barədə onlara yardım etmək təklifini doktor Əli bəy eylədi. İdarə qərar qoydu ki, Türüq və Məabir Nəzarətindən [Nəqliyyat və Rabitə Nazirliyindən] bir yük avtomobili alsın. Zivər bəy Bələdiyyə İdarəsindən dəvacat və ləvazimat istəsin və xahiş edən üzvlər cümə axşamı axşam toplanıb doktor Əli bəydən çiçək yazmaq [çiçək peyvəndi vurmaq] qaydasını öyrənsinlər və cümə günü avtomobildə kəndlərə gedib xahiş edən çocuqların çiçəklərini peyvənd etsinlər.

Bez və Salyan qışlaqları məsələləri gələn iclasa qaldı.

**Bakı quberniyasında**

Altıağac meşə böyüyü Bakı qubernatoruna müraciətən məlum edir ki, ətraf kəndin əhillərindən bir neçəsi icazəsiz olaraq meşədən ağac kəsirlər. Bu barədə onlara mümaniət [maneçilik] göstərildikdə, onlar etina etməyib meşə böyüyünə müqabilə göstərirlər. Böylə şəxslərin hərəkatına mane olmaq üçün tezliklə lazımi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] meşə böyüyü rica etmişdir.

## AZƏRBAYCANDA

**Qarabağ**

Qarabağda ermənilərlə müsəlmanlar arasında olan münasibatı və ermənilərin Qarabağ general-qubernatorluğuna tabe olmalarını düzəltmək üçün polkovnik Şattlvort Qarabağa əzimət etmişdi [getmişdi]. Məhəlli [yerli] məmurlar nümayəndələri Şattlvortu istiqbal etməkdən [qarşılamaqdan] ötrü Yevlaxa gəlmişlər. Yevlaxdan Qarabağa qədər Şattlvortun avtomobilini süvari dəstəsi müşayiət etmişdir. Süvarilərin qabağında Azərbaycan bayrağı təməvvüc edirmiş [dalğalanırmış]. Xankəndinin yanında Şattlvortu fəxri qaraqol [qarovul] dəstəsi istiqbal etmişdir. Polkovnik Şattlvort Şuşaya varid olduqdan [çatdıqdan] sonra Qarabağın erməni əhalisi nümayəndələrinin ictimasında [yığıncağında] iştirak etmişdir. Polkovnik Şattlvort ermənilərə etdiyi müraciətdə Azərbaycan Hökumətini etiraf [qəbul] etməyə dəvətlə, İngiltərə Komandanlığının bu nöqteyi-nəzərdə olduğunu söyləmişdir. Qarabağ əhalisi İngiltərə nümayəndəsini fövqəladə şadlıqla istiqbal etmişdir.

* * *

"Aşxatavor" erməni qəzetəsinin Şuşadan aldığı məlumatda deyilir ki, Qarabağ ermənilərinin Azərbaycana mülhəq olub-olmamalarını [qoşulub-qoşulmamaqlarını] aşkar etməkdən ötrü Qarabağın erməni əhalisi nümayəndələrinin ictiması vaqe olmuşdur [yığıncağı baş tutmuşdur]. Həmin ictimada İngiltərə polkovniki Şattlvort dəxi iştirak etmişdir. İctima Azərbaycan Hökumətini təsdiq etməməyi qərara almışdır. Bu münasibətlə Şattlvort erməni nümayəndələrinə bir sual verib, bu cür qətnamə çıxarmaqla kimə ümidvar olduqları xəbər almışdır. Erməni nümayəndələri cavab vermişlər ki, onlar həmin o Müttəfiq dövlətlərə ümidvardırlar ki, ermənilər onların mənafeyindən ötrü bu qədər qanlar töküb və qurbanlar vermişlərdir. İctimanın bu qətnaməsinə baxmayaraq, polkovnik Şattlvort sabahı günü bir elan nəşr etmişdir ki, Qarabağ Azərbaycana mülhəq olur və Azərbaycan general-qubernatoru doktor [Xosrov bəy] Sultanov eyni zamanda İngiltərə nümayəndəsi hesab olunur.

**Qubadan**

**Rüşvətlə Mübarizə Cəmiyyəti**

Xüsusi müxbirimizdən:

Bu axır zamanlarda hər tərəfdən eşidilməkdə olan rüşvətçilikdən şikayət sədaları Quba əhalisi içindən də qulaqları çınlatmada idi. Rəvayətlərə baxılarsa, rüşvətçilik təbii işlər sırasına keçib adi bir "ticarət" şəklini almış imiş. Xüsusən əhalini qızdıran polis nəfəratından da ziyadə Ədliyyə məmurlarının rüşvətə həris olmaları imiş.

Mənhus Çar hökuməti-müstəbidəsi zamanında bu qədər fənalıqlara, bu qədər həyasızlıqlara irtikab olunmayırdı [bulaşılmırdı]. Şimdi sevimli hökumətimizin ancaq ayağa qalxmaq istədiyi günlərində, içəri və dışarı düşmənlərlə mühat olduğu [əhatə olunduğu] bir sırada bu namussuzluqlar nə deməkdir əcəba! Həman varlığımız əleyhinə nümayişlər yapan, vücudumuz binasını baltalamaq istəyən düşmənlər əlinə alət vermək demək deyilmidir?! – yollu haqlı sərzənişlər, təkdiramiz [məzəmmət edici] suallar verilir, ötəbəridə söylənilirdi... Bu şikayətləri eşitmiş olan Quba qaimməqamı [qəza rəisi] rüfətli [uca rütbəli] [Əmir xan] Xoyski əfəndi bir çox işlərdə göstərmiş olduqları yararlıqlar kimi, bu dəfə də bir əzmi-mətin ilə [möhkəm iradəylə] ortaya atılıb ən əvvəl rüşvətçilikdə açıqcasına müttəhim edilən müstəntiq Sovun istefasına müvəffəq olmuş və sonra da rüşvətlə mübarizə etmək üçün bir cəmiyyət təşkilinə təşəbbüs etmişlərdir.

Nisanın 23-də məscidi-came həvalisi [ətrafı] əvvəlcə ixbar [xəbərdarlıq] edilib toplanmış əhali ilə xınca-xınc dolu olduğu halda, Xoyski əfəndi başda olaraq ruhanilər və başqa hökumət məmurları təşrif gətirib əhaliyə xitabən söyləmiş olduqları nitqlərində qaimməqam əfəndi bərvəchi-ati [aşağıdakı kimi] idareyi-kəlam edirlər [nitq söyləmişdir]:

*"Camaat, onu bilməlisiniz ki, rüşvətçilik ən məzmum [məzəmmət edilən] və mənfur sifətlərdən olduğu kimi, böyük hökumətləri təməlindən sarsıb tarixlərdən silinmək dərəcəsinə gətirən dəxi həman rüşvətçiliyiin fəna nəticəsidir. İştə, baxınız bu gün gözlərimiz önündə əl-ayaq çarpan böyük Rusiya Hökuməti həman rüşvətçilik sayəsində böylə rəzalətli günlər keçirmədədir.*

*Rüşvət almaq vicdansızlığını irtikab edən bir hökumət məmuru fəna adam olduğu kimi, rüşvət verən adam da onun kimidir. Rüşvəti verən adam da həman alan ilə xəyanətdə şərikdir demək olar. Zira, rüşvət verilməsə, alınmaz. Əlbəttə ki, vicdanlı bir şəxs, millət və hökumətinə məhəbbət hissi bəsləyən bir müsəlman şu vicdansızlığı yapmaz; nə rüşvət alar, nə də verər. İşbu fənalığın alçaq təbəqələrdə kötü adamlar içində nəşvü-nüma bulduğu [yayıldığı, çiçəkləndiyi] bədihidir [aydındır]. Ona görə lazımdır ki, bu fənalıqla qüvvəmizlə mübarizə edəlim. Məlumdur ki, camaatın yardımı olmadan fəna hərəkətlərlə mübarizə pək müşkül olur. Binaənileyh [ona görə], sizə bu Allahın evinə (əli ilə məscidi göstərir) and verərək rica edirəm ki, təşkil etmək istədiyimiz işbu "Doğruluq Cəmiyyəti"nə yardımçı olasınız. Rüşvət vermədiyiniz kimi, vermiş olanları bildikdə, gizlətməyib bizə məlum edəsiniz. Müavinətiniz olarsa, tez zamanda həman rüşvətçilik bəlasını Quba qəzası daxilindən rəf edə [aradan qaldıra] biləcəyimizə sizə söz verirəm. Biz həman "Doğruluq Cəmiyyəti" mütəşəbbisləri [təşəbbüskarları] ki, ibarət olsun (əhaliyə təqdim edərək) mövqe komandanı Məhəmməd bəy Məhəmmədbəyov əfəndi, Bələdiyyə rəisi Əliabbas Əlibəyov əfəndi, Ədliyyə məhkəməsi müdiri Xalid bəy Qayıbov əfəndi, müstəntiq Mustafa və Yusif əfəndilərdən, bu gün bu Allahın evi cənbində [yanında] və sizin qarşınızda ələnən [açıq-aşkar] Qurani-məcidə [şanı uca Qurana] qəsəm yad edəcəyiz [and içəcəyik] ki, minbə'd [bundan sonra] nə rüşvət alaq və nə də rüşvətçilik bəlasına meydan verək."*

Sabiq Ədliyyə məhkəməsi müdiri Əbdülhəy Cəlilov bütün hökumət məmurlarına qəsəm verilməsini və bəxşiş adı ilə olsa da, verilən rüşvətlərə qarşılıq çarəsi düşünülməsini təklif edir.

[Əmir xan] Xoyski əfəndi hökumət məmurlarına "Doğruluq Cəmiyyəti" tərəfindən and veriləcəyini bildirir.

Əhalidən dəxi həman cəmiyyətdə birər nümayəndə olmasını arzu edən səslər eşidilir. Bu təklif dəxi qəbula keçir.

Mövqe komandanı Məhəmməd bəy [Məhəmmədbəyov] əfəndi qaimməqamın işbu təşəbbüslərini təbrik və təhniyətlə [qutlamaqla] Cənabi-haqdan tövfiq [kömək] və camaatdan müavinət arzusunda bulunur. Sonra cəmiyyət üzvləri rüşvət almayıb və rüşvətçiliklə mübarizə edəcəklərini qəsəmlə birər-birər Qurani-məcidi öpürlər. Xoyski əfəndiyə sıra yetişdikdə, barmağını qaldıraraq Quba qəzasına qaimməqam təyin edildikdən bəri nə bir para aldığını, nə alacağını və alanları şiddətli cəzaya düçar etmək üçün bütün vücudu ilə səy edəcəyini qəsəmlə kəlamullahı [Allah kəlamını] öpür və bə'd [sonra] Qurani-şərifi götürüb camaata xitabən:

– Hər kəs bu yolda bizə müavinət etməsə və rüşvət verib, verənləri bilib gizlətsə, bu Quran ona xəsm [düşmən] olsun, – deyir.

Camaat Xoyski əfəndini alqışlayaraq, bir ağızdan olan kimi hər dürlü müavinətdə bulunacaqlarına qəsəm yad edirlər.

Xoyski əfəndinin bu gözəl təşəbbüsünün Cümhuriyyətimizin başqa yerləri üçün də sərməşq [nümunə] olmasını arzu ediriz.

*Hüseyn Rza*

**Lənkərandan**

**Denikinçilərin həbsi**

Srağagün 25 rəcəbdə Muğan əsgər nəfəratından bir qitə [hərbi dəstə] şəhərə varid [daxil] oldu. Bunlar bəzən zirehli avtomobil ilə, bəzən də atlı və piyada şəhərin hər bir tərəfini dolaşırdılar. Bunların bu çıxışı qorxu içində yaşayan müsəlman ailələri arasında böyük bir həyəcan və iztiraba səbəb oldusa da, nəticədə iş başında olan rus zabitanı və qeyrəni tutub həbs edirlərdi. İşbu məhbuslar[ı] Denikin təbliğatçılığı ilə ittiham edirlər və bəzən də iki ay müddət təhti-rəyasətlərində [başçılıqları altında] olan əsgərləri məvacibsiz qoyub bütün aidatı [haqqı, gəliri] kəndi ciblərinə toplamaqla müqəssir edildiklərini söyləyirlər. Bunlardan güclü pul və intibahnamə [təbliğat vərəqələri] və Denikinin və qeyri irticai ünsürünün mabeynində [arasında] mərsulat [yazışma, məktublaşma] tutulduğu şayiəsi dövran etməkdədir.

Əsgərlərin məvacibsizlik üzündən bunlara əsir və dəstgir [əli-qolu bağlı] olan müsəlmanların malına və canına sui-qəsd olunduğu müşahidə edilməkdədir. Sübut üçün bir neçəsini ərz edəyim. Bir neçə gün bundan qabaq erməni əsgərləri bir İran təbəəsini 300 manatdan ötrü ağzından bir güllə vurub qətl etmişlər və bir neçəsi Şərifovun evinə girib para və müxəlləfat [ev əşyaları] oğurlamışlar. İşbu xırsızların [oğruların] "şaşka [qılınc] və şapkaları" qaldığından, erməni olduqları müşəxxəs olmuş [müəyyən edilmiş], hətta bunlaradan iki nəfəri həbs edilmişdir. Xülasə, burada müsəlmanlara çox azar və əziyyət edilir.

*Ağaməhəmmədli*

**Şamaxıdan**

Bizə yazırlar:

İlk əvvəl istiqlaliyyət uğrunda vətən, can və malların[ı] fəda edən şirvanlılar bu gün yenə öz varlıqlarını isbat edərək xarabazara dönmüş vətənləri olan Şamaxıya qayıtmaqdadırlar. Əhali keçən aprel ayının 18-ci günündə bir məclis tərtib edib, qaçqın vaxtında qeyri şəhərlərdə çəkdikləri narahatlıqlarını və töhmətlərini yad edərək "Ac da olsaq öz vətənimizdə yaşayacağız" deyə Şamaxını abad etmək niyyətində olub, ən əvvəl müvəqqəti bələdiyyə idarəsinin təşkilini qərara aldılar.

İdarəyə seçilən üzvlər:

Kərbəlayi Yusif, Ağalar bəy Hüseynbəyov, Ağalar bəy Fəttahbəyov, Abdulla bəy Əbdürrəhmanov, Kərbəlayi Möhsün, Əliqulu, Hacı Əli, Paşa Adil oğlu, Hacı Sədrəddin, Ələkbər Əkbərov, Ələkbər Məhəmmədzaid oğlu, Məhəmmədtağı, Kərbəlayi Cabbar, Hacı Ələsgər, Sultan Bədəlov və Məşhədi Rəsul cənabları qərəzi-şəxsiyyələrini [şəxsi məqsədlərini] unudaraq, var qüvvələri ilə səmimi-qəlbdən bu yolda işləyəcəklərini vəd edib, hərə 100-dən 50 manata qədər idarə mənfəətinə topladılar.

Əhali isə qeyri şəhərlərdə yaşayan cəmi vətəndaşalarından və həmçinin bu yolda işləyən cəmiyyətlərdən, ələlxüsus Bakıda olan "Yeni Şirvan"dan xahiş edirlər ki, onlar da bizim bu yolda işləyənlərimizə müavinətdə bulunub, viranə qalmış vətənin qalxmasına və nə yerdə bina olunması barəsində işləyib öz təsəvvürlərini bəyan etsinlər ki, fürsət əldə ikən hər kəs özünə bir dam tiksin, bəlkə gələcək qışda dübarə əhali narahatlıqdan qaçıb kənd və şəhərlərə dağılmasın.

*Ağaisa*

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi!

Qəzetənizdə həmin məktuba yer verməyinizi rica ediriz.

Çəmbərəkəndindəki müsəlman çocuqlarına məxsus yetimlər yurdunu remont [təmir] etmək üçün bir qədər taxta-şalman lazım idi. Ziyalılar İttifaqı remontu öhdəsinə alıb, Kərbəlayi Ələsgər Hacızadədən və Cabbarzadə cənablarından para ilə taxta almaq istədi. Bu cənablar taxtanın yetimlər yurdu üçün alınmasını anlayıb, 2 min rubləlikdən ziyadə parasız taxta, İttifaqa verdilər və İttifaq da lazım olan yerinə sərf etdi. Bu ali hərəkəti şayani-təqdir [təqdirəlayiq] bilib, Ziyalılar İttifaqı həmin zəvata [şəxslərə] səmimi təşəkkür izhar edir.

*Sədr: [Əli bəy] Seyidov*
*Katib: Camo bəy [Cəbrayılzadə]*

## İDARƏYƏ MƏKTUB

Balaxana kəndində döşəmə yol qayıtdırmaq üçün 1913-cü ildən bəri neft quyuçularından hər puta alınan yarım qəpik cəm olunub mənə və Hacı Babacana tapşırılmışdı. Bu pul ilə yol qayırıldı və mən bu yola etdiyim xərcin siyahı və hesabını sənəd üzərinə kənd pristavına təhvil vermişəm. Pristav da polismeysterə göndərib və bu hesabın təhqiqi və təftiş nəticəsində dürüst olmasından itminan [arxayınlıq] hasil olduğu üçün məzkur [deyilən] sənədlər kənd vəkili Atabala Səfərəli oğluna tapşırılıb. Mart hadisatı zamanı bəzi bolşeviklik edənlər məni bu pula xəyanət etməkdə müttəhim edirlər. Məzkur hadisədən sonra həman şəxslər bu sənədlərin kənd vəkilində olmasını bilib, ondan iyun ayının 6-sında almışlardır. İndi bu sənədlər mənə öz doğru olduğumu isbat etmək üçün lazımdır. O şəxslərin bu sənədləri kənd vəkilinə qaytarmasını təmənna [xahiş] edirəm.

*Nasir Əlikərimzadə*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

Doktor M. M. Kərimov göz naxoşlarını və diş həkimi A. Əmirov naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Diş həkimi Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M.S.İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Diş həkimi**
**S.M.Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Diş həkimi M.B.Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor M.B.Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Arvad diş həkimləri**
**Z.A.Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**İtibdir**

Əbdülhəmid Salamovun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

**İtibdir**

Ağaqulu Hüseynqulu oğlunun mayıs ayının 1-də bir cib dəftəri içində bir dənə "kupça krepost" [daşınmaz əmlakın mülkiyyət sənədi], 3 min manat pulun qəbzi və zayomnı bankın üzvlük kağızı və qeyri kağızlar itibdir. Tapan əşxasdan [şəxslərdən] acizanə rica edirəm bu adresə gətirib verməklə bərabər 2 yüz manat bəxşiş alsın.

Adres: Bolşoy Morskoy və Tarqovı küçələrin küncündə Ağaqulu Hüseynqulu oğlunun dükanı.

*8762*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Eyni müamilə gözləyirik***

"……………………………": Bir sətir nöqtələr qəzetdə var.

**Qəzetələrdən**

"Kirenaika": Şimali Afrikada tarixi vilayət.

"Sənusilər": 1837-1969-cu illər arasında Şərqi Sudan və Liviyada hökm sürən sülalə. Dini-siyasi cərəyan olan Sənusilik təriqətinə mənsub idilər.

***Şimali Qafqaziyada***

"Könüllü ordu səflərinə": qəzetdə "səflərinə" yerinə "siniflərinə" getmişdir.

"Düvəli-Mərkəziyyə": Mərkəzi Dövlətlər (yaxud Mərkəzi Hökumətlər); Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətləri (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan).

***Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat***

"Habeas korpus" [Habeas Corpus Act]: İngiltərə Parlamentinin 1679-cu ildə qəbul etdiyi və Böyük Britaniya Konstitusiyasının tərkib hissəsi olan insan hüquqları aktı.

"Maqna Xarta Libertatum"[Magna Carta Libertatum]: Böyük Azadlıqlar Xartiyası. İngiltərədə 1215-ci ildə tərtib edilən siyasi-hüquqi sənəd. İngiltərənin azad əhalisinin hüquqlarını qoruyan və kralın səlahiyyətlərini məhdudlaşdıran bu sənəd, insan hüquqları anlayışının inkişafında mühüm rol oynamışdır.

"…və azlıqda qalan millətlərin nümayəndələri…": "azlıqda" yerinə qəzetdə "azadlıqda" getmişdir.

"Məclisi-Məbusanda ümum firqələrin rəislərindən mütəşəkkil…": qəzetdəki mətndə bu abzasda cümlələr qarışmışdı, mümkün qədər düzəltdik.

"Senyoren Konvent": Qanunverici orqanda, siyasi partilərin liderlərindən ibarət Şura.

***Dağıstan günü***

"X.": bu imza Xəlil İbrahimə məxsusdur.

***Tiflis Yujnı park ingilis üsəra qərargahından***

"kanuni-sani 35": rumi təqvimlə göstərilmişdir; kanuni-sani 1335-ci il, miladi təqvimlə 1919-cu ilin yanvar ayına uyğundur.

***Bakı xəbərləri***

"Ziyalılar İttifaqında": bu mətndə, rəqəmlərlə göstərilən bəndlərdə bəzi yerlərdə qarışıqlıq var; hərflərlə göstərilən bəndlər isə qəzetdə ərəb əlifbasının hərf sırasına müvafiq olaraq əlif, be, te kimi verilmişdir.

***Azərbaycanda: Lənkərandan***

"25 rəcəb": hicri təqvimlə göstərilmişdir; 25 rəcəb 1337-ci il, miladi təqvimlə 26 aprel 1919-cu ilə uyğundur.

# Diktatorun rəzil sonu

**Suriyada radikal və sürətli hakimiyyət dəyişikliyi, Bəşər Əsədin xaricə qaçması bəzi ölkələrdə məyusluğa səbəb olub. Bunların arasında Ermənistan xüsusi yer tutur. Belə ki, ermənilər Suriyada Əsəd rejiminin devrilməsindən bərk narahatdırlar.**





Suriyadakı sürətli hakimiyyət dəyişikliyindən həm dövlət olaraq Ermənistan, həm də erməni icması uduzub. Caliber.az yazır ki, müharibə başlayanda Suriyada 100 minə yaxın erməni yaşayırdı və onların da əksəriyyəti Hələbdə, Dəməşqdə, Latakiyada və digər ərazilərdə cəmləşmişdir.

Tarixə ekskurs etsək, görərik ki, məhz Hələbdə doğulan Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın atası Akop Ter-Petrosyan Suriya və Livan Kommunist Partiyasının yaradıcılarından biri olub. Suriyada erməni terror partiyaları "Daşnaksütyun" və "Hnçakyan"ın yerli qurumları da fəaliyyət göstərir. Bu partiyaların üzvləri dəfələrlə türk diplomatlarına qarşı terror aktları törədiblər. Avropanın müxtəlif şəhərlərində terror aktları dalğasının başında da məhz onlar dayanıb. Bütün bunlara baxmayaraq, bu partiyalar Əsəd rejimində özlərini çox rahat hiss ediblər. Onların Suriya Xalq Şurasında (parlament) yer almaq üçün öz kvotaları olub.

Baş nazir Nikol Paşinyanın Ermənistan hərbçilərini Hələbə göndərməsini də xatırlaya bilərik. O, 2019-cu ildə, guya ki, əraziləri minalardan təmizləmək üçün Suriyaya 83 nəfərlik kontingent yola salmışdı. Əslində isə, hərbçilər Əsədə dəstək üçün göndərilmişdi və Suriya ordusunun əməliyyatlarında iştirak etmişdilər.

Devrilmiş Suriya diktatoru ilə yaxın münasibətdə olan tək Paşinyan deyildi. Ermənistanın üçüncü prezidenti Sarkisyanın da Əsədlə təkcə işgüzar əlaqələri yox, həm də dostluq, etimad münasibətləri olub.

Onu da xatırladaq ki, 2009-cu ildə Əsədin İrəvana səfəri zamanı bütün ermənilərin katolikosu II Qaregin ona erməni kilsəsinin ali mükafatı - Müqəddəs Georgi xaçını təqdim etmişdi. Eçmiədzindən verilən açıqlamaya görə, bu mükafat Suriya prezidentinə ermənilərə, Ermənistana dəstək və iki ölkə arasında əlaqələrin inkişafına görə verilib. Katolikos bəyan edib ki, erməni xalqı 1915-ci il hadisələri zamanı Suriyanın onlara göstərdiyi tarixi dəstəyi heç vaxt unutmayacaq.

Belə olan halda təəccüblü deyil ki, Əsədin Suriyası həmişə ermənipərəst mövqe tutub və Azərbaycana qarşı çıxıb...

Əsəd Azərbaycan və Türkiyəyə meydan oxuyaraq Kəşmir məsələsində Pakistanı deyil, Hindistanı dəstəkləyib. Suriya İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində Azərbaycanın maraqlarına qarşı çıxıb, Ermənistanla bağlı qətnamələrin qəbuluna mane olmağa çalışıb, qəbul edilən sənədlərə qoşulmayıb. 2008-ci il martın 14-də BMT Baş Assambleyasında Azərbaycanın təqdim etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" qətnamə üzrə səsvermə zamanı Dəməşq gizli taktika seçərək səsvermədən yayınıb, bununla da İrəvanın işğalçılıq siyasətini dəstəkləyib.

Bundan əlavə, Bəşər Əsəd 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana qarşı dezinformasiya kampaniyasında şəxsən iştirak edib. O, "Suriyadan olan silahlıların Azərbaycan tərəfində müharibədə iştirak etdiyini" iddia edib. Bu, primitiv yalan idi. Bəs Əsəd niyə yalan danışırdı? Çünki o, həmişə ermənipərəst olub. İş o yerə çatıb ki, o, ermənilərin primitiv anti-Azərbaycan yalanlarını təkrarlayıb.

Həqiqət budur ki, 2019-cu ildə yaradılmış və YPG terrorçusunun adını daşıyan "Nubar Ozanyan Briqadası" Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror tədbirlərindən sonra ermənilərə dəstək bəyanatı yayıb. Suriya və Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqəli olan bu qrup Azərbaycanı hədələyərək, ölkəmizə qarşı sərt və barışmaz davranacağını bəyan edib. Yeri gəlmişkən, Ozanyanın özü 2015-ci ilin iyulunda Suriyadakı "Beynəlxalq Azadlıq Batalyonu"nun (IFB) aparıcı kadrlarından biri olub. O, IFB-nin üzvü olan erməni, ərəb, fələstinli, yunan, kanadalı, belçikalı və fransız terrorçulara təlim keçib. 1991-1992-ci illərdə Ozanyan Qarabağda olub, Azərbaycana qarşı terror müharibəsində iştirak edib.

Butün bunlara isə ölkəsini talan edib xaricə qaçan Bəşər Əsəd himayədarlıq edib. Suriyadakı müharibə illərində rəsmi İrəvan və dünyadakı erməni lobbisi Əsəd rejiminə siyasi və hərbi dəstək verib. Amma bu, Əsədi xalqın qəzəbindən xilas edə bilməyib...

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Yeni dövlət standartı - "Yaşıl biznesin idarəedilməsi sistemləri"

## KOBİA-nın təşəbbüsü ilə təsdiqlənən bu standart dünyada ilk təcrübədir

**"Yaşıl iqtisadiyyat" həm təbiətin bir hissəsi, həm də ondan asılı olan təsərrüfatdır. İnsan rifahını və sosial ədaləti təmin edən "yaşıl iqtisadiyyat" eyni zamanda ətraf mühit risklərini kəskin azaltmaq qabiliyyətinə malikdir.**



Onun əsas komponentlərindən olan "yaşıl biznes" isə müəssisələri qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edir. İqlim dəyişmələri ilə mübarizə, ətraf mühitin qorunması, təbii resurslardan səmərəli istifadə fonunda "yaşıl biznes"in əhəmiyyəti ilbəil artır. Fəaliyyətində "yaşıl prinsip"ləri əsas götürən bu cür biznes ətraf mühitə dost olur, az tullantı yaradır, ekoloji təmiz məhsul və xidmətlər istehsal edir. O həm də yalnız gəlir əldə etməyi deyil, ətraf mühitin və cəmiyyətin rifahını ön planda tutmağı hədəfləyir.

Ətraf mühitə münasibətdə məsuliyyətli davranış vacib şərtdir. Bu, istehsal zamanı birbaşa təsirlərin aradan qaldırılması ilə məhdudlaşmır, ümumilikdə "yaşıl davranış"ların bütün biznes proseslərinə və idarəetmə sisteminə inteqrasiyasını zəruri edir. Məsələyə həmin prizmadan yanaşaraq deyə bilərik ki, "yaşıl planlama", "yaşıl idarəetmə" üzrə strategiya və siyasətin işlənib hazırlanması, onların tətbiq olunması da olduqca əhəmiyyətlidir. Ekoloji təmiz xammal və materialların seçilməsi, su, enerji və torpaq ehtiyatlarından səmərəli istifadə, tullantıların düzgün idarəedilməsi, "yaşıl maliyyə"ləşmə kimi amillər "yaşıl fəaliyyət"in təşkili üçün zəruridir. Və bütün bunlar hamısı "yaşıl biznes"in komponentləri olaraq idarəetmə sisteminin tətbiqini tələb edir. "Yaşıl biznes" idarəetmə sisteminin tətbiqi ilə yanaşı, mütəmadi olaraq onun monitorinqinin aparılmasına, qiymətləndirilməsinə və təkmilləşdirilməsinə də diqqət yetirilməlidir.

Bu məqsədlə cari ilin oktyabrında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə "Yaşıl biznesin idarəedilməsi sistemləri" dövlət standartı təsdiqlənib. Yeni standartın tətbiqi biznesin, o cümlədən KOB-ların "yaşıl biznes" modelinə keçidini asanlaşdırmaqla qlobal bazarda daha rəqabətqabiliyyətli olmasına imkan verəcək. KOB-ların ətraf mühitə təsirinin minimuma endirilməsini, resurslardan səmərəli istifadəni və ekoloji məsuliyyəti artırmağı nəzərdə tutan yeni standart, həmçinin ekoloji innovasiyaların stimullaşdırılmasına xidmət edəcək. Qeyd edək ki, bu standart beynəlxalq müstəvidə ilk belə təcrübələrdəndir.

Birmənalı olaraq "yaşıl enerji" və təmiz ətraf mühit biznesin inkişafı üçün əlverişli mənbədir. Ona görə də dövlət və özəl qurumlar alternativ enerji mənbələrinə, ekoloji təmiz texnologiyaların tətbiqinə, tullantıların təkrar emalına, ətraf mühitin sağlamlaşdırılmasına, su ehtiyatlarından səmərəli istifadəyə geniş yer verirlər. Həmin qurumlar KOBİA-nın dəstəyi ilə vaxtaşırı "yaşıl biznes"in perspektivlərini müzakirə edir, təklif və təşəbbüslər irəli sürür, təcrübələrini bölüşürlər. Xüsusən də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində belə toplantılar tez-tez keçirilirdi. Elə COP29-un "yaşıl zona"sında öz pavilyonu ilə təmsil olunan KOBİA iki həftə ərzində bir neçə tədbir keçirərək "yaşıl biznes"və "yaşıl iqtisadiyyat" mövzusunda panel müzakirələrlə yerli və xarici qonaqları ətrafına topladı. Müzakirələrdə KOB-ların "yaşıl biznes"də rolundan danışan rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri, iş adamları, "yaşıl biznes" və "yaşıl iqtisadiyyat"la bağlı layihələri olan startaplar biznesmenlərin Azərbaycan və dünya iqtisadiyyatında, eləcə də iqlim dəyişiklikləri ilə mübarizədə rolunu qeyd ediblər. İqlim maliyyələşdirilməsi, "yaşıl biznes"in KOB-lar üçün faydası barədə fikirlərini bölüşüblər.

Azərbaycanda "yaşıl biznes" hələ 2012-ci ildə qəbul edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının, həmçinin "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın əsas hədəflərindən biri idi. Bu gün də yeni dövrün tələblərinə uyğun olaraq həyata keçirilən uğurlu sənayeləşmə siyasəti özündə "yaşıl biznes"i ehtiva edir. Hazırda ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafında kompleksliliyin artırılması, dünya iqtisadiyyatına kifayət qədər dərin inteqrasiya olunması, enerji və resurslara qənaət edən ekoloji təmiz texnologiyaların istehsalının stimullaşdırılması, sənayenin ayrı-ayrı sahələrinin bir-biri ilə uzlaşmış şəkildə fəaliyyət göstərməsi diqqət mərkəzindədir. Məhz bu səbəblər, eləcə də sənaye sahəsində əldə edilən göstəricilər bir daha sübut edir ki, Azərbaycan regionun güclü sənaye mərkəzidir.

Xatırladaq ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən 5 milli prioritetdən biri də Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmasıdır. Ona görə də KOB-lar yüksəkkeyfiyyətli ekoloji mühitin yaradılması, təbii resurslardan səmərəli istifadə edilməsi çərçivəsində əməli fəaliyyət göstərən sahibkarın və startapların innovasiya, texnologiya və rəqəmsallaşma sahəsindəki layihələrinə maliyyə dəstəyini əsirgəmir.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar, iqlim dəyişmələri və artan tələbat bu gün "yaşıl bines"in inkişafını diktə edir. Çünki o, genişləndikcə, müasir tələblər səviyyəsində inkişaf etdikcə, həmin istiqamətdə həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Əsəd rejiminin çöküşü Ermənistana zərbə oldu

**Suriyanı qanlı vətəndaş müharibəsinə sürükləyərək bunun sayəsində hakimiyyətini saxlamağa çalışan Bəşər Əl-Əsəd ölkəni, sözün əsl mənasında, qara günə qoydu. Başdan-başa xarabalığa dönən Suriyanın on milyondan çox vətəndaşı qaçqın və məcburi köçkünə çevrildi, həbsxanalar diktat rejimə qarşı çıxan insanlarla dolub-daşdı, ölkənin qurtuluşu, milli birlik üçün mübarizə aparan minlərlə insan ilim-ilim itirildi, hətta onların taleyi barədə bu günə qədər də məlumat yoxdur, güllələndi, asıldı...**



Ancaq ölkəni parçala hökm et siyasəti ilə idarə edən Bəşər Əl Əsəd hakimiyyətinin sonu bəlli idi. Təbii ki, belə çox davam edə bilməzdi. İllərdir suriyalıları əsir-yesir vəziyyətinə salan Əsəd rejimindən ordu belə bezmişdi. Nəticədə ölkəni süngü ilə idarə edən Bəşər Əsəd devrildi. Acgöz diktator illərdir Suriyada xalqın sərvətlərini talayaraq yığdığı milyardlarla pulu, tonlarla qızılı da qoyaraq qaçmağa məcbur oldu.

### Paşinyanla Əsədi birləşdirən ortaq cəhətlər

Suriyada devrilmiş Bəşər Əsəd rejimi Ermənistanla sıx əlaqələrə malik idi. Çünki bu iki ölkəni idarə edən rəhbərləri, Paşinyanla Əsədi oxşar maraqlar və xarakterlər birləşdirirdi. Həmişə onların hər ikisini ölkələrinin, xalqlarının taleyi deyil, öz hakimiyyətləri maraqlandırıb. Təkcə bir misal çəkək: Ermənistanın dövlət olaraq çıxış yolunun yalnız Azərbaycanla sülh müqaviləsinin bağlanılmasından keçdiyini bildiyi halda Paşinyan Qərb ağalarının köməyi ilə silahlanaraq müharibəyə hazırlaşır. Yəni Bəşər Əsəd suriyalıları necə fəlakətə sürükləyirdisə, Paşinyan da erməniləri bu təhlükəli yola çıxarır.

Suriya və Ermənistan hakimiyyətləri arasında yaxın əlaqələri vaxtilə Paşinyanın Əsədə ünvanladığı təbriklərin timsalında da aydın görmək olur. Məsələn, 2023-cü ilin aprelində Ermənistanın baş naziri Suriyanın ovaxtkı prezidenti Bəşər Əsədi ölkənin milli bayramı münasibətilə təbrik edib. Təbrik məktubunda Ermənistanın Suriya üçün çətin bir zamanda respublikanın bərpası prosesinə yardım etməyə hazır olduğu bildirilib. Paşinyan həmçinin qeyd edib ki, "əsrlərin dərinliklərindən gələn və tarixi sınaqlarla möhkəmlənən Ermənistan-Suriya dostluğu iki ölkə arasında qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf etməsinin əsasını" təşkil edir.

Paşinyanı hər zaman Əsəd zülmü altında inləyən Suriya və suriyalıların taleyi deyil, qəddar rejimlə birgə həyata keçirdiyi cinayət əməlləri maraqlandırıb. Ermənistan hərbçilərinin Hələbdə xidmət göstərməsi də bu mərama qulluq edib. Minatəmizləmə kimi qələmə verilən bu xidmət, əslində, Əsəd rejiminə dəstək məqsədi daşıyıb, faktiki olaraq Ermənistan hərbi kontingenti Suriya ordusunun fəaliyyətinə dəstək verib. Suriyada fəaliyyət göstərən erməni terror təşkilatları Əsəd rejimi ilə sıx əlaqədə olublar. 2019-cu ildə yaradılan və Suriya xüsusi xidmət orqanları ilə yaxından əməkdaşlıq edən Nubar Ozanyan adına erməni batalyonu Əsədin qanlı əməllərini həyata keçirənlərdən olub. Bu həmin Nubar Ozanyandır ki, Birinci Qarabağ müharibəsində iştirak edərək azərbaycanlılara qarşı qətliamlar törədib.

Vaxtilə Azərbaycanın işğal altında olan torpaqlarında məhz Suriyadan olan ermənilərin gətirilib qeyri-qanuni məskunlaşdırılması da Suriya ilə Ermənistan arasında olan münasibətlərin istiliyinə görə idi...

Burada haşiyə çıxaq ki, nə sirrdirsə, Ermənistanın Əsəd rejiminə siyasi, hərbi və digər sahələrdə kömək göstərməsi bir dəfə də olsun "demokratik" Qərbin diqqətini cəlb etməyib. Hətta Ermənistanı Azərbaycana qarşı silahlandıran kollektiv Qərbin gözü o qədər kor olub ki, İrəvanın həmin silahları İran vasitəsilə Suriyaya ötürməsini və o silahlarla suriyalıları qətlə yetirməsini də görməyib. Amma dünyanın altını da, üstünü də hamıdan yaxşı bildiyini sanan və özlərini "insan haqlarının müdafiəçiləri" hesab edən Qərb təsisatlarının bu boyda həngamədən xəbərsiz olmaları da şübhə doğurur.

Göründüyü kimi, özünü qərbpərəst kimu göstərən Paşinyan hakimiyyəti yaxın Şərqdəki anti-Qərb mövqeli hakimiyyətlərlə sıx əməkdaşlıq edib və edir. Belə ki, hazırda İrəvan Rusiya ilə Qərb arasında da eyni riyakar mövqeni tutub.

### Vətəndaş qarşıdurmasına son qoyulması vacibdir

Hər zaman ermənipərəst mövqedən çıxış edən Bəşər Əsəd rejimi Azərbaycana qarşı olub. Suriya İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanın maraqlarına qarşı çıxış edib, Ermənistanla bağlı qətnamələri əngəlləməyə çalışıb, qəbul olunan sənədlərə qoşulmayıb. Bütün bu baş verənlərin fonunda da aydın görünür ki, Suriyada Əsəd rejiminin çökməsi Ermənistanın maraqlarına ciddi zərbə oldu.

Hazırda Suriyada milli birlik hökumətinin yaradılması istiqamətində mühüm proseslər gedir. Suriyanın ərazi bütövlüyünün saxlanması və digər vacib proseslərdə Türkiyənin mühüm rolu var. Əsəd rejiminin zülmündən baş götürüb qaçan suriyalıların ən çox üz tutduğu və sığınacaq aldığı Türkiyənin qarşıdan gələn dövrdə də Suriyada proseslərin dinc inkişafına mühüm töhfələr verə biləcəyi şübhəsizdir.

Azərbaycan Xarici İşlər Nazirliyinin Suriyada son vəziyyət barədə bəyanatında da bildirilir ki, ölkəmiz Suriyada baş verən prosesləri izləyir. Bu çərçivədə eyni zamanda qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir: "Suriyada Bəşər Əl-Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması və vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir".

Bəyanatda bildirilir ki, Azərbaycan Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir və Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə məsələlərin həllini tapacağına ümidvar olduğunu bildirir. Həmçinin vurğulanır ki, Azərbaycan Suriyada vəziyyət sabitləşəndən sonra Azərbaycanla Suriya arasında ikitərəfli münasibətlərin bərpa olunacağına, əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipi əsasında inkişaf edəcəyinə ümidvardır.

O da qeyd olunur ki, Azərbaycan qardaş Türkiyə və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına töhfə verməyə hazırdır.

Göründüyü kimi, hər zaman dünyada demokratiya, sülh, əmin-amanlıq tərəfdarı olan və atdığı addımlarla bu məsələləri təşviq edən, qlobal problemlərin aradan qaldırılması istiqamətində fəal iş görən Azərbaycan bu dar günündə Suriya xalqının da yanındadır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qış melanxoliyası

**Qış aylarının soyuq və boz ahəngi, gün işığının azlığı, havanın əksərən yağıntılı və tutqun keçməsi əhvali-ruhiyyəyə birbaşa təsir edir. Bu günlər yataqdan qalxmaq, evdən çıxmaq çətinləşir, insan özünü bütün günü yuxulu, yorğun, depressiv hiss edir.**



Soyuq havalarda kədər və melanxoliya əlamətləri qış depressiyasının simptomlarıdır. Ən pisi isə odur ki, bu psixi hal yalnız şəxsin özüylə bitmir, ətrafdakılara sirayət edərək, bir növ depressiya zənciri yaradır.

### Enerjisiz, yorğun, yuxulu

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov bildirib ki, qış fəslinin insanın psixoloji vəziyyətinə təsirinin səbəbi həm bioloji, həm də sosial faktorlarla bağlıdır: "Belə ki, qışda gün işığının azalması bədənimizdə müəyyən bioloji dəyişikliklərə, melatonin hormonunun daha çox ifraz olunmasına səbəb olur. Yuxunu tənzimləyən bu hormonun artması enerjisizlik və yuxululuq hissini gücləndirir. Eyni zamanda gün işığı serotoninin (buna çox zaman "xoşbəxtlik hormonu" da deyilir) ifrazına da təsir edir, onun azalması isə əhvalın pozulmasına və hətta depressiyaya səbəb olur. Günəş işığının azalması D vitamini çatışmazlığına da gətirib çıxarır ki, bu da öz növbəsində əhvali-ruhiyyəyə və ümumi psixi sağlamlığa mənfi təsir edir".

Qış depressiyasına sosial və psixoloji təsirlərin də səbəb olduğunu deyən Elnur Rüstəmovun sözlərinə görə, soyuq hava və qısa günlər açıq havada keçirilən vaxtı məhdudlaşdırır ki, bu da fiziki aktivliyin azalmasına və tənhalıq hissinin güclənməsinə səbəb olur. Sosial təcrid melanxoliya və ya qış depressiyasını artıran əsas amillərdir. Qış mövsümündə insanlar daha çox evdə qalmağa üstünlük verdikləri üçün sosial fəaliyyətlərdə aktivlik azalır. Bu da əhvalın sabitliyinə mənfi təsir göstərir. Bu mövsümdə gün işığının azalması ilə daim yorğun, enerjisiz, yuxulu olan insanlar melanxoliyaya meyilli olurlar.

"Qış depressiyası adi depressiya ilə oxşar simptomlara malik olsa da, bəzi spesifik xüsusiyyətləri də var. Gün ərzində özünü halsız hiss edən insanlar normadan daha çox yatsalar belə, yenə də özlərini yorğun hiss edirlər. Bu tip insanlar xüsusilə şirniyyat və karbohidrat tərkibli qidalara üstünlük verirlər. Artan iştaha və azalan fiziki aktivlik nəticəsində isə çəki artımı müşahidə olunur. Özlərini daim melanxolik və depressiv hiss edən insanların işə və ya gündəlik fəaliyyətlərə maraqları azalır. Tədricən düşüncə proseslərinin yavaşlaması və diqqət cəmləşdirməkdə çətinlik meydana çıxır, gələcəyə dair pessimist düşüncələr olur, həyəcan, təşviş hissi artır. Bu da əvvəl sevərək edilən fəaliyyətlərdən zövq almamağa gətirib çıxarır", - deyə psixoloq qeyd edib.

### Qadınların qış depressiyasına tutulma riski 2-3 dəfə daha çoxdur

Qış depressiyası (Mövsümi Emosional Pozuntu - SAD) hər kəsdə yarana bilsə də, bəzi insanlar digərlərindən daha çox risk qrupuna daxildirlər. Elnur Rüstəmovun sözlərinə görə, gün işığının daha az olduğu, xüsusən də şimal qütbündə yaşayan insanlar qış depressiyasına daha tez yaxalanırlar: "Skandinaviya ölkələrində və Rusiyanın şimal bölgələrində bu hal geniş müşahidə olunur. Serotonin və melatonin hormonlarının balanssızlığına genetik meyilliliyi olan şəxslər qış aylarında daha çox əziyyət çəkirlər. Hormonal dəyişikliklər və stresə qarşı həssaslıqla əlaqəli olaraq qadınların qış depressiyasına tutulma riski kişilərdən təxminən 2-3 dəfə daha çoxdur. Yeniyetmələr və gənclər (20-30 yaş aralığı) də qış depressiyasına daha meyilli olurlar. Bu, sosial və akademik streslərlə əlaqədar da ola bilər".

Psixoloq deyib ki, qış mövsümündə psixoloji sağlamlığı qorumaq, itirməmək və bərpa etmək üçün bir sıra üsullar həm bədənin bioloji ehtiyaclarını qarşılamağa, həm də psixoloji balansı qorumağa kömək edir: "Bu fəsildə psixoloji vəziyyəti yaxşılaşdırmaq üçün açıq havada hər gün 20-30 dəqiqə gəzmək vacibdir. Gün işığından maksimum faydalanmaq həm serotonin səviyyəsini artırır, həm də ümumi sağlamlığı dəstəkləyir. Yoqa və pilates kimi müntəzəm fiziki fəaliyyət emosional tarazlığı qoruyur. Qışda gün işığının azalması D vitamini çatışmazlığına səbəb olur. Ona görə də D vitamini əlavəsi, balıq, yumurta sarısı və qoz, banan kimi serotonin artırıcı qidalar qəbul etmək tövsiyə olunur. Şirniyyat yemək istəyi artsa da, sağlam karbohidratlar (tam taxıl, meyvə) seçmək məsləhət görülür".

Yuxu rejiminin önəmini vurğulayan mütəxəssis qeyd edib ki, hər gün eyni vaxtda yatmağa və oyanmağa çalışmaq lazımdır. Həddindən artıq yuxu və ya yuxusuzluq əhvali-ruhiyyəyə mənfi təsir göstərir. Telefon və ya elektron cihazlardan istifadə yatmazdan əvvəl məhdudlaşdırılmalıdır. Tənhalıq hissinin qarşısını almaq üçün sosial fəaliyyətlərdə aktiv iştirak etmək, dostlarla, ailə üzvləri ilə vaxt keçirmək lazımdır. Qışda ev şəraitində edilə biləcək maraqlı və yaradıcı məşğuliyyətlər beyində dopamin ifrazını artıraraq psixoloji sağlamlığa müsbət təsir edir. Qış fəslində psixoloji sağlamlığı qorumaq üçün həyat tərzində kiçik, lakin effektiv dəyişikliklər etmək kifayətdir. Gün işığından maksimum faydalanmaq, aktiv olmaq, sağlam qidalanmaq və sosial əlaqələri gücləndirmək qışın psixoloji təsirlərini minimuma endirmək üçün əsas vasitələrdir. Əlamətlər ciddi hala gəldiksə isə peşəkar psixoloq dəstəyi almaq tövsiyə olunur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan naminə
Heydər Əliyev siyasi kursu dövlətçiliyin əsas istinadgahıdır
İlham Əliyev Rəcəb Tayyib Ərdoğana zəng edib
İşğaldan azad olunmuş ərazilərin bərpasında dost ölkələrin dəstəyi çox mühüm əhəmiyyət daşıyır
Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunu qəbul edib
Parlament Prezident İlham Əliyevin inkişaf strategiyasına qanunvericilik fəaliyyəti ilə töhfə verir
Revanşist keşiş yenidən "dirçəlir"
Baqrat Qalstanyan Ermənistanda mümkün hakimiyyət dəyişikliyindən danışıb

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Hava əsasən yağmursuz olacaq, dağlıq ərazilərdə qar yağacaq

**Dekabrın 12-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mülayim cənub-qərb küləyi səhər arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 6-9° isti, gündüz 9-13° isti, atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 11-16° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 6-11° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-4° isti, dağlıq ərazilərdə 5°-dək şaxta, gündüz 7-12° isti olacaq.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər əsasən dağlıq ərazilərdə, axşamdan isə bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 11-16° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-6°, gündüz 8-13° isti, dağlarda gecə 0-4°, gündüz 5-10° isti olacağı proqnozlaşıdırılır.

# Paşinyan həbslərlə vaxt "öldürür"

## Ermənistan baş nazirdən narazıdır

**Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər cəhdlə uzatmağa çalışan Ermənistanın tənəzzülü bir qədər də sürətli xarakter almaqda, ölkənin üzləşdiyi çətinliklərin miqyası davamlı şəkildə genişlənməkdədir. Bütün bunlar isə iqtidarın əhali arasında nüfuzunun daha da aşağı düşməsi ilə müşayiət olunmaqdadır.**

Araşdırmalar göstərir ki, Ermənistanda iqtisadiyyatın ifrat mərkəzləşdirilməsi, bütün resursların hakimiyyətdəki ailə ilə oliqarxların əlində cəmləşməsi, vergilərin qarətə çevrilməsi nəticəsində ağır bir situasiya formalaşıb.

Sabiq nazirlərə qarşı Paşinyan iqtidarının apardığı həbslər isə əhalinin gözünə kül üfürməkdən başqa bir şey deyil. Bu günlərdə Ermənistanın keçmiş fövqəladə hallar naziri Andranik Piloyan 4,5 il müddətinə həbs cəzasına məhkum edilib. Müvafiq qərarı Antikorrupsiya Məhkəməsi çıxarıb.

O, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə, xüsusilə külli miqdarda rüşvət almaqda, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməklə xüsusilə külli miqdarda dələduzluqda təqsirli bilinib. İstintaqın versiyasına görə, A.Piloyan köməkçisi vasitəsilə Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlıq edən şirkətdən külli miqdarda rüşvət alıb. Köməkçinin kabinetində axtarış zamanı silah-sursat da aşkar edilib.

A.Piloyan 2022-ci il martın 31-də həbs edilib. Bu, ölkə tarixində nazirin vəzifədə olarkən həbs edildiyi ilk haldır. O, 2022-ci ilin oktyabrında 36,5 min dollar məbləğində girov müqabilində istintaq təcridxanasından azad edilib.

Bütün bunların fonunda isə sadə vətəndaşlar xaricə qaçmağa üstünlük verirlər. Aparılan sorğulardan məlum olub ki, əhalinin 87 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 28 faizi ölkəni tərk etmək istədiyini bildirib.

İngiltərənin bu ölkədəki konsulluğundan bildirilib ki, Ermənistanı tərk etmək istəyən insanların sayı dəfələrlə artıb. Konsulluğa cari ildə Ermənistanı birdəfəlik tərk edib İngiltərədə yaşamaq istəyən 120 mindən çox vətəndaş müraciət edib.

Bu arada "4rd.am" saytı Paşinyan iqtidarının iqtisadi siyasətinin əsl adının "vergi terroru" və ya əhalinin bütün təbəqələrinə, o cümlədən kiçik və orta biznes nümayəndələrinə, büdcədən maliyyələşən işçilərə, kəndlilərə qarşı "qəddarlıq və aqressiya" olduğunu yazıb. Bildirilir ki, indiki ağır şəraitdə ölkə hakimiyyəti əhaliyə kömək göstərmək, onu müdafiə etmək əvəzinə, daha çox xalqın hesabına varlanmaq barədə düşünür: "İqtidarın iqtisadi aqressiyasından müdafiə olunan yeganə təbəqə oliqarxiyadır. Oliqarxlar sadə vətəndaşlardan fərqli olaraq heç nə itirməyiblər, əksinə, öz kapitallarını daha da çoxaldıblar, inhisarçı mövqelərini genişləndiriblər. Digər tərəfdən bu, əhalinin məmurlar tərəfindən, sözün əsl mənasında, qarət edilməsinin daha bir sübutu olmaqla bərabər, Ermənistanda iqtisadi fəlakətin geniş vüsət alması, iqtisadiyyatın birdəfəlik çöküşü deməkdir".

Belə bir məqamda hökumətə qarşı İrəvanda tədricən yüksəlməyə başlayan etirazların ölkədə növbəti xaos yaradacağı ehtimalını daha da artırıb. Hakimiyyət özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin gülləsi hesabına dağıtmağa üstünlük verir. Kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır, həbs edilir, deputatlara qarşı hücumlar təşkil olunur.

Bu problemlər onu deməyə əsas verir ki, Ermənistan cəmiyyəti təhlükəli vəziyyətlə üz-üzədir. Yaranmış durum göstərir ki, siyasi böhran tezliklə ölkədə qarşıdurmanı ən yüksək həddə çatdıracaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**Nihad Səxavət oğlu Gözəlovun adına verilmiş 03.07.2024-cü il tarixli, 012821 nömrəli Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən Cavanşir Yusifov "Bakı Baş Səhiyyə Mərkəzi" PHŞ-nin direktoru Elçin Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail rayonu 1 nömrəli şəhər poliklinikasının baş həkimi Təranə Nurəlibəyova və poliklinikanın kollektivi "Bakı Baş Səhiyyə Mərkəzi" Publik Hüquqi Şəxsin direktoru Elçin Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4233
Sifariş 2846

Qiyməti 60 qəpik